# NUR TƏFSİRİ

## ÜÇÜNCÜ CİLD

MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ
TƏRCÜMƏ EDƏN: HACI ARZU

بسم الله الرحمن الرحیم

نام کتاب:..................................................تفسیر نور (جلد-3)
مولف:............................................................محسن قرائتی
مترجم:..............................................................حاج آرزو
ناشر:. ..................................................................فائز.
تاریخ چاپ:..............................................................1385
نوبت چاپ:..............................................................اول
تیراژ:...................................................................2000

**Kitabın adı:.......................................Nur təfsiri (üçüncü cild)**
**Müəllif:................................................................Möhsün Qəraəti**
**Tərcümə edən:..........................................................................H. Arzu**
**Nəşr edən:........................................................................Faiz**
**Çap tarixi:........................................................................2006**
**Çap növbəsi:..........................................................................Birinci**
**Tiraj:.............................................................................2000**

Əziz və diqqətli oxucu! Quran təfsiri tərcüməsinin nə dərəcədə əhəmiyyətli və incə iş olduğunu anlasaq da, nöqsanlardan qaça bilmədik. “Həyy” və “qəyyum” kimi yüzlərcə mirvari təbirini bəsit şəkildə tərcümə etmək zorunda qaldıq. Gələcəkdə bu ilahi işdə yardımçı olacağınızı düşünürük. Bizə ünvanlayacağınız qeydlər növbəti nəşrlərdə nəzərə alınacaq.

*Dua istəyi ilə tərcüməçi.*

**RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ**
**Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!**

## *Ön söz*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

## *Həmkarlar*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

## *İmtiyazlar*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmili üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

Möhsün Qəraəti

## *Ayətullah hacı Seyyid Mehdi Ruhanidən bir neçə xoş söz*

Rəhman və Rəhim Allahın adı ilə

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda “Biz Quranı öyüd üçün asan etdik” buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: “Onlara xatırladılanların bir hissəsini unutdular...”[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: “Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər.”[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir “bəyani” bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini şəxsi, çox vaxt isə yanlış əqidəsinin sübutu üçün əsas gətirir.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;

---

[1] “Maidə” 13.

[2] “Sad” 29.

5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında “Səqəleyn”dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Uyğun təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Uyğun şərhlərdə müəllifin “bildirişlər” adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) “Səhifeye-səccadiyyə” kitabında Quranın xətm duasında buyurur: “Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil.”

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

09 Rəbius-sani, 1414
Mehdi Hüseyni Ruhani

## *Müəllifdən*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə "Nur təfsirini" diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və "Təfsiri-rahnüma", "Nüxbətut-təfsir" kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

Möhsün Qəraəti

# “MAİDƏ” SURƏSİ

## (5-ci surə, 120 ayə)

### *Altı, yeddinci cüzlər*

### *“Maidə” surəsinin siması*

120 ayədən ibarət olan bu surə həzrət Peyğəmbərin (s) vəfatından bir neçə ay əvvəl nazil olmuşdur. Surənin heç bir ayəsi nəsx edilməmişdir.

Surə həzrət İsanın səmavi süfrə (“Maidə”) nazil olması ilə bağlı duasına görə (114-cü ayə) “Maidə” adlandırılmışdır. Surə “əhd və əqdlər” kimi də yad edilir. Bu surənin ayələri məcmusunda çox mühüm bir xəyanət (əhdin pozulması) haqqında xəbərdarlıq edilir.

“Ya əyyuhəlləzinə amənu” (Ey iman gətirənlər”) xitabı ən çox bu surədə işlədilmişdir. Əgər “Bəqərə” surəsində bu xitabla on bir dəfə rastlaşırıqsa, bu surədə eyni ifadə ilə on altı dəfə xitab olunur.

Bu surədə vilayət və rəhbərlik, üç üqnum əqidəsinin rəddi, əhdə vəfa, ədalətə şahidlik, qətlin qadağası, qidaların hökmləri, dəstəmaz, qüsl və təyəmmümün hökmləri, ictimai ədalətin sifarişi, vəsiyyət hökmləri, qisas, oğurluq və zinanın hökmləri kimi məsələlər nəzərdən keçirilmişdir.

Surə sonuncu nazil olmuş surələrdən olduğu üçün onun əvvəlində “əvf ubil-uqud” cümləsi ilə əhdlərin yerinə yetirilməsi tapşırılır.

**بسم الله الرحمن الرحيم**

**1.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَوْفُواْ بِالْعُقُودِ أُحِلَّتْ لَكُم بَهِيمَةُ الأَنْعَامِ إِلاَّ مَا يُتْلَى عَلَيْكُمْ غَيْرَ مُحِلِّي الصَّيْدِ وَأَنتُمْ حُرُمٌ إِنَّ اللّهَ يَحْكُمُ مَا يُرِيدُ﴾

**“Ey iman gətirənlər! (Allah və xalqla olan) əhdlərə vəfa edin. (Qadağan hökmü) sizə oxunacaq şeylər istisna olmaqla dördayaqlılar (onların ətini yemək) sizin üçün halal edilmişdir. Ehram (həcc qiyafəsi) halında ovu halal saymayın. Həqiqətən, Allah istədiyini (məsləhət bildiyini) hökm edər.”**

### *Nöqtələr*

◘Ayədə “bəhimə” sözü dördayaqlılar və mal-qara mənasını bildirir. İnək, dəvə və qoyun “ənam” adlandırılmışdır. Quranda üç dəfə işlədilmiş “bəhimətul-ənam” ifadəsi bu dördayaqlıların ətinin halal olduğunu bildirir.[1] İmam Sadiq (ə) buyurmuşdur: “Bəhimətul-ənam” dedikdə anasının paklığı onun üçün də paklıq sayılan, kəsilmiş heyvan bətnindəki bala (“cənin”) başa düşülür.”[2] Mərhum Feyz “Safi” təfsirində buyurur: “Bəlkə də bu rəvayət ayədə gizli qalmış şeyin nümunəsini bəyan edir. Ya da ananın qarnı baxımından onlar “bəhimət” adlandırıla bilər. Buna görə də bu ifadələrin nümunə olmasında ziddiyyət yoxdur.[3]

[1] “Təfsire-məcməül-bəyan”.
[2] “Kafi”, c. 6, s. 236.
[3] “Qamusul-Quran”.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Vəfası olmayanın dini yoxdur.”[1] Bəli, əgər əhdlərə əməl olunmasa, cəmiyyətin sütunları laxlayar, ümumi etimad aradan götürülər və hərc-mərclik baş alar.

◘Quran hətta müşriklərlə bağlanmış peymana vəfalı olmağı lazım bilir.[2] İmam Sadiqdən (ə) nəql olunmuş bir hədisə əsasən, hətta günahkarlarla bağlanmış peymana vəfa lazımdır.[3]

Digər bir rəvayətə əsasən, əgər bir müsəlman kafir düşmənə işarə ilə aman verərsə, digər müsəlmanlar da işarə ilə həyata keçmiş bu peymana əməl etməlidirlər.[4]

◘Səmavi kitablar Allahın əhdləridir. Onlara vəfalı olmaq lazımdır. Əhde-qədim (Tövrat), əhde-cədid (İncil) və əhde-axir (Quran) bu qəbildəndir. Hədisdə Quranın ilahi əhd olduğu bildirilir.[5]

## *Bildirişlər*

1. Müsəlmanlar bütün peymanlara, əhdlərə sadiq olmalıdırlar. Əhdin şifahi, yazılı, əməli olmasının fərqi yoxdur. Bu əhdlər siyasi, iqtisadi, ictimai və ya ailə ilə bağlı ola bilər. Əhd güclü də ola bilər, zəif də. Dost və düşmənlə, Allah və xalqla, fərd və cəmiyyətlə, kiçik və ya böyüklə, məntəqə ölkələri və ya uzaq məmləkətlərlə bağlanmış peymanlar mötəbərdir. Ayədəki “əl-üqud”, yəni əqdlər sözü “əlif-lam” artikli ilə başladığından bütün peymanları və əhdləri əhatə edir.
2. Əhd və peymana vəfanın zəmanətçisi imandır.
3. Əhdə vəfasızlıq və zülm ilahi nemətlərdən və lütflərdən məhrumluq rəmzi olduğu kimi,[6] əhdə sədaqət həmin lütf və nemətlərdən bəhrələnmə amilidir. (Bəli, vədəyə vəfalı olmaq xoş gün rəmzidir. Məsəl var ki, diqqətli və vəfalı insan xalqın malına şərikdir.)
4. Bir halda ki, Allah bizim ixtiyarımızda növbənöv nemətlər qoymuşdur, Onun peymanlarına vəfalı olaq.
5. İlahi peymanlardan biri qidaların halal-haramlıq hökmlərinə diqqətdir.
6. İslamda həm ictimai, həm də iqtisadi məsələlərə diqqət yetirilir. (Əhdə vəfa ictimai, heyvanlardan faydalanma iqtisadi məsələlərdəndir.)
7. Ölmüş və ya boğulmuş dəvə, inək və qoyun ətinin istifadəsi haramdır.
8. Dördayaqlılar arasında halal olmayanları da vardır. (Çünki uyğun cümlə müəyyən növ dördayaqlılara aiddir.)
9. Ehram halının ehtiramının hifzi üçün bəzi məhrumiyyətləri də dadmaq lazımdır. Ehramda olan insan ovdan çəkinməlidir.
10. Ehram vəziyyətində qadağalara əməl Allahla əhd və peymana vəfa hallarındandır.
11. Ehram (həcc halı) Allahla əhd-peymandır.
12. Ehram xüsusi və möhtərəm bir haldır.

---

[1] “Bihar”, c. 16, s. 144.
[2] “Tövbə”, 4.
[3] “Kafi”, c. 2, s. 162.
[4] “Mustədrək”, c. 2, s. 250.
[5] “Kafi”, c. 6, s. 198.
[6] “Nisa”, 160; “Ənam”, 146.

2. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُحِلُّواْ شَعَآئِرَ اللّهِ وَلاَ الشَّهْرَ الْحَرَامَ وَلاَ الْهَدْيَ وَلاَ الْقَلآئِدَ وَلا آمِّينَ
الْبَيْتَ الْحَرَامَ يَبْتَغُونَ فَضْلاً مِّن رَّبِّهِمْ وَرِضْوَانًا وَإِذَا حَلَلْتُمْ فَاصْطَادُواْ وَلاَ يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ أَن
صَدُّوكُمْ عَنِ الْمَسْجِدِ الْحَرَامِ أَن تَعْتَدُواْ وَتَعَاوَنُواْ عَلَى الْبرِّ وَالتَّقْوَى وَلاَ تَعَاوَنُواْ عَلَى الإِثْمِ
وَالْعُدْوَانِ وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ﴾

**“Ey iman gətirənlər! İlahi mərasimlərin, haram ayın, həcc qurbanlığı və həcc üçün nişanlanmış heyvanların, Allahdan fəzl və razılıq diləyən Allah evi yolçularının hörmətini sındırmayın. Ehram halından çıxdığınız vaxt (və ümrə əməllərini sona çatdırdıqda) ov edə bilərsiniz. Sizi Məscidül-həramdan çıxarmış dəstə ilə düşmənçilik sizi ədalətsizliyə və təcavüzə vadar etməsin. Yaxşı işlərin icrasında və çirkinliklərdən uzaqlıqda bir-birinizə yardım göstərin. Heç vaxt günah və sitəmdə bir-birinizə kömək etməyin və Allahdan çəkinin. Həqiqətən, Allahın cəzası ağırdır.”**

## *Nöqtələr*

◘Həcdə qurbanlıq üçün hədiyyə olunan əlamətsiz heyvan “hədy” adlanır. “Qəlaid” isə həcc mərasimindən öncə boynundan bir şey asılmaqla və ya damğalanmaqla həcc qurbanlığı nişanı vurulan heyvanlardır.

◘Allah-təala bu ayənin əvvəlində bütün mərasimlərə hörməti vacib və onlara ehtiramsızlığı haram buyurmuşdur. Amma mərasimlər arasında bir neçə hal xüsusi qeyd edilmişdir. O cümlədən: rəcəb, zil-qədə, zil-hiccə, məhərrəm ayları. Bu aylarda döyüş haram buyurulmuşdur. Zih-hiccə ayında həcc əməlləri yerinə yetirilir. “Hədy” nişansız, “qəlaid” isə nişanlı qurbanlıqdır.

◘Hicri altıncı ildə müsəlmanlar Mədinədən Məkkəyədək həcc məqsədi ilə səksən fərsəx yol adladılar. Amma kafirlər bu işə mane oldular. Hüdəybiyyə sülhü önə gəldi. Məkkə ki, fəth olunmuşdu, təcavüzə yol verilməməli idi.

◘Elm təhsili “birr”, yəni yaxşı işdirsə, mədrəsə, kitab, kitabxana, laboratoriya, nəqliyyat və ustad təminatı da bu işə yardımlardandır.

## *Yaxşılıq və paklıqda yoldaşlıq və yardım*

◘“Bəqərə” surəsinin 177-ci ayəsində “birr”in bəzi nümunələri bəyan olunmuşdur: Allaha və qiyamət gününə, mələklərə və səmavi kitablara, peyğəmbərlərə və övliyalara iman, cəmiyyətdəki məhrumlara kömək, peymanlara sədaqət, işlərdə səbir.

◘Çoxsaylı rəvayətlərdə yaxşılığa yardım, məzlumlara və məhrumlara kömək sifariş olunmuşdur. Bununla yanaşı, zalımlara kömək qadağan edilmişdir. Burada təbərrük olaraq bir neçə hədis zikr edirik:

“İmam Sadiq (ə) buyurmuşdur: “Başqalarına yardım üçün addım atan şəxsin mücahid və döyüşçü savabı var.”[1] “İnsan xalqa yardım göstərmək fikrində olana

[1] “Vəsail”, c. 8, s. 602.

qədər Allah ona yardım edir."[1] "Müsəlmanın yardım göstərməsi bir ay müstəhəb oruc və etikafdan üstündür."[2] "Zalıma yardım göstərən şəxs özü də zalımdır."[3] "Zalıma hətta məscid tikməkdə belə kömək etməyin."[4]

## *Bildirişlər*

1. Allahın möminlərdən xüsusi bir intizarı var.
2. İlahi mərasimlərə və nişanələrə ehtiram iman əhlinin vəzifəsidir.
3. İlahi mərasimlərə və nişanələrə qarşı hörmətsizlik haramdır.
4. Zamanın ayrı-ayrı dönəmləri fərqlidir. Bəzi günlərin "əyyamullah" (Allah günləri) və bəzi ayların haram aylar kimi xüsusi hörməti var.
5. İlahi məqsəd yolunda ayrılmış heyvana da hörmət lazımdır.
6. Allah evinin yolçularına ehtiram göstərilməlidir. (Allah evi ziyarətçilərinin ehtiram və əmin-amanlığını pozan istənilən bir proqram haramdır. İstər həcc səfəri olsun, istərsə də ümrə.)
7. Həcdə əsil məqsəd Kəbənin ziyarətidir.
8. Həcc və ümrə dünya və axirəti qazanmaq üçün bir yoldur.
9. Halal fayda ardınca getmək bir dəyərdir. Quran Allah fəzlini ilahi razılıq və yaxınlıqla yanaşı tutmuşdur.
10. İslam ölkələri üçün Məkkədə iqtisadi fəaliyyət və tacarət azaddır.
11. Maddi faydalar Allahın insana fəzli və ilahi rübubiyyət şənindəndir.
12. Müəyyən dövrdə başqalarının düşmənçiliyi bizə başqa bir dövrdə zülm və təcavüzə əsas vermir.
13. Ədalətsizlik və həddi aşmaq haramdır. Düşmənlərlə münasibətdə də bu prinsip gözlənilir. (İntiqam alarkən də ədaləti gözləyin.)
14. Dini hisslər zülm üçün bəhanə ola bilməz.
15. Əhdlərə vəfa, ilahi mərasimlərin hörmət və müqəddəsliyinin qorunması yardıma ehtiyaclıdır.
16. Başqalarının xatalarına göz yummaq yaxşılığa yardım yollarından biridir.
17. İslam hökuməti və islami cəmiyyət beynəlxalq səhnədə məzlumları və yaxşı işləri himayə, zülm və pislikləri məhkum etməlidir.
18. Fəzilətlərin hərtərəfli inkişafı üçün şərait hazırlanmalı və həmin məqsədə çatmaq yolunda yardım göstərilməlidir.
19. Qəbilə, məntəqə, irq və dil yox, həqiqət himayə olunmalı "birr"ə yardım edilməlidir.
20. İslam cəmiyyətində xeyirxah fərd tənha deyil və zalımın yardımçısı yoxdur.
21. İlahi nişanələrin müqəddəsliyini sındırıb, pisliyə kömək göstərən kəslər ilahi cəzaya hazırlaşmalıdırlar.

[1] "Vəsail", c. 8, s.586.
[2] "Vəsail", c. 11, s. 345.
[3] "Vəsail", c. 11, s. 345.
[4] "Vəsail", c. 12, s. 130.

3. ﴿حُرِّمَتْ عَلَيْكُمُ الْمَيْتَةُ وَالْدَّمُ وَلَحْمُ الْخِنْزِيرِ وَمَا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ وَالْمُنْخَنِقَةُ وَالْمَوْقُوذَةُ
وَالْمُتَرَدِّيَةُ وَالنَّطِيحَةُ وَمَا أَكَلَ السَّبُعُ إِلاَّ مَا ذَكَّيْتُمْ وَمَا ذُبِحَ عَلَى النُّصُبِ وَأَن تَسْتَقْسِمُواْ بِالأَزْلاَمِ
ذَلِكُمْ فِسْقٌ الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُواْ مِن دِينِكُمْ فَلاَ تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ
وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا فَمَنِ اضْطُرَّ فِي مَخْمَصَةٍ غَيْرَ مُتَجَانِفٍ لِّإِثْمٍ فَإِنَّ
اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Ölü heyvan, qan, donuz, Allahdan qeyrisinin adına kəsilmiş heyvan, boğulma, döyülmə, yıxılma, buynuzla vurulma səbəbindən ölmüş heyvan, yırtıcıların parçaladığı heyvan (ətini yemək) sizə haram edilmişdir. (Yırtıcı tərəfindən öldürülməmiş) şəri qaydada kəsilənlər istisnadır. Eləcə də, bütlər üçün kəsilmiş və ya qumar oxları vasitəsi ilə bölünmüş heyvanlar haramdır. Bütün bunlar Allaha itaətsizlikdir. Bu gün (hicri onuncu il, zil-hiccə ayının on səkkizinci günü Həzrət Əli (ə) Allahın əmri ilə Peyğəmbərə (s) canişin seçildi) kafirlər sizin dininizdən (onun məhv olmasından) məyus oldular. Onlardan yox, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamil etdim və Öz nemətimi sizin üçün tamamladım.**

**İslamı sizin üçün din olaraq seçdim. Hər kəs aclıqdan əziyyət çəksə, günaha meyl etmədən (haram olmuş qidalardan bəhrələnə bilər), həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə bəyan olundu ki, dördayaqlıların ətindən faydalanmaq halaldır. Yalnız bəzi hallar istisna olundu. Bu ayədə haram ətlərdən on növü haqqında danışılır.

◘“Münxəniqə” boğulmuş heyvana deyilir. Heyvanın öz-özünə, insan və ya heyvan tərəfindən boğulmasının fərqi yoxdur. “Məvquzə” zərbə və kötəklənmə ilə öldürülən heyvana deyilir. Bütpərəst ərəblər bütlərə hörmət əlaməti olaraq bəzi heyvanları ölənədək döyürdülər. Onlar bu işi bir növ ibadət sayırdılar.[1] Mutərəddiyə” hündürlükdən yıxılmış heyvana, “nətihə” buynuzlanıb öldürülmüş heyvana deyilir.

◘Bu ayədə adı çəkilənlərin haram edilməsi “Ənam”, “Nəhl”, “Bəqərə”, surələrində zikr olunmuşdur. Bu ayədə isə ölü heyvan nümunələri (boğulmuş, döyülmüş, buynuzlanmış) bəyan olunmuşdur.

◘İmam Baqir (ə) buyurmuşdur: “Vilayət son ilahi vacibdir.” Sonra imam uyğun ayəni oxumuşdur.[2]

◘Bütlər formaya malik heykəllər idi. “Nusub” isə Kəbə ətrafında düzülmüş formasız daşlara deyilirdi. Onların qarşısında qurban kəsilir və qurbanlığın qanı onların üzərinə yaxılırdı.

---

[1] “Təfsire-Qurtubi”.
[2] “Kafi”, c. 1, s. 289.

## *Quranda "Qədir-Xum"*

◘Bu ayədə iki fərqli mövzu bəyan olunmuşdur. Bu mövzulardan biri haram ətlərin qadağasına aiddir. Yalnız istisna hallarda bu ətlərdən faydalanmaq caiz sayılır. Digər mövzu dinin kamilləşməsi və kafirlərin dinin puça çıxmasından məyus olması haqqındadır. Bir neçə dəlil sadalayaq:

a) Kafirlərin dindən məyus olmasının haram ətlərin yeyilib-yeyilməməsi ilə heç bir əlaqəsi yoxdur.

b) Bu ayənin nüzul şəni haqqında şiə və sünnilər tərəfindən nəql olunmuş bir rəvayətdə kafirlərin məyus olması və dinin kamilləşməsi məsələlərindən danışılarkən əvvəlki və sonrakı məsələlərə toxunulmamışdır.

v) Şiə və sünni rəvayətlərinə əsasən, ayənin "bu gün dininizi kamil etdik" hissəsi Qədir-Xumda Əli ibn Əbi-Talib (ə) imamət məqamına təyin olunduqdan sonra nazil olmuşdur.

q) Uyğun məsələni nəqli dəlillərdən əlavə, əqli təhlillər də təsdiqləyir. Çünki haqqında danışılan günün dörd xüsusiyyəti bəyan olunmuşdur: Kafirlərin məyus olma günü, dinin kamilləşmə günü, ilahi nemətlərin xalqa tamamlanması günü, İslamın bir din olaraq Allah tərəfindən bəyənilməsi günü. Əgər İslamın tarixi günlərini araşdırsaq, görərik ki, uyğun gün haqqında sadalanan dörd səciyyə - besət, hicrət, Məkkənin fəthi, döyüşlərdə qələbə günləri haqqında danışılarkən qeyd olunmamışdır. Hətta son həcc günü də uyğun gün kimi əhəmiyyətli sayılmamışdır. Çünki həcc bütöv din yox, dinin bir hissəsidir.

–Besət günü həzrət Peyğəmbərin (s) risalətinin başlanğıc günüdür. İlk besət günündə dinin kamil olmasından danışmağa dəyməz.

–Hicrət günü Peyğəmbərin (s) Allah əmri ilə Məkkədən hicrət etdiyi gündür. Həmin gün kafirlər peyğəmbərin evinə hücum etdilər. Belə bir gündə onların məyus olduğu ehtimal edilə bilməz.

–Bədr, Xəndək və bu kimi başqa döyüşlərdə bir dəstə kafir məyus olsa da, bu məyusluğu bütün kafirlərə aid etmək olmaz. Bu ayədə isə bütün kafirlərin məyus olduğu bildirilir.

–Vida həcci günü xalq həzrət Peyğəmbərdən (s) bütün dinin yox, həccin qaydalarını öyrəndilər. Quran isə məhz haqqında danışdığımız ayədə dinin kamil olmasını bildirir.

–Qədir-Xum günü Allah-təala Həzrət Əlini (ə) Peyğəmbərə (s) canişin təyin etdi. Uyğun dörd xüsusiyyət yalnız bu gün haqqında sadalanmışdır.

–Kafirlərin məyusluq səbəbi onların Peyğəmbəri (s) qətlə yetirmək planlarının baş tutmaması ilə bağlı idi. Onların yeganə ümidi Peyğəmbərin (s) ölümü idi. Əli ibn Əbi-Talibin (ə) canişin seçilməsi qəti şəkildə göstərdi ki, hətta Peyğəmbərin (s) ölümündən osnra da din məhv olmayacaq. Çünki Əli ibn Əbi-Talib (ə) kimi bir şəxs Peyğəmbərin (s) canişini və İslam ümmətinin rəhbəri təyin olunmuşdur. Yalnız bu məsələ bütün kafirləri məyus edə bilərdi.

–Əgər bütün qanunlar müəyyənləşdikdən sonra ümmət və cəmiyyət üçün məsum rəhbər təyin olunmasaydı, qanunlar icraya qoyulmazdı. Məsum rəhbər isə məhz həmin gün təyin olundu və din kamala çatdı.

–Həmin gün Quran ən böyük nemət olan rəhbərlik və hidayət nemətini təqdim etdi. Bununla da nemətlər tamamlandı. Əgər Peyğəmbər (s) dünyasını dəyişib,

xalqı başsız qoyardısa, bu iş məntiqi olmazdı. Hətta çoban da öz sürüsünü nəzarətsiz qoymur. İlahi rəhbər təyin olunmadan nemətlər tamamlana bilərdimi?!

–Yalnız kamil qanun və ədalətli rəhbər Allahın razılığına səbəb ola bilərdi.

Hər hansı bir gündə uyğun "dörd xüsusiyyətlərdən biri olarsa, həmin günü "əyyamullah", yəni Allah günü saymaq olar. Qədir günündə isə həmin xüsusiyyətlərin dördü də vardı. Ona görə də Əhli-beyt (ə) rəvayətlərində Qədir bayramı ən böyük bayramlardan sayılmışdır.

Bəzən bir işin təsiri onun tam halda yerinə yetirilməsindən asılı olur. Məsələn, insan azandan bir an qabaq iftar etsə, oruc batil olur. Ona görə də oruc haqqında danışılarkən "tamam" sözündən istifadə olunur. Bəzən isə işin hər bir hissəsi ayrıca təsirə malik olur. Məsələn, Quran ayələri bütövlüklə tilavət olunduqda kamil sayılsa da, ondan bir hissəsinin oxunmasının da savabı var. Bəzən müəyyən işlərdə bir şərt ödənmədikdə naqislik yaranır. Məsələn, təyyarəçi və sürücü sükan arxasında olmadıqda təyyarə və ya avtomobil tamamilə səmərəsiz olur. Həqiqi rəhbərlik və vilayət də belədir. Bu həqiqət insanı Allaha bağladığından, o olmadıqda nemətlər bədbəxtliyə dönür və insanı Allaha çatdırmır.

◘"Bəqərə" surəsinin 109-cu ayəsində kafirlərin müsəlmanları onların öz əli ilə azdırmaq meyli bəyan olunmuşdur. Allah-təala buyurur ki, ilahi əmr gələnədək səbir edin. Beləcə, müsəlmanlar kafirləri məyus edəsi qəti bir hökm intizarında idilər. Nəhayət, uyğun ayə nazil oldu.

## *İslamda qidalanmaya bir baxış*

◘İslam ədalət məktəbidir və orta həddi əsas götürür. İslam nə qərblilər kimi ət istifadəsində ifrata varır, nə də buddistlər kimi əti haram sayır. İslam çinlilər kimi istənilən bir ətin istənilən bir şəkildə yeyilməsini caiz bilmir. İslamda ətdən istifadə üçün şərtlər və hədlər müəyyənləşdirilmişdir. O cümlədən:

a) Ət yeyən heyvanların əti ilə qidalanmayın. Bu ətlərdə müxtəlif mikroblar və zərərlər vardır.

b) Yırtıcıların ətini yeməyin, bu ətlər sizin ruhunuzda vəhşilik yaradır.

v) Hamının nifrətlə qarşıladığı iyrənc heyvanların ətindən istifadə etməyin.

q) Allahın mübarək adı ilə kəsilməmiş heyvanların ətindən yeməyin.

e) Ölü heyvanın ətini yeməyin. Çünki heyvan ölən zaman onun orqanizmində qalmış qan müxtəlif fəsadlar və zəhərlənmələr törədə bilər. Ona görə də boğulmuş, buynuzlanmış, hündür yerdən yıxılmış, döyülmüş, parçalanmış, eləcə də, ölən zaman qanı tam şəkildə axmamış heyvanların əti İslam tərəfindən haram buyurulur.[1]

◘Əti haram olan heyvanlardan yalnız donuzun adı bu ayədə çəkilmişdir. Çünki donuz əti çox yeyilən bir ət idi.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Kim belə ətdən istifadə etdisə, zəifliyə, arıqlığa, süstlüyə, sonsuzluğa, infarkta və qəfil ölümə düçar oldu."

◘Qan içmək cahiliyyət ənənəsi idi. Bu iş qəlbi bərkidir, rəhimsizlik yaradırdı. Belə ki, qan içmək nəticəsində ata-ananı öldürmək övlada asan olurdu. Qan içən

[1] "Təfsire-nümunə", c. 4, s. 259.

şəxs dost-tanış tanımaz.[1] Buna görə də qan içmək haramdır. Amma onun köçürülməsinin eybi yoxdur.

◘**Sual:** Ətindən istifadə məqsədi ilə heyvanın öldürülməsinə icazə verilməsi Allahın rəhməti ilə uyğun gəlirmi?

**Cavab:** Dəyişmə və çevrilmə yaranışın əsasını təşkil edir. Torpaq ot, ot heyvan olur. Heyvan (qidalanma yolu ilə) insana çevrilir və bu dəyişikliklərin nəticəsində inkişaf baş verir.

## *Bildirişlər*

1. İslam hərtərəfli bir dindir. Bu dində insanın bütün təbii və psixoloji ehtiyacları dəqiq şəkildə nəzərə alınmışdır.
2. Cisim və ruhun sağlamlığında qidalanma o qədər əhəmiyyətə malikdir ki, Quranda bu məsələyə dəfələrlə toxunulmuşdur.
3. Tövhid nizamında heyvanın kəsilməsi də ilahi rəngə malik olmalıdır. Əks-təqdirdə bu iş haram olur.
4. Əgər vurulmuş, buynuzlanmış, yıxılmış, parçalanmış heyvanın bədənində yarıcanlılıq varsa, onu şəri qaydada kəsib yemək halaldır.
5. Şirkin istənilən bir formalı təzahürləri ilə mübarizə aparmaq lazımdır.
6. Qumar oxları vasitəsi ilə bölünmüş ət haram olsa da, elə görünür ki, nə həmin ət, nə də həmin bölgü uyğun xüsusiyyətə malikdir. Əslində qumar yolu ilə əldə olunmuş bütün gəlirlər haramdır.
7. Kafirlərin ən mühüm ümid yerləri Həzrət Peyğəmbərin (s) ölümü idi . Həzrət Əlinin (ə) rəhbərliyə təyin olunması ilə həmin yol bağlandı.
8. Cəmiyyətdə ilahi rəhbər varsa, müsəlmanlar heç nədən qorxmamalıdırlar.
9. Xarici düşmənlər sizdən əl çəksə də, daxili düşmənlər var. Allahdan qorxaraq onlarla mübarizə aparmaq lazımdır.
10. Əgər müsəlmanlar "Qədir" günü təyin olunmuş rəhbərlik xəttindən çıxmasaydılar, kafirlər tərəfindən heç bir təhlükə ilə üzləşməzdilər.
11. Kafirlər kamil dindən qorxurlar. Rəhbəri təslim olmuş, cihaddan əl çəkmiş, mənbəyi dastanlar, xalqı pərakəndə olan cəmiyyətin dini kafirləri qorxutmur.
12. Əgər kafirlər sizdən ümidlərini üzməmişlərsə, deməli rəhbərlik baxımından dininizdə nöqsan var.
13. Rəhbərsiz din kamil deyil.
14. Məktəbin möhkəmliyi düzgün rəhbərdən asılıdır. Yalnız həqiqi rəhbərin varlığı kafirləri məyus edir. Başqa şeylər bir o qədər də əhəmiyyət daşımır.
15. İlahi rəhbərsiz bütün nemətlər naqisdir.
16. Həzrət Əlinin (ə) imamətə təyini nemətlərin tamamlanmasıdır. O həzrətin (ə) vilayətindən çıxmaq naşükürlükdür və sonu çox pisdir.[2]
17. Rəhbərsiz İslam Allahın nəzərində yetərsizdir.
18. İnsandan asılı olmayaraq yaranmış çıxılmaz vəziyyətlərdə haramdan istifadə caizdir. Demək, insan bilərəkdən özünü çıxılmaz vəziyyətə salmamalıdır.

---

[1] "Təfsire-Əl-mizan".

[2] "Nəhl", 112.

19. İnsanın bütün hallarını və şəraitlərini nəzərə alan qanun kamildir. Xüsusilə çıxılmaz vəziyyətlərə nəzər yetirilməlidir. Bəli, İslam hökmlərində çıxılmaz vəziyyət yoxdur.

20. Fövqəladə vəziyyət günah və mütləq azadlığa şərait yaratmamalıdır. Çıxılmaz vəziyyətə düşdükdə də hədd gözlənilməlidir.

21. Çıxılmaz vəziyyətə düşmüş insanlar üçün nəzərdə tutulan yüngülləşdirmə hallarından sui-istifadə edilməməlidir. İmam Baqir (ə) bu cümlənin təfsirində buyurmuşdur: "Sui-istifadə etməyən şəxs o kəsdir ki, bilərəkdən günah sorağınca getməsin."[1]

4: ﴿يَسْأَلُونَكَ مَاذَا أُحِلَّ لَهُمْ قُلْ أُحِلَّ لَكُمُ الطَّيِّبَاتُ وَمَا عَلَّمْتُم مِّنَ الْجَوَارِحِ مُكَلِّبِينَ تُعَلِّمُونَهُنَّ مِمَّا عَلَّمَكُمُ اللّهُ فَكُلُواْ مِمَّا أَمْسَكْنَ عَلَيْكُمْ وَاذْكُرُواْ اسْمَ اللّهِ عَلَيْهِ وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ سَرِيعُ الْحِسَابِ﴾

**"(Ey peyğəmbər,) səndən soruşurlar ki, onlar üçün nələr halal olmuşdur? De ki, "bütün pak şeylər sizin üçün halal olmuşdur. (Eləcə də) ov ardınca göndərdiyiniz və Allahın sizə öyrətdiyinə xatir öyrətdiyiniz ov itlərinin (ovu). Onların sizin üçün tutduqlarından yeyin. (Ov heyvanını göndərən zaman) Allahın adını çəkin və Allahdan çəkinin. Allah tez hesab çəkəndir."**

## *Nöqtələr*

◘"Cəvarih" sözü "carihə" sözünün cəm forması olub "cərh" kökündən alınmışdır və kəsb və yara kimi iki məna daşıyır. Ovçu heyvana "carihə" deyilir. Çünki o ya ovu yaralayır, ya da onu sahibi üçün kəsb edir. Kəsb və səy vasitəsi olan bədən üzvləri də «cəvarih» adlandırılmışdır.

◘"Mukəllibin" sözü "kəlb" sözündən olub «it» mənasını bildirir. Yalnız təlim görmüş ov itlərinin ovu halaldır. Bu it ovun ardınca göndərilməli və onu saxlamalıdır. İt ovu özü üçün ovlamışsa, həmin ovu yemək haramdır.

## *Bildirişlər*

1. Peyğəmbərlər cəmiyyətdəki təbii sual və ehtiyaclara cavab verirlər.
2. Bilmədiklərimizi peyğəmbərlər və onların varislərindən soruşaq. (İlkin İslam dövrü müsəlmanlarında dini hökmlərin və vəzifələrin öyrənilməsinə münasibətdə məsuliyyət hissi var idi.)
3. Sual bir dəyərdir və məsuliyyət hissinin göstəricisidir.
4. Sual Quran ayələrinin tədricən nazil olma zəminəsidir.
5.Ümmətin peyğəmbərlə rabitəsi vasitəsiz olur.
6. İslamda qidalanma məsələsinə əhəmiyyət verilmişdir.
7. Hər hansı qida aşkar və ya gizli çirkinliyə görə haram edilir.
8. Əsas və külli qanun odur ki, bütün pak və xoşagəlimli şeylər halaldır.

---
[1] "Təfsire-bürhan", c. 1, s. 447.

9. İslam fitri din olduğundan könül oxşayan və zərərsiz şeyləri halal bildirir. (Şəriət və yaranış (təbiət) arasında tam uyğunluq var.)

10. Təlim təkcə insana aid deyil. Heyvanlara da təlim verilə bilər.

11. Bilik hətta itə də dəyər verir. Bu yolla itin səmərəsi artır. İt azca təlim görməklə bir ömür ovunu öz müəlliminə bağışlayır. Bəs bütün biliklərini Allahdan öyrənmiş insanlar Allah üçün nə edir?

12. Ovlanmış ətin bir hissəsi ovçu heyvana çatır. (Ayədəki "min" hissəsi ovun bir qisminə işarədir.)

13. Ov itini göndərən zaman Allahın adını çəkin.

14. İtdən istifadə edərkən İlahi göstərişlərə riayət təqva nişanəsidir.

15. Bəzi çöl heyvanlarının əti halaldır. ("Ov" sözü heyvanın çöl heyvanı olmasını göstərir)

16. Məad və Allahın dərhal hesab çəkməsinə diqqət yetirmək təqva səbəblərindən biridir.

**5.** ﴾الْيَوْمَ أُحِلَّ لَكُمُ الطَّيِّبَاتُ وَطَعَامُ الَّذِينَ أُوتُواْ الْكِتَابَ حِلٌّ لَّكُمْ وَطَعَامُكُمْ حِلُّ لَّهُمْ وَالْمُحْصَنَاتُ مِنَ الْمُؤْمِنَاتِ وَالْمُحْصَنَاتُ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ إِذَا آتَيْتُمُوهُنَّ أُجُورَهُنَّ مُحْصِنِينَ غَيْرَ مُسَافِحِينَ وَلاَ مُتَّخِذِي أَخْدَانٍ وَمَن يَكْفُرْ بِالإِيمَانِ فَقَدْ حَبِطَ عَمَلُهُ وَهُوَ فِي الآخِرَةِ مِنَ الْخَاسِرِينَ﴿

**"Bu gün bütün pak və könül oxşayan şeylər sizin üçün halal oldu. Kitab əhlinin təamı sizin üçün halaldır. Sizin təam da onlar üçün halaldır. Pak, imanlı, eləcə də, sizdən əvvəl kitab verilmiş kəslərdən olan pak qadınlar (ilə izdivac) caizdir. Bir halda ki, qadınların mehriyyəsini ödəyin, zinakar yox, pak olun, gizlində (qeyri-şəri) dost tutmayın. Hər kəs öz imanını küfrə dəyişsə, hökmən onun əməli puç olmuşdur və o, axirətdə ziyankarlardandır."**

## *Nöqtələr*

◘Ayədə buyurulur: Kitab əhlinin təamları müsəlmanlara halaldır. Amma əvvəlki ayədə ətin halal olması üçün kəsim zamanı Allahın adının çəkilməsi şərt qoyulduğundan bu ayədə yəhudi və məsihilərin ətdən savay təamları nəzərdə tutulmalıdır. Həzrət Əlinin (ə) buyurduğu rəvayətlərdə də «təam» deyildikdə buğda, arpa nəzərdə tutulmuşdur. İbn-Əsir və Xəlil kimi lüğətşünaslar deyir: "Hicaz leksikonunda buğda da təam adlandırılmışdır."[1]

◘Bu ayə dini azlıqlarla get-gəli, yemək yeməyi və izdivacı mümkün saydığından və bu yolla müsəlmanlar gündəlik get-gəl nəticəsində yəhudi və məsihi qızları ilə izdivac edə biləcəyindən müsəlmanlar tədricən yəhudi və məsihilərin əqidəsinin təsiri altına düşə bilərdilər. Ona görə ayənin sonunda xəbərdarlıq edilir ki, hər kəs imandan üz çevirsə əməli puç olar.

◘"Xidn" sözünün cəm forması olan "əxdan" sözü, adətən, xəlvəti və qeyri-şəri dostlar haqqında işlədilir.

[1] "Təfsire-Əl-mizan"; "Kafi", c. 6, s. 341.

◘Qida məsələsində ayə müsəlman və kitab əhlinə icazə verir ki, bir-birlərinin təamlarından istifadə etsinlər. Amma yalnız müsəlmanlara kitab əhlinin qadınları ilə evlənmək icazəsi verilmişdir. Müsəlman qadınlarının kitab əhli ilə izdivac etmək icazəsi yoxdur. (Adətən, qadınlar öz ərlərinin təsiri altına düşdüyündən müsəlman qadının kitab əhlinə ərə getməsi onun əqidə baxımından süqutu ilə nəticələnə bilər. Ona görə də kitab əhlinə qız vermək caiz deyil.)

◘"Muhsin" və "muhsinət" azad, evli və müsəlman olmaq mənalarını bildirir. Burada "muhsənat" dedikdə şübhəsiz ki, azad qadınlar nəzərdə tutulur. Ərli qadınla izdivac qəti şəkildə haramdır.

◘Ayədə kitab əhli ilə nəzərdə tutulan izdivac müvəqqəti izdivacdır. (Bu məsələdə hər kəs öz təqlid etdiyi mərcənin nəzərinə tabe olmalıdır.) Çoxsaylı rəvayətlərə əsasən və adətən müvəqqəti izdivac mehriyyəsi mənasını bildirən "ucurəhunnə" sözünə görə ayədə müvəqqəti izdivaca işarə olunduğu bildirilir.

◘Bir şeyin haqq olmasını qəbul edib, həmin şeyə əməl etməyən kəsin gördüyü işlər puçdur. İmam Sadiqdən (ə) nəql olunmuş rəvayətdə də bu məna təsdiqlənir.[1]

◘Digər bir rəvayətdə İmam Sadiq (ə) buyurmuşdur: "İnsanın imandan xaric olmasına səbəb olan ən kiçik şey odur ki, haqqın ziddinə bir nəzər bildirsin, həmin nəzər üzərində dayanıb onu müdafiə etsin." Sonra həzrət bu ayəni tilavət etdi.[2]

## *Bildirişlər*

1. Hökm və qanunları bəyan edərkən dövrə və zamana xas incəliklərdən xəbərsiz qalmaq olmaz.
2. Şəriət qanunları yaranış nizamına uyğundur (Sağlam təbiətin (xarakterin) bəyəndiyini qanun da halal sayır.)
3. İstənilən bir dində qadının paklığı bir dəyərdir.
4. Paklıq həm kişilər, həm də qadınlar üçün şərtdir.
5. Həyat yoldaşı seçərkən iman və paklığa diqqət yetirilməlidir.
6. Hətta qeyri-müsəlmanları da aldatmaq qadağandır. (Hətta müsəlman olmayan qadının da iqtisadi haqqı ödənməlidir.)
7. İstər müsəlman, istər qeyri-müsəlman qadının mülkiyyət hüququ var. ərəbcə)
8. Mehriyyə qadının özünə verilməlidir.
9. İzdivac məqsədi ilə qadına əcr ödənməlidir. Zina və qeyri-şəri əlaqələrə görə əcr ödəmək olmaz.
10. Əvvəlcə halal yolu göstərin, sonra azğınlıq yolunu qapayın.
11. Hətta qeyri-müsəlmanla qeyri-şəri rabitə qadağandır.
12. Kitab əhlinin təamını yemək və onlardan pak bir qadınla evlənmək halaldır.
13. Kitab əhli ilə yaxınlıq, onlarla yanaşı yaşayış və onların ölkələrinə lazımsız səfər büdrəmə zəminəsidir. Ona görə də bu ayədə xəbərdarlıq olunur ki, ehtiyatlı olun və iqtisadi, ictimai əlaqələr sizin etiqadınızı dəyişməsin. Tapşırılır ki, evlənmək xatirinə imanınızı əldən verməyin.

---

[1] "Təfsire-Nurus-səqəleyn", c. 1, s. 595.
[2] "Vəsail", c. 27, s. 60.

6. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ
وَامْسَحُواْ بِرُؤُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الْكَعْبَينِ وَإِن كُنتُمْ جُنُبًا فَاطَّهَّرُواْ وَإِن كُنتُم مَّرْضَى أَوْ عَلَى
سَفَرٍ أَوْ جَاء أَحَدٌ مَّنكُم مِّنَ الْغَائِطِ أَوْ لاَمَسْتُمُ النِّسَاء فَلَمْ تَجِدُواْ مَاء فَتَيَمَّمُواْ صَعِيدًا طَيِّبًا
فَامْسَحُواْ بِوُجُوهِكُمْ وَأَيْدِيكُم مِّنْهُ مَا يُرِيدُ اللّهُ لِيَجْعَلَ عَلَيْكُم مِّنْ حَرَجٍ وَلَكِن يُرِيدُ لِيُطَهَّرَكُمْ
وَلِيُتِمَّ نِعْمَتَهُ عَلَيْكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“Ey iman gətirənlər! Namaza durduğunuz vaxt üzünüzü və əllərinizi dirsəyədək yuyun, başınızın bir hissəsi və ayaqlarınızın üzünə yoxuşadək məsh çəkin. Cünub olduqda özünüzü pak edin (qüsl verin). Əgər xəstə və ya müsafir olsanız, ya sizlərdən biri ayaqyolundan gəldikdə, ya qadınlarla yaxınlıq etdikdə (qüsl və ya dəstəmaz üçün) su tapmasanız, pak torpaqla təyəmmüm edin. Üzünüz və əllərinizə həmin torpaqdan məsh çəkin. Allah sizi çətinlikdə qoymaq istəmir. Əksinə, sizi pak etmək və nemətini sizin üçün tamamlamaq istəyir. Bəlkə şükür edəsiniz.”**

## *Nöqtələr*

◘“Nisa” surəsinin 43-cü ayəsində qüsl və təyəmmüm mövzularına işarə olundu. Bu ayədə əlavə olaraq dəstəmaz məsələsinə toxunulur.

◘“Qiyam”, sözü “ila” hissəsi ilə yanaşı işləndikdə “iradə etmək, istəmək” mənasını bildirir. Yəni “namaz qılmaq istədiyin vaxt.”

◘“Cünub” sözü tək və cəm halda həm qadın, həm də kişiyə eyni şəkildə aid edilir. Bəlkə də bu ayədə «cünub olmaq» dedikdə yalnız möhtəlim olmaq, «qadınlarla təmas» dedikdə cinsi yaxınlıq nəzərdə tutulur.

◘“Fəttəhhəru” göstərişi qüsl verilməsinə aiddir. Bu ehtimal “Nisa” surəsinin 43-cü ayəsinə əsaslanır.

◘“Dirsəklərə qədər” ifadəsi istiqamət yox, ölçü göstərir. Ərəb dilində həm barmaqlardan əl topuğunadək, həm barmaqlardan dirsəyədək, həm də barmaqlardan çiyinədək olan hissəyə “yəd”, yəni “əl” deyilir. Ayədə buyurulur ki, dəstəmazda əli nə az, nə də çox, dirsəyədək yuyun.

◘Təyəmmümdə bir bəndəlik ruhiyyəsi var. Əli torpağa vurub ən uca üzv olan alına çəkməkdə bir təvazö var.

◘Su çirkinliyi aradan qaldırdığı kimi, pak torpaqda da mikrob öldürmə xüsusiyyəti var. Çünki torpaq günəş şüası və yağış altındadır.

◘“Suud” sözündən olan “səid” sözü uca yer mənasını bildirir. İmam Sadiq (ə) “səidən təyyiba” ifadəsi haqqında buyurur: “Bu söz üstündən üzüaşağı su axan uca yeri bildirir.”[1] Bəli, çirkin suyun toplandığı çökəyin torpağı təyəmmümə münasib deyil. Çünki təyəmmüm üçün pak torpaq şərtdir.

◘Hədisdə oxuyuruq: “Namaz yalnız təharətlə (dəstəmaz, qüsl və ya təyəmmüm) düzgündür.”[2]

---

[1] “Məaniyul-əxbar”, s. 283.
[2] “Təhzib”, c. 1, s. 49.

◘Hədisdə oxuyuruq: "Həmin yerdən başla ki, Allah Quranda başlamışdır."[1] Quranda əvvəlcə üz, sonra qolların yuyulması, daha sonra baş və ayaqlara məsh çəkilməsi bildirildiyi kimi, dəstəmaz da eyni ardıcıllıqla alınır.

◘İmamdan soruşuldu ki, dəstəmazda nə üçün başın bir hissəsinə məsh çəkilir? İmam buyurdu: "Biruusikum" sözünün başlanğıcındakı "ba" hərfinə görə. Uyğun söz başın bir hissəsini bildirir. Əgər eyni söz "ba" hərfi olmadan işlənsəydi, bütün baş nəzərdə tutulardı."[2]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Ayədəki "laməstum" sözü cinsi yaxınlığı bildirir. Allah bu mənanı örtülü bəyan etmişdir. Allah bizdən fərqli olaraq örtülü danışmağı sevir."[3]

◘İmam Riza (ə) dəstəmazın fəlsəfəsi haqqında buyurmuşdur: "Dəstəmaz Allah qarşısında duran zaman paklıq zəminəsidir."; "Dəstəmaz bəndəlik və itaət nişanəsidir"; "Dəstəmaz çirkinlik və murdarlıqdan uzaqlıq amilidir"; "Dəstəmaz süstlük və yuxululuqdan kənarlıq səbəbidir."; "Dəstəmaz namaza hazırlıq və ruhi təkamüldür."[4]

## *Bildirişlər*

1. Təmizlik və paklıq iman şərtləridir.
2. Paklıq namaz şərtidir.
3. Quranla təmas pak insanlara aid olduğundan Allahla rabitə də paklığa ehtiyaclıdır.
4. Cismin çirkinliyi Allahla yaxınlığa mane olur.
5. Mövzunun əsas məqsədi, xüsusi ilə yaxınlıq məsələlərində, həya, iffət və ədəbin gözlənilməsidir. Hüquqi məsələlərdə çaşqınlıq yaranmasın deyə, qanunlar aydın və pərdəsiz bəyan olunur. Mehriyyə və həzrəti Məryəmə atılan böhtanların rəddi ilə bağlı uyğun şəkildə bəyanatlar verilir.[5]
6. Namazın şərtləri və müqəddimələri yüngülləşdirilə bilər. Amma namaz heç vəchlə öhdədən götürülmür.
7. Dəstəmaz və ya qüsl suyu tapmaq üçün çalışmaq lazımdır. Əgər səylər nəticə verməsə, növbə təyəmmümə çatır. ("Fələm təcidu" ifadəsi o zaman işlənir ki, insan çalışsa da axtardığını tapa bilməsin.)
8. Çirkin su və ya torpaq ilə Allahla rabitə bərqərar etmək olmaz.
9. Əvvəlki iki ayədə bəyan olunduğu kimi, həm qidalar, həm də hazırda işarə olunduğu kimi, təyəmmüm torpağı pak olmalıdır.
10. Dini hökmlərdə çətinlik yoxdur.
11. Dəstəmaz, qüsl və təyəmmümdə məqsəd mənəvi paklıq və Allahla rabitəyə hazırlıqdır.
12. İlahi vəzifə insan üçün bir nemətdir.
13. Vəzifənin yerinə yetirilməsi Allaha şükür nümunələrindəndir.

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Kafi", c. 3, s. 30.
[3] "Kafi", c. 5, s. 555.
[4] "Vəsail", c. 1, s. 367.
[5] "Nisa", 23; "Ənbiya", 91.

7. ﴿وَاذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ وَمِيثَاقَهُ الَّذِي وَاثَقَكُم بِهِ إِذْ قُلْتُمْ سَمِعْنَا وَأَطَعْنَا وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ﴾

**"Xatırlayın Allahın sizə əta etdiyi neməti və "eşitdik və itaət etdik" dediyiniz zaman sizinlə bağladığı əhdi! Allahdan çəkinin! Çünki Allah sinələrdə olandan agahdır."**

## *Nöqtələr*

◘Nemətin yada salınması və ayədə bəyan olunmuş məsələlərə riayət mövzuları ümumi bir xəbərdarlıq olsa da, müəyyən dəlillərə əsasən, ilk öncə İslam cəmiyyətinə rəhbərlik və bu rəhbərə itaət məsələləri nəzərdə tutula bilər. Həmin dəlillərə nəzər salaq:

1. İlahi rəhbərlik Allahın əhdidir. Bu məsələni həzrət İbrahimin öz nəsli üçün imamət məqamı istəməsi və Allahın "Mənim əhdimə (imamətə) zalımlar çatmaz" buyurması haqqında danışan əhvalat da təsdiqləyir.[1]
2. Qədir-Xumda Həzrət Əli (ə) imamət məqamına təyin olunduqdan sonra uyğun surənin 3-cü ayəsi nazil oldu və bildirildi ki, bu gün Allah Öz bəndələrinə nemətini tamamladı.
3. Məhz Qədir-Xumda xalq həzrət Əliyə (ə) beyət edib, "Eşitdik və itaət etdik" söylədi. Bu ayə xalqı növbəti dəfə ilahi rəhbərə vəfalı olmağa və möhkəmliyə çağırır.

◘Eşitmək və itaət haqqındakı əhd insanların təbii və fitri, söz və ya əməli şəkildə peyğəmbərlə bağladığı əhdlərə şamildir. Xalqın tövhid və nübuvvətə beyətləri və şəhadətləri də bu qəbildəndir.

## *Bildirişlər*

1. Ayədə nemət, əhd, itaət, sinələrdə olandan xəbərdarlıq kimi məfhumlar üzərində dayanılması (xüsusi ilə də Qədir-Xum ayəsindən sonra) 3-cü ayədəki göstərişin və Qədir xəttindən yayınmanın unudulmasına işarə ola bilər. Bu nöqtəyə imam Baqir (ə) toxunmuşdur.[2]
2. İlahi nemətləri xatırlamaq zəruridir.
3. Nemətlərin, əhdlərin, Allahın buyruqlarının, elm və agahlığın xatırlanması və xatırladılması təqva amili və zəminəsidir.
4. Əhdi pozmaq fikrində olmayaq. Çünki Allah agahdır.

8. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ لِلّهِ شُهَدَاء بِالْقِسْطِ وَلاَ يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ عَلَى أَلاَّ تَعْدِلُواْ اعْدِلُواْ هُوَ أَقْرَبُ لِلتَّقْوَى وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ﴾

**"Ey iman gətirənlər! Bütün vücudunuzla daim Allah üçün qiyam edin, insaf və ədalətə şahid durun. Bir qövmlə düşmənçilik heç vaxt sizi ədalətsizliyə vadar etməsin. Ədalətə riayət edin ki, bu, təqvaya daha**

---

[1] "Bəqərə", 124.
[2] "Təfsire-Nurus-səqəleyn".

**yaxındır. Allahdan çəkinin ki, həqiqətən, Allah gördüyünüz işlərdən agahdır.”**

## *Nöqtələr*

◘Bu ayənin oxşarı azca fərqlə “Nisa” surəsinin 135-ci ayəsində nazil olmuşdur. Ayədə deyilir ki, ədalət uğrunda qiyam edin və Allah üçün şahid olun. Hətta insanın özünə və ya valideynlərinə, yaxınlarına zərərli də olsa, belə etməlidir. Ayələr arasında fərq ondan ibarətdir ki, bu ayə tapşırır: Kin və düşmənçiliklər sizi azdırmasın. “Nisa” surəsindəki ayədə isə belə buyurulur: “Əlaqələr və bağlılıqlar sizi ədalət dairəsindən çıxarmasın.” Bəli, ədalət xəttindən çıxmanın səbəbi ya düşmənçilik və kindir, ya da məhəbbət və dostluq. Hər ayədə bu iki amildən birinə işarə olunur.

◘Xalqa münasibətdə qəlbdəki kini aradan götürmək çətin olduğundan bu ayədə uyğun məsələ ilə bağlı bir neçə göstəriş verilir və təşviqlər olunur.

## *Bildirişlər*

1. İctimai ədalət yalnız Allah və məada iman sayəsində bərqərar olur.
2. Ədalət təkcə əxlaqi bir dəyər deyil. Ədalət qəti ilahi göstərişdir.
3. Əgər insanı hərəkətə gətirən onun qəlbindəki kindirsə, ixlasdan danışmağa dəyməz. Amma insan Allaha yaxınlıq məqsədi ilə hərəkət etdikdə, kin-küdurət ədalətin gözlənilməsinə təsir etmir.
4. Ötəri ədalət yox, xarakterə çevrilmiş ardıcıl ədalət dəyərlidir.
5. Möminlər həm Allahla rabitədədirlər, həm də xalqla rabitədə ədalətə şahiddirlər.
6. Əgər inansaq ki, Allah bizim əməllərimizdən xəbərdardır, ədaləti gözləyərik.
7. Qəlbi kinlə dolu insanlar ədalətli ola bilməzlər. (Ədalətə çatmaq üçün kin-küdurətə nəzarət edilməlidir.)
8. İnsanın hissləri ədalət çərçivəsində nizamlanmalıdır.
9. Kin-küdurət ədalətin pozulması amillərindəndir.
10. Siyasi proseslərdə, daxili və xarici əlaqələrdə hətta düşmənlərə də qarşı ədalətli olaq.
11. Ədalətli və insaflı insanlar təqvaya daha yaxındırlar.

**9.** ﴿وَعَدَ اللّهُ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ﴾

**“Allah yalnız iman gətirib saleh işlər görənlərə bağışlanma və böyük mükafatlar vəd etmişdir.”**

**10.** ﴿وَالَّذِينَ كَفَرُواْ وَكَذَّبُواْ بِآيَاتِنَا أُوْلَئِكَ أَصْحَابُ الْجَحِيمِ﴾

**“Küfr edib, Bizim ayələrimizi təkzib edənlər cəhənnəm əhlidirlər.”**

## *Nöqtələr*

◘Quranda bir neçə növ əcr, mükafatdan danışılır.[1]

◘Allahın vədləri dəyişməzdir.[2]

◘"Cəhim" atəşin şiddətlə şölələnməsi mənasını bildirir. İbrahimin əhvalatında nəql olunur ki, onu "cəhimə" atdılar. "Əshabul-cəhim" dedikdə isə daim cəhənnəmdə olanlar nəzərdə tutulur.

## *Bildirişlər*

1. İman əməldən ayrı deyil.
2. İman və saleh əməl həm ötən səhvləri aradan qaldırır, həm də gələcəyi təmin edir.
3. İşin aqibətinə diqqət insanın çıxardığı qərarlarda mühüm rol oynayır.
4. Bağışlanma mükafata çatmanın müqəddiməsidir.
5. Kafirlərin və təkzib edənlərin cəzası əbədi cəhənnəmdir.
6. Təşviq əməl üçün stimuldur. Necə ki, hədələmə Quranın tərbiyə üsullarındandır.

11. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اذْكُرُواْ نِعْمَتَ اللّهِ عَلَيْكُمْ إِذْ هَمَّ قَوْمٌ أَن يَبْسُطُواْ إِلَيْكُمْ أَيْدِيَهُمْ
فَكَفَّ أَيْدِيَهُمْ عَنكُمْ وَاتَّقُواْ اللّهَ وَعَلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ﴾

**"Ey iman gətirənlər! Allahın nemətini özünüzə xatırladın. (Düşmənlərin) bir dəstəsi sizə düşməncəsinə əl uzatmaq fikrinə düşdükdə Allah onların əllərini gödəltdi. Allahdan qorxun. Möminlər yalnız Allaha təvəkkül etməlidirlər."**

## *Nöqtələr*

◘Ayədə hansı tarixi hadisənin nəzərdə tutulması barədə fikir ayrılığı var. Amma onu bütün uyğun hadisələrə aid etmək olar. Bütün hallarda müsəlmanlar düşmənin hücumlarına Allaha təvəkül etməklə qalib gəlmiş və nicat tapmışlar.

## *Bildirişlər*

1. İlahi nemətlərin xatırlanması möminlər üçün zəruridir. (Çünki belə bir xatırlama həm şükür növüdür, həm də qürur və qəfləti insandan uzaqlaşdırır. Nemətləri xatırlayan insanın Allaha eşqi də çoxalır.)
2. Mümkün təhlükələrin dəf olunması ən mühüm ilahi nemətlərdəndir.
3. Təqva, təvəkkül və imanla Allahın lütfünü cəlb edin, düşmənin təhlükələrini özünüzdən uzaqlaşdırın. (İnsan günah etdikdə Allah düşməni ona qalib edir. Allaha diqqət nəticəsində isə düşmən dəf olunur.)
4. Düşmənləriniz sizə yol tapmaq üçün daim təlaşdadırlar.
5. Allaha təvəkkül iman və təqva şərtidir.

---

[1] "Hud", 11; "Yasin", 11; "Fussilət", 8.

[2] "Ali-İmran", 9.

6. Təqva və təvəkkül sayəsində Allah zikri və iman əldə olunur.

12: ﴿وَلَقَدْ أَخَذَ اللّهُ مِيثَاقَ بَنِي إِسْرَآئِيلَ وَبَعَثْنَا مِنهُمُ اثْنَيْ عَشَرَ نَقِيبًا وَقَالَ اللّهُ إِنِّي مَعَكُمْ لَئِنْ أَقَمْتُمُ الصَّلاَةَ وَآتَيْتُمُ الزَّكَاةَ وَآمَنتُم بِرُسُلِي وَعَزَّرْتُمُوهُمْ وَأَقْرَضْتُمُ اللّهَ قَرْضًا حَسَنًا لَّأُكَفِّرَنَّ عَنكُمْ سَيِّئَاتِكُمْ وَلأُدْخِلَنَّكُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ فَمَن كَفَرَ بَعْدَ ذَلِكَ مِنكُمْ فَقَدْ ضَلَّ سَوَاء السَّبِيلِ﴾

**“Həqiqətən, Allah Bəni-İsraildən əhd aldı. Onların arasından (on iki tayfa üçün) on iki rəhbər seçdik. Allah onlara buyurdu: “Mən sizinləyəm. Əgər namazı bərpa etsəniz, zəkat ödəsəniz, peyğəmbərlərimə iman gətirib yardım göstərsəniz, Allaha yaxşı borc versəniz, şübhəsiz, günahlarınızı örtərəm və sizi altından çaylar axan bağlara daxil edərəm. Bundan sonra sizdən kim kafir olsa, həqiqətən, doğru yoldan azmışdır.”**

## *Nöqtələr*

◘“Əzzərtumuhum” “əzər” sözündən olub «hörmətlə yanaşı yardım göstərmək» mənasını bildirir.

◘“Səvaəs-səbil” yolun ortasını bildirir və bu xətdən çıxmaq süqutla nəticələnir.

◘Bəni-İsrailin rəhbərləri və qəyyumları həzrət Musanın vəzirləri və on iki tayfanın başçıları idilər. Həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunmuşdur: “Məndən sonra xəlifə on iki nəfərdir. Onlar Bəni-İsrail hamiləri sayındadırlar.”[1] Əhli-beyt (ə) yolunun müxalifləri çox çalışdılar ki, bu rəqəmi dörd xəlifəyə, Bəni-Üməyyə və Bəni-Abbas xəlifələrinə aid etsinlər. Amma uyğun say onların nəzərləri ilə heç cür düz gəlmirdi. Bu yersiz səylər qarşısında həzrət Peyğəmbərin (s) dilindən bəyan olunmuş onlarla hədis var idi ki, bu hədislərdə on iki imamın adı bircə-bircə sadalanırdı. Bu sayaq hədislər mötəbər şiə və sünni kitablarında yetərincədir. Onların birincisi Həzrət Əli (ə), sonuncusu həzrət Mehdidir (ə).

## *Bildirişlər*

1. Digər ilahi dinlərin proqramlarında da namaz, zəkat, peyğəmbərlərə yardım və infaq tapşırılmışdır.
2. Namaz, zəkat, iman, peyğəmbərlərə yardım və infaq Allahın Öz bəndəsi ilə olması şərtləridir.
3. Peyğəmbərlərə inam təklikdə kifayət etmir. Onlara yardım da zəruridir.
4. Vacib əmrlərin bəzilərinə yox, hamısına əməl etmək səmərə verir.
5. Allahın bəndələrinə yardım Allaha yardımdır.
6. Borc yaxşı şəkildə verilməlidir. (Yaxşı maldan, yaxşı niyyətlə, dərhal və minnət qoymadan borc vermək lazımdır.)
7. Borc mövzusunun namaz, zəkat, peyğəmbərlərə iman və onlara yardım mövzuları ilə yanaşı bəyan olunması borcun fövqəladə əhəmiyyətindən danışır.

[1] “Əhməd ibn Həbnəl, “Müsnəd”, c. 1, s. 398.

(Borc dedikdə xalqa edilən bütün yardımlar nəzərdə tutulur. Nümunə olaraq xalqa verilən borcu göstərmək olar.)

8. Cəmiyyətin rəhbəri Allah tərəfindən təyin olunmalıdır. Peyğəmbərlərin də seçimi Allah göstərişlərinə əsaslanmalıdır.

9. Namaz, zəkat, infaq ilahi rəhbərlərin qəbulu və onlara yardımla müşayiət olunduqda məna daşıyır.

10. Rəhbər xalqın özündən olduqda müvəffəqiyyətə çatır.

11. Behişt bəhanəyə yox, bahasına verilir. Namaz, zəkat, iman, yardım və infaq olan yerdə behişt də var.

12. Behişt çirkaba batanların yeri deyil. Əvvəlcə təmizlənmək, sonra behiştə üz tutmaq olar.

13. İlahi əfv əldə etməyin yolu iman və saleh əməldir.

14. Əhd alındıqdan, höccət tamamlandıqdan, ilahi lütfü əldə etməyin şərtləri bəyan olunduqdan sonra üzr və bəhanəyə yer qalmır.

15. İlahi göstərişləri inkar edən kəs orta yoldan çıxmışdır. (Bəli, namaz qılınması, zəkat ödənməsi, peyğəmbərlərə iman, əhdə vəfa asilərin əldən çıxardıqları orta yoldur.)

**13:** ﴿فَبِمَا نَقْضِهِم مِّيثَاقَهُمْ لَعنَّاهُمْ وَجَعَلْنَا قُلُوبَهُمْ قَاسِيَةً يُحَرِّفُونَ الْكَلِمَ عَن مَّوَاضِعِهِ وَنَسُواْ حَظًّا مِّمَّا ذُكِّرُواْ بِهِ وَلاَ تَزَالُ تَطَّلِعُ عَلَىَ خَآئِنَةٍ مِّنْهُمْ إِلاَّ قَلِيلاً مِّنْهُمُ فَاعْفُ عَنْهُمْ وَاصْفَحْ إِنَّ اللّهَ يُحِبُّ الْمُحْسِنِينَ﴾

**“(Bəni-İsrailə) əhdlərini sındırdıqları üçün lənət etdik (rəhmətimizdən uzaqlaşdırdıq). Onların qəlblərini bərkitdik. Onlar (ilahi) kəlmələrin yerini təhrif edirlər. Onların nəzərinə çatdırılanlardan bir hissəsini unutdular. Sən daim onların xəyanətlərindən xəbərdar olarsan. (Onların hər gün yeni bir xəyanətləri, qurğuları vardır.) Onların bir hissəsi istisnadır. (Daşqəlbli, təhrifçi xain deyildirlər.) Onlardan keç və büdrəmələrinə göz yum. Həqiqətən, Allah yaxşı əməl sahiblərini dost tutur.”**

## *Nöqtələr*

◘Bu surənin ilk ayəsində əhdlərə vəfa, növbəti ayədə Allahın Bəni-İsraillə peymanı xatırlanmışdır. Bu ayədə isə vədə xilaflığın, əhdi pozmağın təsirləri bəyan olunur.

◘Unutqanlıq bəzən ixtiyarsız şəkildə baş verir. Bu hal tənqid olunmur. Amma unutqanlıq səbəbi etinasızlıq və diqqətsizlik olur. Bu hal tənqid olunur. Bu ayədə də uyğun halların nümunəsi bəyan olunmuşdur.

## *Bildirişlər*

1. Bəni-İsrailin vədə xilaflığından və bu işin aqibətindən ibrət götürün.

2. Əhdi pozmaq ilahi lütfdən məhrumluq səbəbi və qəlbin daşlaşması üçün zəmindir. “Tövbə”, surəsinin 77-ci ayəsində əhdə vəfasızlıq nifaq səbəbi kimi göstərilmişdir.

3. Bəni-İsraildən bir dəstəsi daim xəyanət əhli olmuşdur.

4. Peyğəmbər daim yəhudilərin əməl və rəftarlarını izləmişdir.

5. Düşmənlə münasibətdə insafı yaddan çıxarmayın. (“İlla qəlilən” ifadəsi Bəni-İsrail arasında fitnəkar olmayanların da varlığını göstərir.)

6. Əfv və bağışlama ehsan nümunələrindəndir.

7. Kafirin də bağışlanması ehsan və yaxşılıqdır.

8. Xeyirxah insan Allahın sevimlisidir.

**14.** ﴿وَمِنَ الَّذِينَ قَالُواْ إِنَّا نَصَارَى أَخَذْنَا مِيثَاقَهُمْ فَنَسُواْ حَظًّا مِّمَّا ذُكِّرُواْ بِهِ فَأَغْرَيْنَا بَيْنَهُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء إِلَى يَوْمِ الْقِيَامَةِ وَسَوْفَ يُنَبِّئُهُمُ اللّهُ بِمَا كَانُواْ يَصْنَعُونَ﴾

**“Biz məsihiyik” deyən kəslərdən əhd aldıq. Onlar (Bəni-İsrail kimi) nəzərlərinə çatdırılanların bir hissəsini unutdular. Düşmənçilik və kin-küdurəti qiyamət gününədək aralarında qərar verdik. Allah tezliklə onları gördüyü işlərdən agah edəcəkdir.”**

## *Nöqtələr*

◘“Nəsara” “nəsrani” sözünün cəm formasıdır. Həzrət İsa yardımçılarının şüarı da belə olduğundan onların «nəsara» adlandırılması nəzərə gəlir.[1]

◘“Bəğza” qəlb düşmənçiliyi, “ədavət” isə onun zahirdə təzahürüdür.

◘Xatırlatmaların bir hissəsinin unudulması dedikdə, məsihilərin tövhid həddini aşıb üç üqnuma üz tutması və həzrət Məhəmmədi (s) qəbul etmək əvəzinə, onun nişanələrini gizlətmələri nəzərdə tutulur.

◘“Əğrəyna” əslində «yapışdırma» mənasını bildirir. Yəni onların bağlılıq səbəbi aralarındakı ədavətdir.

## *Bildirişlər*

1. İddia çoxdur, amma əməl az!

2. İddiası olan kəs məsuliyyəti qəbul etməlidir.

3. İlahi xəbərdarlıqların və iki əhdin müjdələrinin unudulması nəticəsi təfriqə və ədavətdir.

4. Başqalarının əhdi pozmasının acı nəticələrindən ibrət götürək. (Nəsaradan əhd aldıq, unutduqları üçün bədbəxtliyə düçar oldular.)

5. Yəhudilər və məsihilər qiyamətədək qalasıdırlar.

6.Təfriqə və düşmənçilik ilahi əzablardandır.

7. Bütün işlər Allahın nəzarəti altındadır və hər bir işin mükafatı və cəzası olacaqdır.

**15:** ﴿يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ كَثِيرًا مِّمَّا كُنتُمْ تُخْفُونَ مِنَ الْكِتَابِ وَيَعْفُو عَن كَثِيرٍ قَدْ جَاءكُم مِّنَ اللّهِ نُورٌ وَكِتَابٌ مُّبِينٌ﴾

---

[1] “Səff”, 14.

**“Ey kitab əhli! Həqiqətən, Bizim peyğəmbərimiz sizə doğru gəldi. (Səmavi) kitabdan bir çox şeyləri gizlətdiyiniz halda sizə bəyan edər və çox şeydən (hazırda ehtiyac olmayan sizin xilaflarınız və gizlətdiyiniz həqiqətlərdən) keçər. Şübhəsiz, Allah tərəfindən sizin üçün nur və aşkar kitab gəlmişdir.”**

## *Nöqtələr*

◘Gizlədilmiş məsələlərin bəyanı qeyb elminin nişanəsi və peyğəmbəri tanıma yollarından biridir.[1]

## *Bildirişlər*

1. İslam ümumbəşəri bir dindir və bütün dinləri haqqa çağırır.
2. İnsanları dəvət edərkən kitab əhlindən də məyus olmayaq.
3. Quransız dünya qaranlıqdır.
4. Tövrat və İncilin bəzi həqiqətləri gizlədilmişdir.
5. Haqqa dəvət üslublarından biri məsələləri zəruri həddə bəyan etməkdir.
6. Peyğəmbər və Quran çox əzəmətlidir. (“Nur” və “kitab” sözlərinin qeyri-müəyyən formada işlənməsi böyüklük və əzəmət nişanəsidir.)

**16.** ﴿يَهْدِي بِهِ اللّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلاَمِ وَيُخْرِجُهُم مِّنِ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِهِ وَيَهْدِيهِمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Allah onun (kitabın) vasitəsi ilə Allahın razılığı sorağında olan kəsləri əmin-amanlıq və qurtuluş yollarına hidayət edir. Onları Öz istəyi ilə zülmətlərdən işıqlığa çıxarır və doğru yola yönəldir.”**

## *Nöqtələr*

◘Hidayətin dərəcələri vardır: Mərhələlərdən biri insanların qəbul edib-etməməsindən asılı olmayaraq hamı üçün nəzərdə tutulmuş ümumi hidayət mərhələsidir. İkinci mərhələdəki hidayət ümumi hidayəti qəbul edənlərə aiddir. Bu ayə ikinci növ hidayət haqqında danışır.

◘Salam Allahın adlarından biridir.[2] Behiştin də adlarından biri “darus-səlamdır.”[3] Deməк, «Salam» yolları, yəni Allah və behişt yolu əmin-aman və doğru yoldan keçir.

◘“Subuləs-Səlam” fərd və cəmiyyətin, ailə və nəslin, düşüncə, ruh və namusun salamatlıq yollarını bildirir.

◘Allahın razılıq yolunu gedənlərin aşkar nümunəsi Qədir-Xum xəttini izləyənlərdir. Çünki ayənin uyğun hissəsi Əli ibn Əbi-Talibin (ə) canişinlik məqamına seçilməsindən sonra nazil olmuşdur.[4]

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Həşr”, 23.
[3] “Ənam”, 127.
[4] “Təfsire-Ətyəbul-bəyan”.

## *Bildirişlər*

1. O insanlar hidayət ola bilirlər ki, Allahın razılığını qazanmaq əzmində olsunlar, məqam, mal, nəfs istəkləri və intiqam ardınca düşməsinlər.

2. İnsan özü öz hidayəti üçün zəmin hazırlayır.

3. Salamatçılıq və səadət yollarına hidayət Allahın razılığını qazanmaqdan asılıdır. Allahdan qeyrisini razı salmaq istəyində olanlar azmışlar.

4. Haqq yol birdir, batil yollar isə (şirk, küfr, nifaq, təfriqə yolları) çoxsaylı. ("Nur" kəlməsi tək, "zülmət" kəlməsi isə cəm formada işlədilmişdir. Bəli, bütün yaxşılıqlar və paklıqlar tövhid nuru sayəsində vəhdət və birlik halına gəlirlər. Zülmət isə həmişə təfriqə və cərgələrdə pərakəndəlik səbəbidir.)

5. Hədəf bir, ona çatmaq yolları isə çoxdur.

6. Vəhy məktəbi fərd və cəmiyyətin, ruh və cismin sağlamlıq və səadətini təmin edir.

7. Bəşəriyyət Quran sayəsində yanaşı yaşayış və həyat səfası əldə edir.

8. Salamatlıq yolu doğru yola aparır. Müxtəlif şəraitlərdə növbənöv vəzifələri yerinə yetirənlər Allahın razılığını qazanır və doğru yola çatırlar.

9. Doğru yola çatmaq üçün peyğəmbər və kitab kifayət etmir. Bu işdə Allahın lütf və istəyi də zəruridir.

10. Nə cəbr (məcburiyyət), nə də təfviz (özbaşına buraxılma). Həqiqət bu iki yol arasındadır. İnsan seçim aparır. Amma Allahın iradəsi olmadan məqsədə çatmaq olmur.

11. Quran bütün zülmətlərin şəfabəxş məlhəmidir. Cəhalət, şirk, təfriqə, vəhşilik, şəkk-şübhə, nəfs istəkləri, xurafat, cinayət, iztirablar zülməti Quran vasitəsi ilə elm, tövhid, vəhdət, mədəniyyət, yəqin, haqq, səfa və aramlıq nuruna çevrilir.

**17:** ﴿لَقَدْ كَفَرَ الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ هُوَ الْمَسِيحُ ابْنُ مَرْيَمَ قُلْ فَمَن يَمْلِكُ مِنَ اللّهِ شَيْئًا إِنْ أَرَادَ
أَن يُهْلِكَ الْمَسِيحَ ابْنَ مَرْيَمَ وَأُمَّهُ وَمَن فِي الأَرْضِ جَمِيعًا وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا
بَيْنَهُمَا يَخْلُقُ مَا يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**"Allah Məryəmin oğlu Məsihdir" deyənlər, şübhəsiz ki, kafir oldular. (Ey peyğəmbər, onlara) de ki, əgər Allah Məryəm oğlu Məsih, onun anası və yer üzündə olan hər kəsi həlak etmək istəsə, kimin bunun (qəhrin) qarşısında əlindən bir iş gələr? Göylər və yer, onların arasında olanlar Allahın hakimiyyətindədir. İstədiyini yaradır, Allah hər şeyə qadirdir."**

## *Nöqtələr*

◘Məsihilərin Allahla bağlı bir neçə əsassız iddiaları var. Quran onlara işarə edir:

1.Üç məbuda etiqad. [1]

2. Yaradan Allahın üç məbuddan biri (ata Allah) olmasına etiqad.[1]

---

[1] "Nisa", 171.

3. İlahiliyin Məsihə aid edilməsi. (Bu ayə həmin iddianı rədd edir.)

◘“İstədiyini yaradır” ifadəsi İsanın atasız, Adəmin ata-anasız yaranışına işarədir.

◘Əgər həzrət Məsih Allah idisə, necə oldu ki, (məsihilərin əqidəsinə görə) öldürüldü və xaç onun məzlumiyyət nişanəsi oldu? Allah sui-qəsd edə bilməz!

## *Bildirişlər*

1. İslam istənilən bir məktəbə aid küfr, şirk və xurafatla müxalifdir. (Həddi aşmaq da küfrün bir növüdür.)
2. Peyğəmbərə müxaliflərlə məntiq əsasında danışmaq əmr olunub.
3. Əgər məsih Allah olsaydı, qadın bətnində qərar tutmazdı.
4. Fəna və yoxluq Allahlıqla uyğun gəlmir.
5. İsa, onun anası və bütün bəşəriyyət Allah qarşısında acizlikdə eynidirlər.
6. İsa kimi bir insanı Allah bilmək məsihilərin Allahı tanımaması nişanəsidir.
7. İlahi qüdrət məhdud bir nizam çərçivəsində deyil. Allah, ata olmadan da övlad yarada bilər.

**18.** ﴿وَقَالَتِ الْيَهُودُ وَالنَّصَارَى نَحْنُ أَبْنَاءُ اللهِ وَأَحِبَّاؤُهُ قُلْ فَلِمَ يُعَذِّبُكُم بِذُنُوبِكُم بَلْ أَنتُم بَشَرٌ مِّمَّنْ خَلَقَ يَغْفِرُ لِمَن يَشَاءُ وَيُعَذِّبُ مَن يَشَاءُ وَلِلهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا بَيْنَهُمَا وَإِلَيْهِ الْمَصِيرُ﴾

**“Yəhudilər və məsihilər dedilər: “Biz Allahın oğulları və (xüsusi) dostlarıyıq.” De ki, bəs nə üçün sizi günahlarınıza görə cəzalandırır? (Belə deyil,) siz də Onun məxluqlarından olan insanlardansınız. (Üstünlüyünüz yoxdur.) (Allah) istədiyini (layiqli bilsə) bağışlayar və istədiyinə əzab verər. Göylərin və yerin, onların ikisi arasında olanların hakimiyyəti Allahındır. Qayıdış və son yalnız Ona doğrudur.”**

## *Nöqtələr*

◘İslam peyğəmbəri yəhudilərdən bir dəstəsini İslama dəvət ediyi vaxt onlar dedilər: “Biz Allahın övladları və dostlarıyıq.” (Bu iddia Yuhanna İncilində, səkkizinci fəsil, 41-ci cümlədə bəyan olunmuşdur.)

◘Yəhudilər və məsihilər özlərini Allahın gerçək oğlanları yox, oğulluq şərəfinə malik kəslər kimi təsəvvür edirdilər.

◘Peyğəmbərlərin qətlə yetirilməsi, İslam peyğəmbərinin gəlişini bildirən müjdələrin gizlədilməsi, əhdin sındırılması, səmavi kitabların təhrifi, buzovpərəstlik, bəhanəçilik, qarınqululuq Bəni-İsrailin cinayətlərindəndir. Dağın yerindən qoparılması, qırx illik avaralıq, məsx və zillət ilahi cəza nümunələrindəndir.

[1] “Maidə” 73.

## *Bildirişlər*

1. İrqçilik, imtiyaz istəyi, yalnız özünü və mənsub olduğu firqəni haqlı bilmək qadağandır.

2. Heç bir fərd, qövm, millət və ümmət Allahın bağışlayacağına əmin olmamalıdır. Eləcə də, Allahın rəhmətindən məyus olmaq qadağandır.

**19:** ﴿يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ عَلَى فَتْرَةٍ مِّنَ الرُّسُلِ أَن تَقُولُواْ مَا جَاءنَا مِن بَشِيرٍ وَلاَ نَذِيرٍ فَقَدْ جَاءكُم بَشِيرٌ وَنَذِيرٌ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Ey kitab əhli! Həqiqətən, Bizim rəsulumuz peyğəmbərlərin olmadığı bir dövrdə sizə doğru gəldi ki, (həqiqətləri) sizin üçün bəyan etsin. Məbada, deyəsiniz ki, bizə müjdə verən və bizi qorxudan (bir kəs) gəlmədi. Həqiqətən də, sizin üçün müjdəçi və qorxudan gəldi. Allah hər şeyə qadirdir.”**

## *Nöqtələr*

◘Həzrət Məsih ilə həzrət Məhəmməd (s) arasında altı yüz il fasilə olmuşdur. Peyğəmbərlərin məbus olmadığı dövrlərdə yer ilahi höccətsiz qalmır, peyğəmbərləri onların canişinləri əvəz edir. Həzrət Əlinin (ə) təbirincə, istər qüdrətli ola, istərsə də qüdrətsiz, yer heç vaxt ilahi höccətsiz qalmır. Çünki ilahi yol o yolu gedənlər üçün məxfi qalmamalıdır.”[1] Demək, fətrət dövrü (iki peyğəmbər arasında peyğəmbərin olmadığı dövr) xalqın başlı-başına qalması mənasını daşımır.

◘Qısa və ya uzun müddətli fətrətlərdə bir hikmət var. İlahi tərbiyə nizamında bu proqramın özünəməxsus faydası var. Fətrətə nümunə olaraq tarixdə həzrət Musanın öz qövmündən ayrılması, peyğəmbərlərin etikafı (ibadət üçün kənara çəkilməsi), peyğəmbərdən vəhyin qət olması, imam Mehdinin (ə) kiçik və böyük qeybi göstərilə bilər.

## *Bildirişlər*

1. İslam kitab əhlini imana doğru dəvət edir.

2. Gizlədilmiş, təhrif olunmuş və ya unudulmuş həqiqətlərin bəyanı peyğəmbərlərin vəzifələrindən biridir.

3. İlahi hökmlərin bəyanında peyğəmbərlərə ehtiyac var.

4. Peyğəmbərlərin besəti (gəlişi) bəşəriyyət üçün üzr və bəhanə yeri qoymur.

5. Müjdə və qorxutma peyğəmbərlərin təbliğat üsullarındandır.

6. İnsan yol seçimində azaddır. Peyğəmbərlərin vəzifəsi yalnız müjdə və agahlıq verməkdir. Peyğəmbərlərin işində məcburiyyət və ikrah yoxdur.

7. Dərs oxumamış bir peyğəmbərin gizlədilmiş maarifi açmasına və ya baş vermiş təhrifləri aradan qaldırmasına şübhə edilməməlidir. Çünki Allah hər işə qadirdir.

---

[1] “Nəhcül-bəlağə”, qısa kəlamlar, 137.

20. ﴿وَإِذْ قَالَ مُوسَى لِقَوْمِهِ يَا قَوْمِ اذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ إِذْ جَعَلَ فِيكُمْ أَنبِيَاء وَجَعَلَكُم مُّلُوكًا وَآتَاكُم مَّا لَمْ يُؤْتِ أَحَدًا مِّن الْعَالَمِينَ﴾

**"(Xatırlayın) O zaman ki, Musa öz qövmünə dedi: "Ey mənim qövmüm! Özünüzə Allahın nemətini xatırladın. Bir zaman ki, sizin aranızda peyğəmbərlər qərar verdi, sizə mükafatlar təyin etdi (Var-dövlət, can, namus, hökumət sahibi oldunuz) sizə elə şeylər verdi ki, aləmdəkilərdən kimsəyə verilməmişdi."**

## *Nöqtələr*

◘İlahi nemətlərin yada salınması Allah eşqi, nemətlərin şükrü, bəndəlik, ilahi göstərişlər qarşısında təslimçilik səbəbidir.

◘"Məlik" həm hakim və rəhbər, həm də sahib mənasını bildirir. Bir rəvayətdə peyğəmbərin belə buyurduğu nəql olunur: "Bəni-İsraildə arvadı, xidmətçisi, miniyi olan kəsə malik deyirdilər."[1] Əgər ayədəki "muluk" sözünü "sultan"kimi mənalandırsaq, təbii ki, bütün xalq sultan ola bilməz. Ona görə də uyğun söz ixtiyar sahibi kimi mənalandırılmalıdır.

◘Nil çayından keçmək, "mənn və səlva" kimi nemətlərin göndərilməsi, on iki su çeşməsinin qaynaması Bəni-İsrailə əta olunmuş xüsusi nemətlərdən idi və bu ayə həmin nemətlərə işarə edir.

## *Bildirişlər*

1. Xalqı dəvət edərkən onun mənəvi hisslərindən istifadə olunmalıdır.
2. İlahi göstərişləri bəyan etməzdən qabaq xalq ilahi lütflərin yada salınması ilə hazırlanmalıdır. (Bu ayədə nemətlər zikr olunur, növbəti ayədə mühüm ilahi göstəriş bildirilir.)
3. Nübuvvət, hökumət və qüdrət ən böyük nemətlərdəndir.
4. İlahi nemətlərin xalqa xatırladılması peyğəmbərlik vəzifələrindəndir.
5. Həzrət Musadan qabaq da Bəni-İsrail arasında peyğəmbərlər olmuşdur. Həzrət Musa onların varlığını bir nemət kimi yada salır.
6. Peyğəmbərlər hakimiyyət və istiqlal üçün zəmin yaratmışlar.
7. Tarixdən ibrət götürək. Musanın qövmü xüsusi ilahi lütflərdən bəhrələndikdən və hakimiyyətə çatdıqdan sonra zillət və miskinliyə düça oldular. Kimsəyə verilməmiş nemətlər ilahi qəzəbə çevrildi.

21. ﴿يَا قَوْمِ ادْخُلُوا الأَرْضَ المُقَدَّسَةَ الَّتِي كَتَبَ اللّهُ لَكُمْ وَلاَ تَرْتَدُّوا عَلَى أَدْبَارِكُمْ فَتَنقَلِبُوا خَاسِرِينَ﴾

**"(Musa buyurdu:) Ey mənim qövmüm! Allahın sizin üçün müəyyənləşdirdiyi müqəddəs torpağa varid olun və ziyankarlardan olmamaq üçün geriyə dönməyin."**

---

[1] "Təfsire-Əl-mizan".

## *Nöqtələr*

◘«Müqəddəs yer» dedikdə ya bütün Suriya, İordaniya, Fələstin məntəqəsi, ya da təkcə Beytül-müqəddəs nəzərdə tutulur.

◘«Geriyə dönməmək» deyildikdə ya ilahi göstərişlərə arxa çevirməmək, ya da haqq yolda dayanmamaq nəzərdə tutulur.

## *Bildirişlər*

1. Rəhbər və xalqın rabitəsi dərin və qəlbən olmalıdır.
2. Müqəddəs torpaqlar azğınların çəngindən xilas edilməlidir.
3. Yer üzündəki bütün məntəqələr eyni deyil. Bəzi yerlərin müqəddəsliyi var.
4. Savaşda geri çəkilməmək əmri Bəni-İsrailin üsyankar ruhiyyəsini göstərir.
5. Cəbhədən qaçmaq haramdır.
6. İlahi nemətlərdən faydalanmağın məsuliyyəti var.
7. Müqəddəs məkanlardan məhrumluq ziyankarlıq nümunələrindəndir.

22. ﴿قَالُوا يَا مُوسَى إِنَّ فِيهَا قَوْمًا جَبَّارِينَ وَإِنَّا لَن نَّدْخُلَهَا حَتَّىَ يَخْرُجُواْ مِنْهَا فَإِن يَخْرُجُواْ مِنْهَا فَإِنَّا دَاخِلُونَ﴾

**“(Bəni-İsrail cavab olaraq) dedi: “Ey Musa! Həqiqətən, həmin yerdə zalım bir qövm var və nə qədər ki, onlar oradan çıxmayıb, heç vaxt ora daxil olmarıq. Əgər oradan çıxsalar, şübhəsiz daxil olarıq.”**

## *Nöqtələr*

◘“Cəbbar” “cəbr” sözündən olub qəhr-qəzəb və təzyiq vasitəsi ilə islah və bir şeyin aradan qaldırılmasını bildirir. Allaha münasibətdə hər iki mənadan istifadə olunur.[1]

◘“Qovmən cəbbarin” ifadəsi sami irqindən olan, Ərəbistanın şimalında Sina səhrasında yaşamış və Misirə hücum edib beş yüz il hakimiyyət sürmüş qövmə aiddir.[2]

## *Bildirişlər*

1. Bir məmləkətdə azğınların olması layiqli insanların həmin yerdən uzaqlaşması üçün dəlil ola bilməz.
2. Səbir edib düşmənin tutduğu yerdən çıxmasını gözləmək yox, onu həmin yerdən çıxarmaq lazımdır.
3. Rahattələblik qadağandır. Addım atmaq və düşməni qovmaq üçün Allahdan yardım diləmək lazımdır. (Quran Bəni-İsraili gözləmə mövqeyi tutduğu üçün tənqid edir.
4. Mübarizə aparmadan qələbə istəmək yanlış düşüncədir.

---

[1] “Təfsire-Nümunə”.
[2] “Dairətül-məarif”, Fərid Vəcdi.

5. İtaətsizlikdən də pisi inadkarlıqdır. (Ayədəki “lən” sözü cəsarət və inadkarlığa işarədir.)

**23.** ﴿قَالَ رَجُلاَنِ مِنَ الَّذِينَ يَخَافُونَ أَنْعَمَ اللّهُ عَلَيْهِمَا ادْخُلُواْ عَلَيْهِمُ الْبَابَ فَإِذَا دَخَلْتُمُوهُ فَإِنَّكُمْ غَالِبُونَ وَعَلَى اللّهِ فَتَوَكَّلُواْ إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“(Allahdan) qorxan və Allahın hikmət (ağıl, iman və şücaət) verdiyi iki şəxs dedi: “Şəhər darvazasından düşmənin üstünə yeriyin (və qorxmayın), elə ki, daxil oldunuz, həqiqətən, qalibsiniz. Əgər imanınız varsa, Allaha təvəkkül edin.”**

## *Nöqtələr*

◘Təfsirdə bildirilir: Həmin iki şəxs Bəni-İsrailin on iki nüfuzlu şəxslərindən idi. Həmin iki şəxsin adı Tövratda «təsniyə» kitabında çəkilmişdir: Yuşə ibn Nun və Kalib ibn Yufna.[1] İmam Baqir (ə) buyurmuşdur: “Bu iki şəxs həzrət Musanın əmioğlanları idilər.”[2]

◘“Təfsire-Əl-mizan”da Əllamə Təbatəbainin bildirdiyinə görə, Quranda «nemət» sözü haqqında xüsusi qeyd yoxdursa, bu söz vilayət və nübuvvət nemətlərinə işarədir.”

## *Bildirişlər*

1. Allah qorxusu ilahi lütf və nemətlərin əldə olunması üçün zəmindir.
2. Allahdan qorxan şəxs məsuliyyət hiss edir, peyğəmbərin göstərişlərinə itaəti vacib sayır və başqa qüdrətlər qarşısında təslim olmur.
3. Allah qorxusu şücaət, cürət və əməl zəminəsidir.
4. Allah qorxusu ilahi bir nemətdir.
5. Hücum gedişində döyüşçülərə ruhiyyə verilməlidir.
6. İlahi qorxu və təqva insana bəsirət, düzgün və aydın təhlil gücü verir.
7. Təvəkkül xalisanə və yalnız Allah üçün olmalıdır.
8. Əgər iman əhli meydana şücaətlə daxil olsa, azğınlar meydanı tərk edərlər.
9. Müvəffəqiyyətin əsas səbəbi maddi imkanlar yox, iman və təvəkkül, qətilik və cürətdir.
10. Təvəkkül kifayət etmir. İnsan həm də məqsədə doğru səy göstərməlidir.
11. Təvəkkül iman nişanəsi, çətin vəziyyətlərdə və qorxu olan yerdə qurtuluş yoludur.
12. Sizdən hərəkət, Allahdan bərəkət və qələbə.
13. Təvəkkül təkcə dildə olmur, imandan doğan ruhiyyə də lazımdır.

**24.** ﴿قَالُواْ يَا مُوسَى إِنَّا لَن نَّدْخُلَهَا أَبَدًا مَّا دَامُواْ فِيهَا فَاذْهَبْ أَنتَ وَرَبُّكَ فَقَاتِلا إِنَّا هَاهُنَا قَاعِدُونَ﴾

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-Nurus-səqəleyn”.

**“(Bəni-İsrail) dedi: “Ey Musa! Nə qədər ki, onlar (zalımlar) həmin şəhərdədir, biz heç vaxt oraya daxil olmayacağıq. Sən və sənin Allahın gedin (onlarla) döyüşün. Biz isə buradaca oturmuşuq.”**

## *Nöqtələr*

◘Həm Məkkə, həm də Beytül-müqəddəs müqəddəs yerlərdir. Musa öz qövmünə buyurdu: “Oraya daxil olun və düşmənlə döyüşün.” Amma onun qövmü bəhanə gətirib, Musanın əmrinə qarşı çıxdılar. Müsəlmanlar isə hicri səkkizinci ildə ümrə məqsədi ilə Peyğəmbərin (s) ardınca Məkkəyə yaxınlaşdılar. Əgər həzrət icazə versəydi, onlar şəhərə hücum edərdilər. Bu səfərdə Hüdəybiyyə sülhü baş verdi. Bəli, hər iki qövm müqəddəs şəhərin darvazasına çatmışdı. Amma onlardan biri qaçmaq, digəri hücum əzmində idi.

◘Düşmənlə mübarizədə Bəni-İsrailin süstlüyü o qədər məşhur idi ki, müsəlmanlar Bədr savaşından (hicri ikinci ildə) və Məkkəyə daxil olan zaman (hicri altıncı ildə) deyirdilər: “Biz Bəni-İsrail kimi deyilik ki, “buradaca oturmuşuq” deyək. Biz sənin əmrinlə döyüşə hazırıq.”

◘İlahi rəhbərlərin öz vəzifələrinin icrasındakı təlaşları yalnız xalq itaət etdikdə səmərəyə çatır.

## *Bildirişlər*

1. Bəni-İsrail ədəbsizlik, bəhanəçilik, zəiflik və rifahtələblik nümunəsi idi. “Daxil olmayacağıq” təbiri onların Allah əmri qarşısındakı cəsarətlərindən danışır. “Heç vaxt” təbiri onların öz qərarlarında israrlı olduğunu göstərir. “Sən get” təbiri həzrət Musaya qarşı hörmətsizliyin nişanəsidir. “Sənin Allahın getsin” təbiri Bəni-İsrailin Allaha hörmətsizliyinin və iman zəifliyinin göstəricisidir. “Oturmuşuq” təbiri onların rifahtələblik və izzətpərəstlik göstəricisidir.
2. Xalq cəmiyyətin islahını təkcə Allahdan və ilahi rəhbərdən gözləməməli, özləri də çalışmalıdır.
3. Çalışmadan qələbəyə çatmaq arzusu düşüncəsizlikdir.

**25. ﴿قَالَ رَبِّ إِنِّي لا أَمْلِكُ إِلاَّ نَفْسِي وَأَخِي فَافْرُقْ بَيْنَنَا وَبَيْنَ الْقَوْمِ الْفَاسِقِينَ﴾**

**“(Musa) dedi: “Pərvərdigara! Həqiqətən, məndə özümdən və qardaşımdan başqasının ixtiyarı yoxdur. Bizimlə günahkar qövm arasında ayrılıq sal.”**

## *Nöqtələr*

◘Həzrət Musa Bəni-İsrailin hərəkətindən məyus olduqdan sonra Allah dərgahına şikayət etdi.

◘Musa ona görə günahkar qövmdən ayrılıq istəyirdi ki, öz ardıcıllarının günahkarlarla birlikdə ilahi qəzəbə düçar olmasından qorxurdu. Ya da bu istəyin arxasında kafirlərin ölümü dayanırdı.

◘Musanın yalnız özü ilə qardaşını xatırlaması və onlarla birlikdə xalqı şəhərə doğru dəvət edən iki nəfəri yada salmaması barədə təfsirçilər müxtəlif fikirlər söyləmişdilər:

–Musa həmin iki nəfərin də sabitqədəmliyinə əmin deyildi.[1]

–Həmin iki nəfəri xalq daşqalaqla hədələdiyindən Musa dedi: "Pərvərdigara! Mənim heç bir gücüm yoxdur, həta həmin iki nəfər də təhlükədədir."[2]

## *Bildirişlər*

1. Qurandakı əksər dualarda "Rəbb" adından yardım istənilir.
2. Bütün xalq bizə arxa çevirdiyi halda əsil nicat verənə bağlanaq.
3. Peyğəmbərlər o zaman xalqa şikayət edib nifrinə əl atırlar ki, xalqın iman və itaətindən məyus olurlar.
4. Cihaddan boyun qaçırmaq günahdır.
5. İctimai bəlalardan biri xalqın övliyalardan üz döndərməsi və onların faydasından məhrum qalmasıdır.
6. Möminlər üçün bəla və çətinliklərdən biri günahkarlarla birlikdə yaşayışdır.

**26.** ﴿قَالَ فَإِنَّهَا مُحَرَّمَةٌ عَلَيْهِمْ أَرْبَعِينَ سَنَةً يَتِيهُونَ فِي الأَرْضِ فَلاَ تَأْسَ عَلَى الْقَوْمِ الْفَاسِقِينَ﴾

**"(Allah Musaya) buyurdu: "Doğrudan da, o (müqəddəs yer) qırx ilədək onlara qadağan olundu. (Süstlük və müxalifətçiliklərinə xatir bu uzun müddəti) yer, üzündə avara qalacaqlar. Bu günahkar qövmə görə təəssüf etmə."**

## *Nöqtələr*

◘"Tiyh" kökündən olan "yətihunə" sözü avaralıq mənasını bildirir. Sina səhrası, həmin qövmün avara qaldığı məhəl də belə adlanır. Onlar qırx il bu məntəqədə qalıb yer üzünün bərəkətindən məhrum oldular.

◘Bəni-İsrailin müxalifətçiliyi, ilahi qəzəb və onların səhrada avaralığı Tövratın "Sifre-Ədad" kitabının dördüncü fəslində bəyan olunmuşdur.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Allah həzrət Musanın göstərişinə qarşı çıxdıqları üçün Bəni-İsrailə və onların övladlarına Beytül-Müqəddəsə daxil olmağı qadağan etdi. Nəhayət, onların övladlarının övladları Beytül-müqəddəsə daxil olmağa müvəffəq oldular. (Yəni onların qadağaya düçar olmuş ata və atalarının övladları həyatda ikən müqəddəs əraziyə girmək mümkünsüz oldu.)[3]

◘Rəvayətdə oxuyuruq: Bəni-İsrailin başına gələnlərin oxşarı müsəlmanlar üçün də önə gələcək.[4]

◘Qırx rəqəmində bir rəmz var. Bu rəmzdə həm ilahi qəzəb, həm də ilahi lütf əks olunur. Həzrət Musa Tövratı almaq üçün qırx gecə Tur dağında qaldı. Yəhudilər də öz növbələrində qırx il avara qaldılar.

◘Bəzən yeni nəsil köhnə nəslin məhv edilməsi yolu ilə islah edilir. Musanın qədrini bilməyən Firon tərəfdarları dünyadan getməlidirlər ki, yeni nəsil azad fəzada, səhra həyatının çətinlikləri içində, səmavi rəhbərlərin sayəsində şəhər

---

[1] "Təfsire-Məraği".
[2] "Təfsire-Ətyəbul-bəyan".
[3] "Təfsire-Əyyaşi".
[4] "Bihar", c. 28, s. 14-30.

həyatının qədrini bilsinlər. Hədisdə nəql olunur ki, onlar Tih məntəqəsində dünyalarını dəyişdilər və onların övladları müqəddəs əraziyə daxil oldular.

## *Bildirişlər*

1. Müharibədən fərariliyin cəzası məhrumiyyətdir.
2. Günahkarlıq müqabilində verilən cəzanın bir növü avaralıqdır.
3. Cəbhəyə getməyənlər və cəbhədən qaçanlar bəzi imkanlardan və nemətlərdən məhrum olmalıdırlar.
4. Peyğəmbərlər xalqa can yandırırlar.
5. Günahkarlara can yandırmayın. (Günahkarın tənbehi fərd və cəmiyyətin sağlamlığı üçün acı dərman kimidir.)

27: ﴿وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَانًا فَتُقُبِّلَ مِن أَحَدِهِمَا وَلَمْ يُتَقَبَّلْ مِنَ الآخَرِ قَالَ لَأَقْتُلَنَّكَ قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللّهُ مِنَ الْمُتَّقِينَ﴾

**“(Ey peyğəmbər,) Adəmin iki oğlunun əhvalatını xalqa olduğu kimi oxu. O zaman ki, (onlardan hər biri) qurbanlıq gətirdi, birindən (Habildən) qəbul olundu, o birindən (Qabildən) qəbul olunmadı. (Qabil) dedi: “Səni hökmən öldürəcəyəm.” (Habil) dedi: “Allah yalnız təqvalılardan qəbul edir.”**

## *Nöqtələr*

◘“Olduğu kimi oxu” ifadəsində məqsəd bu ola bilər ki, bu macəra Tövratda təhrif olunmuşdur və Quranda deyilən həqiqidir.

◘Rəvayətdə deyilir ki, Habil heyvandar idi və özünün ən yaxşı qoyununu qurbanlığa gətirdi. Qabil isə əkinçi idi və öz məhsulunun ən pisini Allah yolunda infaq etdi. [1] Quran buyurur: “Yalnız sevdiyindən infaq edən kəs xeyirə çatar.[2]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Qabilin qatillik səbəbi Habilin qurbanlığının qəbul olmasına qarşı həsəd idi.”[3]

## *Bildirişlər*

1. İbrət üçün keçmişdəkilərin tarixini öyrənmək və araşdırmaq lazımdır.
2. Tarixə nəzər salarkən mühüm məsələləri araşdırmaq lazımdır. (“Nəbəə” mühüm xəbər deməkdir.)
3. Tarixi hadisələri əfsanələrdən fərqləndirmək lazımdır. (Habillə Qabilin qurbanlıq əhvalatı əfsanə deyil.)
4. Əsas məsələ qurbanlıq yox, Allahla yaxınlıqdır. Qurbanlığın nə olması əhəmiyyətli deyil. (“Qurbanən” sözü qeyri-müəyyən formada işlədilmişdir.)
5. Əməllərin qəbul və ya rədd olunmasında peyğəmbərin oğlu olmağın rolu yoxdur. Ona görə də Habildən qəbul olundu, Qabildən isə yox.
6. Bəşər tarixi ilə birlikdə qətl və qan tökmə tarixi başlamışdır.

---

[1] “Kafi”, c. 8, s. 113.
[2] “Ali-İmran”, 92.
[3] “Təfsire-Nurus-səqəleyn”.

7. Bəzən həsəd qardaş qırğınına da aparır.
8. Qətllə hədələyənə də məntiqi cavab verilməlidir.
9. Əməllərin qəbulu və ya rədd edilməsində amillər və xislətlərin rolu var.
10. Əməlin qəbul ölçüsü təqvadır. Bu işdə şəxsiyyət və işin çeşidinin rolu yoxdur.
11. Əməlin qəbul və ya rədd olunmasında yeganə fərq təqvadır.

28. ﴿لَئِن بَسَطتَ إِلَيَّ يَدَكَ لِتَقْتُلَنِي مَا أَنَاْ بِبَاسِطٍ يَدِيَ إِلَيْكَ لَأَقْتُلَكَ إِنِّي أَخَافُ اللّهَ رَبَّ الْعَالَمِينَ﴾

**“(Habil qardaşı Qabilə dedi:) «Əgər məni öldürmək üçün əlini uzatsan, mən heç vaxt səni öldürmək üçün əl uzatmayacağam. Çünki mən Allahdan, aləmlərin Rəbbindən qorxuram.»**

## *Nöqtələr*

◘Habil dedi: «Mən səni öldürmək fikrində deyiləm. Qatilə təslimçilik təqvaya uyğun gəlmədiyindən müdafiəsiz də durmayacağam.»

## *Bildirişlər*

1. Həsədçil insanla rəftarda aram danışaq və bu yolla həsəd alovunu söndürək.
2. Nəhy əz münkər yollarından biri budur ki, qarşı tərəfi hər hansı təcavüzün olmayacağından əmin edək.
3. Zəiflik səbəbindən yox, Allah qorxusu səbəbindən öldürməmək dəyərlidir.
4. Təqva və Allah qorxusu ən həssas məqamlarda günah və müxalifçiliyin qarşısının alınması amilidir.
5. Allahdan qorxu Onun hərtərəfli rübubiyyətinə iman təzahürlərindəndir.
6. Aləm ilahi rübubiyyətin izhar məhəllidir.

29. ﴿إِنِّي أُرِيدُ أَن تَبُوءَ بِإِثْمِي وَإِثْمِكَ فَتَكُونَ مِنْ أَصْحَابِ النَّارِ وَذَلِكَ جَزَاء الظَّالِمِينَ﴾

**“Həqiqətən, mən istəyirəm ki, sən mənim günahım və öz günahınla (Allaha tərəf) qayıdasan və cəhənnəm əhlindən olasan. Və budur zalımların cəzası!»**

30. ﴿فَطَوَّعَتْ لَهُ نَفْسُهُ قَتْلَ أَخِيهِ فَقَتَلَهُ فَأَصْبَحَ مِنَ الْخَاسِرِينَ﴾

**“Nəfsi (həsəddən doğan vəsvəsələrlə) qardaşını qətlə yetirməyi onun üçün asan və ram etdi. Onu öldürdü, nəticədə ziyankarlardan oldu.”**

## *Nöqtələr*

◘İmam Baqir (ə) “fətəvvəət ləhu nəfsuhu” ayəsini oxuduqdan sonra buyurdu: “İblis Qabilə dedi: “Sənin qurbanlığın rədd, qardaşın Habilin qurbanlığı isə qəbul

olundu. Əgər sağ qalsa, tarix boyu onun nəsli sənin nəslin qarşısında öyünəcək ki, atalarının qurbanlığı qəbul olunub. Yaxşısı budur ki, onu öldürəsən ki, nəslin zillət çəkməsin.”[1]

◘İmam Baqir (ə) buyurmuşdur: “Hər kəs bir mömini öldürsə, Allah öldürülənlərin bütün günahını qatilin hesabına yazar və öldürüləni günahdan pak edər.”[2]

◘Ayənin mənası bu deyil ki, günahların bağışlanması ümidi ilə insan zalımın qarşısında sussun.

◘Həzrət Peyğəmbərdən (s) nəql olunmuş bir hədisdə oxuyuruq ki, hadisə Dəməşqdəki Qasiyun dağında baş vermişdir.[3]

◘İmam Səccad (ə) buyurmuşdur: “İblis qətl üsulunu Qabilə öyrətdi.”[4]

## *Bildirişlər*

1. Öldürülənin günahları öldürənə keçir.
2. Döyüşdə zərərin məsuliyyəti döyüşə başlayanın öhdəsinə düşür.
3. Qardaş qətli cəhənnəmlik olmağa səbəbdir.
4. Məada etiqad yer üzündəki insanların ilkin əqidələrindəndir.
5. Qatil həm özünə, həm öldürdüyü şəxsə, həm öldürülənin ailəsinə, həm də cəmiyyətə zülm edir.
6. İnsanın nəfsi vəsvəsələr, təlqin və bəzək-düzəklə insanı aldadıb günaha çəkir.
7. Nəfs azğınlığı insandakı qardaşlıq hisslərini boğa bilər.
8. Pak insan fitrəti qətlilə uyğun deyil. Amma azğın nəfs bu işi gözəl göstərib, insanı qətlə sövq edir.
9. Bəşər tarixinin başlanğıcından haqla batil arasında döyüş olmuşdur.
10. Yer üzündə insan ölümü şəhadətlə başlamışdır.
11. Nəfs istəyinə tabeçilik zərərdir.
12. Qatil də daxilən vicdan əzabı çəkir. O, xalq tərəfindən məzəmmət olunur, qisas və ədalətdən yaxa qurtara bilmir, kam almaqdan məhrum qalır.
13. Müxalif üzərində qələbə bəzən başıucalıq gətirmir.

**31.** ﴿فَبَعَثَ اللَّهُ غُرَابًا يَبْحَثُ فِي الْأَرْضِ لِيُرِيَهُ كَيْفَ يُوَارِي سَوْءَةَ أَخِيهِ قَالَ يَا وَيْلَتَا أَعَجَزْتُ
أَنْ أَكُونَ مِثْلَ هَٰذَا الْغُرَابِ فَأُوَارِيَ سَوْءَةَ أَخِي فَأَصْبَحَ مِنَ النَّادِمِينَ﴾

**“Allah bir qarğa göndərdi ki, yeri qazmaqla qardaşının cəsədini necə basdırmağı göstərsin. (Qabil) dedi: “Vay olsun mənə! Bu işdə bu qarğa qədər də olmaqda acizəm ki, qardaşımın cəsədini dəfn edəm! Nəhayət, o peşmançılardan oldu.”**

---

[1] “Kafi”, c. 8, s. 113.
[2] “-Nurus-səqələyn”.
[3] “Təfsire-Dürrül-Mənsur”.
[4] “Təfsire-Nurus-səqələyn”.

## *Nöqtələr*

◘Qabil qardaşını öldürdükdən sonra cəsədin ətrafına yırtıcıların toplaşdığını görüb, onu çiyninə götürdü. Amma bunun bir faydası olmadı. Yerində donub qalmış Qabil gördü ki, bir qarğa ölmüş başqa qarğanı basdırır. Qarğadan bu işi öyrənib öz qardaşının cəsədini dəfn etdi.

◘«Ğurab» dimdiyi və ayaqları qırmızı, qarğaya oxşar bir quşdur.[1]

◘İlk insanlar çox təcrübəsiz olmuşlar. Amma Allah-təala müxtəlif yollarla daim bəşəriyyətə lütf etmişdir.

◘İmam Səccad (ə) buyurmuşdur: "Allah iki qarğa göndərdi və qarğalardan biri o birini öldürdü. Sonra qatil qarğa dimdiyi ilə çala qazıb ölü qarğanı dəfn etdi.[2]

◘İmam Səccad (ə) buyurmuşdur: "Peşmançılıq doğuran günahlardan biri günahsız insanın qətlə yetirilməsidir."[3]

## *Bildirişlər*

1. Bəzən heyvanlar Allahın əmrini yerinə yetirir. Onlar ilahi göstəriş əsasında hərəkət edir və Allahın istədiyi yolla gedirlər.
2. Bəşəriyyət bir çox bilikləri heyvanların həyatından öyrənmişdir.
3. İnsan daim öyrənməlidir. Əsas məsələ öyrənməkdir, hətta heyvanlardan da olmuş olsa!
4. Allah bəzən insanı ilk baxışdan bacarıqsız görünən heyvan vasitəsi ilə öyrədir ki, qürrələnməsin və qarğadan da öyrənilməsi işlərin olduğunu anlasın.
5. Ölünün cəsədi torpaqda dəfn olunmalıdır. (Cəsədi saxlamaq, mumyalamaq, yandırmaq düzgün deyil.)
6. İnsanın ölüsünə də ehtiram lazımdır. Ölü insan qurd-quşa yem olmamalı, dəfn edilməlidir.
7. Peşmançılıq insan fitrətinin haqpərəstlik nişanəsidir.

32. ﴿مِنْ أَجْلِ ذَلِكَ كَتَبْنَا عَلَى بَنِي إِسْرَائِيلَ أَنَّهُ مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا وَلَقَدْ جَاءتْهُمْ رُسُلُنَا بِالبَيِّنَاتِ ثُمَّ إِنَّ كَثِيرًا مِّنْهُم بَعْدَ ذَلِكَ فِي الأَرْضِ لَمُسْرِفُونَ﴾

**"Bu səbəbdən Bəni-İsrail üçün yazdıq ki, qisas və ya yer üzündə fəsad cəzası olmadan bir insanı öldürən şəxs bütün xalqı öldürmüş kimidir. Hər kəs bir insanı diriltsə (ölümdən və ya azğınlıqdan qurtarsa), bütün xalqı diriltmiş kimidir. Əlbəttə, peyğəmbərlərimiz xalq üçün aşkar dəlillər gətirdilər. Amma (bununla belə) xalqın bir çoxu bundan (peyğəmbərlərin bildirişindən) sonra yer üzərində israfçı oldular."**

---

[1] "Qamuse-Quran.

[2] "Təfsire-bürhan"; "Təfsire-rahnoma".

[3] "Bihar", c. 73, s. 375.

## *Nöqtələr*

◘Bu ayədə bir nəfərin qətli bütün xalqın qətli kimi təqdim olunur. Bu həqiqətin izahı üçün bir neçə məsələni nəzərdən keçirək:

a) Bir nəfərin qətlinin cəzası bütün xalqın qətlinin cəzası kimidir.

b) Allah üçün bir nəfərin qətli sizin üçün bütün xalqın qətli yerindədir.

v) Bir nəfərin qətli insanlıq məqamına etinasızlıqdır.

q) Bir nəfərin qətli bütün xalqın əmin-amanlığını pozur.

d) İnsanlar bir bədənin üzvləri kimi olduğundan, bir şəxsin qətli hamının qətli kimidir.

e) Bir nəfəri öldürənin cəhənnəm məskəni hamını qətlə yetirənin cəhənnəm məskəni kimidir.[1]

ə) Bir nəfərin qətli xalqın qətlinə zəmin yaradır.

j) Bir insan bir nəslin xilaskarı ola bildiyindən onun qətli bir nəslin qətli kimidir. (Bu ehtimal daha üstün görünür.)

◘Rəvayətdə oxuyuruq: Bir mömininin qətli Allah üçün bütün dünyanın məhvindən də ağırdır.[2]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Su tapılmayan yerdə bir susuzu sirab edən kəs bir insanı diriltmiş kimidir."[3]

◘Ayə və rəvayətlərə əsasən, xalqın haqq yola hidayəti bir növ həyatvermə, xalqın azdırılması isə bir növ qətldir. "Ənfal" surəsinin 24-cü ayəsi peyğəmbərin dəvətini xalqın həyat tapması kimi təqdim edir.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Hər kəs bir azğını hidayət etsə, onu diriltmiş, hər kəs bir insanı azdırsa, onu öldürmüşdür."[4]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Diriltmə dedikdə qərq olmadan, yanmadan, yırtıcı və ya düşməndən xilas etmək nəzərdə tutulur."[5] Digər bir rəvayətdə deyilir: Aca yemək verməyən kəs onu öldürmüş kimidir. Yemək vermək isə həyat vermək yerindədir.[6]

◘İmam Baqir (ə) buyurmuşdur: "İsrafçılar o kəslərdir ki, haramları halal sayır və qanlar tökürlər."[7]

## *Bildirişlər*

1. Bəzən tarixi hadisələr ilahi hökmlər çıxarılmasına səbəb olur.
2. İnsanlar və onların taleləri tarix boyu əlaqəli olmuşdur.
3. İlahi hökmlər əbəs olmur, onlarda hikmət var.
4. Daşürəkliliyin və hadisələrin takrarının qarşısını almaq üçün cəzalandırma zəruridir.

---

[1] "Kafi", c. 7, s. 382.
[2] "Bihar", c. 10, s. 382.
[3] "Məkarimul-əxlaq", s. 135.
[4] "Kafi", c. 2, s. 210.
[5] "Təfsire-bürhan".
[6] "Kafi", c. 2, s. 204.
[7] "Təfsire-Nurus-səqəleyn".

5. İstənilən millətdən (irqdən) və məntəqədən olan insanların həyatı möhtərəmdir.

6. Bəni-İsrail qanunlarında da fəsad əhlinin edamı nəzərdə tutulmuşdu.

7. İntihar və uşaqsalma (abort) insan qətli nümunəsidir və haramdır.

8. Yer üzündə fəsad törədən, xalqın həyatını dəyərsiz sayan, onları qətlə yetirən insanın həyatı dəyərsizdir və ona son qoyulmalıdır.

9. İnsan iki halda ölümlə cəzalandırıla bilər: qatildən qisas və fəsadın qarşısını almaq adı ilə.

10. Əməlin dəyəri səbəb və məqsəddən asılıdır. Təcavüz məqsədi ilə bir insanı öldürmək bütöv bir cəmiyyəti qətlə yetirməkdir. Qisas məqsədi ilə öldürmək isə cəmiyyətə həyat verməkdir.[1]

11. Bir insanın hüquqlarına təcavüz cəmiyyətin əmin-amanlığını hədələyir. İnsanların həyatını xilas etməklə məşğul olanlar həkimlər, qəyyumlar, yanğınsöndürənlər, xeyriyyəçilər, dərman hazırlayanlar kimidir. Onlar özləri və işlərinin qədrini bilməlidirlər.

12. Ehtiyaclılara yardım və insan həyatının xilası cəmiyyətin dirilik nişanəsidir.

13. Xalqın imansızlığı və peyğəmbər göstərişlərinə itaətsizliyi tarix boyu olmuşdur.

14. İnsan azaddır (muxtar) və peyğəmbərlərin gəlişindən sonra da müxaliflik edə bilər.

**33.** ﴿إِنَّمَا جَزَاء الَّذِينَ يُحَارِبُونَ اللّهَ وَرَسُولَهُ وَيَسْعَوْنَ فِي الأَرْضِ فَسَادًا أَن يُقَتَّلُواْ أَوْ يُصَلَّبُواْ أَوْ تُقَطَّعَ أَيْدِيهِمْ وَأَرْجُلُهُم مِّنْ خِلافٍ أَوْ يُنفَوْاْ مِنَ الأَرْضِ ذَلِكَ لَهُمْ خِزْيٌ فِي الدُّنْيَا وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ﴾

**“Həqiqətən, Allah və Onun rəsulu ilə savaşa qalxanların, (silah, hədə, qarətlə) yer üzündə fəsad törətməyə çalışanların cəzası budur ki, ya öldürülsünlər, ya dara çəkilsinlər, ya əl-ayaqları çarpazı kəsilsin, ya da yerlərindən sürgün olsunlar. Bu onların zillət dolu dünyəvi cəzalarıdır və axirətdə onlar üçün böyük bir əzab var.”**

## *Nöqtələr*

◘Ayənin nazilolma şəni haqqında deyilir ki, Məkkə müşriklərindən bir qrupu Mədinəyə gəlib müsəlman oldular. Onlar xəstə olduqlarından peyğəmbərin göstərişi ilə Mədinə kənarında saf suyu və xoş havası olan bir məntəqəyə göndərildilər. Onlara zəkat olaraq dəvələrin südündən istifadə etmək icazəsi verildi. Bu qrupdakı adamlar sağaldıqdan sonra müsəlman çobanları tutub əl-ayaqlarını kəsdilər, gözlərini çıxardılar, dəvələri qarət edib apardılar. İslamdan çıxmış bu adamlar peyğəmbərin göstərişi ilə həbs edildilər. Çobanların başına gətirdikləri onların öz başlarına gətirildi. Yuxarıdakı ayə nazil oldu.

◘Ayədəki cəzalar Allahın haqlarındandır, hökumət və ya xalq həmin günahı bağışlaya, hökmü dəyişə bilməz.[1] “Əl-Mizan” təfsirində nəql olunur ki, dörd

[1] “Bəqərə”, 179.

cəzadan birini seçmək imamın ixtiyarındadır. Hətta qətlə yetirilənin sahibləri bağışlasalar da, cəzalardan biri icra olunmalıdır.

¤"Cəza" sözü yetərli cəza və ya mükafat mənasını bildirir. Yəni nəzərdə tutulan dörd cəza ədalətli və kafidir.[2]

¤Cəmiyyətin islahında həm möizə-nəsihətə, həm də qəti rəftara (qılınca) ehtiyac var. (Əvvəlki ayə qatilə xəbərdarlıq edirdisə, bu ayə təcavüzkar və fəsadçıl fərdlərin cəzasını bəyan edir.)

¤Cəza ədalətlə müşayiət olunmalıdır. Fəsad və fəsad əhlinin xüsusiyyətləri fərqli olduğundan cəzalar da fərqlənir. Məsələn, fəsad faciə ilə nəticələndikdə fəsad törədənin cəzası qətldir. Amma nəticə yüngül olduqda cəza sürgündür. Belə bir məna rəvayətlərdən əldə olunur. O cümlədən, qətlin cəzası edam, qorxutmağın cəzası sürgündür. Yol kəsmək və oğurluğun cəzası əl və ayağın kəsilməsi, qətl və silahlı yolkəsənliyin, oğurluğun cəzası əl-ayağın kəsilməsi, dara çəkilməsidir.[3]

¤İlahi hökmlər İslam hökumətində icra oluna bilər. Demək, din siyasətdən ayrı deyil.

İmama, müsəlmanların rəhbərinə, İslam hökumətinə qarşı çıxanlar Allahla döyüşə qalxanlar sayılır.[4]

¤"Bəqərə" surəsinin 279-cu ayəsinə əsasən sələmçi Allah və Onun rəsulu ilə döyüşə girişmiş hesab olunur. Çünki sələmçi iqtisadi durumda çaxnaşma salır. Rəvayətlərdə müsəlmanların alçaldılması Allahla döyüş kimi təqdim olunur.[5]

## *Bildirişlər*

1. Hökumətin vəzifəsi şəhərlərin, əyalətlərin, yolların əmin-amanlığını qorumaq, asayişi pozanlarla mübarizə aparmaqdır.
2. Allahın məxluqu ilə döyüş Allahla döyüşüdür. Xalqın tərəfdarı Allahın tərəfdarıdır.
3. Peyğəmbərin göstərişindən çıxıb onunla mübarizəyə qalxmaq Allahla mübarizəyə qalxmaqdır.
4. Cəmiyyətin əmin-amanlığını pozanlar üçün bir neçə növ cəza nəzərdə tutulmuşdur: edam, sürgün, əl-ayağın kəsilməsi, dara çəkilmə.
5. Ağır cəza təsadüfi günah üçün yox, zalımlar üçün nəzərdə tutulmuşdur. (Müzare fel davam bildirir.)
6. Allahın rəsulunun vilayətinə (hökumətinə) qarşı çıxıb onu süquta uğratmaq istəyənlər ən ağır cəzaya layiqdirlər.

**34.** ﴿إِلاَّ الَّذِينَ تَابُواْ مِن قَبْلِ أَن تَقْدِرُواْ عَلَيْهِمْ فَاعْلَمُواْ أَنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**"O kəslər istisnadır ki, sizin əlinizə keçməmişdən qabaq tövbə etmiş olsunlar. Bilin ki, Allah bağışlayan və mehribandır."**

---

[1] "Təfsire-Ətyəbul-bəyan".
[2] "Təfsire-rahnoma".
[3] "Təfsire-Safi".
[4] "Təfsire-fi zalalil-Quran".
[5] "Bihar", c.4, s.65.

## *Nöqtələr*

◘Müsəlmanları hədələyən, onların üstünə silah çəkən kəs qətl baş verməsə də, rəvayətlərə əsasən, yer üzündə fəsad törədən sayılır. Bu ayədə həmin şəxslərin tövbəsindən danışılır. Demək, hücum çəkənin və fəsadçının tövbəsi qətl-qarətə yox, qorxutmaya aiddir. Yəni tövbəyə görə xalqın haqqı yox, Allahın haqqı bağışlanır. Çünki haqqı haqq sahibi bağışlaya bilər. Hücum edənin hökmü hücum edib qətl-qarət törədənin hökmündən fərqlənir.[1] Yəni qatil hücumçu tövbə etdikdə qisas haqqı yerində qalır. Amma hücum edən şəxs yalnız qorxu yaratmışdırsa, tövbə ilə cəzadan qurtulur.

◘İlahi cəzalarda intiqam yox, fərd və cəmiyyətin tərbiyə və islah məqsədləri var. Günahkar tövbə etməlidir və bu tövbənin təsiri var.

◘Cəzanı aradan götürmək üçün həqiqi tövbəyə ehtiyac var. Günahkarın əxlaq, rəftar və danışığında tövbənin təsiri görünməli və ya ədalətli şəxslər bu tövbəni təsdiqləməlidirlər.

## *Bildirişlər*

1.Tövbə qapısı hamının üzünə açıqdır.

2. Həbs olunmamış, dara düşməmiş qılınan tövbə təsirlidir.

3. Allahın bağışlamasına inanaq.

4. Allahın bağışlaması məzəmmət və təhqirlə yox, Onun rəhməti ilə müşayiət olunur.

**35.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَابْتَغُواْ إِلَيهِ الْوَسِيلَةَ وَجَاهِدُواْ فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

**"Ey iman gətirənlər! Allahdan çəkinin və Ona doğru (yaxınlaşmaq üçün) vəsilə axtarın. Onun yolunda cihad edin. Bəlkə nicat tapasınız."**

## *Nöqtələr*

◘Həzrət Əli (ə) buyurur: "Allah və onun peyğəmbərinə inam, Onun yolunda cihad, ixlas kəlməsi, namazın bərpası, zəkat ödəmək, ramazan ayında oruc tutmaq, həcc, ümrə, sileyi-rəhm (yaxınları yoxlamaq) gizli və aşkar infaqlar, yaxşı işlər Allaha yaxınlaşmaq üçün ən yaxşı vasitələrdir.[2]

◘Əhli-beyt (ə) həmin möhkəm ip və Allaha yaxınlaşma vasitəsidir.[3]

◘Təvəssül (vasitə seçmək) haqqında İbn Həcərin "Səvaiq", Beyhəqinin "Sünən", Darəminin "Səhih", "Vəfaül-Vəfa" kimi sünni mənbələrində danışılmışdır. Bir çox Quran ayələrində də təvəssül məsələsinə toxunulmuşdur.[4]

## *Bildirişlər*

1. İman, təqva, şəfaət və cihad səadət və qurtuluş yoludur.

---

[1] "Təfsire-nümunə".
[2] "Nəhcül-bəlağə", x. 110.
[3] "Təfsire-Safi".
[4] "Nisa", 64; "Yusuf", 97; "Tövbə", 114.

2. Nicat tapmaq üçün həm günahları tərk etmək, həm də buyuruqlara itaət etmək lazımdır.

3. Bütün xeyir işlər səadət üçün həm zəmin, həm də vasitədir. (Əlbəttə ki, əgər günahlar həmin zəminəni aradan qaldırmasa.)

**36.** ﴿إِنَّ الَّذِينَ كَفَرُواْ لَوْ أَنَّ لَهُم مَّا فِي الأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لِيَفْتَدُواْ بِهِ مِنْ عَذَابِ يَوْمِ الْقِيَامَةِ مَا تُقُبِّلَ مِنْهُمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**"Həqiqətən, kafir olan kəslər qiyamət günü əzabdan qurtulmaq üçün bütün yer üzündə olanları əldə edib fidyə versələr belə, onlardan qəbul olunmaz. Onlar üçün dərdli əzab var."**

**37.** ﴿يُرِيدُونَ أَن يَخْرُجُواْ مِنَ النَّارِ وَمَا هُم بِخَارِجِينَ مِنْهَا وَلَهُمْ عَذَابٌ مُّقِيمٌ﴾

**"Onlar cəhənnəm odundan çıxmaq istəyirlər. Halbuki oradan çıxası deyillər və onlar üçün daimi əzab var."**

## *Nöqtələr*

◘Qiyamətdə bütün qurtuluş yolları bağlanmışdır. İlahi rəhmət təqva sahiblərinə məxsus olduğundan kafirlər nə ilahi rəhmətdən bəhrələnərlər[1] və həmçinin şəfaət Allahın razı qaldığı kəslərə məxsus olduğundan,[2] nə də şəfaətdən kam alarlar. Bundan əlavə, qiyamətdə ölümdən xəbər yoxdur. Çünki od daimidir və ölüm haqqında istəklər qəbul olunmur.[3]

## *Bildirişlər*

1. Var-dövlət yalnız dünyada kara gəlir. Axirətdə sərvətin heç bir səmərəsi yoxdur.

2. Qiyamət günü ilahi mühakimədə fidyə (günahın əvəzində cərimə) qəbul olunmur.

3. Səadətin əsl amili insandan kənarda (mal və sərvətdə) yox, insanın batinindədir. (İman, təqva, cihad)

4. Kafirlərin əzabı nə fidyə verməklə aradan qalxar, nə də zaman ötdükcə tükənər.

5. Dünyada bir belə xəbərdarlıq və təbliğatla şirk və cəhalət zülmətindən çıxmayan insan axirətdə də cəhənnəmdən çıxmayacaq.

**38.** ﴿وَالسَّارِقُ وَالسَّارِقَةُ فَاقْطَعُواْ أَيْدِيَهُمَا جَزَاء بِمَا كَسَبَا نَكَالاً مِّنَ اللّهِ وَاللّهُ عَزِيزٌ حَكِيمٌ﴾

**"Kişi və qadın oğrunun gördükləri işə görə əllərini kəsin. Bu, Allah tərəfindən bir cəzadır və Allah iqtidar və hikmət sahibidir."**

---

[1] "Əraf", 156.

[2] "Taha", 109.

[3] "Zuxruf", 77.

## *Nöqtələr*

◘"Nəkal" çəkindirən iş mənasını bildirir. İslamın cəza qanunları insanları günahdan çəkindirmək üçündür. Bu qanunlarda intiqam məqsədi yoxdur. "Nəkal" elə bir cəzadır ki, başqalarının ibrət götürməsinə səbəb olur.[1]

◘Bu ayədə əvvəlcə oğru kişi, sonra oğru qadın zikr olunur. "Nur" surəsinin 2-ci ayəsində isə zina hökmündən danışılarkən əvvəlcə zinakar qadın, sonra zinakar kişi yada salınır. Bəlkə də bu ardıcıllığın səbəbi oğurluqda kişinin, zinada qadının daha çox rol oynamasıdır.

◘Min il öncənin alimlərindən olmuş mərhum Seyyid Mürtəza Ələmül-Hüdadan soruşdular: "Nə üçün şəriətdə beş yüz misqal qızıl diyəsi (dəyəri) olan əl dörddə bir misqal oğurluğa görə kəsilir?" Alim belə cavab verir: "Əmanət əlin qiymətini qaldırır, xəyanət isə bu qiyməti aşağı salır."

◘Rəvayətlərə əsasən, oğrunun yalnız dörd barmağı kəsilə bilər. Baş barmaq və ovuc qalmalıdır. Oğrunun əli yalnız ən azı dörddə bir dinar (dörddə bir misqal qızıl) oğurlandığı zaman kəsilə bilər. Eləcə də oğurlanmış mal qorunan bir yerdə olmalıdır. Karvansara, hamam, məscid kimi ümumi məkanlardakı oğurluğa görə əl kəsilmir. Eləcə də, oğru oğurluğa görə əlin kəsilməsi qanunundan xəbərdar olmalıdır. Qəhətlik dövründə zora düşüb oğruluq edən insanın əli kəsilmir. Əlbəttə ki, oğrunun əli kəsilməyən bütün hallarda başqa cəzalar nəzərə tutulur. Bu mövzuda fiqh kitablarından ətraflı məlumat almaq olar.[2]

◘İslam Peyğəmbəri (s) namazda oğurluğu, yəni onun rüku və səcdələrinin naqis yerinə yetirilməsini ən pis oğurluq saymışdır.[3]

◘Bütün bu hökmlərin icrası üçün hökumətə, qüdrətə, nizama və təşkilata ehtiyac var. Bəli, İslam hökumət və siyasət dinidir.

◘İslam əlin kəsilməsindən daha çox çalışmağın əhəmiyyəti və zəruriliyi, beytül-mal və digər yollarla yoxsulların maddi ehtiyaclarının təmini haqqında danışır. Amma hər hansı çətinlik yoxsul şəxs üçün oğurluğa bəhanə ola bilməz.[4]

◘Dünyanın məhkəmə sistemi yalnız həbs və cərimələrlə kifayətləndiyindən oğurluqla mübarizədə acizdir.

◘Əlin kəsilməsi oğru üçün daimi bir xəbərdarlıq və başqaları üçün ibrətdir.

## *Bildirişlər*

1. Oğru qadınla oğru kişinin cəzası eynidir.
2. Cəmiyyətin əmin-amanlığını qəti şəkildə qorumaq lazımdır.
3. Cərimə və ağır cəza oğurluğun qarşısını alan amillərdəndir.
4. İslamın cəza qanunlarında günahkarların tənbeh olunmasından əlavə başqalarının ibrət götürməsi də nəzərdə tutulur.
5. İlahi cəzaların icrasında mərhəmət hisslərinin təsiri altına düşmək olmaz.

---

[1] "Qamuse-Quran".
[2] "Təfsire-Safi".
[3] "Təfsire-Qurtubi".
[4] "Təfsire-fi Zilalil-Quran".

6. Oğrunun əlinin kəsilməsi hakimin işi olsa da, Allah bütün möminlərə xitab edir. Bu xitabdan aydın olur ki, ilahi hədlərin icrası üçün zəmin hazırlığında onlar fəal olmalıdır.

7. Şəxsi mülkiyyət və ictimai əmin-amanlıq o qədər möhtərəmdir ki, ona xatir oğrunun əli kəsilməlidir.

8. Güc fəaliyyətləri hesablı olmalıdır.

9. Oğrunun əlinin kəsilməsi Allahın qüdrət cilvələrindəndir.

**39.** ﴿فَمَن تَابَ مِن بَعْدِ ظُلْمِهِ وَأَصْلَحَ فَإِنَّ اللّهَ يَتُوبُ عَلَيْهِ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Hər kəs öz zülmündən sonra tövbə etsə və (öz pisliklərini) islah etsə, şübhəsiz, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘İslamda cəza dəvət, tərbiyə və rəhmətlə yanaşıdır. Ötən ayədə oğrunun cəzası bəyan oldu. Burada bağışlayan Allahın dərgahına tövbəyə, çirkinliyin islahına dəvət olunur. Bu qayıdış ilahi lütfün nazil olması səbəbidir.

◘Əgər oğru həbs olunmamışdan qabaq tövbə etsə, oğuruladığı malı qaytarsa, həm dünyada, həm də axirətdə bağışlanar.[1] Həbs olunduqdan sonra isə oğru cəzalandırılır və onun tövbəsi yalnız qiyamətdə təsirli olur.

◘Hədisdə deyilir: “Əli kəsilmiş bir oğru həzrət Peyğəmbərdən (s) soruşdu: “Mənin üçün tövbə yolu varmı?” Həzrət buyurdu:

“Bəli! Sən bu gün (cəzanı aldıqdan sonra) anadan doğulduğun gündə olduğun kimisən.”[2]

## *Bildirişlər*

1. Xatakar insan üçün qayıdış və islah yolu həmişə açıqdır.

2. Tövbə təkcə daxili bir peşmançılıq deyil. Tövbə edərkən keçmişdəki günahları da yumaq lazımdır.

3. Əgər insan tövbə qılsa, Allah onun tövbəsini qəbul edər.

4. Oğurluq insanın özünə, cəmiyyətə zülm, ictimai asayişə təcavüzdür.

5. Günahkarları Allahın yoluna çağırmaq və onlara ümid vermək lazımdır.

**40.** ﴿أَلَمْ تَعْلَمْ أَنَّ اللّهَ لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ يُعَذِّبُ مَن يَشَاء وَيَغْفِرُ لِمَن يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Yoxsa bilmirdin ki, göylərin və yerin hakimiyyəti yalnız Allahındır? O, istədiyini (hikmət əsasında) cəzalandırır, istədiyini bağışlayır. Allah hər şeyə qadirdir. (Günahkara əzab verir, tövbəkarı bağışlayır.)”**

---

[1] “Kafi”, c. 7, s. 250.

[2] “Təfsire-Əl-mizan”.

## *Bildirişlər*

1. Varlıq aləminə hakim olan kəsin bu qanunları nizamlamaq haqqı var.
2. Günahkarlar bilsinlər ki, qaçmağa yol yoxdur və Allaha doğru dönəsidirlər.
3. Bəndələrin tövbəsinə Allahın ehtiyacı yoxdur. Çünki bütün varlıq aləmi Onundur.
4. İnsan ümid və qorxu arası bir halda olmalıdır.
5. Bağışlama və əzab hər ikisi ilahi qüdrət nümunəsidir.

**41.** ﴿يَا أَيُّهَا الرَّسُولُ لاَ يَحْزُنكَ الَّذِينَ يُسَارِعُونَ فِي الْكُفْرِ مِنَ الَّذِينَ قَالُواْ آمَنَّا بِأَفْوَاهِهِمْ وَلَمْ تُؤْمِن قُلُوبُهُمْ وَمِنَ الَّذِينَ هِادُواْ سَمَّاعُونَ لِلْكَذِبِ سَمَّاعُونَ لِقَوْمٍ آخَرِينَ لَمْ يَأْتُوكَ يُحَرِّفُونَ الْكَلِمَ مِن بَعْدِ مَوَاضِعِهِ يَقُولُونَ إِنْ أُوتِيتُمْ هَذَا فَخُذُوهُ وَإِن لَّمْ تُؤْتَوْهُ فَاحْذَرُواْ وَمَن يُرِدِ اللّهُ فِتْنَتَهُ فَلَن تَمْلِكَ لَهُ مِنَ اللّهِ شَيْئًا أُوْلَئِكَ الَّذِينَ لَمْ يُرِدِ اللّهُ أَن يُطَهِّرَ قُلُوبَهُمْ لَهُمْ فِي الدُّنْيَا خِزْيٌ وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ﴾

**“Ey peyğəmbər! Küfrə tələsən kəslər səni qəmləndirməsin. (İstər) dildə “iman gətirmişik” deyib qəlbdə iman gətirməyən dəstə olsun, (istər) yalan qurmaq üçün sənin sözünə diqqətlə qulaq asan yəhudilər olsun ki, başqa bir qövm üçün sənin yanına gəlib sözlərinə qulaq asırlar. Onlar kəlmələrin yerini dəyişir və deyirlər: “Əgər bu mətləb sizə verilmişsə, alın və qəbul edin. Əgər sizə verilməmişsə, uzaqlaşın. (Ey peyğəmbər,) Allah kimi istəsə sınağa çəkər, rüsvay edər. Sən heç vaxt Allahın qəhri qarşısında həmin şəxs üçün bir şey edə bilməzsən. Onlar həmin kəslərdir ki, Allah qəlblərini pak etmək istəməmişdir. Onlar üçün dünyada zillət və xarlıq, axirətdə böyük əzab var.”**

## *Nöqtələr*

◘Ayədən məlum olur ki, yəhudi alimləri bir qrup yəhudi və münafiqi İslam peyğəmbərinin yanına göndərib özləri həzrətlə üzbəüz gəlmək istəmirdilər. Onlar qorxurdular ki, İslamın göstərişləri onların Tövratda təhrif etdikləri göstərişlərə uyğun olsun. Onlar göndərdikləri adamlara tapşırırdılar ki, əgər İslam Peyğəmbərinin (s) sözləri bizim sözlərimizlə üst-üstə düşsə, qəbul edin, üst-üstə düşməsə rədd edin. Münafiqlər həzrət peyğəmbərin yanına gəlib ona diqqətlə qulaq asırlar ki, ona qarşı daha inandırıcı yalan və şayiə qoşa bilsinlər.

## *Bildirişlər*

1. Peyğəmbərlər günahkarlara can yandırmışlar.
2. Küfrün meydanı var və bu meydanda bir dəstə sürətlə irəli gedib öz küfrünü artırır.
3. Düşmənlər küfr və nifaqa tələsirlər. Bəs nə üçün müsəlmanlar haqq yolda süstlük göstərməlidir?!
4. Nifaq küfrün artması səbəbidir.
5. Dildə izhar yox, qəlbdə qəbul imanın təsdiqidir.

6. Qəlbə hopmuş iman dəyərlidir.
7. Qəlb imanın mərkəzidir.
8. Münafiqlər və yəhudilər çiyin-çiyinə eyni bir hədəfi izləyirlər.
9. Dinləmək yox, dinləməyin səbəbi mühümdür.
10. Kafirlərin müsəlmanlar arasında casusları var. Din təbliğatçıları dinləyicilər arasında belələrinin olduğunu unutmamalıdırlar.
11. Təhrif yəhudilərin özünəməxsus xəyanətidir.
12. Təqvasız halda məlumat ötürülməsi ilə məşğul olmaq təhlükəli peşədir.
13. Səmavi kəlmələrin hər birinin öz xüsusi yeri var.
14. İlahi hökmlər bizim arzularımız əsasında tənzimlənmir. Biz Allahın əmrlərinə təslim olmalıyıq. (Ayə öz könül istəklərinə uyğun müctəhid, alim, hakim, qanun axtarışını qadağan edir.)
15. Günah insanın hidayət ləyaqətini onun əlindən alır.
16. Münafiqlər peyğəmbər şəfaətindən məhrumdurlar.
17. Hətta peyğəmbərlərin də inadkar və həvəsbaz təəssübkeşlərə qarşı kəsərli silahı yoxdur.
18. İlahi əzab insanın pis rəftarının ardınca nazil olur.
19. Daşlaşmış və inadkar qəlb ilahi lütfə çatmaqdan məhrumdur.
20. Axirət əzabının müqabilində dünya əzabı bir şey deyil.
21. Münafiqlərin həm dünyada bədbəxtçilikləri var, həm də qiyamətin böyük əzabı onların intizarındadır.

**42.** ﴿سَمَّاعُونَ لِلْكَذِبِ أَكَّالُونَ لِلسُّحْتِ فَإِن جَآؤُوكَ فَاحْكُم بَيْنَهُم أَوْ أَعْرِضْ عَنْهُمْ وَإِن تُعْرِضْ عَنْهُمْ فَلَن يَضُرُّوكَ شَيْئًا وَإِنْ حَكَمْتَ فَاحْكُم بَيْنَهُمْ بِالْقِسْطِ إِنَّ اللّهَ يُحِبُّ الْمُقْسِطِينَ﴾

**“Onlar yalan qoşmaq üçün diqqətlə dinləyirlər və daim haram mal (rüşvət və sələm) yeyirlər. Əgər (mühakimə üçün) sənin yanına gəlsələr, ya aralarında mühakimə et, ya da onlardan üz döndər. Əgər onlardan üz döndərsən heç vaxt sənə bir zərər yetirməyəcəklər. Əgər hakimlik etsən, aralarında ədalətlə mühakimə apar. Həqiqətən, Allah ədalət sahiblərini dost tutur.”**

## *Nöqtələr*

◘“Möhsinə” (ərli qadınla) zinaya yol vermiş bəzi yəhudilər ümid edirdilər ki, yəhudi dinində də nəzərdə tutulan daşqalaq hökmündən yaxa qurtara biləcəklər.[1] Onlar İslamda daşqalaq hökmünün bəyan olunmasından xəbərsiz olduqlarından mühakimə üçün İslam peyğəmbərinin yanına gəldilər. İslamın da bu mövzuda hökmünü eyni görüb peyğəmbərin hökmlərini qəbul etmədilər.

◘“Suht” dedikdə rəvayətlərə əsasən, bir işin görülməsi üçün verilən rüşvət və hədiyyə nəzərdə tutulur.[2]

◘“Suht” sözünün lüğət mənası insanı sıxıntıya salan haram iş deməkdir.[3]

[1] Tövrat, Sifre-təsniyə, f. 23.
[2] “Vəsail”, c. 17, s. 95.
[3] “Mufrədate-Rağib”.

◘“Səmmaunə lil-kəzibi” dedikdə yalan və təhrif məqsədi ilə dinləmək, ya da alimlərinin yalan danışdıqlarını bildikləri halda avamların onları dinləməsi nəzərdə tutula bilər.

◘Ayə peyğəmbərə xitabla buyurur: “Yəhudi alimləri sənə zərər yetirmək fikrində olsalar da, sən İslam məktəbi və cəmiyyəti üçün təşvişdəsən. Amma Allah sənə ümid verir ki, əgər onlardan üz döndərməyi üstün sayırsansa, təşviş keçirmə.

## *Bildirişlər*

1. Yəhudi alimləri rüşvətxor idilər. Onların avamları öz alimlərinin yalanlarına şövqlə qulaq asırdılar. (“Səmmaunə” sözünün iki ayədə ardıcıl təkrarlanması bu üsulun onlarda yavaş-yavaş xasiyyətə çevrildiyinə işarə ola bilər.)
2. Müsəlmanlar kitab əhli ilə yaxın əlaqələrdə olduqlarından yəhudilər bəzən məsləhət üçün İslam peyğəmbərinin yanına gəlirdilər.
3. Peyğəmbərin nübüvvət məsuliyyətindən əlavə, hakimiyyət məsuliyyəti də var idi.
4. Hökumət və hakimlik işində peyğəmbərlərin Allah tərəfindən verilmiş elə bir ixtiyarı vardır ki, öz məsləhət bildiklərinə əməl etsinlər.
5. İslam hökumətinin qüdrəti kitab əhlini də əhatə edirdi.
6. Əgər qeyri-islami ölkələr arasında hakimlik üçün islami hakim seçilərsə, bu hakim ədalətli, cürətli və qəti olmalıdır.
7. Milli, regional, firqəvi və şəxsi məsələlər mühakiməyə təsir göstərməməlidir.
8. Ədalət daim və istənilən bir qrup arasında allahbəyənən dəyərdir.

**43.** ﴿وَكَيْفَ يُحَكِّمُونَكَ وَعِندَهُمُ التَّوْرَاةُ فِيهَا حُكْمُ اللهِ ثُمَّ يَتَوَلَّوْنَ مِن بَعْدِ ذَلِكَ وَمَا أُوْلَئِكَ بِالْمُؤْمِنِينَ﴾

**“(Yəhudilər) Tövrat əllərində ikən və Allahın hökmü onda varkən nə üçün səni hakim qərar verirlər? Sonra isə sən də o kitaba uyğun hökm verdikdə) üz döndərirlər. Onlar mömin deyillər.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə qeyd etdiyimiz kimi, yəhudilər İslam peyğəmbərinə ona görə müraciət edirdilər ki, öz cəzalarını yüngülləşdirmişlər. Tövrat əllərində olduqları halda onlar daha yüngül qanun gəzirdilər.

## *Bildirişlər*

1.Tövrat bütövlükdə təhrif olunmamışdır.
2. Ey kaş kitab əhli öz ilahi kitabının hökmlərinə sədaqətli olaydı!
3. Qövm üçün mühüm olan şey qanuna iman və vəzifəyə əməl yox, qanunun yüngülləşdirilməsidir. (Bu məqsədlə də Tövrat qanunlarını qoyub, cəzadan qurtulmaq üçün İslam peyğəmbərinə üz tuturdular.)
4. Yalnız qanun qarşısında təslimçilik iman əlamətidir.

44: ﴿إِنَّا أَنزَلْنَا التَّوْرَاةَ فِيهَا هُدًى وَنُورٌ يَحْكُمُ بِهَا النَّبِيُّونَ الَّذِينَ أَسْلَمُواْ لِلَّذِينَ هَادُواْ وَالرَّبَّانِيُّونَ
وَالأَحْبَارُ بِمَا اسْتُحْفِظُواْ مِن كِتَابِ اللّهِ وَكَانُواْ عَلَيْهِ شُهَدَاء فَلاَ تَخْشَوُاْ النَّاسَ وَاخْشَوْنِ وَلاَ تَشْتَرُواْ
بِآيَاتِي ثَمَنًا قَلِيلاً وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَـئِكَ هُمُ الْكَافِرُونَ﴾

**“Həqiqətən Biz Tövratı nazil etdik, onda hidayət və nur var. Allahın fərmanlarına təslim olmuş ilahi tərbiyəçilər onun əsasında yəhudilərə hökm verirdilər. (Eləcə də) ilahi mürəbbilər və alimlər qorunması üçün tapşırıq aldıqları və şahid olduqları səmavi kitab əsasında hakimlik edirdilər.( Ey alimlər,) xalqdan qorxmayın. (Allahın hökmlərini bəyan edin!) Məndən qorxun və Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi əsasında hökm etməyənlər həmin kafirlərdirlər.”**

## *Nöqtələr*

◘“Rəbban” sözündən olan “rəbbaniyy” sözü tərbiyə edən mənasını bildirir. Bəzilərinin fikrincə, «rəbbaniyy» aləmlərin Rəbbinə bağlanmış, elm və əməli ilə ilahiləşmiş kəsə deyilir və xalqın tərbiyəsi beləlꞏərinin öhdəsindədir.

◘Həzrət Əli (ə) buyurmuşdur: “Bu ümmətin rəbbaniyyi mənəm.”[1] İmam Sadiq (ə) buyurmuşdur: “Rəbbaniyyun peyğəmbər Əhli-beytidir.”[2]

◘“Hibr” dedikdə yaxşı təsir başa düşülür. Alimlər cəmiyyətdə yaxşı təsir mənşəyi olduqlarından onlara hibr və əhbar deyilmişdir. İbn Abbasa da “hibrul-ummət” ləqəbi verilmişdir.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Hətta iki dirhəm qədərində nahaq qəzavət edən kəsə bu ayənin son cümləsi şamil olar.[3]

## *Bildirişlər*

1. Bugünkü Tövratın təhrifinə diqqət yetirərkən əsl səmavi kitabı dəyərləndirmək lazımdır.

2. Tövrat Musaya nazil olsa da, ondan sonrakı bütün peyğəmbər və alimlərə həmin kitab əsasında hökm çıxarmaq əmr edilmişdir.

3. Vəhyə əsaslanan qanunları qəbul etmək lazımdır. (Peyğəmbərlərin və alimlərin mühakiməsinin vaciblik şərti xalqın qəbul etməsidir.)

4. Peyğəmbərlər özlərindən bir hökm vermirlər. Onlar Allahın hökmünə təslimdirlər.

5. İslam (Allaha təslimçilik) bütün müvəhhidlərin (təkallahçıların) dinidir. Bəni-İsrail peyğəmbərləri də “əsləmu”, yəni “təslim olmuşlar” cümləsi ilə xatırlanır.

---

[1] “Təfsire-Məraği”.
[2] “Təfsire-Safi”.
[3] “Təfsire-Safi”; “Kafi”, c. 7, s. 408.

6. Hər bir ümmətin alimləri xalq arasında ilahi hökmlərin icrasına məsuldur. (Bütün dinlərdə fəqih vilayətinin kökləri var.)
7. Dərəcələr silsiləsinə əməl olunmalıdır. Əvvəlcə peyğəmbərlər, sonra imamlar, daha sonra alimlər.
8. Yəhudilərin çoxsaylı peyğəmbərləri olmuşdur.
9. Tövratda məhkəmə və hakimiyyət qanunları var. Tövrat qəzavət mehvəri olmuşdur.
10. Nur və hidayət o vaxt cəmiyyətdə hərəkətə gəlir ki, səmavi kitab əsasında mühakimə və hakimiyyət qurulsun.
11. Səmavi kitabların qorunması yolu onlar əsasında əməl, qəzavət və hökumətdir.
12. Alimlər əqidə məktəbinin keşikçisi olmalıdırlar.
13. Qəzavət alimlərin məsuliyyətidir.
14. Alimlərin və hakimlərin iki böyük vəzifəsi, risaləti vardır: Xalqın qorxusundan Allahın hökmünü dəyişməmək.; Dünya malı tamahından haqqı gizlətməmək və büdrəməmək.
15. Qəzavətdə xətdən çıxmaq küfrdür.
16. Qəzavətdə aşkarlıq, cürət və qətiyyət lazımdır. Hədələr və təxribatlar hakimi təsir altına salmamalıdır.
17. Ədalətli qəzavətin, mühakimənin zamini Allah qorxusudur.
18. Alim və hakim bütün dünyanı əldə edib təhrifə yol versə, haqqın qarşısında sussa, haqqı gizlətsə, Allahın hökmünə qarşı çıxsa zərər etmişdir. (Çünki dünya bütövlükdə cüzi bir matahdır.)[1]
19. Səmavi qanun olan yerdə şərq və ya qərb qanunları ardınca getmək küfrdür. Qeyri-ilahi qanunlar etibarsızdır.
20. Haqq mühakimə yürütmək imkanı olan yerdə bir kənara çəkilən kəs küfrə yol vermişdir.
21. Zalım hakimlərin qarşısında sükut və haqqın gizlədilməsi, sərmayədarlar qarşısında dinin satılması, avamların aldadılması alimləri izləyən təhlükələrdəndir.
22. Qorxaq və həris alimlər dindarlıqda və səmavi kitabın qorunmasında süstdürlər.
23. Haqsız mühakimədən əldə olunan gəlir qeyri-şəridir.
24. Qorxu və hərislik qəzavətdə azğınlıq səbəbi, qəzavətdə azğınlıq isə küfr səbəbidir.

**45.** ﴿وَكَتَبْنَا عَلَيْهِمْ فِيهَا أَنَّ النَّفْسَ بِالنَّفْسِ وَالْعَيْنَ بِالْعَيْنِ وَالأَنفَ بِالأَنفِ وَالأُذُنَ بِالأُذُنِ وَالسِّنَّ بِالسِّنِّ وَالْجُرُوحَ قِصَاصٌ فَمَن تَصَدَّقَ بِهِ فَهُوَ كَفَّارَةٌ لَّهُ وَمَن لَّمْ يَحْكُم بِمَا أنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ﴾

**“Onda (Tövratda) onlar üçün qərarlaşdırdıq ki, (qisasda) can əvəzində can, göz əvəzində göz, burun əvəzində burun, qulaq əvəzində qulaq, diş əvəzində**

[1] “Nəhl”, 116-117.

**diş olsun. Bütün yaralar üçün də (yenə həmin tərtib və ölçüdə) qisasdır. Hər kəs onu sədəqə etsə (bağışlasa), günahlarının kəffarəsi sayılar. Allahın nazil etdiyi əsasında hökm etməyən kəslər həmin sitəmkarlardır.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə deyildi ki, Tövrat hidayət və nurdur. Bu ayədə isə qisas qanunu açıqlanmışdır. Bəlkə də bunun səbəbi qisas qanununun cəmiyyətdə nur və hidayət amili olmasıdır. Necə ki, digər ayədə oxuyuruq: “Qisasda sizin üçün həyat var.”[1]

◘Ayədə göz, qulaq kimi əzaların adı nümunə olaraq çəkilir. Əslində istənilən bir üzvə zərər vurulmasının qisası var.[2]

◘İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: “Allah qisasdan bağışlanan qədər insanın günahlarını bağışlayar.”[3]

◘Tövratda diyə (yetirilən xəsarətə görə ödənc) yoxdur. Günahkardan ya qisas alınır, ya da o bağışlanılır. Amma İslamda üçüncü bir yol kimi diyə yolu göstərilir.[4]

## *Bildirişlər*

1. İnsanlar millətindən, qəbiləsindən, varlı-kasıb olmasından asılı olmayaraq qanun qarşısında eynidirlər. Heç kəsin qanı başqalarınınkından üstün deyil. (Qisas hökmündə qadınla kişi arasında fərq var. Bu fərqlərin hikməti fiqh kitablarında bəyan olunmuşdur.)
2. Əvvəlki dinlərdə də qisas olmuşdur.[5] (İslam və digər dinlərdəki qanunlarda oxşarlıq var.)
3. Sədəqə təkcə mala aid deyil. Günahkarın bağışlanması da bir növ sədəqədir.
4. Biz günahkarı bağışlasaq, Allah da bizi bağışlayar. (Bəlkə də bizim əfvimiz günahkarın günahlarının kəffarəsi olsun və o bizim əfvimizə xatir qiyamətdə cəzalandırılmasın.)[6]
5. İslamda cəzadan əlavə əxlaqi məsələlər də bəyan olunmuşdur.
6. İqtisadi cərimə və həbs günahkarı günahdan saxlamaq üçün bəs etmir.
7. Əgər Allahın hökmü həyata keçməzsə, zülm cəmiyyəti bürüyər.

**46.** ﴿وَقَفَّيْنَا عَلَى آثَارِهِم بِعَيسَى ابْنِ مَرْيَمَ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ وَآتَيْنَاهُ الإِنجِيلَ فِيهِ هُدًى وَنُورٌ وَمُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ وَهُدًى وَمَوْعِظَةً لِّلْمُتَّقِينَ﴾

**“Onların (əvvəlki peyğəmbərlərin) ardınca Məryəm oğlu İsanı gətirdik. Halbuki o, özündən əvvəlki Tövratı təsdiq edəndir. Onda təqvalılar üçün hidayət və moizə vardır.”**

---

[1] “Bəqərə”, 179.
[2] “Təfsire-Ətyəbul-bəyan”.
[3] “Kafi”, c. 7, s. 358.
[4] “Təfsire-Qurtubi”.
[5] “Tövrat, Sifre-Xüruc”, 21, 23, 26.
[6] “Təfsire-Əl-mizan”.

## *Nöqtələr*

◘Həm Quran təqva sahiblərini hidayət edir,[1] həm də İncil təqvalılar üçün hidayət və moizədir.

◘Bu ayədə iki yerdə «hidayət» sözü işlədilmişdir. Bu hidayətlərdən biri ümumxalqa, digəri təqva sahiblərinə aiddir.

◘Ayədəki "qəffəyna" «sözü bir şeyin ardınca o birini gətirmək» mənasını bildirir.

◘"Musəddiqən" sözünün mənası bu ola bilər ki, Həzrət İsanın şəxsi xüsusiyyətləri Tövratda bəyan olunmuş nişanələrlə uyğundur. Demək, həzrət İsanın özü və nişanələr bir-birini təsdiq edir.

◘Mətta İncilində (f. 5, a.17) deyilmişdir: "Güman etməyin ki, peyğəmbərlərin Tövrat və ya Səhifəsini batil etməyə gəlmişəm. Əksinə, gəlmişəm ki, tamamlayam."

◘Bu surənin 15-ci ayəsində Allah-təala buyurur: «Quran nurdur.» 44-cü ayədə buyurur: «Tövrat nurdur.» Hazırkı ayədə isə İncilin nur olması bildirilir.

## *Bildirişlər*

1. Peyğəmbərlər və onların kitabları eyni bir mənbədən qaynaqlanır və eyni bir məqsəd daşıyır. Onlar bir-birlərini təsdiqləyirlər.
2. Peyğəmbərlər və kitablar bütün xalqların hidayəti üçün olsalar da, yalnız təqva əhli onların nuru sayəsində hidayət olur.

**47.** ﴿وَلْيَحْكُمْ أَهْلُ الإِنجِيلِ بِمَا أَنزَلَ اللّهُ فِيهِ وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ﴾

**"İncil əhli Allahın o kitabda nazil etdiyi əsasında hökm etsin. O kəslər ki, Allahın nazil etdiyi əsasında hökm etmirlər, onlar həmin azğınlardır."**

## *Nöqtələr*

◘İlahi qanunlar əsasında əməl etməyənlər haqqında bir neçə ayədə ardıcıl şəkildə "zalımlar", "azğınlar", "kafirlər" təbirləri işlədilmişdir. Belə ki, Allah qanunlarını ayaqları altına atdıqlarına görə kafirdilər. Onlar məsuliyyət sərhəddindən çıxdıqlarına görə azğın, bəziləri haqqında böhtana yol verdiklərinə görə zalımdırlar.

◘44-45-ci ayələrdə yəhudilərə xitab olunur. Onlar Allah qanunlarını təhrif etdiklərindən, dinlərini heçə satdıqlarından, Allah əvəzində xalqdan çəkindiklərindən zalım və kafir sayılmışlar. Onlar cəmiyyətdəki fərdlərin haqlarına qarşı zülmə yol verirlər.

Bu ayə isə məsihilər haqqındadır. Onlar İncil əsasında hökm etmədiklərindən azğındırlar. Çünki haqqın sərhəddini aşmışlar.

## *Bildirişlər*

1. İlahi dinlərdə haqla batili tanıma meyarı Allah tərəfindən nazil edilənd.

[1] "Bəqərə", 2.

2. İncildə hakimiyyət qanunları mövcuddur.

3. İstənilən bir səbəbdən ilahi qanunlar əsasında hökm etməyən və ya haqq mühakimədən kənara çəkilən kəs azğındır.

48. ﴿وَأَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ الْكِتَابِ وَمُهَيْمِنًا عَلَيْهِ فَاحْكُم
بَيْنَهُم بِمَا أَنزَلَ اللّهُ وَلاَ تَتَّبِعْ أَهْوَاءهُمْ عَمَّا جَاءكَ مِنَ الْحَقِّ لِكُلٍّ جَعَلْنَا مِنكُمْ شِرْعَةً وَمِنْهَاجًا وَلَوْ
شَاء اللّهُ لَجَعَلَكُمْ أُمَّةً وَاحِدَةً وَلَكِن لِّيَبْلُوَكُمْ فِي مَآ آتَاكُم فَاسْتَبِقُوا الخَيْرَاتِ إِلَى الله مَرْجِعُكُمْ
جَمِيعًا فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ فِيهِ تَخْتَلِفُونَ﴾

**“Biz kitabı (Quranı) sənə haqq olaraq nazil etdik. Belə ki, (o,) əvvəlki səmavi kitabları təsdiq edir, onların hakimi və hafizidir. Onlar arasında Allahın nazil etdiyi ilə hökm et! Sənin üçün gəlmiş haqqı qoyub onların nəfs istəklərinə tabe olma. Biz sizlərdən hər biriniz üçün aşkar ayin və yol qərar verdik. Əgər Allah istəsəydi, sizin hamınızı vahid ümmət qərar verərdi. (Hamınızın bir qanun və ayini olardı.) Amma (Allah istəyir ki,) sizə verdiyi ilə sizi sınağa çəkə. Belə isə, yaxşı işlərdə önə keçin. (Bilin ki,) hamınızın qayıdışı Allaha doğrudur. O sizi ixtilaf etdiyiniz şeydən agah edəcək.”**

## *Nöqtələr*

◘“Şirət” su arxına gedib çıxan yoldur. “Minhac” aydın yol deməkdir. İbn-Abbas deyir: “Şirət” Quranda bəyan olunmuş hökmlərdir. “Minhac” isə həzrət Peyğəmbərin (s) sünnəsidir.”[1] “Muhəymin” sözü «qoruyan, hifz edən» mənalarını bildirir.

◘Tövrat və İncil kitablarının səmavi olmasının təsdiqi onların əbədi qalması mənasında deyil. Uyğun bildiriş yalnız səmavi kitabların eyni məqsəd daşıdığını anladır.

◘Bütün dinlərin əsası eyni, şəriət qanunları isə fərqlidir. Necə ki, dənizə müxtəlif çaylar daxil olur. Din və şəriət bizi gerçək və insani həyata çatdıran bir yoldur. Amma hər dövr üçün bir şəriət qəbul olunmuşdur.

## *Bildirişlər*

1. Quran başdan-başa haqdır və istənilən bir batildən qorunmuşdur.
2. Quran həzrət Peyğəmbərin (s) dövründə də yazılı şəkildə olmuşdur.
3. Quran digər səmavi kitabların üsulunu hifz edir.
4. Kitab əhli arasında Quranla hökm etmək olar.
5. Rəhbərləri hədələyən təhlükə xalqın istəklərinə meyl edib haqqı görməməzliyə vurmaqdır.
6. İlahi sınaq vasitələrindən biri yeni şəriətin gəlməsidir. Bu vaxt kimi iman gətirir, kimi küfrə batır və təəssüb göstərir.
7. Bəşəriyyət tarix boyu peyğəmbərlərin göstərişinə ehtiyaclı olmuşdur.

---

[1] “Mufrədate-Rağib”.

8. Mənfi sərtliklər yerinə, fürsət əldən çıxmamış, xeyir işlərdə önə keçməyə çalışaq.
9. Müsabiqələrin mehvəri və məqsədi xeyir və mənəvi işlər olmalıdır.
10. Məada etiqad ixtilafların aradan qaldırılması və yaxşılıqlara meyl səbəbidir.

**49.** ﴿وَأَنِ احْكُم بَيْنَهُم بِمَآ أَنزَلَ اللّهُ وَلاَ تَتَّبِعْ أَهْوَاءهُمْ وَاحْذَرْهُمْ أَن يَفْتِنُوكَ عَن بَعْضِ مَا أَنزَلَ اللّهُ إِلَيْكَ فَإِن تَوَلَّوْاْ فَاعْلَمْ أَنَّمَا يُرِيدُ اللّهُ أَن يُصِيبَهُم بِبَعْضِ ذُنُوبِهِمْ وَإِنَّ كَثِيرًا مِّنَ النَّاسِ لَفَاسِقُونَ﴾

**“Onların arasında Allahın nazil etdiyi ilə hökm et və onların nəfs istəklərinə tabe olma. Həzər qıl ondan ki, səni Allahın nazil etdiklərinin bəzisində azdırmasınlar. Əgər onlar (sənin hökm və mühakimələrindən) üz döndərsələr, bil ki, Allah onları bir sıra günahlarına görə cəzalandırmaq istəyir. Şəksiz, xalqın çoxu günah əhlidir.”**

## *Nöqtələr*

◘Ayədə “yəftinukə” sözü ilə ifadə olunmuş fitnə İslam peyğəmbərini azdırmaq üçün həyata keçirilən qurğulara işarədir.

◘Ayənin nazil olma şəni haqqında deyilir: Bəzi yəhudi alimləri həzrət Peyğəmbərə (s) dedilər: ”Əgər bizimlə başqaları arasında olan ixtilaflı məsələdə xeyrimizə hökm versən, iman gətirərik və bizim ardımızca bütün yəhudilər iman gətirər.” Ayə nazil oldu və Peyğəmbər (s) bu fitnədən xəbərdar edildi.

## *Bildirişlər*

1. Mühakimə peyğəmbərlik şənindəndir.
2. Mühakimə və hakimiyyətin əsasını ilahi qanunlar təşkil edir.
3. İslam peyğəmbərinin müsəlmanlardan əlavə, yəhudilər və məsihilər üzərində də hakimiyyəti var.
4. Mühüm və həyati məsələlərdə xatırlatmanın təkrarı zəruridir. (“Yalnız Allahın hökmü ilə mühakimə yürüt və xalqın nəfs istəklərinə tabe olma” buyuruğu bu və bundan qabaqkı ayədə təkrarlanmışdır.)
5. Xalqın nəfs istəklərinə meyl qazı və hakim üçün böyük təhlükələrdəndir.
6. İlahi xatırlatmalar peyğəmbərlərin paklıq amilidir.
7. Düşmənin ideoloji nüfuzuna diqqətli olaq.
8.Kafirlərin qurğularından peyğəmbər qorxmalı olduğu halda, başqalarının vəzifəsi aydındır.
9. Hətta bəzi ilahi göstərişlərə itaətsizlik xalqın nəfs istəklərinə ardıcıllıq nişanəsidir.
10. Müxaliflər də bəzi ilahi göstərişləri bəyənirlər. Onların müəyyən göstərişləri təhrif etməsi diqqətdən yayınmamalıdır və bu təhrif böyük təhlükədir.
11. Xalqın etiraz edəcəyi ehtimal olunsa da, vəhy əsasında mühakimə yürütməliyik.

12. Məqsədə çatmaq üçün hər hansı vasitəyə əl atmaq düzgün deyil. Bir dəstənin müsəlman olması üçün qeyri-ilahi mühakimələrdən istifadə etmək olmaz. (Ayənin nüzul şəninə əsasən.)

13. “İtaət etmə, həzər qıl...” kimi sərt xəbərdarlıqlar peyğəmbərin vəhy bəyanındakı sədaqətini göstərir. Yoxsa kimsə özünə bir bu qədər tünd xitab etməz.

14. Peyğəmbərin hakimliyinə itaətsizlik süqut və ilahi əzab səbəbidir.

15. Kafirlərin etirazının kökü günahkarlıqdır. Axı ilahi ayinlərdə heç bir nöqsan yoxdur.

**50.** ﴿أَفَحُكْمَ الْجَاهِلِيَّةِ يَبْغُونَ وَمَنْ أَحْسَنُ مِنَ اللّهِ حُكْمًا لِّقَوْمٍ يُوقِنُونَ﴾

**“Onlar cahiliyyət hökmü istəyirlərmi? İman və yəqin əhli üçün kimin mühakiməsi Allahdan üstündür?!”**

## *Nöqtələr*

◘Ən üstün qanun odur ki, qanun verəndə növbəti şərtlər olsun: Hazırda və gələcəkdə varlığın və insanın bütün sirlərindən agah olsun; heç bir mənafe güdməsin; bilərəkdən və ya bilməyərəkdən heç bir nöqsana malik olmasın; heç bir qüdrətdən qorxmasın, hamıya xeyirxah olsun.

Bütün bu şərtlər yalnız Allah-təalada mövcuddur. Ona görə də Quranda buyurulur ki, Allahın hökmünə zidd bütün bəşər qanunları cahilanədir. (Çünki əksər bəşəri qanunlar nəfs istəklərindən, qorxudan, tamahdan, cəhalətdən, xatadan, xəyaldan və elmi məhdudluqdan amanda deyildir.)

## *Bildirişlər*

1. Bəziləri (müşriklər, kitab əhli) həzrət Peyğəmbərin (s) cahiliyyət qanunları əsasında mühakimə yürütməsini istəyirdilər.

2. Günah insanı cahiliyyət mədəniyyətinə sövq edir.

3. İlahi qanunlar olan yerdə ondan üz döndərənlər və bəşər qanunları ardınca gedənlər cahiliyyət yolundadırlar.

4. Cahiliyyət bir dövrə aid olan hadisə deyil. İstənilən bir vaxtda xalq Allahdan ayrı düşərsə, həmin dövr cahiliyyət dövrü olar.

5. Ağıl və vicdan ən üstün hakimdir.

6. Yalnız bəşəri qanunlara göz dikənlər və onu kamil sayanlar öz iman və yəqinlərinə şəkk etsinlər.

**51.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الْيَهُودَ وَالنَّصَارَى أَوْلِيَاء بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ وَمَن
يَتَوَلَّهُم مِّنكُمْ فَإِنَّهُ مِنْهُمْ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

**“Ey iman gətirənlər, yəhudiləri və məsihiləri özünüzə rəhbər və yardımçı götürməyin. (Çünki) onlardan bəziləri digərlərinin yardımçısıdırlar. Sizdən onları rəhbər götürən hər kəs, şübhəsiz, onlardandır. Həqiqətən, Allah sitəmkar qövmü hidayət etməz.”**

## *Nöqtələr*

◘Ayədə yəhudilər və məsihilər nümunə olaraq zikr edilir. Şübhəsiz ki, heç bir kafirin hakimiyyətini qəbul etmək olmaz.

◘Quranın digər ayələrindən məlum olur ki, kitab əhlinin ətsiz xörəklərindən, onlarla müvəqqəti izdivacdan, alış-verişdən, dinc-yanaşı yaşayışdan bəhrələnmək olar. Uyğun hallar hakimiyyətin qəbul edilməsi sayılmır.

## *Bildirişlər*

1. Allahın Öz mömin bəndələrindən xüsusi təvəqqö və intizarı var.
2. Düşməndən kənarlaşmaq iman şərtidir.
3. İslam ictimai-siyasi bir dindir və təkcə fərdi hökmlərlə sona yetmir.
4. Kafirlərdən yardım almaq qadağan olunduğu vəziyyətdə, şübhəsiz, rabitələrdə və xarici siyasətdə onların hakimiyyətini qəbul etmək qadağandır.
5. Düşmənlərin və kafirlərin hakimiyyətini qəbul etməyək, çünki onlar yalnız öz həmməsləklərinin fikrindədirlər.
6. Aralarında ciddi ixtilaf olan yəhudi və məsihilər İslamı məhv etmək üçün yaxınlaşmışlar.
7. Kafirlər yalnız öz aralarındakı əhdə vəfa edirlər. Onlar müsəlmanlarla bağladıqları əhdə sadiq deyillər.
8. Kafirlərin hakimiyyətini qəbul etmiş müsəlman dövlətləri onlardan sayılırlar. (İnsan dost tutduğu ünvandan sayılır.)
9. Nə kafirləri rəhbər tutun, nə də kafirləri rəhbər tutanlara tabe olun.
10. Kafirlərin hakimiyyətinin qəbulu ilahi hakimiyyətdən çıxmaqdır.
11. Kafirlərə arxalanmaq zülmdür.

52. ﴿فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ يُسَارِعُونَ فِيهِمْ يَقُولُونَ نَخْشَى أَن تُصِيبَنَا دَآئِرَةٌ فَعَسَى اللّهُ
أَن يَأْتِيَ بِالْفَتْحِ أَوْ أَمْرٍ مِّنْ عِندِهِ فَيُصْبِحُواْ عَلَى مَا أَسَرُّواْ فِي أَنْفُسِهِمْ نَادِمِينَ﴾

**“(Bir bu qədər xəbərdarlığa baxmayaraq) qəlbi xəstə olanları kafirlərlə dostluğa tələsən görürsən. (Onlar öz işlərinə don geyindirib) deyirlər: “Qorxuruq ki, pis bir hadisə ilə üzləşək (onların köməyinə möhtac olaq).” Ümid var ki, Allah Öz tərəfindən bir qələbə və ya müsəlmanların xeyrinə) bir iş önə çıxarsın və həmin vaxt onlar qəlblərində gizlətdiklərinə görə peşman olsunlar.”**

53. ﴿وَيَقُولُ الَّذِينَ آمَنُواْ أَهَؤُلاء الَّذِينَ أَقْسَمُواْ بِاللّهِ جَهْدَ أَيْمَانِهِمْ إِنَّهُمْ لَمَعَكُمْ حَبِطَتْ أَعْمَالُهُمْ
فَأَصْبَحُواْ خَاسِرِينَ﴾

**“O kəslər ki, iman gətirdilər (müsəlmanların qələbəsi, münafiqlərin rüsvayçılığı zamanı təəccüblə bir-birlərinə ) deyərlər: “Bunlar təkidlə “biz sizinləyik” deyə and içən kəslərdirmi? (Nə üçün işləri bu yerə gəlib çıxdı?) Əməlləri puç oldu, ziyana uğradılar.”**

## *Nöqtələr*

◘Qəlbi xəstə olanlar İslam peyğəmbərinin doğruçuluğuna və ya bəzi dini həqiqətlərə şəkk edən zəif imanlı kəslərdir.[1]

◘Ayənin mənası haqqında üç ehtimal var:

a) Müsəlmanlar qalib gəlib, münafiqlər rüsvay olan vaxt möminlər təəccüblə deyirlər: "Sizə möminlərə yardım edəcəkləri haqqında ciddi and içənlər o yəhudi və məsihilər idimi?"

b) Həqiqi möminlərdən bəziləri qələbədən sonra bir-birlərinə deyirlər: "And içərək bizimlə olduqlarını deyən və bizimlə olmadıqlarını gördüyünüz kəslər qəlbi xəstə olanlarmı idi?"

v) "Biz yəhudi və məsihilərə kömək edəcəyik - deyə and içən xəstə qəlblilər siz kitab əhlinə kömək edə bildilərmi?"

## *Bildirişlər*

1. İslam peyğəmbəri zəif imanlı şəxslərin aşkar və tələsərək yəhudi və məsihilərə üz tutduğuna şahid idi.
2. İlahi hidayətdən məhrum olanların aşkar nümunəsi qəlbi xəstə olanlardır. Onlar kafirlərə qoşulmaq üçün tələsirlər. ("Fa" hərfi bu ayədəki xəstə qəlblilərin ötən ayədəki zalımlardan olmasına işarədir.)
3. Zəif imanlı xəstə qəlblilər kafir düşmənlərlə dostluğa tələsirlər.
4. Süst imanlı və münafiq fərdlər kafirlərə qatılmaq arzusundadırlar.
5. Allahın aşkar göstərişi olan yerdə yol axtarmağa dəyməz.
6. Dünya güclülərinin hakimiyyətinə tabeçiliyin səbəbi zəif iman və Allahdan qeyrilərindən qorxudur.
7. Müsəlmanlar İslamın qələbə və fəthinə, eləcə də, münafiqlərin ifşasına ümidvar olsunlar.
8. Siyasi üstünlük, iqtisadi qüdrət, hərbi güc hər biri Allah tərəfindəndir və Onun əlindədir.
9. Kafirlərə tabe olmayın ki, Allahın qeybi yardımları nəsibiniz olsun.
10. Kafirlərə bağlılıq və onlara infaqın sonu rüsvayçılıqdır.
11. Anda aldanmayın. Hər and sədaqət nişanəsi deyil.
12. Biganələrə bağlılıq möminlər tərəfindən məzəmmət olunur.
13. İnsanın ziyankarlıq nişanəsi yaxşı işlərin puça çıxmasıdır.

**54.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَن يَرْتَدَّ مِنكُمْ عَن دِينِهِ فَسَوْفَ يَأْتِي اللّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ يُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ وَلاَ يَخَافُونَ لَوْمَةَ لآئِمٍ ذَلِكَ فَضْلُ اللّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ﴾

**"Ey iman gətirənlər! Sizlərdən hər kəs öz dinindən dönsə (Allaha zərər yetirməz, çünki) Allah gələcəkdə bir qövm gətirəcək ki, onları sevir və onlar da Allahı sevirlər. Onlar möminlərə münasibətdə mülayim və təvazökar,**

[1] "Təfsire-rahnoma".

**kafirlərə münasibətdə sərt və qətidirlər. Onlar Allah yolunda cihad edər, heç bir məzəmmətçinin məzəmmətindən çəkinməzlər. Bu, Allahın istədiyinə verdiyi fəzldir. Allah genişlik bəxş edən və çox biləndir.”**

## *Nöqtələr*

◘Rəvayətdə deyilir: “Bu ayə nazil olan vaxt həzrət Peyğəmbər (s) əlini Salman Farsinin çiyninə qoyub buyurdu: “Sənin həmvətənlərin bu ayənin nümunəsidirlər.”[1]

◘Əvvəlki ayələrdə kafir və münafiqlərin hakimiyyətinin təhlükəsi haqqında danışıldı. Burada isə söhbət dindən çıxmaqdan gedir. Bəlkə də bu, nifaqın və kafirlərlə dostluğun dindən xaric olmağa aparmasına işarədir.

◘İmam Baqir (ə) “Allah onları sevir və onlar da Allahı sevirlər” təbiri haqqında buyurmuşdur: “Burada Əli (ə) və onun şiələri nəzərdə tutulur.”[2]

◘Şiə və sünni rəvayətlərində deyilir ki, İslam peyğəmbəri Xeybər döyüşündə düşmən qülləsini fəth edə bilməyən komandanlara buyurdu: “And olsun Allaha, sabah bayrağı elə bir şəxsin əlinə verəcəyəm ki, Allah və rəsulu onu sevir, o da Allahı və rəsulunu! O, qələbəni töhfə gətirər.” Bundan sonra Həzrət (s) bayrağı Əliyə (ə) verdi.”[3]

## *Bildirişlər*

1. Mömin öz aqibəti barədə düşünməlidir. Bir çox möminlər nəhayətdə dindən çıxdı, mürtəd oldu.
2. Düşüncəli rəhbər öz ardıcıllarının dindən çıxıb mürtəd olmasını ehtimal etməlidir.
3. Bir qrup mömininin dindən çıxması Allahın yoluna zərbə vurmur.
4. Mürtədlik din və Allaha mərifət və məhəbbətin olmamasının nəticəsidir.
5. Allahın bizim imanımıza ehtiyacı yoxdur.
6. İman və cahil adətlərin aradan götürülməsi yolunda düşmənin məzəmmətlərindən, mənfi təbliğatından qorxmamalıyıq. Düşmənin yaratdığı mühitə təslimçilik yolverilməzdir.
7. Müsəlman din qardaşları ilə mülayim, düşmənlərlə sərt olur. Nə mülayimlik, nə də sərtlik mütləq halda deyil.
8. İlahi fəzl yalnız var-dövlət və məqam deyil. İlahi məhəbbət, Onun yolunda cihad, dində qətilik ilahi lütf və fəzl nümunələridir.
9. Bəndə və Allah arasında qarşılıqlı dostluq bəşər kamilliklərindəndir.
10. Başqalarının gəlişi müjdəsi ilə ümidsizlik və qorxunun qarşısı alınır.
11. Həqiqi mömin Allahın həm aşiqi, həm də məhbubudur.
12. Həqiqi imanı olan kəs heç vaxt kafirlər qarşısında əskiklik hiss etmir.
13. İlahi məhəbbətdən məhrum qəlb xəstədir və kafirlərə bağlıdır. İlahi məhəbbətlə dolu könül isə heç vaxt başqalarına bağlanmır.
14. İslam genişlənməkdədir. Yalnız enişlərə yox, yüksəlişlərə də baxaq.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-Furat Kufi”, s. 123.
[3] “İhqaqul-Həqq”, c. 3, s. 200.

15. Gələcəkdə İslam bayrağını Allah aşiqi, mücahid və qəti insanlar ələ alacaq.
16. Psixoloji müharibələrin möminlərə heç bir təsiri yoxdur.
17. Allahın fəzli məhdud deyil. Hər kəsə ləyaqəti qədərincə əta olunur.
18. Əgər Allah bir şəxsə lütf etdisə, bu iş agah surətdədir.

55. ﴿إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ﴾

**“Sizin rəhbəriniz yalnız Allah, Onun peyğəmbəri və namazı bərpa edib rüku halında zəkat verən möminlərdir.”**

## *Nöqtələr*

◘Bu ayənin nazilolma şəni haqqında deyilir: Peyğəmbər məscidinə bir sail (dilənçi) daxil oldu. O, xalqdan kömək istədi. Kimsə ona bir şey vermədi. Həmin vaxt namaza məşğul olan Həzrət Əli (ə) rüku halındaca barmağındakı üzüyü sailə bağışladı. Həzrətin bu hərəkəti ilə bağlı həmin ayə nazil oldu.

Bu əhvalatı həzrət Peyğəmbərin (s) İbn-Abbas, Əmmar Yasir, Cabir ibn Abdullah, Əbuzər, Ənəs ibn Malik, Bilal kimi on səhabəsi nəql etmişdir. Uyğun ayənin nüzul şəninə münasibətdə şiə və sünnilər yekdil fikirdədirlər.[1] Əmmar Yasir deyir: “Namazda üzük infaq edildikdən və ayə nazil olduqdan sonra həzrət Peyğəmbər (s) buyurdu: *“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.*[2]

◘Qədir-Xumda həzrət Peyğəmbər (s) Həzrət Əlinin (ə) məqamını bəyan etmək üçün uyğun ayəni tilavət etdi.[3] Həzrət Əli (ə) də dəfələrlə öz haqqını bəyan edərkən bu ayəni oxumuşdur.[4] Hadisəyə şahid olan Əbuzər məscidül-həramda uyğun əhvalatı xalqa nəql etmişdir.[5]

◘Ayədə “vəliyy” sözü dost mənasını bildirmir. Çünki dostluq təkcə rüku halında infaq edənlərə yox, bütün müsəlmanlara aiddir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “O kəslər ki, iman gətirmişlər..” təbirində məqsəd Əli (ə) və onun imam övladlarıdır. Onlar qiyamət gününədək vardırlar. Onun övladlarından kim imamət məqamına çatsa, onun kimi rüku halında sədəqə verər.”[6]

◘Mərhum Feyz Kaşani “Nəvadir” kitabında bir hədis nəql etmişdir. Bu hədisə əsasən məsum imamlardan hər biri namazda rüku halında fəqirlərə sədəqə vermişlər. Bu əməl ayədəki təbirlərlə uyğundur.

◘İmam Baqir (ə) buyurmuşdur: “Allah Öz peyğəmbərinə göstəriş verdi ki, Əlinin (ə) vilayət məsələsini bəyan etsin və bu məqsədlə ayə nazil edilmişdir.[7]

◘Ən üstün tanıtdırma odur ki, bir şəxsin əlamətləri və xüsusiyyətləri sadalananda qarşı tərəf özü onun kimliyini müəyyənləşdirsin. (Ayə Həzrət Əlinin (ə) adını çəkmədən onun nişanə və hərəkətlərini sadalamışdır.)

---

[1] “Əl-Ğədir”, c. 2, s. 52; “İhqaqul-həqq”, c. 2, 400, “Kənzül-ümmal”, c. 6, s. 391.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Təfsire-Safi”.
[4] “Təfsire-Əl-mizan”, c.
[5] “Təfsire-Məcməül-bəyan”.
[6] “Kafi”, c. 1, s. 288.
[7] “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 1, s. 281.

◘İmam Sadiq (ə) buyurmuşdur: «Həzrət Əlinin (ə) Qədir-Xumda minlərlə şahidi var idi. Bununla belə, o öz haqqını ala bilmədi. Halbuki bir müsəlmanın iki şahidi olduqda haqqını geri alır!»[1]

◘Vilayəte-fəqih (fəqihin islami hökuməti) məsum imamın vilayət yolundadır. İmam Sadiq (ə) Ömər ibn Hənzələni təqdim edərkən deyir: "Nəzər salın o şəxsə ki, bizim hədisləri rəvayət etsin, bizim halal-haramı nəzərdə tutsun, hökmlərimizi bilsin. Beləsini mən sizə hakim təyin etmişəm, onun hökumətindən razı olun."[2]

## *Bildirişlər*

1. İslam həm vilayət, həm də bəraət (müxaliflərdən üz döndərmə) dinidir. İslamda həm cazibə, həm də dəfetmə var. Əvvəlki ayələrdə yəhudi və məsihilərin vilayətinin qəbulu qadağan edildi. Bu ayədə isə buyurulur: "Allahı, Onun rəsulunu və rüku halında üzüyünü verəni özünüzə rəhbər seçin.
2. "Əvliyaukum" sözünün əvəzinə ayədə "vəliyyikum" sözünün işlədilməsindən belə bir nəticə çıxarmaq olar ki, Peyğəmbər (s) və Əli (ə) vilayətinin ruhu ilahi vilayət şüasıdır.
3. Adətən, Quranda namaz və zəkat sözləri yanaşı işlədilir. Bu ayədə isə namaz və zəkat bir-birinə qarışmış şəkildədir. (Namaz halında zəkat vermək)
4. Namaz və zəkat əhli olmayanlar xalq üzərində vilayət haqqına malik deyillər. ("İnnəma" ilahi vilayətin xüsusi fərdlərə aid olduğunu göstərir.)
5. Məhrumlara diqqətdə namaz maneə deyil. (Bəli, fəqir müsəlman üz tutduğu toplumdan əliboş geri qayıtmamalıdır.)
6. Vilayət namazın bərpası və zəkat ödənməsində möhkəm olan kəslərə aiddir. ("Yuqimunə" və "yutunə" təbirləri davam nişanəsidir.)
7. Allah, Onun rəsulu və imam tərəfindən olmayan istənilən bir vilayət, hökumət və rəhbərlik batildir.
8. Namaz halında Allahın razılığı xatirinə xalqa diqqət namazla zidd deyildir.
9. Fəqirlərə etinasız olanlar sizə rəhbər olmamalıdırlar.
10. (Üzüyün infaqı kimi) cüzi işlər namazı batil etməz.
11. Quran dilində müstəhəb sədəqəyə də zəkat deyilmişdir.
12. Vilayətlər çiyin-çiyinə yox, yuxarıdan aşağı gəlir. Müsəlmanlar üzərində vilayət əvvəlcə Allaha, sonra peyğəmbərə, daha sonra isə imama məxsusdur.
13. Həzrət Əlinin (ə) peyğəmbər dövründə də vilayəti var idi.

**56.** ﴿وَمَن يَتَوَلَّ اللّهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُواْ فَإِنَّ حِزْبَ اللّهِ هُمُ الْغَالِبُونَ﴾

**"Hər kəs Allahı, Onun peyğəmbərini və (əvvəlki ayədə bəyan olunmuş) möminləri özünə rəhbər götürsə (Allahın firqəsindəndir). Həqiqətən, Allahın firqəsi qalibdir."**

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Kafi", c. 1, s. 67.

## *Nöqtələr*

◘Əvvəlki ayə haqqında danışılarkən bəyan olundu ki, “o kəslər ki, iman gətirmişlər” təbiri Həzrət Əli (ə) və ondan sonrakı məsum imamlara aiddir.

◘Allah firqəsinin nişanələri “Mücadələ” surəsinin 22-ci ayəsində belə bəyan olunmuşdur: “Yaranış və məada imanları var; Allahın düşməni ilə dostluq etmirlər.”

◘Allah, Onun rəsulu və imamların vilayətinin qəbulunu zəruri sayan bu ayə anladır ki, əvvəlki ayədəki “vəliyyukum” təbiri dost yox, hakimə aiddir. Necə ki, “hizbullah” (Allahın firqəsi) təbiri həmin insanların qalibliyinə və qüdrətli bir quruluşa işarədir.

◘“Hizb” sözünün lüğət mənası qüdrətli və möhkəm bir qrup deməkdir.[1]

◘Qələbə təşkilatsız, müdiriyyətsiz, qüdrətsiz, vəhdətsiz, cürətsiz qeyri-mümkün olduğundan, hizbullahda (Allah firqəsində) bu xüsusiyyətlər olmalıdır.

◘Allahın firqəsi təkcə qalib deyil, o həm də nicat tapmışdır.[2]

◘Həmin surənin 52-ci ayəsində oxuduq ki, bir dəstə şəxs təhlükələrdən qorxaraq kafirlərin hakimiyyətini qəbul edir. Bu ayədə isə buyurulur: “Hizbullah qalibdir.” Yəni kafirlərə üz tutanlar məğlubdurlar. Belədirsə, kafirlərə meyl etməyin.

## *Bildirişlər*

1. Allahın, Peyğəmbərin (s), Əhli-beytin (ə) vilayətini qəbul edənlər hizbullahdırlar.
2. Son qələbə Allahın, Peyğəmbərin (s) və Əhli-beytin (ə) vilayətini qəbul edənlərindir.
3. Allah qalib olduğundan Ona bağlananlar da qalibdirlər.[3]
4. İlahi vədələrə əsaslanaraq, hizbullah öz gələcəyinə arxayındır.

57. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الَّذِينَ اتَّخَذُواْ دِينَكُمْ هُزُوًا وَلَعِبًا مِّنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ
مِن قَبْلِكُمْ وَالْكُفَّارَ أَوْلِيَاء وَاتَّقُواْ اللّهَ إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“Ey iman gətirənlər! Sizin dininizi məsxərəyə qoyub, oyun-oyuncaq sayanları, sizdən əvvəl kitab verilənləri, (eləcə də) kafirləri özünüzə rəhbər tutmayın. Əgər imanınız varsa, Allahdan çəkinin.”**

## *Bildirişlər*

1. Allahın dini və dini müqəddəsliklərin alçaldılmasının dünyəvi cəzası rabitələrin kəsilməsidir. (Başqaları ilə rabitədə müqəddəsliklərə ehtiram zəruri bir şərtdir.)
2. Dini qeyrət və alçaq insanlardan uzaqlıq iman şərtidir.

---

[1] “Möcəmul-Vəsit”.
[2] “Mücadələ”, 22.
[3] “Yusuf”, 21.

3. (Soyuq və psixoloji müharibə ilə) dinə istehza düşmənlərin mübarizə üsullarındandır.

4. İlahi təqva zəruri edir ki, düşmənlərdən qorxmayaq, onları özümüzə rəhbər seçməyək.

**58.** ﴿وَإِذَا نَادَيْتُمْ إِلَى الصَّلاَةِ اتَّخَذُوهَا هُزُوًا وَلَعِبًا ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَعْقِلُونَ﴾

**“Nə vaxt siz (azan vasitəsi ilə xalqı) namaza çağırırsınız, onu məsxərəyə qoyurlar. Bunun səbəbi onların düşünməyən bir qövm olmasıdır.”**

## *Nöqtələr*

◘Yuxarıdakı ayənin nazilolma şəni haqqında deyilir ki, yəhudilərdən və məsihilərdən bir dəstəsi azançının səsini eşitdikdə və ya müsəlmanların namaza dayandığını gördükdə onlara istehza edirdilər.[1]

## *Bildirişlər*

1. Azanı (dini şüarları) məsxərəyə qoyanlarla rabitədən və dostluqdan çəkinin.

2. Namaz dinin çöhrəsi və zühur məhəllidir. (Əvvəlki ayədə dinə istehzadan danışıldı. Bu ayədə isə dinin siması olan namaza istehza xatırladılır.)

3. Namaz üçün nida edilməlidir ki, hamı toplansın. (Namaz aşkar olmalıdır.)

4. İslam cəmiyyətində namaz üçün fəryad çəkilməli, namaz təbliğ olunmalıdır. Kimsə buna mane olmamalıdır.

5. Aqillər məntiqi üslubda rəftar edirlər. Düşüncəsiz insanların işi isə istehzadır.

**59:** ﴿قُلْ يَا أَهْلَ الْكِتَابِ هَلْ تَنقِمُونَ مِنَّا إِلاَّ أَنْ آمَنَّا بِاللهِ وَمَا أُنزِلَ إِلَيْنَا وَمَا أُنزِلَ مِن قَبْلُ وَأَنَّ أَكْثَرَكُمْ فَاسِقُونَ﴾

**“De ki, ey kitab əhli! Bizə bunu irad tutursunuzmu ki, Allaha, bizə nazil olana və əvvəldən nazil olana iman gətirmişik? Həqiqətən, sizin çoxunuz haqq sərhədindən çıxmışsınız və günahkarsınız.”**

## *Nöqtələr*

◘“Niqmət” kökündən olan “tənqimunə” sözü bir şeyin inkarını bildirir. Bu inkar həm dil, həm qəzəb, həm də rəftar vasitəsi ilə ola bilər.[2]

◘Kitab əhli Tövrat və İncilin buyuruqlarına vəfalı qalmadı. Bu səbəbdən də onların səmavi kitaba sahiblik ləyaqətləri yoxdur.

---

[1] “Təfsire-nümunə”.

[2] “Mufrədate-rağib”.

## *Bildirişlər*

1. Müxaliflərlə də gözəl şəkildə mübahisə etmək lazımdır. Həssas suallarla müşayiət olunan dəlillər təsirlidir.
2. Düşmənlərin möminlərlə ixtilafı yalnız onların imanına xatirdir.
3. Müsəlmanların bütün səmavi kitaba inanması kitab əhlində kin-küdurət yaradan səbəblərdəndir.
4. Kitab əhlinin müsəlmanlarla düşmənçiliyinin tarixi keçmişi var.
5. Düşmənin yaratdığı problemlər qarşısında ədalət və insafı əldən verməyin. Elə düşünməyin ki, hamı günahkardır.
6. Haqqın inkarı və haqq ardıcıllarının əziyyətə salınması günahdır.

**60.** ﴿قُلْ هَلْ أُنَبِّئُكُم بِشَرٍّ مِّن ذَلِكَ مَثُوبَةً عِندَ اللّهِ مَن لَّعَنَهُ اللّهُ وَغَضِبَ عَلَيْهِ وَجَعَلَ مِنْهُمُ
الْقِرَدَةَ وَالْخَنَازِيرَ وَعَبَدَ الطَّاغُوتَ أُوْلَئِكَ شَرٌّ مَّكَاناً وَأَضَلُّ عَن سَوَاء السَّبِيلِ﴾

**“De ki, sizə Allah hüzurunda bundan da ağır cəza (sahibləri) haqqında xəbər verimmi? Onlar Allahın lənət etdiyi, qəzəbinə gətirdiyi, bir qismini meymun və donuz şəklinə saldığı, tağuta pərəstiş edən kəslərdir. Onların Allah yanında yerləri çox pisdir. Onlar düz yoldan daha çox azmışlar.”**

## *Nöqtələr*

◘Ayədəki “məsubət” və “səvab” sözləri ilkin hala gediş və qayıdış, hər növ aqibət və cəza mənalarını bildirir. Amma adətən, bu sözlər yaxşı əvəz mənasında işlədilir.[1]

◘Dini, İslamı, müsəlmanların namazını məsxərəyə qoyanlar, müsəlmanları imanlarına görə incidənlər nə üçün öz qaranlıq keçmişlərinə nəzər salmırlar? Axı onlar məsx oldular və rüsvay edildilər. Peyğəmbər dövrünün yəhudiləri donuz və meymun şəklinə salınmasalar da, Bəni-İsrail özünü vahid qövm saydığından, keçmişdəkilərin əməlləri ilə fəxr etdiklərindən onların rüsvayçılıqları da sonrakı nəsil üçün alçaldıcıdır.

◘Bir çox təfsirçilərin fikrincə, şəri hiylə quraraq qadağan olunmuş şənbə günü ov edən yəhudilər meymun şəklinə salındılar. İsanın səmavi süfrəsini (“Maidə”) inkar edən məsihilər isə donuz şəklinə düşdülər.[2]

## *Bildirişlər*

1. Allahın cəzaları ədalətlidir. Əgər kimlərsə meymun və donuz şəklinə salınmışlarsa, (məsx edilmişlərsə) bu onların öz əməllərinin əvəzidir.
2. Tağuta itaət edənlər də məsx olanların cərgəsindədir.
3. Bəşər tarixindəki fitnəkarların aqibətinin bəyanı Quranın təbliğ üsullarındandır.
4. Ehtiram saxlamayanın ehtiramı yoxdur.
5. Ağır cəza ağır azğınlıq üçündür.

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-rahnoma”.

61. ﴿وَإِذَا جَآؤُوكُمْ قَالُوَاْ آمَنَّا وَقَد دَّخَلُواْ بِالْكُفْرِ وَهُمْ قَدْ خَرَجُواْ بِهِ وَاللّهُ أَعْلَمُ بِمَا كَانُواْ يَكْتُمُونَ﴾

**“Əgər (münafiqlər və ya kitab əhlindən bəziləri) sizin yanınıza gəlsələr, deyərlər: “İman gətirdik.” Halbuki onlar sizin yanınıza küfrlə gəlir və həmin küfrlə gedirlər. Allah onların gizlətdiklərindən daha çox xəbərdardır.”**

## *Bildirişlər*

1. İnsanların “imanlıyam” deməsi sizi aldatmasın. Dildə imanın izharı onun qəlbdə olması deyildir.
2. Allah insanların daxilindən onların özlərindən də çox agahdır.
3. Münafiqcəsinə “imanlıyam” deyənlər bilsinlər ki, Allah onların qəlbindən xəbərdardır.

62. ﴿وَتَرَى كَثِيرًا مِّنْهُمْ يُسَارِعُونَ فِي الإِثْمِ وَالْعُدْوَانِ وَأَكْلِهِمُ السُّحْتَ لَبِئْسَ مَا كَانُواْ يَعْمَلُونَ﴾

**“Onların («imanlıyam» deyənlərin) çoxunun günah, zülm və haramxorluqda tələsdiyini görərsən. Doğrudan da, onların işi necə də çirkindir?!”**

## *Nöqtələr*

◘Ötən ayədə kitab əhlinin küfr və nifaq ruhiyyəsindən danışıldı. Bu ayədə isə onların əxlaqi, ictimai və iqtisadi fəsadları bəyan olunur.

◘“Suht” təbiri dərinin soyulması və ya şiddətli aclıq mənalarını bildirir. Bəzən qeyri-şəri mal, xüsusi ilə rüşvət də “suht” adlanır. Çünki bu sayaq mal-mülk cəmiyyətin səfa və təravətini puça çıxarır. Ağacın qabığının soyulması onun qurumasına səbəb olduğu kimi, haram mal da cəmiyyətin təravətini məhv edir. Beləcə, “suht” sözünün geniş mənası var. Ayələrdə isə bu sözün bəzi mənaları zikr olunmuşdur.[1]

## *Bildirişlər*

1. Azğınları tənqid edərkən insaflı olmaq lazımdır. (Onların hamısı hədəfə alınmamalıdır.)
2. İslam cəmiyyətinin siması xeyir işlərə tələsməkdən ibarətdir.[2] Küfr cəmiyyətinin siması isə fəsada tələsməkdən ibarətdir.
3. Əxlaqi, ictimai və idari fəsaddan da pisi fəsada adət və fəsada tələsməkdir.
4. «İmanlıyam» deyib günaha, təcavüzə, haramxorluğa tələsənlər nə çoxdur!
5. Günaha yol verməkdən də pisi günahda qərq olmaqdır.

---

[1] “Təfsire-nümunə”.
[2] “Möminun”, 16.

6. Təcavüz, haramxorluq günah nümunələri olsa da, bu iki günah kitab əhli arasında daha çox yayıldığından ayrıca zikr olunur.

**63.** ﴿لَوْلاَ يَنْهَاهُمُ الرَّبَّانِيُّونَ وَالأَحْبَارُ عَن قَوْلِهِمُ الإِثْمَ وَأَكْلِهِمُ السُّحْتَ لَبِئْسَ مَا كَانُواْ يَصْنَعُونَ﴾

**“Nə üçün məsihi və yəhudi alimləri onları günah sözdən və haram mal yeməkdən çəkindirmirlər? Onların işi necə də pisdir?!”**

## *Nöqtələr*

◘Həzrət Əli (ə) bir xütbəsində buyurur: “Allah ötən qövmləri yalnız əmr be məruf və nəhy əz münkəri tərk etdikləri üçün lənətlədi. Allah avamları günaha batdıqları üçün, alimləri nəhy əz münkəri tərk etdikləri üçün lənətlədi.

◘“Rəbbaniyyun” sözü məsihi alimlərinə, “əhbar” sözü yəhudi alimlərinə işarədir.

◘İmam Hüseyn (ə) hazırkı ayə haqqında buyurmuşdur: “Alimlərin susmasının, əmr be məruf və nəhy əz münkəri tərk etməsinin səbəbi ya zalımların mənafeyinə tamah, ya da onlardan qorxudur.[1]

◘Əvvəlki ayədə “yəməlun”, bu ayədə isə “yəsnəun” təbirləri işlənmişdir. Mərhum Feyz Kaşani deyir: “Bu iki söz arasındakı fərq ondan ibarətdir ki, “sane” işdə bişmiş və bir iş xarakterinə hopmuş adamdır.

## *Bildirişlər*

1. Əmr be məruf və nəhy əz münkərin məsuliyyəti hamıdan qabaq alimlərin üzərinə düşür.
2. Alimlərin sükutu və biganəliyi fəsadın yayılması zəminəsidir.
3. Alimlər güclü olmalıdırlar ki, moizə və dəvətdən əlavə, fəsadın qarşısını da alsınlar.
4. Əgər nəhy əz münkər günahın qarşısını almasa, heç olmasa onun sürətini azaldar.
5. Kitab əhli alimləri öz vəzifələrinə ən aşağı həddə də əməl etmədilər. (Əvvəlki ayədə günah, zülm və haramxorluq kitab əhlinin günahları kimi sadalandı. Bu ayədə isə zülm kəlməsi işlədilməmişdir. Belə başa düşmək olar ki, alimlər zülmün qarşısını almaq gücündə deyillərsə də, günah və haramxorluğun qarşısını almalıdırlar.)
6. Elmin gözəlliyi onun izharında, çirkinliyi isə sükut və onu gizlətməkdədir.
7. Alimin sükutu xatakarın günahından daha pisdir.
8. Günahın aşkarlığı, günahkarların çoxluğu, günahın çeşidliliyi alimlərin sükutuna səbəb ola bilməz.

---

[1] “Təfsire-rahnoma”; “Bihar”, c. 100, s. 79.

**64.** ﴿وَقَالَتِ الْيَهُودُ يَدُ اللّهِ مَغْلُولَةٌ غُلَّتْ أَيْدِيهِمْ وَلُعِنُواْ بِمَا قَالُواْ بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ يُنفِقُ كَيْفَ يَشَاء وَلَيَزِيدَنَّ كَثِيرًا مِّنْهُم مَّا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ طُغْيَانًا وَكُفْرًا وَأَلْقَيْنَا بَيْنَهُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء إِلَى يَوْمِ الْقِيَامَةِ كُلَّمَا أَوْقَدُواْ نَارًا لِّلْحَرْبِ أَطْفَأَهَا اللّهُ وَيَسْعَوْنَ فِي الأَرْضِ فَسَادًا وَاللّهُ لاَ يُحِبُّ الْمُفْسِدِينَ﴾

**“Yəhudilər dedilər: “Allahın əli bağlıdır.” Əlləri bağlansın və bu sözlərin cəzası olaraq Allahın lütfündən uzaq olsunlar. Əksinə, Allahın iki (qüdrət) əli açıqdır - istədiyi kimi infaq edir. Əlbəttə, Rəbbin tərəfindən sənə nazil olan şey onların bir çoxunun küfr və tüğyanını artırır. Biz onların arasında qiyamət gününədək düşmənçilik və kin salmışıq. Hər dəfə döyüş alovunu şöləndirəndə Allah onu söndürdü. Onlar daim yer üzündə fəsad və günaha çalışırlar. Allah fəsad əhlini sevməz.”**

## *Nöqtələr*

◘Əvvəlki ayə yəhudilərin müxalif sözlərinə və yəhudi alimlərinin fəsadın qarşısını almamalarına bir işarə idi. Bu ayədə bəzi nümunələr bəyan olunur. Yəhudilər dedilər: “Allahın əli bağlıdır və artıq bizə keçmişdə malik olduğumuz qüvvə vermək imkanında deyil.”

◘Rəvayətlərdə deyilir ki, bu ayə yəhudilərin qəzavü-qədərə, insan taleyinə münasibətini açıqlayır. Çünki yəhudilərin nəzərincə, ilkin yaranışda əlləri açıq olan Allahın sonradan əlləri bağlanmışdı.

◘İmam Sadiq (ə) bu ayənin izahında buyurur: “Yəhudilər inanırdılar ki, Allah varlıq aləmini yaratdıqdan sonra bir kənara çəkilmişdir və heç nəyi artırıb-əskiltmir.[1]

◘Ərəb dilində “Yəd” (“əl”) sözü güc və nüfuza bir işarədir. Məsələn, deyirik: filankəsin filan işdə əli var; filankəsin filan işdən əli çıxdı; filankəsə əlimiz çatmır... Rəvayətlərdə o da qeyd olunur ki, Allahın övliyaları Onun əlidir. Yəni övliyalar ilahi lütf vasitəsidirlər.

◘İmam Baqir (ə) “Kulləma əvqədu narən...” cümləsi haqqında buyurmuşdur: “Əgər bir zalım şəxs Ali-Məhəmmədi (s) məhv etmək istəsə, Allah onu məhv edər.”[2]

◘Əllamə Təbatəbainin bildirdiyinə görə, fəqirlik, aclıq, qəhətlik baş verdikdə, eləcə də, Allaha borc vermək ayəsi nazil olduqda deyirdilər: «Bu qəhətlik və gözəl borc tapşırığı Allahın əllərinin bağlı olması nişanəsidir.»

## *Bildirişlər*

1. Başqalarının günahına razılıq həmin günaha şəriklikdir. (Yəhudilərdən yalnız bir qismi Allahın əlinin bağlı olduğuna inansa da, başqaları da bu fikirlə razı olduğundan həmin fikir onların hamısına aid edilmişdir.)

---

[1] “Təfsire-Nurus-səqəleyn”; “Tövhide-Səduq”, s. 167.
[2] “Təfsire-Əyyaşi”.

2. Öz ləyaqətsizliyimizə don geyindirməyək. (Şeytan öz təkəbbürünü Allahın azdırması kimi təqdim edirdi.)[1] Yəhudilər də öz məhrumiyyətlərini Allahın xəsisliyi ilə izah edirdilər.

3. Hər hansı şübhənin cavabı həmin şübhədən daha güclü şəkildə verilməlidir. (Onlar deyirdilər: “Allahın əli bağlıdır.” Ayədə isə buyurulur: “Allahın hər iki əli açıqdır, yəni O kamil qüdrət sahibidir.)

4. Məzəmmət əmələ uyğun olmalıdır.

5. Quran müttəqilərə hidayət, inadkarlara isə tüğyan gətirir.

6. Tüğyan və küfr düşmənçilik və kin-küdurət üçün zəmin yaradır.

7. Yəhudilər daim fitnə törədir və məğlub olurlar.

8. Həm cəza olaraq kin və düşmənçiliyin göndərilməsi Allahdandır, həm də döyüş alovunun söndürülməsi.

9. Məhəbbət və ya cəzaya tuş gəlməyinizin səbəbi öz əməllərinizdir.

**65.** ﴿وَلَوْ أَنَّ أَهْلَ الْكِتَابِ آمَنُواْ وَاتَّقَوْاْ لَكَفَّرْنَا عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلأدْخَلْنَاهُمْ جَنَّاتِ النَّعِيمِ﴾

**“Əgər kitab əhli (yəhudilər və məsihilər) iman gətirib təqva yolunu seçsələr, hökmən Biz onların günahlarını bağışlayarıq və onları behişt nemətləri ilə dolu bağlara daxil edərik.”**

## *Bildirişlər*

1. Kitab əhli peyğəmbər əsrində imansız və təqvasız bir xalq idi.

2. İmansızlıq və təqvasızlıq azğınlıqların cəzasıdır və keçmişdəki işləri məhv edir.[2]

3.Təqvasız iman səmərəsizdir.

4. İlahi lütfləri əldə etmək üçün ilk öncə günahlardan paklanmaq lazımdır.

5. Allahın bağışlamadan əlavə lütfü də var.

**66.** ﴿وَلَوْ أَنَّهُمْ أَقَامُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيهِم مِّن رَّبِّهِمْ لأكَلُواْ مِن فَوْقِهِمْ وَمِن تَحْتِ
أَرْجُلِهِم مِّنْهُمْ أُمَّةٌ مُّقْتَصِدَةٌ وَكَثِيرٌ مِّنْهُمْ سَاء مَا يَعْمَلُونَ﴾

**“Əgər onlar (yəhudilər və məsihilər) Tövrat və İncili, Rəbləri tərəfindən onlara nazil olanı bərpa etsəydilər, başlarının üstündən (səmadan) və ayaqlarının altından (yerdən) ruzi yeyərdilər. Onlardan bəziləri orta haldadırlar. Amma çoxlarının gördüyü iş pisdir.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə insanın mənəvi və axirət səadətində imanın rolundan danışıldı. Bu ayədə imanın dünyəvi səadətdə, iqtisadi rifahdakı əhəmiyyəti qeyd olunur.

◘Əgər asimani kitab tərəfdarları Quran qarşısında da təslim olsaydılar və Quran qarşısında təslimçiliyi Bəni-İsrailin ərəb qövmü qarşısında təslimçiliyi saymasaydılar, bilərdilər ki, peyğəmbərlərin təlim üsulu eynidir. Tövrat və

---

[1] “Hicr”, 39.

[2] “Bihar”, c. 6, s. 22.

İncildən sonra nazil edilənə iman əvvəlki ilahi göstərişləri batil etmək yox, daha üstün sinfə adlamaqdır. Bu halda qiyamətdə axirət nemətlərindən əlavə, dünyada da çeşidli nemətlər əldə edilir.

◘Əvvəlki ayədə Allahın əllərinin bağlı olması haqqında yəhudilərin əqidələrindən danışıldı. Bu ayədə buyurulur: «Siz səmavi kitablara üz tutun, sonra mühakimə yürüdün ki, Allahın əlləri bağlıdır, yoxsa yox? Əgər sizin əzəmətiniz zillətə dönmüşsə, bunun səbəbi səmavi göstərişlərə arxa çevirməyinizdir. Bunu Allahın acizliyi və əlləri bağlı olması kimi yozmaq olmaz.»

◘"Əraf" surəsinin 96-cı ayəsi də bu ayənin oxşarıdır: "Əgər abadlıqların sakinləri iman gətirib təqva yolunu tutsalar, həqiqətən göyün və yerin bərəkət qapılarını onların üzünə açarıq."

◘**Sual:** Səmavi kitabları uca tutmaq ruzini artırırmı?

**Cavab:** Ya Allah mükafat olaraq ruzini artırır, ya da səmavi kitabların özündə ruzini artırmanın təbii yolları göstərilir. Əgər səmavi kitablar əsas götürülsə, uyğun yollar ələ gətirilər.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Yəhudilər yetmiş bir, məsihilər yetmiş iki firqə olar. Onlardan yalnız bir firqəsi behişt əhlidir." Həzrət Əli (ə) nə vaxt bu hədisi həzrət Peyğəmbərdən (s) nəql edirdisə, hazırkı ayəni də tilavət edirdi.[1]

## *Bildirişlər*

1. Kitab əhli bütün səmavi kitablara imanlı deyil. (Ayədəki "ləv" sözü imtina göstəricisidir.)
2. Təhrif olunmamış səmavi kitablar bütün hərəkətlərdə əsas qanun, mehvər və göstəricidir. Bu kitablar daim bayraq tək uca tutulmalıdır.
3. Başqalarını İslama dəvət edərkən onların düzgün etiqadlarını alçaltmayın.
4. Səmavi kitabı oxumaq mühüm deyil, bu kitablardakı hökmləri yerinə yetirmək zəruridir.
5. Bütün səmavi kitablar möhtərəmdir.
6. Quran təkcə müsəlmanlar yox, bütün ümmətlər üçündür.
7. İslam xalqın rifahına da diqqət yetirir.
8. Dini göstərişlərə diqqət maddi həyatda da fayda verir.
9. Varlıq nizamında insanların imanı torpağın məhsuldarlığında və yağıntıda, əhəmiyyətli rola malikdir.[2]
10. Günahkar cəmiyyət insanı günaha məcbur etmir. Günahkar toplumların arasında da düz yolda qalanlar var.
11. Səmavi kitablara əməl edərkən orta yol tutulmalıdır. Nə ifrat, nə də təfrit səmərəlidir.
12. Bir cəmiyyətin, bir irqin, bir məntəqənin, bir məzhəbin bütün fərdlərini istisnasız olaraq suçlamaq olmaz.

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-Əl-mizan".

13. Cəmiyyətin çoxluğu haqlı olmaq nişanəsi deyil.

**67.** ﴿يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ﴾

**"Ey peyğəmbər! Rəbbin tərəfindən (Həzrət Əlinin (ə) vilayəti və canişinliyi haqqında) sənə nazil olanı elan et. Əgər belə etməsən, ilahi risaləti çatdırmamısan. (Bil ki, Allah səni xalqdan (onun şərindən) hifz edər. Həqiqətən, Allah kafir qövmü hidayət etməz."**

## *Nöqtələr*

◘Bu ayə qarşıda bəyan olunacaq dəlillərə əsasən Həzrət Əlinin (ə) canişinliyi, onun vilayət məqamına təyini haqqındadır. Bu hadisə hicri onuncu ildə həzrət Peyğəmbər (s) həcc səfərindən qayıdarkən Qədir-Xumda baş vermişdir. Maraqlıdır ki, bu ayə səmavi kitabların nüzulundan danışan iki ayə arasında bəyan olunmuşdur. Belə bir nəticə çıxarmaq olar ki, məsum rəhbərlə səmavi kitabın yerinə yetirilməsi arasında möhkəm bir bağlılıq var. Bəli, səmavi kitabı həyata keçirə bilən şəxs məhz imamdır. Həqiqi imamı isə Allahın kitabı tanıtdıra bilər.

◘Bütün şiə təfsirçiləri Əhli-beyt (ə) rəvayətlərinə əsaslanaraq və bəzi sünni təfsirçiləri həzrət Əlinin (ə) Qədir-Xumda vilayət və imamətə təyin olunmasını ayənin nümunələrindən saymışlar.[1] Maraqlıdır ki, "Əl-mənar" təfsirinin müəllifi uyğun hədisi Əhməd, Termizi, Nəsayi və İbn-Macənin kitablarından etibarlı sənədlə bəyan etmişdir. Sonra iki cümlə ilə, öz düşüncəsinə əsaslanaraq uyğun hədisi şübhə altına almışdır: Qeyd etmişdir ki, vilayət dedikdə dostluq nəzərdə tutulur. (Müəllif yaddan çıxarmışdır ki, dostluğun beyətə, təbrikə, Qədir-Xumdakı dəbdəbəyə heç bir ehtiyacı yoxdur) Müəllif qeyd edir ki, əgər Həzrət Əli (ə) Peyğəmbərdən (s) sonra imam və rəhbər seçilmişdirsə, nə üçün bu təyinatını bəyan etmirdi?! (Müəllif "Nəhcül-bəlağə"də və digər mənbələrdə Həzrət Əlinin (ə) bu məsələni dəfələrlə qeyd etdiyini nəzərdən qaçırır. Sanki həzrət Əlinin (ə) uyğun məsələ ilə bağlı fəryadlarını eşitməmişdir.)

◘Quranda yalnız bu ayədə həzrət Peyğəmbərə (s) xəbərdarlıq olunur ki, əgər bu bəyanatı gizləsə, iyirmi üç il ərzində dedikləri hədərə gedəcək. Bu xəbərdarlıq uyğun məsələnin mühümlüyünü göstərir.

◘Həzrət Peyğəmbər (s) həzrət Əliyə (ə) buyurmuşdur: "Əgər sənin vilayətin haqqında buyuruqları xalqa çatdırmasam, bütün əməllərim məhv olar."[2]

◘Bu aydəki bir neçə nöqtə onun mahiyyətini aydınlaşdırır:

1. "Maidə" surəsi həzrət Peyğəmbərin (s) ömrünün axırlarında nazil olmuşdur.

2. Ayədə "ey peyğəmbər" əvəzinə "ey rəsul" təbiri işlədilmişdir. Bu isə mühüm bir risalətdən danışır.

3. Ayədəki "bəlliğ", yəni elan et təbiri məsələnin qətiliyini, rəsmiliyini və mühümlüyünü göstərir.

---

[1] "Təfsire-Kəbire-Fəxr Razi"; "Əl-mənar".

[2] "Təfsire-Nurus-səqəleyn"; "Əmaliye-Səduq", s. 400.

4. Peyğəmbər bu mühüm bildirişi çatdırmayacağı halda bütün zəhmətlərin hədərə getməsi ilə hədələnir.

5. Həzrət Peyğəmbər (s) işin sonundan ehtiyatlandığı üçün Allah onu xalqın şərindən qoruyacağı ilə arxayınlaşdırır.

6. Peyğəmbər öz canından qorxmur. Həzrət təkbaşına bütlərlə mübarizə apardığı, savaşlarda müşriklərlə üzləşdiyi vaxt təhlükələrdən qorxmurdu. Həmin vaxtlar ona daş atırdılar, ətrafındakılara işkəncə verirdilər. İndi ömrünün sonunda, ətrafında bir bu qədər tərəfdarı olan halda nədən qorxmalı idi?!

7. Ayədə əhəmiyyət baxımından elə bir bildirişdən danışılır ki, uyğun buyuruq bütün əvvəlki buyruqlara bərabər tutulur. Və o, bəyan olunmayacağı təqdirdə bütün əvvəlki bildirişlər puç sayılır.

8. Ayədə əsaslı bir məsələdən danışılır. Əks-təqdirdə cüzi və fərdi məsələlərə görə bir bu qədər hədələməyə və təsəlliyə ehtiyac olmazdı.

9. Ayənin bildirişi tövhid, nübüvvət və məada aid deyil. Çünki bu əsaslar besətin ilk günlərində Məkkədə bəyan olunmuşdu və həzrətin ömrünün sonlarında onların bir daha tapşırılmasına ehtiyac yox idi.

10. Namaz, oruc, həcc, zəkat, xüms və cihad buyruqları ötən iyirmi üç ildə bəyan olunduğundan, bu bildirişi həmin hökmlərə aid etmək olmaz. Uyğun buyuruq bəyan olunarkən yuxarıda sadalanan dini hökmlər yerinə yetirilirdi. Həmin hökmlərin icrası ilə bağlı narahatçılıq yox idi. Belə isə, həzrət Peyğəmbərin (s) ömrünün sonlarında bəyan olunan bu məsələ nədir?

Bir çox şiə və sünni rəvayətləri məsələni aydınlaşdırır. Rəvayətlərdə deyilir: Ayə həzrət Peyğəmbərin (s) “hiccətul-vida” səfərinə, hicri onuncu il, zil-hiccə ayının on səkkizinci gününə aiddir. Həzrət Mədinəyə qayıdarkən Qədir-Xum adlanan məkanda Allahın əmri ilə dayanmaq göstərişi verdi. Hamı onun ətrafına toplandı. Həmin yer suyu, kölgəliyi ilə hicaz istisində dayanmaq üçün gərəkli bir yer idi. Bu yerdə Məkkə, Yəmən, İraq, Şam, Mədinə, Həbəşə karvanları bir-birlərindən ayrılırdı.

Qədir-Xumda həzrət Peyğəmbər (s) çoxsaylı tərəfdarlarının arasında minbərə qalxaraq uzun bir xütbə oxudu. Xütbə tövhid, nübüvvət və məad məsələləri ilə başlandı. Bu mövzular yeni bir mövzu deyildi. Xütbədəki yeni məsələ həzrət Peyğəmbərin (s) öz vəfatı haqqında xəbər verməsi idi. Həzrət müsəlmanların diqqətini özünə çəkdi. Hamı onun kəramətini, əzəmətini, xidmətini və risalətini etiraf edirdi. Həzrət Peyğəmbər (s) səsinin bütün ətrafdakılara çatdığına əmin olduqdan sonra gələcəklə bağlı bəyanatını açıqladı. O buyurdu: “Mən kimin mövlasıyamsa, Əli (ə) da onun mövlasıdır.” Beləcə, həzrət Peyğəmbər (s) özündən sonra həzrət Əlinin (ə) canişinliyini elan etdi. Amma həzrətin vəfatından sonra həzrət Zəhra (s) müsəlmanların qapısına gedib onlara Qədir-Xumdakı buyuruqları xatırladarkən ona deyirdilər: “Biz Qədir-Xumda uzaqda idik və peyğəmbərin səsini eşitmirdik.” Aman haqqın gizlədilməsindən, qorxudan, vəfasızlıqdan, peyğəmbər qızına yalandan! Aman!

Bəli, insan iki şahid vasitəsi ilə öz haqqını alır. Amma Həzrət Əli (ə) on minlərlə şahidi olduğu halda haqqını geri qaytara bilmir. Aman dünya məhəbbətli qəlblərdən, Əliyə (ə) tuşlanmış Bədr, Xeybər, Hüneyn kin-küdurətindən! Aman!

◘İmam Baqir (ə) buyurmuşdur: «İslam beş əsas üzərində bərqərardır: Namaz, zəkat, oruc, həcc, Əhli-beytin (ə) vilayəti. Vilayət qədər diqqət mərkəzində dayanan məsələ yoxdur. Amma xalq həmin beş əsasdan dördünü qəbul edib, vilayətdən uzaq düşdü.»[1]

◘İmam Riza (ə) buyurmuşdur: «Allah-təalanın Peyğəmbərə (s) zamin olacağını buyurduğu bu ayə nazil olduqdan sonra o həzrət hər cür təqiyyəti özündən uzaqlaşdırdı.»

## *Bildirişlər*

1. Hədəfə uyğun şəkildə xitab olunmalıdır. Hədəf risalət və bəyanat çatdırmaq olduğundan "ey rəsul" deyə xitab olunur.
2. İslami rəhbər (məsum imam) Allah tərəfindən seçilmişdir.
3. Bəzən ilahi bəyanat xalqın hüzurunda, ümumi mərasimdə açıqlanmalı və beyət alınmalıdır. Vilayət məsələsinin bəyanı təkcə dildə kafi deyil. Göstərişin əməli şəkildə qəbulu zəruridir.
4. İlahi hökmlər və bəyanatlar eyni dərəcəli deyil. Bəzən bir həqiqətin gizlədilməsi bütün həqiqətlərin gizlədilməsinə bərabər tutulur.
5. Əgər düzgün rəhbərlik olmasa, əqidə məktəbi puç olar və ümmət yolunu azar.
6. İslamın əsas sütunu imamət və hökumətdir.
7. Vilayətin inkarı küfr növüdür.
8. Zaman və məkan ünsürləri təbliğdə iki mühüm əsasdır. (Bu ayə zil-hiccənin on səkkizinci günü, həcc karvanlarının bir-birlərindən ayrıldığı məhəldə nazil oldu.)

**68.** ﴿قُلْ يَا أَهْلَ الْكِتَابِ لَسْتُمْ عَلَى شَيْءٍ حَتَّىَ تُقِيمُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيْكُم مِّن رَّبِّكُمْ وَلَيَزِيدَنَّ كَثِيرًا مِّنْهُم مَّا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ طُغْيَانًا وَكُفْرًا فَلاَ تَأْسَ عَلَى الْقَوْمِ الْكَافِرِينَ﴾

**"De ki, ey kitab əhli! Tövrat, İncil, Rəbbiniz tərəfindən nazil olanı bərpa etməyincə heç bir dəyəriniz yoxdur. Həqiqətən, Allahın tərəfindən sənə nazil olan onların bir çoxunun tüğyan və küfrünü artıracaq. Kafirlərə (onların müxalifətinə) görə təəssüf etmə."**

## *Nöqtələr*

◘Səmavi kitab - Quran hidayət vasitəsi olsa da, ilahi ayələr oxunduqda bir qrup insanın batini çirkinliyi inadkar ruhiyyə səbəbindən daha çox aşkara çıxır.

[1] "Kafi", c. 4, s. 14.

◘İmam Baqir (ə) buyurmuşdur: “Bir çox tüğyan və küfrün səbəbi Həzrət Əlinin (ə) vilayətinə etiqadsızlıqdır.”[1]

## *Bildirişlər*

1. Kitab əhli bütün səmavi kitablara inanmalıdır.
2. “İmanlıyam” demək kifayət deyil. Əməldə hərəkət lazımdır.
3. Səmavi qanunlar əməl üçün mehvər olmalıdır. Bu qanunlar qüdrət kürsüsünə oturmalıdır.
4. Fərdlərin şəxsiyyəti və dəyəri onların dini öhdəçiliklərinə bağlıdır.
5. Təbliğdə ilk öncə başqalarının düzgün etiqadlarına hörmətlə yanaşmaq, sonra nəzərdə tutulan yolu açıqlamaq lazımdır.
6. Tüğyan küfr üçün zəmin və müqəddimədir.
7. Tüğyan və küfr artıb-azala bilər.
8. Kitab əhlinin az bir qismi düzgün yoldadır.
9. İnadkar və kafir fərdlərə görə qüssə çəkmək yersizdir.

**69.** ﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ هَادُواْ وَالصَّابِؤُونَ وَالنَّصَارَى مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وعَمِلَ صَالِحًا فَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**“Həqiqətən iman gətirənlər, möminlər, yəhudilər, sabiilər, məsihilər, qiyamət gününə iman gətirib saleh iş görənlərin heç biri üçün qəm yoxdur.”**

## *Nöqtələr*

◘Quranda yəhudilər və məsihilər sözü ilə üç dəfə yanaşı işlənmiş «sabiilər» sözü səmavi dinlərdən birinə itaət edənlərə aiddir. Zaman ötdükcə onlar doğru yoldan azmış, ulduzların təsiri kimi əqidəyə, haqdan uzaqlığa və yanlış adət-ənənələrə uğramışlar.

◘Müxtəlif dinlərin ardıcılları yeni din gəldikdən sonra həmin dinə iman gətirməli idilər. Əgər son peyğəmbərə iman zəruri olmasaydı, onun gəlişi əbəs olardı. Müsəlmanlarla yanaşı İslam peyğəmbərinə iman gətirib saleh əmələ üstünlük verən yəhudilər, məsihilər və sabiilər üçün qorxu olmayacaq.

◘Bütün qədim dinlərdən yəhudi, məsihi və sabii dinlərinin adı çəkilir. Çünki bu dinlər ilahi din olmaqla haqqın dəvətinin qəbuluna başqalarından daha layiqdirlər.

## *Bildirişlər*

1. Allaha və qiyamət gününə iman, peyğəmbərlərin risalətinin qəbulu səmavi dinlərin müştərək əsaslarındandır.
2. Bütün səmavi dinlərdə səadət ölçüsü iddia və ad yox, iman və saleh əməldir.
3. İman əməldən ayrı deyil.
4. Gerçək rahatlıq iman və saleh əməl sayəsində əldə olunur.

[1] “Təfsire-Əyyaşi”.

70. ﴿لَقَدْ أَخَذْنَا مِيثَاقَ بَنِي إِسْرَائِيلَ وَأَرْسَلْنَا إِلَيْهِمْ رُسُلاً كُلَّمَا جَاءهُمْ رَسُولٌ بِمَا لاَ تَهْوَى
أَنْفُسُهُمْ فَرِيقًا كَذَّبُواْ وَفَرِيقًا يَقْتُلُونَ﴾

**“Həqiqətən, Biz Bəni-İsraildən əhd aldıq və onlara peyğəmbərlər göndərdik. (Amma) hər vaxt bir peyğəmbər onlar üçün könüllərincə olmayan söz və bildiriş gətirdi, bir dəstəni təkzib edib, digər bir dəstəni öldürdülər.”**

## *Nöqtələr*

◘Ayədə «Bəni-İsraildən alınmış əhd» dedikdə əvvəlki ayənin mahiyyəti, yəni Allaha, məada iman və saleh əməl nəzərdə tutula bilər. Eləcə də, bu ayənin özündə “rusulən” sözü ilə bəyan olunan peyğəmbərlərə itaət nəzərdə tutula bilər. Başqa bir halda “Bəqərə” surəsinin 93-cü, “Ali-İmran” surəsinin 81-ci ayələrində haqqında danışılan bildirişdən söhbət gedə bilər. Yəni əsas mövzu Allahın nazil etdiyinə əməldir.

◘Əvvəlki ayədə dedik ki, səmavi dinə bağlılıq təklikdə kifayət etmir, iman və saleh əməl də lazımdır. Bu ayə əvvəlki ayəni açıqlayaraq Bəni-İsrailin səmavi dinə bağlı olduğu halda hansı əməllərə uğradığından danışır.

◘Surə “əhdlərə vəfa edin” cümləsi ilə başlandığından, 67-ci ayədə Qədir-Xum əhvalatı bəyan olunduğundan, bu ayədə əhdi pozma, övliyaların qətlə yetirmə və onları təkzib etmə zikr edildiyindən bütün bu ayələr ibrət və xəbərdarlıq ola bilər. Eləcə də, Bəni-İsrailin vəziyyətinin ifşası ilə müşayiət olunan bu xəbərdarlıqlar diqqəti Qədir-Xum bəyanatına yönəldir.

## *Bildirişlər*

1. Bəni-İsrailin həzrət Musadan başqa da peyğəmbərləri vardı.
2. Peyğəmbərlərin yolu nəfsani meyllər yolu deyil.
3. Peyğəmbərlərin inkarı və qətlə yetirilməsinin kökü Bəni-İsrailin nəfs istəkləri idi.
4. Əhdə vəfasızlıq, peyğəmbərlərin qətli, təkzib və inadkarlıq Bəni-İsrailin sifətlərindəndir.
5. Günahkar cəmiyyətdə ilahi insanların ya şəxsiyyətləri, ya da özləri terror olunur.
6. Peyğəmbərlər Allah yolunda canlarından keçmişlər.

71. ﴿وَحَسِبُواْ أَلاَّ تَكُونَ فِتْنَةٌ فَعَمُواْ وَصَمُّواْ ثُمَّ تَابَ اللّهُ عَلَيْهِمْ ثُمَّ عَمُواْ وَصَمُّواْ كَثِيرٌ مِّنْهُمْ
وَاللّهُ بَصِيرٌ بِمَا يَعْمَلُونَ﴾

**“(Yəhudilər özlərini xalqdan və Allahın övliyalarından üstün tutduqları üçün ) cəza və sınağa düçar olmayacaqlarını güman etdilər. (Həqiqətləri gördükdən sonra) kor və kar oldular. Sonra Allah (onlara lütf göstərərək) tövbələrini qəbul etdi. Növbəti dəfə onlardan çoxu (ilahi ayələri görməkdə və ya eşitməkdə) kor və kar oldular. Allah onların etdiklərini görəndir.”**

## *Nöqtələr*

◘Ayədəki "fitnə" sözü imtahan və ya əzab mənasını bildirir.

◘Bəni-İsrail elə düşünürdü ki, Allahın sınaqları və ya qəhr-qəzəbi yalnız həzrət Musanın dövrünə aiddir. Ona görə də arxayın şəkildə rifah ardınca qaçır, ilahi ayələrə biganəlik göstərirdilər.

◘İmam Sadiq (ə) bu ayəyə işarə ilə buyurmuşdur: "Məqsəd peyğəmbərin olmadığı bir dövrdür. "Kor və kar oldular" təbiri peyğəmbərin dünyadan getməsi ilə bağlıdır." Sonra Allah tərəfindən onların tövbəsinin qəbul olması "Əmirəl-mömininin xilafətə çatdığı dövrə təsadüf edir. Sonra növbəti dəfə karlıq və korluq" qiyamətədək davam edəsidir."[1]

## *Bildirişlər*

1. İlahi sınaq ümumidir. Heç vaxt fitnələrdən qəflətdə qalmayaq.
2. Əqidələr ehtimal və gümana əsaslanmamalıdır.
3. Bir müddət doğru yolda olmaq mühüm deyil, əsas məsələ xeyir aqibət və müsbət sonluqdur. Ayədəki "sonra yenidən kar və kor oldular" təbiri Bəni-İsrailin Allaha doğru qayıtdıqdan sonra növbəti dəfə azdığını göstərir.
4. Qürur, insanın özünü üstün bilməsi, zənn-gümana qapılma insanı kor və kar edir, onun mərifətini əlindən alır.
5. Kimsə güman etməsin ki, sınağa çəkilmədən bir yerə çatacaq.
6. Allahın lütfü o qədər böyükdür ki, hətta bəzən insanın üzrxahlığı olmadan ona doğru yönəlir.
7. Allah mehriban, insanlar isə inadkardır.
8. Yolçuların çoxluğu yolun haqq olmasını göstərmir.
9. Allah hüzuruna iman insan həyatında mühüm rol oynayır.

**72.** ﴿لَقَدْ كَفَرَ الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ هُوَ الْمَسِيحُ ابْنُ مَرْيَمَ وَقَالَ الْمَسِيحُ يَا بَنِي إِسْرَائِيلَ اعْبُدُواْ اللّهَ رَبِّي وَرَبَّكُمْ إِنَّهُ مَن يُشْرِكْ بِاللّهِ فَقَدْ حَرَّمَ اللّهُ عَلَيهِ الْجَنَّةَ وَمَأْوَاهُ النَّارُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ﴾

**"Həqiqətən, "Allah həmin Məryəm oğlu Məsihdir" deyənlər qəti kafir oldular. (Nə üçün belə deyirlər,) halbuki Məsih özü deyirdi: "Ey Bəni-İsrail, Allaha pərəstiş edin, O mənim və sizin Allahınızdır. Şübhəsiz, Allah Ona şərik qoşan kəsə behişti haram etmişdir və onun yeri cəhənnəmdir. Sitəmkarların heç bir yardımçısı yoxdur."**

[1] "Kafi", c. 8, s. 200.

## *Nöqtələr*

◘"Məcməül-bəyan" təfsirində deyilir: "Məsihilərdən olan «Yəqubiyyə» firqəsi elə düşünür ki, Allah Məsihlə zatən birləşdi və onlar bir varlıq oldular.

◘Bu ayə bəzi məsihilərin əqidəsini bəyan edir. Onlar Allahı Məsih kimi tanıyırlar. Sonra ayə digər bir qrupun əqidəsini bəyan edir. Onlar üç uqnum əqidəsindədirlər. Qeyd etməliyik ki, Merqis İncilində (on ikinci bab, ayə 29) İsa xalqı tövhidə dəvət etmiş və buyurmuşdur: "Bizim Allahımız vahid Allahdır." Mətta İncilində isə (altıncı bab, ayə 24) belə bəyan olunur: "İnsanın iki ağa və iki məhbuba malik olması qeyri-mümkündür. İnsan həm Allaha, həm də bir başqasına xidmət edə bilməz."

◘İmam Sadiq (ə) kəbirə günahlar haqqında danışarkən buyurmuşdur: "Kəbirə günahların ən böyüyü Allaha şərik qoşulmasıdır." Sonra həzrət bu ayəni oxumuşdur.[1]

## *Bildirişlər*

1. Böyük çaşqınlıqlar qarşısında qətiyyət göstərilməlidir.
2. Allahın fərdlərdə zühur etməsinə inam küfrdür.
3. Anadan doğulan insan Allah ola bilərmi?!
4. Allahın övliyaları, paklar və salehlər haqqında ifrata varmayaq. İsa özü allahpərəstliyə dəvət etdiyi zaman, onu Allah saymaq nəyə əsaslanır?!
5. Allaha şərik qoşanlar, müşriklər heç vaxt behiştə daxil olmaz.
6. Həzrət İsanı Allah sayanlar kafir, müşrik, zalımdırlar və behiştdən məhrum edilmişlər.
7. Allaha şərik qoşmaq zülmdür.
8. Qiyamətdə şəfaət var. Amma bu şəfaət müşriklərə aid deyil.

**73.** ﴿لَّقَدْ كَفَرَ الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ ثَالِثُ ثَلاَثَةٍ وَمَا مِنْ إِلَهٍ إِلاَّ إِلَهٌ وَاحِدٌ وَإِن لَّمْ يَنتَهُواْ عَمَّا يَقُولُونَ لَيَمَسَّنَّ الَّذِينَ كَفَرُواْ مِنْهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**"Həqiqətən, Allah üçdən biridir" deyənlər kafir oldular. Bir Allahdan savay Allah yoxdur. Əgər dediklərindən əl götürməsələr, kitab əhlinin kafirlərinə, şübhəsiz, dərdli əzab yetişəcək."**

## *Nöqtələr*

◘Əvvəlki ayə Allahın Məsihdə zahir olması etiqadını rədd etdi. Bu ayədə isə üçlüyə etiqad əqidəsi haqqında danışılır, hər iki əqidənin şirk olduğu bildirilir və onlarla mübarizə zəruri sayılır.

◘Üç uqnum əqidəsində Allah, Məsih və Ruhul-qüds - hər üçü Allah sayılır. Amma son dövr məsihi alimlərindən bir qrupu belə deyir: "Üçlüyə etiqadın elmi əsası yoxdur."[2]

---

[1] "Bihar", c. 79, s. 6; "Uyune-əxbarir-Riza", c. 1, s. 285.
[2] "Təfsire-Əl-mizan".

## *Bildirişlər*

1. İslam başqa din ardıcıllarının çaşqınlığına biganə deyil.
2. Şirk və çoxallahlılıq küfrdür.
3. Üçlüyə inanan bütün fərdlər ilahi əzaba düçar olacaq. (Belə deyə bilərik ki, üçlük əqidəsində qalanlar və Quranın dəvətindən sonra tövhidə dönməyənlər əzabda olacaqlar.)
4. Əzabdan qabaq xəbərdarlıq zəruridir.
5. Küfr və şirkin sonu əzabdır.

**74.** ﴿أَفَلاَ يَتُوبُونَ إِلَى اللّهِ وَيَسْتَغْفِرُونَهُ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**“Məgər tövbə edib, Ondan bağışlanma diləməzlərmi? Halbuki Allah bağışlayan və mehribandır.”**

## *Bildirişlər*

1. Azğın əqidələrdən tövbə edilməlidir.
2. Azğınları əfv və ilahi rəhmət haqqında danışmaqla doğru yola dəvət edin.
3. Tövbə və tövhidə etiqadla hətta küfr və şirk də bağışlanır.
4. Allah həm keçmişi bağışlayır, həm də rəhmətini nazil edir.
5. Ötən ayədə əzab haqqında danışmaqla yanaşı tövbə edənlərə münasibətdə rəhmət də yada salındı.

**75.** ﴿مَّا الْمَسِيحُ ابْنُ مَرْيَمَ إِلاَّ رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ الرُّسُلُ وَأُمُّهُ صِدِّيقَةٌ كَانَا يَأْكُلاَنِ الطَّعَامَ انظُرْ كَيْفَ نُبَيِّنُ لَهُمُ الآيَاتِ ثُمَّ انظُرْ أَنَّى يُؤْفَكُونَ﴾

**“Məryəm oğlu Məsih yalnız bir peyğəmbərdir, ondan qabaq da peyğəmbərlər olmuşdur. Onun anası çox doğruçu və əməlisaleh idi. O iki nəfər (başqa insanlar kimi) çörək yeyirdilər. (Deməks, heç biri Allah deyildir.) Gör ki, ayələri xalq üçün necə bəyan edirik? Gör ki, bu xalq (haqdan) necə üz döndərir?”**

## *Nöqtələr*

◘Bu ayədə Allah-təala İsanın tanrı olmamasına üç dəlil gətirir: O, anadan doğulmuşdur və Məryəmin oğludur; onun kimi peyğəmbərlər olmuşdur və o oxşarsız deyil; o da başqaları kimi qidalanmış, gücünü qidadan almışdır. (Demək, onun Allah olmaq qüdrəti yoxdur.) Bəli, yeməyə ehtiyacı olan kəs xaliq ola bilməz. Bunlar Quranın aşkar, ümumi və hamı tərəfindən dərk olunan bəyanlarıdır.”

◘“Siddiq” çox düzdanışan insana deyilir. Belə bir insan öz düz əməli ilə doğruçuluğunu sübuta yetirir.

◘Digər bir ayədə həzrət Məryəmin “Siddiqə” olması ilahi kəlmələri təsdiq etməsi ilə əsaslandırılır. Bildirilir ki, Məryəm abidlərdən idi.[1]

---

[1] “Təhrim”, 12.

### *Bildirişlər*

1. Bəzi imtiyazlara və istisna işlərə malik olmaq ilahi dəlil deyil. Həzrət Adəm də ata-anasız vücuda gəlmişdi. Amma kimsə onu Allah saymadı.
2. Məryəm Allahın övliyalarındandır. Quran onu uca tutur və “siddiqə” adı ilə xatırlayır.
3. Bütün peyğəmbərlərin ölümü qətidir. İsa ölümdən amanda deyil və Allah sayılmamalıdır.
4. Əgər ortada inadkarlıq varsa, ən aydın dəlillərdən də səmərə olmayacaq.
5. Qadın ən üstün mənəvi dərəcəyə çata bilər. Beləsi haqqında Allah xoş sözlər buyurar.
6. Keçmişdəkilərin tarixi ilə tanışlıq və baş vermiş hadisələrin səbəbini araşdırmaq gələcəkdəkilər üçün faydalıdır.

**76.** ﴿قُلْ أَتَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَمْلِكُ لَكُمْ ضَرًّا وَلاَ نَفْعًا وَاللّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**“(Ey peyğəmbər! Xalqa) de ki, sizin üçün heç bir faydası və zərəri olmayan, Allahdan qeyrisinəmi pərəstiş edirsiniz? Halbuki Allah eşidən və biləndir.”**

### *Nöqtələr*

◘Bu ayədə məsihilərdən bir dəstəsi həzrət İsaya münasibətdə şirk və düşmənçiliyə görə məzəmmət olunmuşdur.

### *Bildirişlər*

1. Şirk yolunun tanınması üçün ağıl və vicdanınıza müraciət edin.
2. Pərəstişin mehvəri və kökü mənfəət qazanmaq və ya zərəri uzaqlaşdırmaqdır. Allahdan qeyri kimsə nə zərəri uzaqlaşdıra bilər, nə də mənfəət gətirər.
3. Yalnız Allah istəkləri eşidir, insanların xeyir və zərərindən xəbərdardır. Məbud seçilmiş başqaları bu sahədə fəaliyyətsizdir.

**77.** ﴿قُلْ يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ غَيْرَ الْحَقِّ وَلاَ تَتَّبِعُواْ أَهْوَاء قَوْمٍ قَدْ ضَلُّواْ مِن قَبْلُ وَأَضَلُّواْ كَثِيرًا وَضَلُّواْ عَن سَوَاء السَّبِيلِ﴾

**“(Ey peyğəmbər,) de ki, ey kitab əhli! Öz dininizdə nahaqdan həddi aşmayın. Bundan qabaq yolunu azmış və bir çoxlarını azdırmış, (indi isə) haqq yoldan uzaq düşmüş qövmün həvəslərinə tabe olmayın.”**

### *Nöqtələr*

◘Bu ayədən belə bir nəticə çıxarıla bilər ki, həzrət İsanın Allah sayılması keçmişdəki cəmiyyətlərin həddi aşması, şirkə batma növüdür. Çünki “Tövbə” surəsinin 30-cu ayəsində oxuyuruq: “Yəhudilər dedilər: “Üzeyir Allahın oğludur.” Məsihilər dedilər” “Məsih Allahın oğludur.” Bu azğın və əsassız sözlər keçmişdəki kafirlərin sözlərinə oxşayır.”

## *Bildirişlər*

1. Bütün dinlərdə düşüncə və əqidə sərhədləri qorunmalıdır. Şəxsiyyətlərə münasibətdə həddi aşmaq qadağandır.
2. İlahi rəhbərlərə münasibətdə həddi aşmaq dində həddi aşmaqdır. (İsanın Allah sayılması haqda məlumat verən ötən ayəyə əsasən.)
3. Əgər Allahın dini və ilahi övliyalara münasibətdə həddi aşmaq qadağandırsa, başqalarına münasibətdə də mübaliğə rəva deyil.
4. Kor-koranə təqlid qadağandır.
5. İnsanlar yalnız İsaya münasibətdə həddi aşmamışdılar. Bəzi yəhudilər Üzeyir haqqında da ifrata varmış və onu Allahın oğlu saymışdılar.
6. Qədim elm və mədəniyyətlərin dəyəri var. Amma əcdadların öz nəfs istəklərinə əsaslanan əqidələri puçdur. Bu dəyərsiz, batil əqidələrə tabe olmamalıyıq.
7. Azğınlığın mərhələləri var: İlk öncə insan özü yolunu azır. Sonra o başqalarını da doğru yoldan çəkindirir. Yavaş-yavaş o, haqqa hidayətdən həmişəlik ayrı düşür.

**78.** ﴿لُعِنَ الَّذِينَ كَفَرُواْ مِن بَنِي إِسْرَائِيلَ عَلَى لِسَانِ دَاوُودَ وَعِيسَى ابْنِ مَرْيَمَ ذَلِكَ بِمَا عَصَوا وَّكَانُواْ يَعْتَدُونَ﴾

**“Bəni-İsraildən kafir olan kəslər Davud və Məryəm oğlu İsanın dili ilə lənətləndilər. Bunun (lənət və nifrinin) səbəbi bu idi ki, onlar üsyan edib, Allahın göstərişlərinə təcavüz edirdilər.”**

## *Nöqtələr*

◘Həzrət Davud Bəni-İsraili ovun qadağan edildiyi şənbə günlərində yollarını azdıqları üçün lənətlədi. Həzrət İsa isə Bəni-İsrailə səmavi süfrədən yedikdən sonra növbəti dəfə küfr etdikləri üçün lənət yağdırdı.[1]

◘İmam Baqir (ə) buyurmuşdur: “Həzrət Davudun nifrini onları donuza, həzrət İsanın nifrini isə onları meymuna döndərdi.”[2]

## *Bildirişlər*

1. Bəni-İsraildən bir dəstəsi öz peyğəmbərinin lənətinə düçar oldu.
2. Üsyan və təcavüz insanı küfrə çəkir.
3. Peyğəmbərlər heç də həmişə şəfaətçi olmur. Bəzən onlar nifrin də yağdırır.
4. Günah və təcavüzün ardınca peyğəmbərlərin lənəti gəlir.
5. Təcavüz və qanunları pozmaq Bəni-İsrailin yoludur.

**79.** ﴿كَانُواْ لاَ يَتَنَاهَوْنَ عَن مُّنكَرٍ فَعَلُوهُ لَبِئْسَ مَا كَانُواْ يَفْعَلُونَ﴾

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 8, s. 200.

**“Onlar bir-birlərini gördükləri pisliklərdən çəkindirmirdilər. (Nəhy əz münkər etmirdilər.) Doğrusu, gördükləri iş necə də pisdir!”**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) buyurmuşdur: “Allah-təalanın bu ayədə məzəmmət etdiyi Bəni-İsrail dəstəsi günah məclisinə daxil olmasalar da, günahkarları gördükdə onlarla xoş davranırdılar.[1]

◘Digər bir rəvayətdə Həzrət Əlidən (ə) belə nəql olunur: “Bəni-İsrail zalımların günaha batdığını görsə də, onlardan faydalandığı üçün nəhy əz münkər etmirdi. (Qorxurdular ki, mənafeləri əldən çıxsın.) Allah onları pislikləri ilə xatırlayır.[2]

## *Bildirişlər*

1. Fitnə-fəsada biganə qalanlar peyğəmbərlər tərəfindən lənətlənmişlər.
2. Nəhy əz münkər yalnız İslam dininə məxsus deyil.
3. Nəhy əz münkər əhatəli və ümumi bir vəzifədir.
4. Bəni-İsrail və yəhudi cəmiyyətində fitnə-fəsad rəvac tapmışdır.
5. Əmr be mərufun tərk olunması küfrə zəmin yaradır.

**80.** ﴿تَرَى كَثِيرًا مِّنْهُمْ يَتَوَلَّوْنَ الَّذِينَ كَفَرُواْ لَبِئْسَ مَا قَدَّمَتْ لَهُمْ أَنفُسُهُمْ أَن سَخِطَ اللّهُ عَلَيْهِمْ وَفِي الْعَذَابِ هُمْ خَالِدُونَ﴾

**“Onların (Bəni-İsrailin) bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən. (Onları özlərinə rəhbər götürürlər.) Öncədən necə də pis əməllər göndərirlər? (Nəticədə) Allah onlara qəzəb etdi və onlar əzabda əbədi qalacaqlar.”**

## *Nöqtələr*

◘Bu ayədə Bəni-İsrailin lənətlənməsinin digər bir səbəbi bəyan olunmuşdur. Onlan kafirlərlə aşkarda və gizlində dostluq edirdilər. (Ayədəki “təra” aşkar, “yətəvəlləvnə” isə gizli münasibətləri bildirir.)

◘İmam Baqir (ə) uyğun ayəni izah edərkən buyurmuşdur: “Bu dəstədən olanlar zalımları sevənlər, onların dünyasından bəhrələnmək üçün həvəsbaz əməllərini nəzərlərində gözəl göstərənlər idi.”[3]

## *Bildirişlər*

1. Kafirlərlə dostluq ilahi qəhr-qəzəb səbəbidir.
2. Kitab əhli kafirlərin hakimiyyətini və onlarla dostluğu qəbul edir, amma müsəlmanlara yaxınlaşmır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Vəsail”, c. 16, s. 130.
[3] “Təfsire-Nurus-səqəleyn”.

3. Allah-təala hətta kitab əhli üçün də istiqlaliyyət istəyir. Müşriklərə tabeçilik və onlardan asılılıq məzəmmət olunur.

4. Bəni-İsrailin yol verdiyi ən mühüm pis işlərdən biri (Məkkə müşrikləri və) kafirlərlə yaxın rabitə idi.

5. Hər bir günah daha böyük günah üçün müqəddimədir. (Əvvəlki ayələrdə üç günah haqqında danışıldı və bu günahlar kafirlərin hakimiyyətinin qəbul edilməsi üçün müqəddimədir).

**81.** ﴿وَلَوْ كَانُوا يُؤْمِنُونَ بِاللهِ والنَّبِيِّ وَمَا أُنزِلَ إِلَيْهِ مَا اتَّخَذُوهُمْ أَوْلِيَاء وَلَكِنَّ كَثِيرًا مِّنْهُمْ فَاسِقُونَ﴾

**"Əgər Allaha, peyğəmbərə və ona nazil olana iman gətirsəydilər, heç vaxt onları (kafirləri) sevməzdilər. Amma onların bir çoxu günahkarlardır."**

## *Nöqtələr*

◘Bu ayənin mənası haqqında bir neçə ehtimal var:

a) Əgər yəhudilər müsəlman olsaydılar, kafirləri özlərinə rəhbər seçməzdilər.[1]

b) Əgər yəhudilər Musa və Tövrata iman gətirsəydilər, heç vaxt müşriklərə tabe olmazdılar.[2]

v) Əgər kafirlər və müşriklər müsəlman olsaydılar, yəhudilər onları özünə dost seçməzdi.[3]

Amma əvvəlki ayələrə əsasən, zahirdə belə görünür ki, birinci ehtimal həqiqətə daha çox uyğundur.

## *Bildirişlər*

1. Kitab əhlinin iman gətirməsi o qədər inanılmazdır ki, bir arzu olaraq qalır. ("Ləv" sözü mümkünsüz işlərlə bağlı istifadə olunur. Məsələn, qoca kişinin cavan olmaq arzusu kimi.)

2. Allah və peyğəmbərə qəlbən inamlı olan kəs Allahdan qeyrisinin hakimiyyətini qəbul etməklə razılaşmır. (Gerçək istiqlaliyyət əldə etmək yolu kafirlərin hakimiyyətindən çıxmaq və imandır.)

3. Fəsad və imansızlıq kafirlərin hakimiyyətinin qəbul edilmə səbəbidir.

4. İman kafirlərin hakimiyyətinin qəbul edilməsi ilə bir araya sığmır. İstibdadı qəbul edən sazişçi kəs dinsiz və günahkardır.

5. Azğınlıq imanla bir araya sığmır.

# *YEDDİNCİ CÜZ*

---

[1] "Təfsire-nümunə".

[2] "Təfsire-Ruhul-məani".

[3] "Təfsire-nümunə".

**82.** ﴿لَتَجِدَنَّ أَشَدَّ النَّاسِ عَدَاوَةً لِّلَّذِينَ آمَنُواْ الْيَهُودَ وَالَّذِينَ أَشْرَكُواْ وَلَتَجِدَنَّ أَقْرَبَهُمْ مَّوَدَّةً
لِّلَّذِينَ آمَنُواْ الَّذِينَ قَالُوَاْ إِنَّا نَصَارَى ذَلِكَ بِأَنَّ مِنْهُمْ قِسِّيسِينَ وَرُهْبَانًا وَأَنَّهُمْ لاَ يَسْتَكْبِرُونَ﴾

**«Yəhudilərin və müşriklərin iman əhlinə münasibətdə ən qatı düşmən olduğunu görərsən. "Biz məsihiyik" deyənlərin isə dostluq baxımından möminlərə ən yaxın olduğunu bilərsən. Bu (dostluq) o baxımdandır ki, onlardan bəziləri keşiş və rahiblərdir, onlar təkəbbür göstərməzlər.»**

## *Nöqtələr*

◘"Qissis" keşiş deməkdir və məsihilərin dini işlərinə rəhbərliyini öhdəsinə götürmüş şəxs keşiş adlanır. Məsihi abidlərinə isə "röhban" deyilir.

◘Bu ayədən 85-ci ayəyədək nüzul şəni Həbəşə padşahı Nəcaşinin və həmin ölkə məsihilərinin müsəlmanlarla xoş rəftarıdır. Bu müsəlmanlar besətin beşinci ili Cəfər ibn Əbu-Talibin başçılığı ilə Məkkədən hicrət etmişdilər. Onlar müşriklərin sıxıntılarından Nəcaşiyə pənah aparmışdılar. Müşriklərin Həbəşəyə göndərdikləri elçilər Nəcaşidən mənfi cavab almışdılar. Mədinə yəhudiləri peyğəmbərin möcüzələrini, böyük əxlaqını gördükləri halda iman gətirməyib müsəlmanlara qarşı fitnə-fəsadda iştirak edirdisə, məsihi ruhaniləri Həbəşədə "Məryəm" surəsinin ayələrini eşidərkən ağlayır və müsəlmanları himayə edirdilər.[1]

◘İmam Sadiq (ə) bu ayəni tilavət etdikdən sonra buyurmuşdur: "Bu məsihi alimlər və rahibləri həzrət İsa ilə Həzrət Məhəmməd (s) arasındakı dönəmdə yaşamış və İslam peyğəmbərinin gəlişini gözləmişlər."[2]

## *Bildirişlər*

1. Yəhudilərin müsəlmanlarla düşmənçiliyinin tarixi kökləri var.
2. İslam düşmənlərinə və qeyri-müsəlmanlara onların rəftarını nəzərə alaraq yanaşılmalıdır.
3. Öz dostlarımızı və düşmənlərimizi onların psixoloji və ictimai vəziyyətini düzgün təhlil edərək tanımalıyıq.
4. Cəmiyyətdə inkişaf üçün zəmin var: Alimlik, Allah qorxusu, təkəbbür və azğınlıqdan uzaq ruhiyyə.
5. Din alimləri və Allahdan qorxan abidlər cəmiyyətin əqidə və əxlaqının islahında mühüm rol oynayırlar.
6. Əgər elm, ibadət və əxlaq qarşılıqlı birləşsə, insan haqpərəst olar və təəssübü bir kənara qoyar.
7. İslamda təəssüb yoxdur. İslam digər dinlərin Allahdan qorxan, insaflı alimlərini qiymətləndirir.
8. Məsihilər arasında İslamın təbliği təsirlidir.

(Məsihilər yanlış üçlük əqidəsini daşısalar da, nisbətən sağlam ruhiyyələrinə xatir haqqı daha asanlıqla qəbul edirlər.)

---

[1] "Təfsire-Əyyaşi".
[2] "Təfsire-Nurus-səqəleyn"; "Təfsire-Əyyaşi".

83. ﴿وَإِذَا سَمِعُواْ مَا أُنزِلَ إِلَى الرَّسُولِ تَرَى أَعْيُنَهُمْ تَفِيضُ مِنَ الدَّمْعِ مِمَّا عَرَفُواْ مِنَ الْحَقِّ يَقُولُونَ رَبَّنَا آمَنَّا فَاكْتُبْنَا مَعَ الشَّاهِدِينَ﴾

**“(Məsihilər) hər vaxt peyğəmbərə nazil olmuş ayəni eşitdikdə, görürsən ki, haqqı tanıdıqlarından gözləri yaşla dolur və deyirlər: “Pərvərdigara! Biz iman gətirdik, adımızı (haqqa) şahidlər zümrəsində yaz.”**

## *Nöqtələr*

◘Cəfər ibn Əbu-Talib “Məryəm” surəsinin ayələrini Həbəşədə Nəcaşi üçün oxuduqda oradakı məsihilər ağladılar. Bu göz yaşları məsihilərin şövqlü göz yaşlarının nümunəsi idi. Digər bir dəfə məsihilərdən bir qrupu Cəfərlə birlikdə Mədinəyə gəlib orada “Yasin” surəsinin ayələrini eşitdikdə göz yaşı axıtdı.[1]

## *Bildirişlər*

1. Qəlbi diri, təvazökar insanların nişanəsi budur ki, haqqı eşitdikdə həyəcanlanarlar. (Azğınlar isə haqqı gördükdə belə, yerlərindən tərpənmirlər.)
2. Göz yaşları mərifətlə müşayiət olunduqda kamal nişanəsi olur.
3. İnsanın ruhu və fitrəti haqqa heyrandır. Məşuqa çatdıqda şövqdən göz yaşları axır.
4. İman və etiraf mərifətə əsaslanmalıdır.
5. Duada müqəddəs “Rəbbəna” sözündən yardım alaq.
6. Bilgi və mərifət, göz yaşı və nöqsanların etirafı təkamül və mənəvi tərbiyə nişanəsidir.
7. Dua etiraf və imanla müşayiət olunduqda təsir göstərir.
8. Müvəqqəti iman səmərəsizdir. İman daimi olmalı, xoş aqibətlə başa çatmalıdır.
9. Yüz illik yolu bir gecədə getmək dəyərlidir. Eşitmək, tanımaq, etiraf etmək və qovuşmaq!
10. İman əhli daha yuxarı mərhələlərə çatmaq üçün dua etməlidir. (Öncə iman, sonra daha yuxarı olan şəhadət mərhələsi.)

84. ﴿وَمَا لَنَا لاَ نُؤْمِنُ بِاللّهِ وَمَا جَاءنَا مِنَ الْحَقِّ وَنَطْمَعُ أَن يُدْخِلَنَا رَبُّنَا مَعَ الْقَوْمِ الصَّالِحِينَ﴾

**“(Deyirlər:) nə üçün Allaha və bizim üçün gəlmiş həqiqətə iman gətirməyək? Halbuki Rəbbimizin bizi salehlərlə birlikdə (behiştə) daxil edəcəyinə ümidvarıq.”**

85. ﴿فَأَثَابَهُمُ اللّهُ بِمَا قَالُواْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَذَلِكَ جَزَاء الْمُحْسِنِينَ﴾

---

[1] “Təfsire-nümunə”.

**“Allah bu sözlərin (şəhadətlərinin) əvəzində onlara altından çaylar axan bağlar verdi. Daim orada qalarlar və budur yaxşı əməl sahiblərinin mükafatı.”**

**86.** ﴿وَالَّذِينَ كَفَرُواْ وَكَذَّبُواْ بِآيَاتِنَا أُوْلَئِكَ أَصْحَابُ الْجَحِيمِ﴾

**“Kafir olub ayələrimizi təkzib edənlər cəhənnəm əhlidirlər.”**

## *Nöqtələr*

◘Həqiqəti anladıqdan sonra şücaətlə, aşkar surətdə və sədaqətlə onu etiraf edənlər, öz dindaşlarından qorxmayanlar yaxşı əməl sahiblərinin ən üstünləridirlər. Çünki onlar həm özlərinə nicat verib cəhənnəm əzabından qurtulurlar, həm etiraf etməklə doğru yolu başqalarına göstərirlər.

## *Bildirişlər*

1. Haqqı tanıdıqdan sonra onu rədd etmək üçün heç bir üzr, bəhanə qalmır.
2. Salehlərlə yoldaşlıq müqəddəs işdir.
3. Düzgün arzunun nişanəsi iman və əməldir.
4. Allaha iman vəhyə imandan ayrı deyil.
5. İmanın əvəzi behiştdir.
6. Kamal yollarından biri vicdana üz tutub onu sorğuya çəkməkdir.[1]
7. Tövhid, peyğəmbərin risaləti, Quranın haqq olmasını dillə etiraf etmək zəruridir.

**87.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُحَرِّمُواْ طَيِّبَاتِ مَا أَحَلَّ اللّهُ لَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبُّ الْمُعْتَدِينَ﴾

**“Ey iman gətirənlər! Allahın sizə halal etdiyi pak şeyləri özünüzə haram etməyin və həddi aşmayın ki, Allah təcavüzkarları sevməz.”**

## *Nöqtələr*

◘Bir gün Allahın rəsulu qiyamət və məhşər səhnələri haqqında danışırdı. Onun danışdıqları xalqa o qədər təsir etdi ki, hamı ağladı və bəziləri qərara gəldilər ki, bundan sona yaxşı xörəklər yeməsinlər, rahatlığı özlərinə haram etsinlər, oruc tutsunlar, həyat yoldaşlarından uzaqlaşsınlar, gecələri az yatsınlar. Onlar bu qərarlarını yerinə yetirəcəkləri barədə and içdilər. Həzrət Peyğəmbər (s) bu məsələdən xəbər tutub xalqı məsciddə topladı və buyurdu: “Mən yemək yeyirəm, gecələr yatıram, həyat yoldaşımı tərk etmirəm. Bizim dinimiz guşənişinlik və röhbaniyyət dini deyil. Mənim ümmətimin röhbaniyyəti cihaddır. Hər kəs mənim yolumu tərsinə getsə, müsəlman deyil.”[2] Xalq arasında “içdiyimiz andlar necə

[1] “Yasin”, 22.
[2] “Vəsail”, c. 20, s. 21.

olsun?” deyə soruşanlar oldu. Onların sualına cavab olaraq növbəti ayələr nazil edildi.

◘Halallardan imtina haramlığı etiqadla müşayiət olunduqda bidət və haram, əqidə bağlamadan bəhrələnməməkdən ibarət olduqda qadağandır.

◘Müsəlman ilahi göstərişlərə təslimdir. O nə halalları özbaşına haram edir, nə də haramlara başqa münasibət bəsləyir.

## *Bildirişlər*

1. İman əhli pak-pakizə şeylərdən istifadə etməlidir. “Ey xalq” əvəzinə ayədə “ey iman gətirənlər” deyə müraciət olunmuşdur.
2. İman ilahi hökmlərin dəyişdirilməsi ilə bir araya sığmır.
3. İslam fitrət dinidir. Fitrəti boğmaq qadağandır. (Ayədə pak sözü insan fitrətinə uyğun məqamlarda işlədir.)
4. Halal yeməklər, içməklər və ləzzətlər insan üçün yaradılmışdır.
5. İman ifrat və təfritlə bir araya sığmır.
6. İslam məktəbində guşənişinlik, röhbaniyyət, ifrat və təfrit qadağandır.
7. İnsanın özünü pak nemətlərdən məhrum etməsi təcavüzkarlıq kimi qiymətləndirilir.
8. Halal nemətlərdən faydalanarkən israfa yol verməyək, həddi aşmayaq.
9. İfrat və təfrit ilahi məhəbbətdən məhrumluq səbəbidir.

**88.** ﴿وَكُلُواْ مِمَّا رَزَقَكُمُ اللّهُ حَلاَلاً طَيِّبًا وَاتَّقُواْ اللّهَ الَّذِيَ أَنتُم بِهِ مُؤْمِنُونَ﴾

**“Allahın sizə bəxş etdiyi halal və pak ruzilərdən yeyin. İman gətirdiyiniz Allahdan çəkinin.”**

## *Nöqtələr*

◘Quranda adətən “kulu” (“yeyin”) sözü digər əmrlərlə yanaşı buyurulur. Məsələn, “yeyin və şükür edin”, “yeyin və tüğyan etməyin”, “yeyin və layiqli iş görün”, “yeyin və yedirdin”, yeyin və israf etməyin”, “yeyin və şeytanın ardınca getməyin.”[1]

◘Hədisdə nəql olunur ki, Allah xalqın ruzisini halaldan ayırmışdır. Hər kəs haram ruzi ardınca getsə onun halal ruzi payından kəsilər.[2]

## *Bildirişlər*

1. Halal maddi imkanlardan bəhrələnmə imanla zidd deyil. Kim maddiyyatın tərk olunmasını təqva sayırsa, yanılır.
2. Qidalanma məsələlərinə diqqət edin.” (Həm qazanc yolu, həm də məsrəf yolu halal olmalıdır.)
3. Ruzi yalnız Allahın əlindədir. Deməli, tələskənliyin, hərisliyin, harama meylin faydası yoxdur.
4. Təqva iman şərtidir.

---

[1] “Bəqərə”, 172; “Taha”, 81; “Möminun”, 51; “Həcc”, 28; “Əraf”, 31; “Ənam”, 142.
[2] “Təfsire-Ətyəbul-bəyan”.

89. ﴿لاَ يُؤَاخِذُكُمُ اللّهُ بِاللَّغْوِ فِي أَيْمَانِكُمْ وَلَكِن يُؤَاخِذُكُم بِمَا عَقَّدتُّمُ الأَيْمَانَ فَكَفَّارَتُهُ إِطْعَامُ
عَشَرَةِ مَسَاكِينَ مِنْ أَوْسَطِ مَا تُطْعِمُونَ أَهْلِيكُمْ أَوْ كِسْوَتُهُمْ أَوْ تَحْرِيرُ رَقَبَةٍ فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ ثَلاَثَةِ
أَيَّامٍ ذَلِكَ كَفَّارَةُ أَيْمَانِكُمْ إِذَا حَلَفْتُمْ وَاحْفَظُواْ أَيْمَانَكُمْ كَذَلِكَ يُبَيِّنُ اللّهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ
تَشْكُرُونَ﴾

**“Allah sizi boş, hədər andlarınıza görə sorğuya çəkməz. Amma bilərəkdən içdiyiniz andlara görə cəzalandırar. Onun (andı pozmağın) kəffarəsi ailənizə yedirdiyinizdən orta həddə on fəqirə təam vermək, ya on fəqiri geyindirmək, ya da qul azad etməkdir. Əgər bir kəs (qida, geyim və qul) tapmasa, üç gün oruc tutsun. Bu, sizin andlarınızın kəffarəsidir. Nə vaxt and içdinizsə, andlarınıza diqqət yetirin. Allah Öz ayələrini sizin üçün belə bəyan edir ki, bəlkə şükür edəsiniz.”**

## *Nöqtələr*

◘Boş, hədər andlar dedikdə məqsədsiz, diqqətsiz, adət şəklində, həyəcanlı və ya qəzəbli halda, düzgün olmayan işlərdə, xilaf işlərin görülməsi məqsədi ilə içilən andlar nəzərdə tutulur. Belə andların kəffarəsi yoxdur. Amma bilərəkdən, faydalı bir iş üçün içilən and məsuliyyət yaradır. Belə and əməl olunmalı, and pozulduqda kəffarə verilməlidir.

İmam Sadiq (ə) “ləğv” (“boş, mənasız”) sözünün haqqında buyurmuşdur: “Ciddi bir məqsəd olmadan “la vəllah” və “bəla vəllah” deyə içilən and boş anddır.”[1]

◘“Əvsət” (orta”) sözünü bəzi təfsirçilər ən üstün yemək kimi təfsir etmişlər. “Qələm” surəsində də uyğun təfsirlə rastlaşırıq.

◘Andın kəffarəsi olaraq məhrumlara geyindirilən libas həm qış, həm də yay, həm kişi, həm də qadın libası ola bilər.

◘Ümumbəşəri və həmişəlik bir dinin göstərişləri və cəzalarının yerinə yetirilməsi mümkün olmalıdır. Məslən, qul azad etmək, fəqiri doyurmaq və ya geyindirmək hər bir dövrdə, hər bir fərd üçün mümkün əməldir. (Bəziləri bu gün qul olmadığını, quldarlıq dövrünün ötüb keçdiyini bildirirlər. Halbuki «quldarlıq quruluşu ləğv olundu» deməklə qullar azad olmur. Bu gün də insanlar alınıb-satılır, qul kimi istismar edilir.)

◘İmam Sadiq (ə) buyurmuşdur: “Bəziləri on sir (sir-ölçü vahidi), bəziləri isə on sirdən az xörək yeyir. Buna görə də orta hədd kimi on sir (bir müd) təyin olunmuşdur.[2]

◘İmam Kazim (ə) yuxarıdakı ayəni təfsir edərkən buyurmuşdur: “Ayədəki “tapmayan” ifadəsi ailəsinin ehtiyaclarından artığa gücü çatmayana aiddir.[3]

---

1 “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 7, s. 443.
2 “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 7, s. 453.
3 “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 7, s. 452.

## *Bildirişlər*

1. Məqsədsiz andların cərimədən azad edilməsi ilahi bir lütfdür.

2. İslam asan bir dindir. Ciddi olmayan andlar üçün kəffarə təyin edilməmişdir. (Danışıq və əməldə ölçü məqsəd və niyyətdir.)

3. İslamda maddi cərimələr də var.

4. İslam qanunları fəqirliyin aradan qaldırılmasına yönəlib. İslamın fərdi hökmləri cəmiyyətin faydalarına uyğundur. (Yedirmək, geyindirmək, qul azad etmək)

5. Orta həddin gözlənilməsində ədalət hər yerdə, hətta cərimə təyin olunmasında da bir dəyərdir.

6. Cərimə insanların maddi durumuna uyğun olmalıdır.

7. Vəzifənin icrası insanın güc və imkanından asılıdır.

8. Cərimə və kəffarə təyin edərkən xalqın gündəlik orta yaşayış həddi nəzərə alınmalıdır. Hansısa xüsusi günlər əsas götürülə bilməz.

9. Kəffarə ödəyərkən fəqirlərin şəxsiyyətini alçaltmayaq. Onlara öz ailə üzvümüz kimi yanaşaq.

10. Andı pozmaq cürətini oruc və ya cərimə ödəməyin çətinliyi ilə yuyun. (İslamda cərimə və kəffarə ödənməsi özünütərbiyə proqramlarındandır.)

11. İslam qulların azad olunmasında bütün fürsətlərdən istifadə etmişdir. (Hətta bəzi əməllərin kəffarəsi qul azad olunmasıdır.)

12. Allahın müqəddəs adına hörmətlə yanaşaq. Ya and içməyək, ya da içdiyimiz anda əməl edək. Ən son vəziyyətdə pozulmuş andın kəffarəsini ödəyək.

13. Bəziləri elə düşünməsinlər ki, yeri gəldi-gəlmədi and içib cərimə ödəmək olar. (Biz içdiyimiz andların məsuliyyət daşıyırıq.)

14. Maddi imkanı olmayanlar öz fiziki imkanlarından bəhrələnməlidir.

15. Nöqsanları aradan qaldırma yolunun açıq olması ilahi bir nemətdir və buna görə şükür edilməlidir.

16. İlahi göstərişlərə əməl olunması ən üstün şükürdür.

**90.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

**“Ey iman gətirənlər! Həqiqətən, şərab, qumar, bütlər, püşk oxları çirkin və şeytani işlərdəndir. Onlardan çəkinin ki, bəlkə nicat tapasınız.”**

## *Nöqtələr*

◘Ərəblərdə şer və şəraba xüsusi bir bağlılıq vardı. Ona görə də şərab qadağası tədrici şəkildə həyata keçdi. Əvvəlcə ayə nazil oldu ki, xurma və üzümdən yaxşı qida və içki hazırlamaq olar.[1] Digər bir ayədə qumar və şərabın zərərinin faydasından çox olduğu bəyan edildi.[2] Daha sonra məst halda namaz qılınmasına

---

[1] “Nəhl”, 67.

[2] “Bəqərə”, 219.

qadağa qoyuldu.[1] Nəhayət, yuxarıda zikr olunmuş ayə nazil oldu. Şərab, qumar, bütlər və püşk oxları çirkin və şeytani əməl sayıldı. Allah bütün bu işlərə qadağa qoydu.

◘Ayədəki "xəmr" sözü örtmək mənasını verir və "ximar" sözü ilə eyni kökdəndir. Qadınların örtüyü olan məqnə (yaylıq) də «ximar» adlandırılmışdır. Çünki yaylıq başın tükünü örtür. Şərab da insanın ağlını bir növ örtdüyündən "xəmr" adlandırılmışdır.

◘"Məysir" sözü "yusr" sözündən olub, asanlıq mənasını bildirir. Qumarda insanlar heç bir zəhmət çəkmədən pul qazandığından qumar "məysir" adlandırılmışdır.

◘Kəbə ətrafında düzülmüş daşlar "Nusub" adlandırılmışdır. Bu daşlar üzərində qurbanlıq kəsilərdi. Ayədə həzrət Peyğəmbərin (s) "ənsab" sözünün mənası haqqında belə buyurduğu nəql olunur: "Ənsab" odur ki, müşriklər bütlər üçün qurbanlıq edirdi.[2]

◘"Əzlam" cahiliyyət dövründə rəvac tapmış oxlarla püşk atma və qumar növüdür.

◘İmam Baqir (ə) ayədəki "xəmr" sözü haqqında buyurmuşdur: "İnsanı məst edən hər bir şey haramdır."[3]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "İstənilən bir vasitə ilə, hətta qozla belə qumar oynamaq haramdır."[4]

◘Hədisdə buyurulur: "Şərabxor bütpərəst kimidir."[5]

◘Şərabın istehsalında istənilən növ həmkarlıq, onun yayılması və məsrəfi haramdır. İmam Baqir (ə) Peyğəmbərdən (s) nəql edir ki, o həzrət şərabxorluqda müəyyən yollarla fəaliyyət göstərən on qrupa lənət oxumuşdur: (Şərab məqsədi ilə) üzüm tənəyi əkən, onu səmərəyə çatdıran, şərabı düzəldən, içən, paylayan (saqi), daşıyan, əldə edən, satan, alan, istənilən formada onun gəlirindən faydalanan."[6]

## *Bildirişlər*

1. Şərabxorluq və qumarbazlıq imanla bir araya sığmır.
2. Şərab və qumar bütpərəstliklə bir sırada dayanır. ("Ənsab"dedikdə bütlər nəzərdə tutulur.)
3. İslam çirkin işləri qadağan edir.
4. Nəinki şərab içməyin, hətta ona yaxınlaşmayın. Ayədə "içməyin" yox, "çəkinin" deyə buyurulmuşdur.
5. Halal tikə və haramdan uzaqlıq insanın xoşbəxtlik və qurtuluşunda əhəmiyyət daşıyır.

---

[1] "Nisa", 34.
[2] "Kafi", c. 7, s. 123.
[3] "Təfsire-Nurus-səqəleyn".
[4] "Kafi", c. 5, s. 123.
[5] "Bihar", c. 27, s. 234.
[6] "Təfsire-Nurus-səqəleyn".

**91.** ﴿إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَن يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَن ذِكْرِ اللّهِ وَعَنِ الصَّلاَةِ فَهَلْ أَنتُم مُّنتَهُونَ﴾

**"Həqiqətən, şeytan şərab və qumar vasitəsi ilə sizin aranıza düşmənçilik və kin salmaq istəyir. (İstəyir ki,) sizi Allahın zikrindən və namazdan ayırsın. (Bütün bu fəsadları nəzərə alıb) əl çəkirsinizmi?"**

## *Nöqtələr*

◘Statistikadan məlum olur ki, qətillərin, cinayətlərin, avtomobil qəzalarının, boşanmaların, psixoloji və fizioloji xəstəliklərin çoxunun səbəbi spirtli içkilərin istifadəsidir. Amma Quran bu ayədə uyğun qadağanın fəlsəfəsini iki nöqtədə açıqlayır: Biri kin-küdurətdən ibarət olan ictimai zərər, digəri namaz və Allah zikrindən qəflətdə qalma kimi mənəvi zərər.

◘Ayədə şərab və qumarın ən böyük təsiri kimi onun insanı Allah zikrindən və namazdan ayırması göstərilir. Sual oluna bilər ki, əgər ticarət, idman, təhsil, mütaliə kimi adi işlər insanın başını qatıb onu Allah zikri və namazdan ayırırsa, onları da şərab və qumarla eynimi tutmalıyıq? Bəli, insana Allahı unutduran bütün işlər şərab və qumar kimi çirkindir. Amma İslamda çətinlik yaratmamaq səbəbindən həmin işlər haram edilməmişdir.

## *Bildirişlər*

1. Xalq arasında kin-küdurət salan hər bir kəs şeytan kimidir.
2. Şeytanın təhrikləri daimidir.
3. Ədavətin rəvac tapdığı cəmiyyət şeytana qulluq edir.
4. Ülfət və birliyi hifz edək, vəhdətə qarşı yönəlmiş bütün işlərlə mübarizə aparaq.
5. İman əhli arasında ülfət və mehribanlıq Allahın xüsusi diqqətini çəkir.
6. Qumar və şərab kin-küdurət yaratmaq üçün şeytanın vasitələridir.
7. Namaz Allah zikrinin ən üstün simvoludur. (Namaz Allah zikri olsa da, onun adı ayrıca çəkilir.)
8. Dini hökmlərin fəlsəfəsinin bəyanı sözün başqalarına təsir amillərindəndir.
9. Kin-küdurətə səbəb olan bütün amillərlə mübarizə aparmalıyıq.
10. İlkin İslam dövründə şərab və qumarın haram buyurulmasına baxmayaraq, bu işə məşğul olan bəzi müsəlmanlar Allah tərəfindən məzəmmət olunurlar.

**92.** ﴿وَأَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَاحْذَرُواْ فَإِن تَوَلَّيْتُمْ فَاعْلَمُواْ أَنَّمَا عَلَى رَسُولِنَا الْبَلاَغُ الْمُبِينُ﴾

**"Allaha itaət edin, peyğəmbərə tabe olun və (itaətsizlikdən) çəkinin. Əgər üz döndərsəniz (itaət etməsəniz), bilin ki, Bizim rəsulumuzun vəzifəsi yalnız aşkar bəyan etməkdir."**

## *Bildirişlər*

1. Allah rəsulunun hökumətinin fərmanları ilahi fərmanlar kimidir və onlara itaət etmək vacibdir. ("İtaət edin" sözünün təkrarlanması göstərişin iki növ olması nişanəsidir: sabit ilahi göstərişlər və peyğəmbərin hökumət göstərişləri.)
2. Allah və Onun rəsulunun göstərişlərinə itaətsizlikdən qorxaq.
3. İnsan yol seçimində azaddır.
4. İnsan Öz müxalifətçiliyi və itaətsizliyi ilə yalnız özünə zərər vurur.
5. İlahi hökmlərin bəyanında xalqın qəbul edib-etməməsi şərt deyil. Biz höccəti tamamlamalı, bəhanələri kəsməliyik.
6. Peyğəmbərin vəzifəsi məcburiyyət yox, öz risalətini bəyan etməkdir.

**93.** ﴿لَيْسَ عَلَى الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ جُنَاحٌ فِيمَا طَعِمُواْ إِذَا مَا اتَّقَواْ وَّآمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ ثُمَّ اتَّقَواْ وَّآمَنُواْ ثُمَّ اتَّقَواْ وَّأَحْسَنُواْ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ﴾

**"İman gətirib saleh işlər görənlər üçün (şərab qadağan olanadək) içdikləri üçün qorxu yoxdur, əgər təqva və iman əhli olsalar, saleh işlər görsələr, sonra (haramlardan) pəhriz etsələr, (Onun qadağasına) iman gətirsələr və o vaxt (yenə haramdan) çəkinsələr, yaxşı iş görsələr. Allah yaxşı əməl sahiblərini sevir."**

## *Nöqtələr*

◘Şərabın qadağa ayəsi nazil olduqdan sonra müsəlmanlardan bəziləri qadağadan qabaq dünyasını dəyişənlərin şəraba görə cəzaları haqqında soruşdular. Yuxarıdakı ayə nazil oldu.

◘Bu ayədə iki dəfə iman və saleh əməl, iki dəfə təqva və iman, bir dəfə təqva və ehsan zikr olunmuşdur. Bəzi təfsirçilərin nəzərincə, iman, təqva və saleh əməlin mərhələləri və dərəcələri müxtəlif olduğundan uyğun ifadələr təkrarlanır.[1] Bəziləri isə uyğun təkrarı iman və təqvada davamlılıq nişanəsi sayırlar.[2] Bəziləri isə ayədəki təkrarları təkid əlaməti bilmişlər. "Nəbə" surəsinin 4-5-ci ayələri buna misal ola bilər.

◘Təqvanın insan həyatının müxtəlif sahələrində rolu var: məsrəf və rəftarda; məktəb və etiqadda; xidmət və əxlaqda.

## *Bildirişlər*

1. Əgər möminlər qarşıda təqvaya riayət edib keçmiş günahları təkrarlamasalar, onların keçmiş günahları bağışlana bilər.
2. İlahi hökmü eşitdikdən sonra insan yenə də günah edərsə, o əvvəlki günahlarına görə də cəzalandırılar.
3. Ehsan və xeyir iş kamilliyin ən uca mərtəbəsi və Allah yanında məhbubluq səbəbidir. Ayədə iman və təqvadan sonra yaxşı əməl xatırlanmışdır.

---

[1] "Təfsire-nümunə".
[2] "Təfsire-Qurtubi".

**94.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لَيَبْلُوَنَّكُمُ اللّهُ بِشَيْءٍ مِّنَ الصَّيْدِ تَنَالُهُ أَيْدِيكُمْ وَرِمَاحُكُمْ لِيَعْلَمَ اللّهُ
مَن يَخَافُهُ بِالْغَيْبِ فَمَنِ اعْتَدَى بَعْدَ ذَلِكَ فَلَهُ عَذَابٌ أَلِيمٌ﴾

**“Ey iman gətirənlər! Allah sizi əllər və nizələrin çatdığı ovla sınağa çəkər ki, kimin batində Ondan qorxduğu məlum olsun. (Kim Onun əmrinə tabedir və ovdan keçir.) Bundan sonra kim təcavüz etsə, onun üçün dərdli əzab var.”**

## *Nöqtələr*

◘Həcc dövründə və ehram halında hacının ov haqqı yoxdur. Bəzən həmin vaxt ov insana o qədər yaxınlaşır ki, insan əlini uzadıb onu tuta bilər. Amma Allah ova əl toxundurmamağımızla bizi sınağa çəkir. Hədisdə oxuyuruq: “Hüdəybiyyə ümrəsində bir çox ov heyvanları müsəlmanlara yaxınlaşdı. Onlar rahatca bu heyvanları ovlaya bilərdilər.[1]

◘Quranda qidalanma məsələsi ilahi sınaq vasitəsi kimi bəyan olunur. Aşağıdakı nöqtələrə diqqət yetirin:

a) Adəm və Həvva qidalanma məsələsində büdrədi.[2]

b) Bəni-İsrail şənbə günü balıq ovunun qadağasında qanunu pozdu.[3]

v) Bəni-İsrailin başçılarından biri məntəqədəki çayın yaxınlığından keçərkən həmin çayın suyundan içməmək göstərişi verdi. Amma ətrafındakıların əksəri həmin sudan içdi.[4]

q) Oruc tutmaq özü böyük bir sınaqdır.

e) Ov ehram halında hacılara yaxınlaşsa da, kimsənin ovlamaq haqqı yoxdur.

◘**Sual:** İnsan bir şeyi öyrənmək məqsədi ilə sınaq aparır. Bəs hər şeydən xəbərdar olan Allah nə üçün sınaq aparır?

**Cavab:** Həzrət Əli (ə) “Nəhcül-bəlağə”də buyurmuşdur: “İlahi sınaqlarda məqsəd odur ki, insan acı və şirin hadisələr qarşısında reaksiya göstərsin və öz rəftarı müqabilində ya cəzalandırılsın, ya da mükafat alsın.”[5] Bəli, Allah öz biliyi əsasında yox, insanların əməli əsasında mükafat və ya cəza verir. Heç biz özümüz də kimsəyə istedadına görə mükafat vermirik. İstedadlı insan yalnız işinə görə mükafatlandırılır.

◘**Sual:** Allah evinin ziyarətçi qonaqları ov heyvanına görə nə üçün dərdli əzaba düçar olsunlar?

**Cavab:** Öz-özlüyündə ov üçün cəza yoxdur. Vəd olunan əzabın səbəbi müqəddəs yerin hörmətini pozmaq, qanuna qarşı çıxmaqdır.

## *Bildirişlər*

1. Möminlərin imtahanı dəyişməz ilahi qanundur.

2. Allah qorxusu o zaman bilinir ki, günah şəraiti yaransın və insan xata etməsin.

---

[1] “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 4, s. 396.
[2] “Bəqərə”, 35.
[3] “Bəqərə”, 65.
[4] “Bəqərə”, 249.
[5] “Nəhcül-bəlağə”, x. 192.

3. Bir şeyə əl çatırsa, bu o demək deyil ki, o, halaldır.
4. Təqva ölçüsü zahiri həya yox, iç qorxusudur.
5. Yalnız bildirişdən sonra vəzifə məsuliyyəti gəlir.
6. Uzun-uzadı yollar keçib ilahi eşqlə haqqa üz tutan hacı bəzən kiçik bir ova yol verib itaətsizlik etdiyindən əzaba düçar olur.

95. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْتُلُواْ الصَّيْدَ وَأَنتُمْ حُرُمٌ وَمَن قَتَلَهُ مِنكُم مُّتَعَمِّدًا فَجَزَاءٌ مِّثْلُ مَا
قَتَلَ مِنَ النَّعَمِ يَحْكُمُ بِهِ ذَوَا عَدْلٍ مِّنكُمْ هَدْيًا بَالِغَ الْكَعْبَةِ أَوْ كَفَّارَةٌ طَعَامُ مَسَاكِينَ أَو عَدْلُ ذَلِكَ
صِيَامًا لِّيَذُوقَ وَبَالَ أَمْرِهِ عَفَا اللّهُ عَمَّا سَلَف وَمَنْ عَادَ فَيَنتَقِمُ اللّهُ مِنْهُ وَاللّهُ عَزِيزٌ ذُو انْتِقَامٍ﴾

**“Ey iman gətirənlər! Ehram halında ovu öldürməyin. Sizlərdən hər kəs bilərəkdən ovu öldürsə, cəzası və kəffarəsi öz aranızdan olan iki ədalətli şahidin (oxşarlığını) təsdiq etdiyi oxşar heyvanın kəsilməsidir. (Bu qurbanlıq heyvan) Kəbəyə çatası bir hədiyyədir. Ya da (qurbanlıq yerinə) əvəz üçün (altmış) fəqirə təam versin, ya da o qədər oruc tutsun. (Bu üç kəffarənin səbəbi odur ki,) öz işinin cəzasını alsın. Allah sizin keçmişinizi bağışladı. Hər kəs bu işi təkrar etsə, Allah ondan intiqam alar. Allah yenilməzdir və intiqam alandır.”**

## *Nöqtələr*

◘Ayədəki “hurum” həcc və ya ümrə üçün ehram halına girmiş adama deyilir.
◘“Ənam” sözünün tək forması olan “nəəm” dəvə, inək, qoyun mənasındadır.
◘“Məsakin” deyərkən fəqirlik səbəbindən öz məsləkini tərk edə bilməyən, başqa sözlə, fəqirliyin əldən salıb evdə oturtduğu kəs nəzərdə tutulur.
◘İmam Sadiq (ə) buyurmuşdur: “Dəvəquşunun kəffarəsi dəvə, vəhşi ulağın kəffarəsi inək, ceyranın kəffarəsi qoyun, vəhşi inəyin kəffarəsi inəkdir.”[1]

## *Bildirişlər*

1. Allahın möminlərdən xüsusi bir intizarı var.
2. Ehram halında əmin-amanlıq heyvanlara münasibətdə də qorunmalıdır.
3. Qadağa və ya halallığın fəlsəfəsi həmişə bir şeyin zatı və özü ilə bağlı olmur. Bəzən dövr və məkanın şəraiti, tarixi və coğrafi amillər ilahi hökmə təsir göstərir.
4. İslam xüsusi hallar üçün xüsusi göstərişlər nəzərdə tutur.
5. İslam qanunları hamı üçündür.
6. Xatadan da təhlükəlisi agah surətdə, bilərəkdən müxalifətçilikdir.
7. Cəza ədalətli olmalıdır.
8. Cəza və cərimə dəqiq yerinə yetirilməlidir.
9. İslam bütün hallarda ədaləti gözləyir.

[1] “Təkzib”, c. 5, s. 341; “Nurus-səqəleyn”, c. 1, s. 673.

10. İslam istənilən bir münasibətlə acların və fəqirlərin halına yanır.

11. Məkkədə kəsilən heyvanlar hədiyyədir.

12. Günahkara cərimə seçimində azadlıq verək. Onun iqtisadi və fiziki gücünü nəzərə alaq.

13. Qanunu pozmağın cəzası o qədər ağırdır ki, altmış fəqiri doyurmaq və ya altmış gün oruc tutmaq bu cəzanın bir hissəsidir.

14. Qanunlar rəsmi surətdə bəyan olunduqdan sonra icra edilir. Qanun özündən əvvəlki dönəmlərə şamil edilmir.

15. Ovun təkrarına görə cərimədən əlavə ilahi intiqam və qəzəbdə vəd olunur.

16. Günahın israrı, təkrarı olduqca təhlükəlidir və onun ağır cəzası var.

17. İlahi hədələrə ciddi yanaşaq.

**96.** ﴿أُحِلَّ لَكُمْ صَيْدُ الْبَحْرِ وَطَعَامُهُ مَتَاعًا لَّكُمْ وَلِلسَّيَّارَةِ وَحُرِّمَ عَلَيْكُمْ صَيْدُ الْبَرِّ مَا دُمْتُمْ حُرُمًا وَاتَّقُواْ اللّهَ الَّذِيَ إِلَيْهِ تُحْشَرُونَ﴾

**“(Əlbəttə,) dəniz ovu və onun qidaları sizə halal oldu. (Bu ov) sizin üçün və karvan əhli üçün azuqədir. Amma nə qədər ki, ehramdasınız, səhra ovu sizə haramdır. Hüzurunda dayanacağınız Allahdan çəkinin.”**

## *Nöqtələr*

◘“Məcməül-bəyan” təfsirində və digər təfsir, fiqh kitablarında bu ayədən belə bir nəticə çıxarılır ki, ehram halında dəniz ovu və onun istifadəsi halaldır. Haram qadağası səhra ovuna aiddir.

Dəniz heyvanları dedikdə suda, çayda yaşayan heyvanlar nəzərdə tutulur.

◘İmam Sadiq (ə) “və təamuhu mətaən ləkum və lis-səyyarə” təbiri haqqında buyurmuşdur: “Məqsəd duzlanmış balıqdır.”[1] (Uzun müddət saxlamaq və səfərlərdə istifadə üçün bu qida duzlanır ki, xarab olmasın.)

## *Bildirişlər*

1. Ehram halında olanlar üçün heç də bütün yollar bağlı deyil. (Allah səhra ovunu qadağan etsə də, dəniz ovuna icazə vermişdir.)

2. Ov əyləncə üçün yox, qidalanma üçün olduqda halaldır.

3. Dənizin sərvəti təkcə dəniz sahilində yaşayanların deyil.

4. Dəniz sahilində yaşayanlar dənizin sərvətindən bəhrələnməkdə başqalarından öndədir. (“Ləkum” sözü “lis-səyyarə” sözündən öndə gəlmişdir.)

5. Ehram halında səhra heyvanlarının ovu və istifadəsi təqvasızlıqdır.

6. Müxaliflərə xəbərdarlıq olmalıdır.

7. Qiyamət və əməllərin sorğusuna iman günahdan çəkinmə amilidir.

**97.** ﴿جَعَلَ اللّهُ الْكَعْبَةَ الْبَيْتَ الْحَرَامَ قِيَامًا لِّلنَّاسِ وَالشَّهْرَ الْحَرَامَ وَالْهَدْيَ وَالْقَلاَئِدَ ذَلِكَ لِتَعْلَمُواْ أَنَّ اللّهَ يَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَأَنَّ اللّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

---

[1] “Kafi”, c. 4, s. 392.

**“Allah Beytül-həram. Kəbəni xalqın sahmana düşüb möhkəmlənməsi üçün qərar verdi. Eləcə də, haram ay və nişanlı-nişansız qurbanlıqlar (xalqın sahmanı üçün müəyyənləşdi), bu onun üçündür ki, Allahın göylərdə və yerdə olanlardan xəbərdarlığını bilsinlər. Allah hər şeydən agahdır.”**

## *Nöqtələr*

◘“Qiyam” dedikdə möhkəmlik vasitəsi nəzərdə tutulur. Məsələn, hər hansı tikilinin sütunu, dayağı.[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Allah evini “Beytül-həram” adlandırmışlar. Çünki həmin yerə kafirlərin daxil olması haramdır.”[2]

◘“Hədy” nişansız, “qəlaid” nişanlı qurbanlıqdır.

◘Həcc mərkəzləşmə, təhlükəsizlik, müqəddəslik, ibadət, qəhrəmanlıq, vəhdət, siyasət, bəraət, mərifət, sadəlik, səfa, xalislik, mübahisədən uzaqlıq, şəhvətdən və fitnədən kənarlıq yeridir.

◘Rəcəb, zil-qədə, zil-hiccə və məhərrəm ayları haram aylardır və haram aylarda savaş qadağandır.

◘Məkkədə milyonlarca müsəlmanın heç bir dəbdəbəsiz, imtiyazsız, sözdə və əməldə çəkişməsiz toplanması İslamın üstünlüklərindəndir. Siz həcdəki faydalara baxın: Həccə yola düşərkən halallıq istənilməsi, hacıların yola salınması və qarşılanması, həcdə ticarətin rövnəq tapması, xüms və zəkat ödənməsi, müxtəlif millətlər və maariflərlə tanışlıq, qədim tövhid mərkəzinin ziyarəti, peyğəmbərlərlə həmsədа olmaq, peyğəmbərlərin olduğu yerləri ziyarət etmək, Ərəfat və Məşər səhrasında tövbə etmək, qiyamət haqqında düşüncələr, siyasi hərəkatlar və kafirlərə qarşı bəraət... Bütün bu faydaları nəzərə alsaq, anlayarıq ki, bu proqram Allahın nəhayətsiz elmindən qaynaqlanır. Bəli, Allah bütün varlıq aləmindən agahdır. Hər hansı məhdud elm bir belə yığcam və cəlbedici göstərişlər verə bilməz.

## *Bildirişlər*

1. Həcc möhkəmlik, davam səbəbidir.
2. İşlərin sahmana düşməsi birliyə, ibadətə, ehtirama, aramlığa, əmin-amanlığa, gizli və nişanlı-nişansız işlərə, zəruri qidanın təmininə ehtiyaclıdır.
3. Yalnız bütün varlıq aləmindən xəbərdar olan kəs qanun verə bilər.
4. Məscid və qurbangah din və dünyanın möhkəmlənmə vasitəsidir.
5. Cəmiyyəti möhkəmləndirməyən həcc həqiqi həcc deyil.
6. Cəmiyyətdə sabitlik olarsa, orada allahşünaslıq zəminəsi inkişaf edər.

**98. ﴿اعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ وَأَنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾ “**

**«Bilin ki, həqiqətən Allah şiddətli cəza verəndir və həqiqətən Allah bağışlayandır və rəhimdir.»**

---

[1] “Mufrədate-rağib”.

[2] “Təfsire-Nurus-səqəleyn”.

**99.** ﴿مَّا عَلَى الرَّسُولِ إِلاَّ الْبَلاَغُ وَاللّهُ يَعْلَمُ مَا تُبْدُونَ وَمَا تَكْتُمُونَ﴾

**“Peyğəmbər yalnız ilahi hökmləri bəyan etməlidir. Allah aşkarda və gizlində gördüyünüz işlərdən xəbərdardır.”**

## *Nöqtələr*

◘Əgər bu ayəni əvvəlki ayənin davamı bilsək, deyə bilərik ki, Kəbəni və haram ayları hörmətdən salmaq, qurbanlıq, həcc hökmləri ilə müxalifətçilik və həcci məqsədsiz güman etməyin ağır cəzası var. Kəbə və haram aylara hörmət, qurbanlıq və həcc əməllərini yerinə yetirmək ilahi bağışlanma və rəhmətlə nəticələnir. (Əlbəttə ki, bu ayəni müstəqil şəkildə də mənalandırmaq olar.)

## *Bildirişlər*

1. Təşviq və hədə yanaşı olmalıdır. (İnsan qorxu və ümid arasında olmalıdır. O, Kəbənin hörmətini pozduğu üçün ümidini üzməməli, yaxşı işlərinə görə qürrələnməməlidir.)
2. Peyğəmbərin vəzifəsi məcburiyyət yox, yalnız dinin təbliğidir.
3. Xalqın yaxşı və ya pis münasibəti peyğəmbərə bir zərər vurmur.[1]
4. İlahi elm əhatəli olduğundan Allah üçün işin gizlində və ya aşkarda görülməsinin fərqi yoxdur.

**100.** ﴿قُل لاَّ يَسْتَوِي الْخَبِيثُ وَالطَّيِّبُ وَلَوْ أَعْجَبَكَ كَثْرَةُ الْخَبِيثِ فَاتَّقُواْ اللّهَ يَا أُوْلِي الأَلْبَابِ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

**“(Xalqa) de ki, xəbisin (napakın) sayı səni heyrətə gətirsə də xəbislə (napakla) pak eyni deyil. Ey düşüncə sahibləri! Allahdan qorxun, bəlkə nicat tapasınız.”**

## *Nöqtələr*

◘Paklıq və napaklıq həm var-dövlətə, həm qazanca, həm qidalara, həm də müxtəlif əşyalara aiddir.

## *Bildirişlər*

1. Dəyər ölçüsü çoxluq və ya azlıq yox, haqq və batildir.
2. Çoxluq aldadıcıdır, ehtiyatlı olaq. (Çoxluq nə haqlılıq, nə də üstünlük nişanəsidir.)
3. Rüsvayçılıqdan qurtarmaq üçün xalqa uyğunlaşmaq Quran məntiqi deyil.
4. Təqvasızlıq düşüncəsizlik nişanəsidir.
5. Pakı xəbisdən (napakdan) seçmək, təqvalı olmaq, cəmiyyətin hay-küyünə təslim olmamaq düşüncə sahiblərinin işidir.
6. Qurtuluş ağıl və düşüncədən əlavə ilahi təqvaya ehtiyaclıdır.

---

[1] “Ali-İmran”, 20.

**101.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَسْأَلُواْ عَنْ أَشْيَاء إِن تُبْدَ لَكُمْ تَسُؤْكُمْ وَإِن تَسْأَلُواْ عَنْهَا حِينَ يُنَزَّلُ الْقُرْآنُ تُبْدَ لَكُمْ عَفَا اللّهُ عَنْهَا وَاللّهُ غَفُورٌ حَلِيمٌ﴾

**"Ey iman gətirənlər! Aşkarlanacağı təqdirdə sizi narahat edəcək işlər barədə soruşmayın. Əgər Quran nazil olan vaxt onlar haqqında soruşsanız, sizin üçün aydınlaşar. Allah sizin yersiz suallarınızı bağışladı. Allah bağışlayan və həlimdir."**

**102.** ﴿قَدْ سَأَلَهَا قَوْمٌ مِّن قَبْلِكُمْ ثُمَّ أَصْبَحُواْ بِهَا كَافِرِينَ﴾

**"Həqiqətən, qədimdəkilərdən olan bir qrup da (bu sayaq suallar) soruşurdu. (Əməl gücü olmadığından) ona münasibətdə inkarçı və kafir oldular."**

## *Nöqtələr*

◘İslam peyğəmbəri xalqla həcc haqqında danışırdı. Bir şəxs soruşdu: "Həcc hər il vacibdir, yoxsa ömür boyu bircə dəfə?" Həzrət Peyğəmbər (s) cavab vermədi. Həmin şəxs yenə həmin sualla müraciət etdi. Həzrət Peyğəmbər (s) buyurdu: "Bir bu qədər israr nə üçündür? Əgər desəm hər il, işiniz çətin olar.[1] Bir mövzunu açıqlamamış siz də soruşmayın. Ötən ümmətlərin həlak olması səbəblərindən biri onların yersiz sualları idi.![2]

◘Bilmədiyimizi bilənlərdən soruşmalı olsaq da[3] bəzi sualların cavabı aydınlaşdıqda fərd və cəmiyyətin zərərinə olur. Məsələn, başqalarının eybləri, hərbi sirlər haqqında verilən suallar bu qəbildəndir.

## *Nümunələr*

–Məsullar bəzi məsələləri cəmiyyətə açıqlamamalıdırlar. Məsələn, taxıl qıtlığı kimi iqtisadi məsələlər...

–Düzgün məlumat yaxşıdır, amma hər yerdə faydalı olmur.

–Xəbər və məlumatlar qruplaşdırılmalıdır. (Cabiri-Cöfi imam Baqirdən (ə) minlərlə hədis bilsə də bu hədisləri xalqa açmaq ixtiyarına malik deyildi.[4]

–Bəzi xəbərlər kütləvi informasiya vasitələrində yayılmamalıdır. Çünki xəbərlər arasında xalqın zərərinə səbəb olanları da var. (Bəzi hallarda susmaq daha faydalıdır.)

–Müəllimlər və natiqlər danışarkən dinləyicilərin tutumunu nəzərə almalıdır.

–Bəzi hallarda təqiyyə yolu ilə əqidəni gizlətmək və bəzi sualları cavabsız buraxmaq lazımdır.

–İnsana xalqın sirrini və hərbi sirləri açmaq haqqı verilməyib.

---

[1] "Mustədrək", c. 8, s. 13.
[2] "Bihar", c. 1, s. 221.
[3] "Nəhl", 43.
[4] "Möcəme-ricalul-hədis", c. 4, s.22.

## *Bildirişlər*

1. Hər şeyi bilmək nə zəruridir, nə də faydalı. İnsan yalnız faydalı biliklər ardınca getməlidir. (İnsandakı maraq orta həddə olmalıdır. Kin-küdurət yaradan, ortaya problemlər çıxaran, cəmiyyətin əmin-amanlığını pozan məlumatlar ardınca gedilməməlidir.)

2. Bəzi hökmlərin xalqa vacib edilməsi ilahi əfv və bağışlama nişanəsidir.

3. Allah öz bəndələrinə tövbə möhləti verir.

4. Xalqın tutumundan üstün həqiqətlərin bəyanı onları küfrə aparır.

**103.** ﴿مَا جَعَلَ اللّهُ مِن بَحِيرَةٍ وَلاَ سَآئِبَةٍ وَلاَ وَصِيلَةٍ وَلاَ حَامٍ وَلَكِنَّ الَّذِينَ كَفَرُواْ يَفْتَرُونَ عَلَى اللّهِ الْكَذِبَ وَأَكْثَرُهُمْ لاَ يَعْقِلُونَ﴾

**“Allah heç bir bəhirə (qulağı çərtilmiş heyvan), saibə (çox doğub törədiyindən azad buraxılmış heyvan), vəsilə (dişi ilə birlikdə ekiz doğulmuş heyvan), ham (cütləşmə üçün on dəfə istifadə olunmuş dəvə) haqqında hökm verməmişdir. (Və sizə onlardan istifadəni qadağan etməmişdir.) Amma kafirlər Allaha iftira yaxırlar və onların çoxu düşüncə əhli deyil.”**

## *Nöqtələr*

◘Allaha düzgün və ağılabatan yolla yaxınlaşmaq lazımdır. Qeyri-ilahi yolla Allaha yaxınlaşmaq olmaz.

Cahil xalq elə düşünürdü ki, yuxarıda adı sadalanan heyvanları azad buraxmaqla bütlərə yaxınlaşacaq. Belə bir münasibətlə indi də Hindistanda rastlaşmaq olur. Bəziləri inəyə xüsusi hörmət bəsləyir.

◘Rəvayətdə bildirilir ki, “bəhirə” beş dəfə doğmuş və beşinci balası dişi olduğundan qulağı çərtilmiş dəvəyə deyilir. Cahil xalq belə dəvənin ətini haram sayırdı.[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Cahiliyyət dövründə dəvə ekiz doğulanda ona “vəsilə” deyirdilər. Onu kəsməyi, ətini yeməyi “haram” sayırdılar. Dəvə on dəfə balaladıqda onu “saibə” adlandırırdılar. Belə bir heyvana minməyi, onun ətini yeməyi haram bilirdilər. Cütləşmə üçün istifadə olunan dəvəni “ham” adlandırır və onun da kəsilməsini haram bilirdilər.[2]

## *Bildirişlər*

1. Dini xurafat və bidətlərdən təmizləmək lazımdır.

2. Nə qədər ki, bir heyvan haqqında haram hökmü verilməyib, o, halal sayılmalıdır.

3. Malı tələf etmək və ya heyvanı başına buraxmaq Allaha qarşı iftira və haramdır. (Heyvanı azad buraxmaq və ya istifadəsini qadağan etmək caiz deyil. Belə bir halda insanın başlı-başına buraxılmasından danışmağa belə dəyməz.)

---

[1] “Vəsail”, c. 25, s. 61.

[2] “Vəsail”, c. 25, s. 61.

4. Dində bidət küfrdür. Yalnız Allahı inkar edən yox, Allaha iftira yaxanlar da kafirdirlər.

5. İlahi hökmlərin kökü gerçək ehtiyaclardır. Xurafat isə cəhalət və düşüncəsizlikdən doğur.

6. Əgər cəmiyyətin əksəriyyəti düşüncə əhli olsa, bidətlər inkişaf etməz.

**104.** ﴿وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ إِلَى مَا أَنزَلَ اللّهُ وَإِلَى الرَّسُولِ قَالُواْ حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا أَوَلَوْ كَانَ آبَاؤُهُمْ لاَ يَعْلَمُونَ شَيْئًا وَلاَ يَهْتَدُونَ﴾

**“Nə vaxt onlara “Allahın nazil etdiyinə və peyğəmbərə doğru gəlin” deyilirsə, belə cavab verirlər: “Atalarımızı hansı əqidədə görmüşüksə, bizə yetər.” Halbuki onların ataları bir şey bilmirdilər və hidayət olmamışdılar. (Onlar yollarını azmışdılar. Nə üçün onların yolunu getməlidirlər?)**

## *Nöqtələr*

◘Bəlkə də ayə əvvəlki ayədə haqqında danışılan xurafatlara aiddir. Onlara «xurafatdan əl çəkin» deyildikdə atalarının yolunu misal göstərirlər.

## *Bildirişlər*

1. Quran xalqı Allahın və Onun peyğəmbərinin göstərişlərinə ardıcıllığa çağırır.

2. İslamın dəvətinin qəbulu ilahilik və inkişaf səbəbidir. (Ayədəki “təaləv” sözü ülvilik və inkişafa doğru hərəkət mənasını bildirir.)

3. Əsas babaların əqidəsi yox, ilahi əqidədir.

4. Quran təklikdə bəs etmir. Allah rəsulunun sünnəsi, yolu, hökuməti əməl ölçüsüdür.

5. Xurafat əhli, həddi aşan fərdlər haqqı eşitmək gücündə deyil.

6. Əsas nə keçmişə aid əqidələrdir, nə yeniliklər. Əsas elm və hidayətdir.

7. Vicdanımızı özümüzə hakim seçək.

8. Keçmişdəkilərə ədəblə yanaşmaq lazımdır. Onların cahilanə əqidələrinə tabeçilik isə yersizdir.

9. Kor-koranə təqlid düşüncəsizlik nişanəsidir. Əvvəlki ayədə düşüncəsizlikdən, bu ayədə babalara münasibətdə təəssübdən danışıldı.

10. Cahilin cahilə təqlidi mənasızdır.

11. Hidayəti qəbul edən cahil təhlükəsizdir. Əsl təhlükə hidayəti qəbul etməyən cahillərdədir.

**105.** ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ عَلَيْكُمْ أَنفُسَكُمْ لاَ يَضُرُّكُم مَّن ضَلَّ إِذَا اهْتَدَيْتُمْ إِلَى اللّهِ مَرْجِعُكُمْ جَمِيعًا فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Ey iman gətirənlər! Özünüzü qoruyun. Çünki siz hidayət oldunuz. Yolunu azan isə sizə ziyan yetirməz. Sizin hamınızın qayıdışı Allaha doğrudur. O sizi etdiyiniz işlərdən agah edər.”**

## *Nöqtələr*

◘Bəziləri bu ayəni əldə alət edərək deyirlər: "İnsanın vəzifəsi özünü qorumaqdır və biz başqalarının günahına məsul deyilik." Onların cavabında deməliyik ki, əmr be məruf və nəhy əz münkər haqqında danışan çoxsaylı ayə və rəvayətlərə əsasən, bu ayə əmr və qadağa yox, onların təsirinə aiddir. Yəni insan başqalarını yaxşılığa dəvət edib pisdən çəkindirməli və bu işlər təsir göstərmədikdə özünü qorumalıdır.[1] Onu da qeyd edək ki, əmr be məruf və nəhy əz münkər vasitəsi ilə cəmiyyətin günahdan qorunması insanın özünü qoruması nümunələrindəndir.

## *Bildirişlər*

1. Haqq yolda təklikdən qorxmayaq.
2. Əgər başqaları ilə üzbəüz dayanmırıqsa, nəfsimizlə üzbəüz dayanaq.
3. Cəmiyyətin yolunu azması insan üçün günaha yol açmır.
4. Qiyamətdə hər kəs öz işinə cavabdehdir.
5. Başqalarındakı eybləri üzə çıxarmağa çalışmayaq.[2]
6. İnsan əvvəlcə özünü, sonra isə cəmiyyəti islah etməlidir.
7. İman əhli azğın adamların əməl və rəftarına görə cəzalandırılmayacaq.
8. Başqalarını xilas etmək naminə özünüzü qərq etməyin.
9. Özümüzü elə tərbiyə etməliyik ki, mühit və cəmiyyətdəki fəsadlar bizə təsir göstərməsin.
10. Büdrədikdə başqalarını qınamayaq. Özümüz büdrəməsək, kimsə kənardan bizə zərər vura bilməz.
11. Başqaları hidayət olmur deyə ruhdan düşməyin.
12. İslam yolu o qədər məntiqli və möhkəmdir ki, düşmənlərin şübhə və azğınlığı bu yola heç bir xələl gətirmir.
13. Azğınlar pusquda dayansa da, salamatçılıq yolu hidayəti qəbul etməkdir.
14. Məada iman insanın özünü islah etməsi amilidir.
15. Ata-babalara və başqalarına kor-koranə təqlid qiyamətdə kara gəlmir. Hər bir insan öz əməl və rəftarına görə cavab verəcək.
16. İnsanın dünyadakı rəftar və əməlləri onun qiyamət taleyini müəyyənləşdirir.

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-Nurus-səqəleyn".

106. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ شَهَادَةُ بَيْنِكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ حِينَ الْوَصِيَّةِ اثْنَانِ ذَوَا
عَدْلٍ مِّنكُمْ أَوْ آخَرَانِ مِنْ غَيْرِكُمْ إِنْ أَنتُمْ ضَرَبْتُمْ فِي الأَرْضِ فَأَصَابَتْكُم مُّصِيبَةُ الْمَوْتِ تَحْبِسُونَهُمَا
مِن بَعْدِ الصَّلاَةِ فَيُقْسِمَانِ بِاللهِ إِنِ ارْتَبْتُمْ لاَ نَشْتَرِي بِهِ ثَمَنًا وَلَوْ كَانَ ذَا قُرْبَى وَلاَ نَكْتُمُ شَهَادَةَ
اللهِ إِنَّا إِذًا لَّمِنَ الآثِمِينَ﴾

**“Ey iman gətirənlər! Sizlərdən birinin ölümü çatdıqda aranızdan iki adil şəxsi vəsiyyət zamanı şəhadət üçün çağırın. Əgər səfərdə olduğunuz vaxt ölüm bəlası sorağınıza gəlsə (və müsəlman şahid olmasa), iki nəfər qeyrisini şahidlik üçün istəyin. Əgər onların sədaqətinə) şəkk etsəniz namazdan sonra o iki nəfəri saxlayın ki, Allaha and içsinlər (desinlər ki,) biz həqiqəti heç bir qiymətə, qohumlara münasibətdə də olmuş olsa, satmayacaq, heç vaxt ilahi şəhadəti gizlətməyəcəyik və belə etsək günahkarlardanıq.”**

## *Nöqtələr*

◘İbn Əbu Mariyə adlı bir müsəlman Təmim və Ədi adlı iki məsihi ilə (onlar qardaş idilər) ticarət səfərinə getdi. Müsəlman xəstələndi və vəsiyyətnamə yazıb onu yükündə gizlətdi. Yükünü məsihilərə verib onu varislərinə çatdırmalarını tapşırdı. Müsəlmanın ölümündən sonra həmin iki şəxs onun yükündəki bahalı şeyi götürdülər və Mədinəyə qayıtdıqdan sonra qalanını varislərə verdilər. Varislər yükdən vəsiyyətnaməni tapıb xəbər tutdular ki, yükdə nələr olub. Onlar həmin şeyi məsihilərdən tələb etdikdə, onlar deyilənləri inkar edib peyğəmbərin yanına şikayətə getdilər. Məhz həmin halda uyğun ayə nazil oldu.[1]

“Üsuli-kafi”də nəql olunmuş hədisə əsasən, Peyğəmbər (s) həmin iki şəxsə and içdirdi və onları haqlı saydı. Amma məktub vasitəsi ilə məsihilərin yalanı aşkar olduqdan sonra həzrət onları ikinci dəfə yanına çağırdı və varislər and içdilər ki, yükdə başqa dəyərli şeylər də olub.[2]

## *Bildirişlər*

1. Ölüm astanasındakı məqam vəsiyyət üçün son fürsətdir.
2. Ölüm hamının sorağına gəlir.
3. Vəsiyyət zamanı mömin şəxs çox diqqətli olmalıdır.
4. Xalqın haqqını qaytararkən iki ədalətli şahid tapın.
5. Xalqın haqqını qaytararkən əgər müsəlman tapılmasa, qeyri-müsəlmandan istifadə edin. (Amma həmin qeyri-müsəlman Allahı qəbul etməlidir ki, Onun müqəddəs adına and içə bilsin.)
6. Xalqın hüququnu hər yerdə qorumaq zəruridir.
7. Haqqı qaytarmaq üçün bütün şəkk-şübhələri dəf edin.
8. And şəkki aradan qaldırmaq yollarındandır.
9. Yalnız Allah adına içilən and dəyərli və mötəbərdir.

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsire-nümunə”.

10. Haqların ödənməsində dini, ilahi səhnələrdən, müqəddəs məkan və zamanlardan faydalanın. Bir şəxs Həzrət Əlidən (ə) beytül-mal (ümumi dini büdcədən əlavə pay) istədi. Həzrət buyurdu ki, həmin şəxs cümə günü gəlsin. Cümə günü Həzrət Əli (ə) həmin şəxsi cümə namazına aparıb izdihamı ona göstərərək buyurdu: “Sənin yersiz istəyin bu xalqın malını oğurlamaq mənasındadır.” Hədisdən görünür ki, Həzrət Əli (ə) öz nurani kəlamlarının təsirli olması üçün namaz, cəmiyyət və cümə günündən istifadə edir.

11. Haqların ödənməsində ən münasib fürsətlərdən faydalanmaq lazımdır. (Namaz paklıqda və yalandan uzaqlaşmada rol oynayır.)

12. Pul əldə etmək istəyi azğınlıq amillərindən biridir.

13. Qohumluq əlaqələri və məhəbbət azğınlıq amillərindəndir.

14. Yalnız xalqın haqqı (həqqün-nas) ilə bağlı andnamənin mətni vəhy yolu ilə diqtə olunmuşdur.

15. Andda haqqı gizlətmək və xəyanət ədalətli şəxsi günahkar edər. Bütün ilahi dinlərdə bu iş haram sayılmışdır.

**107.** ﴿فَإِنْ عُثِرَ عَلَى أَنَّهُمَا اسْتَحَقَّا إِثْمًا فَآخَرَانِ يَقُومَانُ مَقَامَهُمَا مِنَ الَّذِينَ اسْتَحَقَّ عَلَيْهِمُ الأَوْلَيَانِ فَيُقْسِمَانِ بِاللّهِ لَشَهَادَتُنَا أَحَقُّ مِن شَهَادَتِهِمَا وَمَا اعْتَدَيْنَا إِنَّا إِذًا لَّمِنَ الظَّالِمِينَ﴾

**“Əgər məlum olsa ki, həmin iki (qeyri-müsəlman) şahid günah və xəyanət etmişdir (və andları nahaq olmuşdur), digər iki nəfər (müsəlman, şahidlikdən zərər görmüş, meyitə yaxın olan) qalxıb Allaha and içsinlər ki, bizim andımız o iki nəfərin andından haqqa daha yaxındır. Biz (haqqa) təcavüz etməmişik, əgər belə etsək, şübhəsiz, sitəmkarlardanıq.”**

## *Nöqtələr*

◘“Usirə” sözü casusluqdan xəbərdar olma mənasını bildirir.[1]

◘Qeyd etməliyik ki, meyit sahiblərinin şəhadəti və andı səfər və ya qeyri səfərdə, onun mülkü haqqında əvvəlcədən malik olduqları məlumatlara əsaslanır.

◘“Əvləyani” sözü iki cür mənalandırıla bilər:

a) Zərərlərinə şəhadət vermiş, amma varis olduqlarından meyitə yaxın sayılan iki nəfər;

b) İnsan ölərkən onun yanında olan və onun yanında olduqları üçün öndə sayılan iki şahid. Buna əsasən ayə belə tərcümə olunur: Əgər əvvəlki iki nəfərin günaha batdığı məlum olsa, onların yerinə şəhadət vermək üçün digər iki nəfər seçilsin və həmin iki nəfər əvvəlki iki nəfərin günahından ziyana düşənlər olsun.

◘Şahidliyi hər iki nəfər və mübarək Allah adı ilə etməlidir. Andın mahiyyəti ayədə deyildiyi kimi olsun. Deyilsin ki, əvvəla bizim andımız doğrudur və biz xalqın haqqını pozmaq məqsədində deyilik. İkincisi, əgər andımız yalandırsa, sitəmə yol verdiyimizi etiraf edirik.

---

[1] “Mufrədate-Rağib”.

## *Bildirişlər*

1. Sizin kəşfiyyat və xırdaçılığa varmaq haqqınız yoxdur. Amma bir məlumat çatdıqda, vəzifə əvəz olur.

2. Yalan şəhadət xalqın haqqına təcavüz və zülm növüdür.

108. ﴿ذَلِكَ أَدْنَى أَن يَأْتُواْ بِالشَّهَادَةِ عَلَى وَجْهِهَا أَوْ يَخَافُواْ أَن تُرَدَّ أَيْمَانٌ بَعْدَ أَيْمَانِهِمْ وَاتَّقُوا اللّهَ وَاسْمَعُواْ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ﴾

**"Bu yol (savaba) daha yaxındır. Bu məqsədlə ki, şəhadət düzgün şəkildə yerinə yetirilsin. Ya qorxalar ki, and içdikdən sonra andları qaytarılsın. Allahdan çəkinin və (Onun göstərişlərinə) qulaq asın. Allah günahkarları hidayət etməz."**

## *Nöqtələr*

◘Bu ayə şəhadətin çətinliyi və ona diqqətin fəlsəfəsini, eləcə də əvvəlki ayədə haqqında danışılan şahid tutmaq məsələsini bəyan edir. Bildirilir ki, namazdan sonra haqq qarşısında verilən şəhadət həqiqətə daha yaxın olur. Çünki belə and və şəhadət düzgün olmadıqda şəxs cəmiyyət arasında rüsvay olur.

## *Bildirişlər*

1. Xalqın hüquqlarının hifzinə və möhkəmlənməsinə xidmət edən mərasimlər və tədbirlər dəyərlidir.

2. Günahdan çəkindirən amillərdən biri cəmiyyətdə rüsvayçılıq qorxusudur.

3. Elə yaşayaq ki, özünü adil göstərənlər yalan andlarla zəhmətlərimizi bada verməsinlər və bilsinlər ki, onların yanlış bəyanatları üstün bir qrup tərəfindən rədd ediləcək.

4. Vəsiyyətdə, and və şəhadətdə təqvalı olaq.

5. Haqsız şəhadət (şahidlik) günah nişanəsidir.

109. ﴿يَوْمَ يَجْمَعُ اللّهُ الرُّسُلَ فَيَقُولُ مَاذَا أُجِبْتُمْ قَالُواْ لاَ عِلْمَ لَنَا إِنَّكَ أَنتَ عَلاَّمُ الْغُيُوبِ﴾

**"Bir gün Allah peyğəmbərləri toplayar və deyər: "Sizin dəvətinizə nə cavab verildi?" Deyərlər: "Biz (işin mahiyyətindən) xəbərsizik. Həqiqətən, qeyblərdən xəbərdar Sənsən, Sən!"**

## *Nöqtələr*

◘İmam Baqir (ə) bu ayə haqqında buyurmuşdur: "Allah Öz peyğəmbərlərindən onların canişinləri haqqında soruşar. Onun rəsulları da öz növbələrində cavab verərlər ki, biz bizdən sonra canişinlərimizə münasibətdə görülən işlərdən xəbərsizik."[1]

---

[1] "Kafi", c. 8, s. 338.

◘Həqiqi elm Allaha məxsusdur. Kimin elmi varsa, həmin elm Allahdandır. Necə ki, qeybi yalnız O bilir və bu elmi istədiyinə verir.

## *Bildirişlər*

1. Qiyamətdə peyğəmbərlərdən soruşular ki, xalq onlarla necə rəftar etdi?
2. Peyğəmbərlərin elmi ilahi elmlə müqayisədə heç nədir.

**110.** ﴿إِذْ قَالَ اللّهُ يَا عِيسى ابْنَ مَرْيَمَ اذْكُرْ نِعْمَتِي عَلَيْكَ وَعَلَى وَالِدَتِكَ إِذْ أَيَّدتُّكَ بِرُوحِ
الْقُدُسِ تُكَلِّمُ النَّاسَ فِي الْمَهْدِ وَكَهْلاً وَإِذْ عَلَّمْتُكَ الْكِتَابَ وَالْحِكْمَةَ وَالتَّوْرَاةَ وَالإِنجِيلَ وَإِذْ تَخْلُقُ
مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ بِإِذْنِي فَتَنفُخُ فِيهَا فَتَكُونُ طَيْرًا بِإِذْنِي وَتُبْرِىءُ الأَكْمَهَ وَالأَبْرَصَ بِإِذْنِي وَإِذْ
تُخْرِجُ الْمَوتَى بِإِذْنِي وَإِذْ كَفَفْتُ بَنِي إِسْرَائِيلَ عَنكَ إِذْ جِئْتَهُمْ بِالْبَيِّنَاتِ فَقَالَ الَّذِينَ كَفَرُواْ مِنْهُمْ
إِنْ هَذَا إِلاَّ سِحْرٌ مُّبِينٌ﴾

**“O zaman ki, Allah buyurdu: “Ey Məryəm oğlu İsa! Nemətimi özünə və anana xatırlat, o vaxt ki, səni Ruhul-qüdslə (Cəbraillə) təsdiqlədim. Beşikdə və böyüdükdən sonra (vəhylə) xalqla danışdın. O vaxt ki, sənə Kitab, Hikmət, Tövrat və İncil öyrətdim. (Unutma o zamanı ki, (Mənim iznimlə gildən quş şəklində bir şey düzəltdin və ona üfürdün, sonra Mənim iznimlə o, quş oldu. Mənim iznimlə anadangəlmə koru və cüzam xəstəsini sağaltdın. O vaxt ki, Mənim iznimlə ölüləri qəbirdən (diri) çıxartdın. Yada sal, o zaman ki, Bəni-İsrailin sənə (zülm əlini) kəsdim. O zaman ki, sən onlar üçün aydın dəlillər gətirdin. Onlardan kafir olanlar (sənin möcüzələrin haqqında) dedilər: Bu, aşkar sehrdən başqa bir şey deyil.”**

## *Nöqtələr*

◘Bu ayədən surənin sonunadək həzrət İsa haqqında danışılır.

◘Bu ayədə müxtəlif ilahi lütflər və hər şeydən öndə Ruhul-qüdsün həzrət Məsih haqqında təsdiqi qeyd olunur.

◘Ayənin başlanğıcında buyurulur: «Ey İsa! Yad et anana və sənə verdiyim nemətləri...» Amma ayədə yalnız həzrət İsaya aid olan nemətlər qeyd olunur. Bəlkə də övlada verilmiş nemət anaya verilmiş nemət sayıldığından belə edilir. Ayədə “Ali-İmran” surəsində həzrət Məryəmə verilmiş nemətlər də nəzərdə tutula bilər.[1]

◘Kitab dedikdə Tövrat və İncil nəzərdə tutulmaya da bilər. Tövrat və İncilin adı əhəmiyyətinə görə çəkilmişdir.

◘Həzrət Əlidən (ə) soruşdular: “Ana bətninə düşməmiş peyda olan heyvanın hökmü necədir?” Həzrət buyurdu: “Həzrət İsanın heykələ üfürməsi ilə vücuda gələn quş kimi.”[2]

---

[1] “Ali-İmran”, 42-45.
[2] “Təfsire-Nurus-səqəleyn”.

## *Bildirişlər*

1. Allahın Öz övliyalarına lütfünün xatırladılması haqq yolçuları üçün ümiddir.
2. Peyğəmbərlər də ilahi nemətləri yaddan çıxarmamalıdırlar.
3. Qadın elə bir məqama çata bilər ki, onun adı peyğəmbərlərlə yanaşı çəkilər. Hətta qadın və onun peyğəmbər övladı birlikdə bir ayə sayılar.[1]
4. Həzrət İsanın beşikdə danışması həm onun peyğəmbərliyini, həm də anasının paklığını sübuta yetirdi.
5. İsanın beşikdəki danışığı vəhydən bir görüntü idi.
6. İlahi iradə təcrübəyə, qüdrətə, zamanın ötməsinə ehtiyacı aradan qaldırır. Həzrət İsa təcrübəsiz, zaman ötmədən, elə uşaq vaxtında böyük kimi danışdı.
7. Peyğəmbərlərin həm elmi, həm də bəsirəti, həm keçmişdəkilərdən xəbərdarlığı olmalıdır. Onlar həm də yeni bildirişlər gətirməlidirlər.
8. Yaranış sözü Allahdan qeyriləri haqqında da işlədilir.
9. Allahın izni quşların mücəssəməsinin (heykəlinin) hazırlanmasını mümkün etdi.
10. Allahın xüsusi övliyalarının təkvini (təbii) vilayəti var. (Həzrət İsaya "düzəltdin", "üfürdün", "çıxardın" deyə müraciətlər olunur.)
11. Həzrət İsanın ecazında həm onun «Məsiha» nəfəsinin, həm heykəl düzəltməsinin rolu vardı.
12. Məsiha nəfəsi cansız cismi hərəkətə gətirdi. Bəni-İsrailin qəlblərini isə hərəkətə gətirmək mümkünsüz oldu.
13. Şirk qorxusu çox olan yerdə tövhid haqqında təkrarlar lazımdır. (Ayədə "Allahın izni ilə" sözləri təkrarlanmışdır.)
14. Bir halda ki, Allah Öz peyğəmbərinə diriltmə və şəfavermə qüdrəti əta edir, demək, xalqın övliyalara təvəssülü caiz olmalıdır. (Necə ola bilər ki, Allah birinə qüdrət versin, amma xalqa həmin kəsə üz tutmağı qadağan etsin?")
15. Ölülərin dirilməsi və rəcət həmin dünyada baş vermişdir.
16. Bəni İsrailin həzrət İsaya qarşı sui-qəsdini Allah dəf etdi.

**111.** ﴿وَإِذْ أَوْحَيْتُ إِلَى الْحَوَارِيِّينَ أَنْ آمِنُواْ بِي وَبِرَسُولِي قَالُوَاْ آمَنَّا وَاشْهَدْ بِأَنَّنَا مُسْلِمُونَ﴾

**"(Xatırla,) o zaman ki, həvarilərə (həzrət İsanın xüsusi yoldaşlarına) "iman gətirin" deyə vəhy göndərdik, dedilər: İman gətirmişik və şahid ol ki, biz (müsəlman) təslim olmuşuq."**

## *Nöqtələr*

◘Həvarilərə vəhy göndərilməsi onların qəlbinə ilham edilməsi mənasında ola bilər. Burada həzrət İsa vasitəsi ilə vəhy göndərilməsi nəzərdə tutulmur. Çünki İmam Sadiq (ə) bu vəhy haqqında buyurmuşdur: "Yəni onlara ilham olundu."[2]

◘İmam Rizanın (ə) buyruğuna əsasən, həvarilərin sayı on iki olmuşdur. Onlar daxilən pak olduqlarından, moizə və xatırlatmalarla cəmiyyəti günahdan təmizlədiklərindən «həvariyyun» adlandırılmışlar.[1]

---

[1] "Ənbiya", 91.
[2] "Təfsire-Nurus-səqəleyn".

## *Bildirişlər*

1. Bəzən Allah hazırlıqlı qəlblərə ilham edir.
2. Allaha iman rəsula imandan ayrı deyil.
3. Hidayət batini və ilahi olanda dərindən və dərhal təsir edir.
4. Daxilən ilahi nursuz hidayət ya təsirsizdir, ya az təsirlidir, ya da davamsız.
5. Xalqa ilahi ilham vəhyə qarşı yox, onun təsdiqi üçündür.
6. Daxili iman nişanələrindən biri imanı dildə izhar etməkdir. Qəlb imanı zahiri şüarların dayağı olduğu kimi!

**112.** ﴿إِذْ قَالَ الْحَوَارِيُّونَ يَا عِيسَى ابْنَ مَرْيَمَ هَلْ يَسْتَطِيعُ رَبُّكَ أَن يُنَزِّلَ عَلَيْنَا مَآئِدَةً مِّنَ السَّمَاء قَالَ اتَّقُواْ اللّهَ إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“(Xatırla,) o zaman ki, həvarilər dedilər: Ey İsa ibn Məryəm! Rəbbin sənin duanla səmadan bizim üçün süfrə (Maidə) endirə bilərmi? “İsa dedi: “Əgər möminsinizsə, Allahdan qorxun.”**

**113.** ﴿قَالُواْ نُرِيدُ أَن نَّأْكُلَ مِنْهَا وَتَطْمَئِنَّ قُلُوبُنَا وَنَعْلَمَ أَن قَدْ صَدَقْتَنَا وَنَكُونَ عَلَيْهَا مِنَ الشَّاهِدِينَ﴾

**“Dedilər: (Bizim pis məqsədimiz yoxdur və bəhanə axtarmırıq,) ondan yemək istəyirik ki, qəlblərimiz əminlik tapsın. Bilək ki, bizə doğru demisən və həmin səma süfrəsinə şahidlərdən olaq.”**

## *Nöqtələr*

◘Surə səma süfrəsi (“Maidə”) istəyi səbəbindən “Maidə” adlandırılmışdır.

◘“Maidə” həm qida, həm də qidalar düzülmüş süfrə mənasını bildirir.

◘Həvarilərin “ya rəsuləllah” əvəzinə “ya İsa”, “Allah lütf edər” əvəzinə “edə bilərmi”, “Rəbbimiz” əvəzinə “Rəbbin” demələri ədəbsizlik sayıldığından onlar “Allahdan çəkinin” cavabını eşidirlər.

## *Bildirişlər*

1. Ey peyğəmbər! Xalqdan çox şey gözləmə! İsanın həvarilərinə ilham olunurdusa, onlar iman gətirib təslim olduqlarını etiraf edirdilərsə də, yenə də könüllərindən möcüzə keçirdi.
2. Həzrət İsanın beşikdə danışması, ölüləri diriltməsi kimi möcüzələrini gördükləri halda Allahın qüdrətində tərəddüd etmələri həvarilərə yaraşmırdı.
3. Pis bir niyyətimiz olmasa da, müraciət edib danışarkən şəxslərin hörmətini qorumalıyıq.
4. Mömin Allahı sınağa çəkməməlidir.
5. Təqva iman nişanəsidir.
6. Qəlb yəqinliyi, əminliyi imandan uca mərtəbədir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

Həzrət İbrahim də Allaha əminlik axtardığını bildirir.[1]

**114.** ﴿قَالَ عِيسَى ابْنُ مَرْيَمَ اللَّهُمَّ رَبَّنَا أَنزِلْ عَلَيْنَا مَآئِدَةً مِّنَ السَّمَاء تَكُونُ لَنَا عِيداً لِّأَوَّلِنَا وَآخِرِنَا وَآيَةً مِّنكَ وَارْزُقْنَا وَأَنتَ خَيْرُ الرَّازِقِينَ﴾

**"İsa ibn Məryəm dedi: "Pərvərdigara, ey Rəbbim! Bizə səmadan bir süfrə endir ki, indiki və gələcək nəslimiz üçün bayram və Səndən bir nişanə olsun. Bizə ruzi ver, Sən ruzi verənlərin ən üstünüsən."**

## *Nöqtələr*

◘Qurandakı dualar adətən, "Rəbb" adı ilə başlayır. Bu ayədə isə həm "Allah", həm də "Rəbb" müraciətləri ilə rastlaşırıq. Bəlkə də bu iki müraciət məsələnin əhəmiyyətini göstərir.

## *Bildirişlər*

1. İstəklərin yerinə yetməsi üçün Allahın övliyalarına təvəssül (onları vasitə seçmək) caizdir.
2. Peyğəmbərlər üçün tarixin və keçmiş nəsillərin əhəmiyyəti var.
3. İlahi nişanələrdən daim dərs almaq lazımdır.
4. İlahi bayram və mərasim Quran baxımından düzgündür. Allah övliyalarının doğum günü, həzrət Peyğəmbərin (s) bəsəti səmavi süfrənin nazil olmasından az əhəmiyyət daşımır.)
5. Həzrət İsa duada diqqəti yemək məsələsinə yox, süfrənin ilahi olmasına yönəldir.
6. Başqalarının süstləşdirici sözlərini islah olunmuş şəkildə nəql edək. Əgər həvarilər öz danışıqlarında süfrə istəyini "edə bilərmi" sualı ilə açıqlayırlarsa, həzrət İsa öz duasında "maidəni" uca bir məqsəd üçün istəyir. O, həvarilərin istəyindəki tərəddüdlü nöqtələri silib atır.
7. Duada Allahı kamil ədəblə, istəklərimizə uyğun sifətlərlə çağıraq. Əgər ayə "ey Allah, "ey Rəbb" xitabları ilə başlayırsa, "ruzi verənlərin ən xeyirlisi" təbiri ilə başa çatır.
8. Maddi istəklərimizə mənəvi rəng verək. Həvarilər əvvəlcə yemək, sonra isə əmin olmaq məqsədində olduqlarını bildirdilər. Həzrət İsa isə əvvəlcə tarixdə nişanə qoymaq, sonra Allahın qüdrətini göstərmək, daha sonra ruzi məsələsini açıqlayır. Bununla da bildirir ki, mənəvi və ictimai məsələlər təşkilati və iqtisadi məsələlərdən öndə gəlir.
9. Diqqətimizi Allaha yönəldək və başqalarına üz tutmayaq.

**115.** ﴿قَالَ اللّهُ إِنِّي مُنَزِّلُهَا عَلَيْكُمْ فَمَن يَكْفُرْ بَعْدُ مِنكُمْ فَإِنِّي أُعَذِّبُهُ عَذَابًا لاَّ أُعَذِّبُهُ أَحَدًا مِّنَ الْعَالَمِينَ﴾

[1] "Bəqərə", 260.

**"Allah buyurdu: "Mən onu (maidəni) sizin üçün nazil edərəm. Amma bundan sonra sizdən hər hansınız küfr etsə, ona elə bir əzab verəcəyəm ki, aləmdəkilərdən heç birinə o cür əzab verməmişəm."**

## *Nöqtələr*

◘Maidənin nazil olması əhvalatı Quranda bəyan olunduğu şəkildə İncildə nəql olunmamışdır.[1]

◘Bəziləri bildirirlər ki, həvarilər ilahi hədələri eşitdikdən sonra öz istəklərindən daşındılar və maidə nazil olmadı. Amma bu baxış ayənin zahiri mənası və rəvayətlərlə uyğun gəlmir. "İnni munəzziluha" təbiri vəd yox, qəti bildirişdir.[2]

◘Rəvayətdə deyilir: Maidə nazil olduqdan sonra bəziləri kafir olub donuz şəklinə düşdü.[3] Bəzi rəvayətlərdə oxuyuruq ki, nazil olan şey çörək və ət idi.[4]

◘Əgər İsanın yoldaşları üçün səmavi qidalar nazil oldusa, rəvayətlərə əsasən, İslam Peyğəmbəri (s) üçün də behişt meyvələri nazil olmuşdur. Həzrət Fatimənin (s) yaranış qaynağı da həmin behişt meyvələridir.[5]

## *Bildirişlər*

1. Peyğəmbərlərin duası qəbul olur.
2. Elm, yəqin, şahidliyə çatanların məsuliyyəti daha ağırdır. Onların büdrəmələri də ciddi qəbul olunur. Elm və şahidlik məqamına çatmayanlardan ilahi qəzəb də nisbətən uzaqdır.
3. İlahi əzabın dərəcələri var.
4. Təmənnası böyük olan, səmavi süfrə istəyən kəs, təbii ki, ağır vəzifələrlə yüklənir.

**116.** ﴿وَإِذْ قَالَ اللّهُ يَا عِيسَى ابْنَ مَرْيَمَ أَأَنتَ قُلتَ لِلنَّاسِ اتَّخِذُونِي وَأُمِّيَ إِلَهَيْنِ مِن دُونِ اللّهِ
قَالَ سُبْحَانَكَ مَا يَكُونُ لِي أَنْ أَقُولَ مَا لَيْسَ لِي بِحَقٍّ إِن كُنتُ قُلْتُهُ فَقَدْ عَلِمْتَهُ تَعْلَمُ مَا فِي نَفْسِي
وَلاَ أَعْلَمُ مَا فِي نَفْسِكَ إِنَّكَ أَنتَ عَلاَّمُ الْغُيُوبِ﴾

**"O zaman ki, Allah buyurdu: "Ey İsa ibn Məryəm! Sən xalqa demisənmi ki, Allahdan başqa məni və anamı iki məbud olaraq seçin!" (İsa) dedi: "(Pərvərdigara!) Sən pak-pakizəsən. Olmaz ki, mənə layiq olmayan yersiz söz deyəm. Əgər demiş olsaydım, Sən onu bilərdin. (Çünki) Sən mənim qəlbimdə və canımda olanları bilirsən. Mən isə Sənin zatında olanlardan xəbərsizəm. Həqiqətən, bütün qeybləri bilən yalnız Sənsən!"**

---

[1] "Təfsire-nümunə".
[2] "Təfsire-Ətyəbul-bəyan".
[3] "Təfsire-Əl-mizan".
[4] "Təfsire-Nurus-səqəleyn"; "Təfsire-Məcməül-bəyan".
[5] "Bihar", c. 43, s.5.

## *Nöqtələr*

◘Həmin surənin 109-cu ayəsində oxuduq ki, Allah qiyamət günü peyğəmbərləri toplayıb onlardan soruşar: “Xalqdan hansı cavabları eşitdiniz?” Bu ayə həmin gün Allahın həzrət İsa ilə söhbətini bəyan edir.

◘Bu günkü məsihilər Məryəmi Allah bilməsələr də, onlardan bir qrupu həmin dövrdə Məryəmi Allah saydığından və onun mücəssəməsi qarşısında ibadət etdiklərindən peyğəmbər anasını məbud saymaqda suçlanırlar.

◘“Dunillah” (Allahdan qeyrisi) şirk nişanəsidir. Yəni bu söz Allahı inkar etmir, amma əlavə məbudlar götürür. Məsələn, məsihilər İsa və Məryəmi də məbud sayırdılar. İndiki məsihilərin üç inamı isə ata, oğul və ruhul-qüdsə ünvanlanmışdır.

◘İmam Riza (ə) buyurmuşdur: “Mənə münasibətdə iki dəstə həlak olar və mən təqsirkar deyiləm: Onlardan bir qrupu ifrat bağlananlar, digəri səbəbsiz kin saxlayanlardır.”[1]

◘Həzrət İsanın Allaha təsbih deməsi Allahın şəriksiz olmasının digər bir nişanəsidir. Digər ayələrdə isə Allahı hər növ övladı - istər qız, istər oğul - olmaqdan pak-pakizə sayır.[2]

## *Bildirişlər*

1. Bəzən bir günahkarın sorğuya çəkilməsi və məzəmməti başqaları üçün də xəbərdarlıq olur. «Qızım sənə deyirəm, gəlinim sən eşit!»
2. Hətta peyğəmbər də olsa, insanın ilahilik iddiası batildir.
3. Peyğəmbərlər məsumdurlar.
4. Peyğəmbərlər öz ardıcıllarının həddi aşmasından narahatdırlar.
5. İnsanın bütün dedikləri və iç sirləri Allah üçün aydındır.
6. Allahı bütün bəyənilməmiş sifətlərdən və işlərdən pak bilmək vacibdir.
7. Peyğəmbərlərin elmi məhduddur. Elmi məhdud olan kəsdə məbudluq ləyaqəti yoxdur.
8. Xalqın düşüncələri və sirləri qeybi işlərdəndir və Allah qeyb işlərindən xəbərdardır.
9. Bütün həqiqətlərdən kamil və əhatəli agahlıq Allaha məxsusdur.

**117.** ﴿مَا قُلْتُ لَهُمْ إِلاَّ مَا أَمَرْتَنِي بِهِ أَنِ اعْبُدُواْ اللّهَ رَبِّي وَرَبَّكُمْ وَكُنتُ عَلَيْهِمْ شَهِيدًا مَّا دُمْتُ فِيهِمْ فَلَمَّا تَوَفَّيْتَنِي كُنتَ أَنتَ الرَّقِيبَ عَلَيْهِمْ وَأَنتَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ﴾

**“(Həzrət İsa Allaha dedi:) Mən onlara yalnız mənə əmr etdiyini dedim. (Dedim ki,) mənim və sizin Rəbbiniz olan Allaha pərəstiş edin. Nə qədər ki, aralarında idim, onlara şahid və nəzarətçi idim. Elə ki, məni geri qaytardın, Özün onlara nəzarətçi oldun və Sən hər şeyə şahidsən.”**

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Ənbiya”, 26; “Nəhl”, 57.

## *Nöqtələr*

◘"Təvəffi" tam və kamil şəkildə almaqdır və ölüm onun nümunələrindən biridir. Allah həzrət İsanı qövmünün arasından götürdü və həzrət Mehdinin (ə) qiyamınadək diri saxlayır. Həzrət İsa əsrin imamı ilə birlikdə zühur edəcək.

## *Bildirişlər*

1. Peyğəmbərlər məsumdurlar və yalnız Allahın əmrini yerinə yetirirlər. peyğəmbərlər vəhyə müdaxilə etmir, onda heç bir dəyişiklik aparmırlar.
2. Həzrət İsa da başqaları kimi özünü Allahın məxluqu sayır.
3. Peyğəmbərlər xalqın hərəkətlərinə nəzarətçidirlər.
4. Təkallahlılığa dəvət peyğəmbərlərin ən mühüm vəzifəsidir. (Həzrət İsaya təkcə tövhid məsələsini bəyan etmək tapşırılmasa da, burada yalnız bu məsələyə işarə olunur.)
5. Allaha pərəstiş dəlili və meyarı Onun Rəbb olmasıdır. (Rübubiyyət)

**118.** ﴿إِن تُعَذِّبْهُمْ فَإِنَّهُمْ عِبَادُكَ وَإِن تَغْفِرْ لَهُمْ فَإِنَّكَ أَنتَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**"(İsa dedi: "Pərvərdigara,) əgər onlara əzab versən, həqiqətən, onlar Sənin bəndələrindir. Əgər onları bağışlasan, şübhəsiz, Sən özün qüvvə və hikmət sahibisən."**

## *Nöqtələr*

◘Həzrət İsa Allahın: "Sən demisənmi ki, məni və anamı məbud götürün?" sualının cavabında özünü xalqdan ayırmaqla və yalnız Allahın malik olduğunu bildirməklə ümmətinin şirkinə şərik olmadığını göstərdi.

◘Əbuzərdən nəql olunmuş rəvayətdə bildirilir ki, həzrət Peyğəmbər (s) bir gecə sübhədək rüku və səcdələrdə bu ayəni tilavət etdi. (Əbuzər deyir,) həzrətdən soruşdum ki, «sübhədək o ayənin oxunması səbəbi nədir?» Həzrət buyurdu: "Allahdan öz ümmətim üçün şəfaət istəyirdim. Nəhayət, Allah onu verdi. Ümmətim şirkə batmayacağı təqdirdə şəfaətə nail olacaq."[1]

Digər bir rəvayətdə bildirilir: "Həzrət bu ayəni oxuduğu vaxt mübarək əllərini yuxarıya qaldırıb ağlar halda ümmətinə dua etdi. Allah-təala Cəbraili göndərib buyurdu: "Biz səni xoşhal edəcəyik və qoymayacağıq ki, narahat olasan."[2]

## *Bildirişlər*

1. Peyğəmbərlər Allaha təslimdirlər. Allahın işi haqqında soruşmaq olmaz.[3]
2. Müşriklərin əzaba düçar edilməsi və ya bağışlanması Allahın əlindədir.
3. Peyğəmbərlərin şəfaət məqamları var. Amma bəzən günah elə bir həddə çatır ki, peyğəmbərlər də bir iş görə bilmir.
4. Allahın qəhr-qəzəbi və ya mərhəməti onun izzət və hikmətinə əsaslanır.

---

[1] "Təfsire-Məraği".
[2] "Təfsire-ibn-Əsir".
[3] "Ənbiya", 23.

**119.** ﴿قَالَ اللّهُ هَذَا يَوْمُ يَنفَعُ الصَّادِقِينَ صِدْقُهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ﴾

**"Allah buyurdu: "Bu elə bir gündür ki, doğru danışanlar sədaqətlərindən faydalanar. Onlar üçün ağacları altdan çaylar axan bağlar var və həmişə orada qalarlar. Allah onlardan razıdır, onlar da Allahdan. Bu böyük qurtuluşdur.""**

**120.** ﴿لِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا فِيهِنَّ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**"Səmaların, yerin və onlarda olanların mülkü Allaha məxsusdur. O hər şeyə qadirdir."**

## *Nöqtələr*

◘Ötən ayələrdə İsanın Allah hüzurundakı sözləri bəyan olundu: "Mən yalnız haqqı deyirəm"; "Əgər nahaq demişəmsə Sən bilirsən"; "Mənə əmr etdiyin tövhiddən başqa Allaha bir şey demədim"; "Nə qədər ki, vardım, xalqa nəzarət edirdim ki, azmasınlar."

Ayədə Allah-təala buyurur: "İsanın bütün sözləri düzgündür. Bu gün elə bir gündür ki, doğruçuların düzgünlüyü səmərəyə çatır."

## *Bildirişlər*

1. Əgər möminlər sədaqətlərinə görə dünyada bəzi çətinliklərlə üzləşirlərsə, bu düzlük axirətdə onlar üçün faydalı olur.
2. Sədaqətli olduğunu iddia edənlər yox, yalnız həqiqətən sədaqətli olanlar nicat tapırlar.
3. Allahın razılığı kənarında behişt böyük qurtuluşdur.
4. Yalnız varlıq aləmi üzərində hakimiyyət və mütləq qüdrət sahibi ibadətə layiqdir. Başqaları peyğəmbər də olsalar ibadətə layiq deyillər.

# “ƏNAM” SURƏSİ

## (6-CI SURƏ, 165 AYƏ)

### *Yeddi, səkkizinci cüzlər*

### *“Ənam" surəsinin siması*

Yüz altmış beş ayədən ibarət olan bu surənin bütün ayələri birdəfəyə, Məkkədə və xüsusi bir təmtəraqla nazil olmuşdur. Cəbrail bu surəni yetmiş min mələyin müşayiəti ilə peyğəmbərə nazil etmişdir.

Bu surənin ayələrinin əsas çağırışı şirklə mübarizə və tövhidə dəvətdir. Ərəbistan yarımadasındakı müşriklər bəzi dördayaqlıları halal, bəzilərini isə haram saydıqlarından Quran bu sayaq xurafatlarla mübarizəyə qalxaraq surənin 136-cı ayəsindən sonunadək dördayaqlıların hökmlərini bəyan edir. Buna görə də surə “ənam”, yəni “dördayaqlılar” (davar) adlandırılmışdır.

Bu surənin fəziləti və onun tilavətinin faydaları haqqında rəvayətlər nəql olunmuşdur. O cümlədən, İmam Sadiq (ə) buyurur ki, hər kəs (iki salamla) dörd rəkət namaz qılsa və namazda bu surəni tilavət edib sonra dua oxusa, istəyi qəbuldur.[1]

**بسم الله الرحمن الرحيم**

**Rəhman və Rəhim Allahın adı ilə**

**1. ﴿الْحَمْدُ لِلّهِ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ وَجَعَلَ الظُّلُمَاتِ وَالنُّورَ ثُمَّ الَّذِينَ كَفَرُواْ بِرَبِّهِم يَعْدِلُونَ﴾**

**“Sitayiş göyləri və yeri yaratmış, qaranlıqları və nuru qərar vermiş Allaha məxsusdur. Amma kafirlər (başqalarını) Allaha bərabər və tay tuturlar.”**

### *Nöqtələr*

◘Bütün Quranda “nur” sözü tək, “zülmət” sözü isə cəm formada işlədilmişdir. Həqiqətən də, haqq yol birdirsə, batil yol çoxdur. Bəli, nur vəhdət, zülmət isə pərakəndəlik nişanəsidir. “Ədl” sözündən olan “yədilunə” sözü tay, oxşar mənasını bildirir.

◘Surənin birinci ayəsi varlıq aləminin yaranışı, ikinci ayəsi insanın yaranışı, üçüncü ayəsi isə insanın əməl və rəftarına nəzarət haqqındadır.

◘Həzrət Əlinin (ə) buyruğuna əsasən, bu ayə azğın qrupun suallarına cavab verir. Bu qruplar aşağıdakılardır:

a) İlahi yaranış və varlıq aləminin xəlq olunmasını inkar edən materialistlər

b) Nur və zülməti iki qaynaq bilən ikiliyə pərəstiş edənlər; (Avesta Əhriməni zülmətlərin, Ahura Məzdanı nurun allahı bilir və onlar arasındakı ziddiyyətə inanır.[1]

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.

v) Allaha şərik və oxşar qərar verən müşriklər.[2]

◘İmam Musa ibn Cəfər (ə) "Birəbbihim yədilunə" təbiri haqqında buyurmuşdur: "Yəni kafirlər zülmət və nuru, zülm və ədaləti eyni sayırlar."[3]

## *Bildirişlər*

1. Allah həm heçdən yaradır, həm də yaratdıqlarına yeni keyfiyyətlər verir. (İlk öncə "xələqə", sonra "cəələ".)

2. Allaha şərik qoşmaq bir növ Onun inkarı və küfürdür.

**2. ﴿هُوَ الَّذِي خَلَقَكُم مِّن طِينٍ ثُمَّ قَضَى أَجَلاً وَأَجَلٌ مُّسمًّى عِندَهُ ثُمَّ أَنتُمْ تَمْتَرُونَ﴾**

**"O sizi gildən yaratmış kəsdir. Bundan sonra bir əcəl (ki, dünyada yaşayışınız üçün) qərar verdi. Müəyyən əcəl (dünyada dəyişməzdir,) Ona məlumdur. Yoxsa şəkk-şübhə edirsiniz?"**

## *Nöqtələr*

◘Əvvəlki ayədə göylərin və yerin yaranışı, bu ayədə isə insanın xəlq olunması və bu dünyadakı məhdud həyatı haqqında danışılır.

◘Quranda "əcəlun musəmma" təbiri iyirmi bir dəfə işlədilmişdir. (Əcəlun musəmma"-müəyyən əcəl.)

◘Allah insan ömrü üçün iki dayanacaq müəyyənləşdirmişdir: Bu əcəllərdən biri qətidir. Çırağın yanacağı qurtardıqda söndüyü kimi, ömür də başa çatdıqda ölüm qətidir. Digər əcəl qeyri-qəti əcəldir. O insanın əməllərindən asılıdır. Məsələn, bəzən çırağın yanacağı olduğu halda küləyin təsirindən sönür.

◘Rəvayətlərdə sileyi-rəhmi (yaxınları yoxlamaq), sədəqə, zəkat, dua ömrü uzadan səbəblər kimi göstərilir. Əksinə, yaxınlarla əlaqəni kəsmək, zülm ömrü qısaldan amillərdir.[4]

◘İmam Baqir (ə) "əcəlun və əcəlun müsəmma" təbirləri haqqında buyurmuşdur: "Bu, iki əcəldir: «Bunlardan birincisi dəyişkən, digəri qətidir."[5]

◘İbn Abbasın bildirdiyinə görə, Allah insan üçün iki əcəl müəyyənləşdirmişdir: Bunlardan biri doğulandan ölümədək, digəri ölümdən qiyamətədəkdir. İnsan öz əməlləri ilə bəzən birini əskildib o birini artırır. Nəticədə əcəl dəyişməzdir."[6]

## *Bildirişlər*

1. Ömrün uzunluğu və həyatın sonu əlimizdə deyil.

2 Yalnız Allah "müsəmma", yəni qəti əcəldən xəbərdardır.

3. Əgər həm yaranış, həm də işin sonu Allahın əlindədirsə, nə üçün yaranış və məada şəkk edək?!

---

[1] "Təfsire-Kaşif".
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Təfsire-Əyyaşi"; "Bihar", c. 9, s. 355.
[4] "Mustədrəkul-vəsail", c. 15, s. 249.
[5] "Kafi", c. 1, s. 147.
[6] "Fatir", 11.

**3.** ﴿وَهُوَ اللّهُ فِي السَّمَاوَاتِ وَفِي الأَرْضِ يَعْلَمُ سِرَّكُمْ وَجَهرَكُمْ وَيَعْلَمُ مَا تَكْسِبُونَ﴾

**“Göylərdə və yerdə olan Allah Odur. Sizin gizlində və aşkarda olanınızı bilir, əldə etdiklərinizdən xəbərdardır.”**

## *Nöqtələr*

◘Azğın çoxallahlılıq əqidəsinin cavabında (yağış Allahı, döyüş Allahı, sülh Allahı, yer Allahı) ayə buyurur: “Hər şeyin və hər yerin Allahı birdir.”

◘İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: “O Öz elmi, qüdrəti, hakimiyyəti ilə bütün məxluqları əhatə edir.”[1]

## *Bildirişlər*

1. Bütün varlıq aləmi Allahın hakimiyyəti dairəsidir.
2. Allah hakim olduğu kimi də agahdır.
3. İnsanın aşkar və gizlini Allah üçün eynidir.
4. Allahın əhatəli elminə iman həm iş, həm də pis işdən çəkinmək üçün stimuldur.
5. Allah insanın gələcək işlərindən agahdır.

**4.** ﴿وَمَا تَأْتِيهِم مِّنْ آيَةٍ مِّنْ آيَاتِ رَبِّهِمْ إِلاَّ كَانُواْ عَنْهَا مُعْرِضِينَ﴾

**“Allahın nişanələrindən onlar üçün elə bir nişanə gəlmədi ki, (təsdiq və iman əvəzinə) ondan üz döndərməsinlər.”**

**5.** ﴿فَقَدْ كَذَّبُواْ بِالْحَقِّ لَمَّا جَاءهُمْ فَسَوْفَ يَأْتِيهِمْ أَنبَاء مَا كَانُواْ بِهِ يَسْتَهْزِؤُونَ﴾

**“Elə ki, onlar üçün haqq gəldi, onu təkzib etdilər. Tezliklə məsxərə etdiklərinin mühüm xəbərləri sorağlarına gələcək.”**

## *Nöqtələr*

◘«Böyük xəbər» dedikdə Məkkənin fəthi və ya müşriklərin Bədr döyüşündə məğlubiyyəti nəzərdə tutula bilər.[2]

## *Bildirişlər*

1. İnadkarlar üçün dəlil və ayənin necəliyinin fərqi yoxdur. Onlar hər şeyi rədd edirlər.
2. İnadkarlar və kafirlər eşitmək, düşünmək və araşdırmaq istəmir, həqiqət bəyan olunan kimi onu inkar edirlər.
3. Həm möminlərə haqq yolda olmaları ilə ümid verilməli, həm də kafirlər acı xəbərlərlə qarşılaşacaqları ilə hədələnməlidir.
4. İstehza kafirlərin daim istifadə etdiyi üsuldur.

---

[1] “Təfsire-Nurus-səqəleyn”; “Tövhide-Səduq”, s. 133.
[2] “Təfsire-Mərağî”.

5. İstehza üç mərhələdə süqut edir: Arxa çevirmə, təkzib və istehza. Hazırkı iki ayədə həmin üç mərhələyə işarə olunmuşdur.

6. ﴿أَلَمْ يَرَوْاْ كَمْ أَهْلَكْنَا مِن قَبْلِهِم مِّن قَرْنٍ مَّكَّنَّاهُمْ فِي الأَرْضِ مَا لَمْ نُمَكِّن لَّكُمْ وَأَرْسَلْنَا السَّمَاء عَلَيْهِم مِّدْرَارًا وَجَعَلْنَا الأَنْهَارَ تَجْرِي مِن تَحْتِهِمْ فَأَهْلَكْنَاهُم بِذُنُوبِهِمْ وَأَنْشَأْنَا مِن بَعْدِهِمْ قَرْنًا آخَرِينَ﴾

**«Görmədilərmi ki, onlardan qabaq bir çox ümmətləri həlak etdik. Hansı ki, sizə vermədiyimiz yeri və gücü onlara vermişdik. Səmanı (yağış və bərəkəti) ardıcıl olaraq onlar üçün göndərdik və ayaqları altından çaylar axıtdıq. Sonra onları günahlarının cəzası olaraq həlak etdik və onlardan sonra digər bir nəsil gətirdik»**

## *Nöqtələr*

◘Tam şəkildə həlak olmuş ümmətə “qərn” deyilmişdir.[1] Eyni bir zamanda yaşayan insanlara da “qərn” deyilir. Adətən, bir insan nəsli altmış-yüz il yaşadığından altmış, səksən və ya yüz il bir qərn adlandırılmışdır.[2]

◘“Midrar” dedikdə bol, ardıcıl, ehtiyac qədərində yağan yağış nəzərdə tutulur.[3]

## *Bildirişlər*

1. Tarixdən ibrət almayan insanlar məzəmmət olunur.
2. İlkin İslam dövrünün kafirləri keçmiş ümmətlərin tarixindən xəbərdar idilər. Onlar həmin tarixdən ibrət götürə bilərdilər.
3. Nemətlərin əldən çıxması və günahkarların bədbəxtçiliyinə diqqət insanı qəflətdən oyadan amillərdəndir.
4. İslamdan qabaq da mədəniyyətlər olmuş, sonra məhv olub getmişdir.
5. Xalqın ibrət götürməsi üçün gerçək və nəsihətamiz əhvalatların nəqli Quranın tərbiyə üsullarındandır.
6. Allahın verdiyi imkanlardan sui-istifadə edənlərin cəzası məhv olmaqdır.
7. “Səmadan göndərdik” əvəzinə “səmanı göndərdik” təbiri ilahi lütfün nəhayətini bəyan edir.
8. Tarixdəki təbəddülat və hadisələrin amili xalqın əməlidir.
9. Xalqın öz günahına görə həlak olması ilahi qanunlardandır.
10. Allah axirət cəzasından əlavə, bu dünyada da cəza verir.
11. Salehlərin əlində imkan olsa, namazı bərpa edərlər.[4] İmkan azğınların əlində olduqda isə fəsad və günah rəvac tapır.
12. Maddi imkanlar ilahi əzabın qarşısını ala bilmir.[5]
13. Maddi imkanlar xoşbəxtlik əlaməti deyildir.[6]

---

[1] “Əqrəbul-Məvarid”.
[2] “Təfsire-əl-mizan”; “Təfsire-Kəbire-Fəxr Razi”.
[3] “Təfsire-Məcməül-bəyan”; “Hud” surəsinin 52-ci ayəsi ilə bağlı.
[4] “Həcc”, 41.
[5] “Səba”, 35.
[6] “Ələq”, 6-7.

14. İki növ ölüm var: Əcəlin çatması ilə həyata keçən təbii ölüm; ilahi cəza və gözlənilməz hadisələrdən ortaya çıxan qeyri-təbii ölüm.

15. Günahkar güclülər elə düşünməsinlər ki, dünya həmişə əllərində olacaqdır. Allah onların yerinə başqalarını gətirər.

7. ﴿وَلَوْ نَزَّلْنَا عَلَيْكَ كِتَابًا فِي قِرْطَاسٍ فَلَمَسُوهُ بِأَيْدِيهِمْ لَقَالَ الَّذِينَ كَفَرُواْ إِنْ هَذَا إِلاَّ سِحْرٌ مُّبِينٌ﴾

**“Əgər sənə kağız üzərində bir yazı göndərərdiksə, ona öz əlləri ilə toxunardılarsa, yenə də (daim bəhanə axtaran inadkar kafirlər) deyərdilər: “Bu, aşkar cadudan başqa bir şey deyildir.”**

## *Nöqtələr*

◘Müşriklərdən bir qrupu deyirdi: “Biz yalnız mələklər vasitəsi ilə kağız üzərində yazı nazil edilsə, ona iman gətirərik.” Amma onlar yalan deyirdilər və bəhanə axtarırdılar.

◘“Qirtas” üzərində yazı yazılan şeydir. Bu həm kağız, həm ağac, həm dəri, həm də daş ola bilər. Dövrümüzdə isə yalnız kağıza «qirtas» deyilir.

## *Bildirişlər*

1. İnadkarlıq olan yerdə bütün dəlillər faydasızdır. İnadkarlar hətta toxunub hiss etdiklərini belə inkar edirlər.

2. Müşriklərin peyğəmbərlərə münasibətdə ən məşhur ittihamları onları cadugər adlandırmaları idi.

8. ﴿وَقَالُواْ لَوْلا أُنزِلَ عَلَيْهِ مَلَكٌ وَلَوْ أَنزَلْنَا مَلَكًا لَّقُضِيَ الأمْرُ ثُمَّ لاَ يُنظَرُونَ﴾

**“(Bəhanəçi kafirlər) dedilər: (Əgər Məhəmməd peyğəmbərdirsə,) nə üçün ona bir mələk nazil olmayıb (ki, dəvətində ona köməkçi olsun.) “Hansı ki, əgər mələk nazil edərdiksə (yenə inadkarlıq göstərərdilər) və işləri bitərdi, onlara heç bir möhlət də verilməzdi.”**

## *Nöqtələr*

◘Kafirlərin istəyi əsasında mələk nazil olsaydı, o ya peyğəmbər sifətində, ya da öz həqiqi simasında olmalı idi. Onun həqiqi simasını görməyə isə kimsədə taqət yoxdur.[1]

◘Şeytani təkəbbür ruhiyyəsi insanı özü kimi bir bəşərə ardıcıllıqdan çəkindirir. Gah deyir ki, nə üçün peyğəmbərlər bizim kimi xörək yeyir, bazarlarda gəzir, bizim kimi geyinirlər?[2] Gah da bir-birlərinə deyirlər ki, əgər özünüz kimisinə itaət etsəniz ziyana düşmüşsünüz.[3]

---

[1] “Təfsire-Kəbire-Fəxr Razi”; “Təfsire-Nurus-səqələyn”.
[2] “Furqan”, 7.
[3] “Muminun”, 34.

## *Bildirişlər*

1. Bəhanəçi kafirlər insanı risalət məqamına layiq bilmir, mələk istəyirdilər.
2. İlahi sünnə, qanuna əsasən, xalqın istəyi əsasında möcüzə göndərilsə və həmin möcüzəni xalq inkar etsə, hökmən həlak olmalıdırlar.[1]

( Peyğəmbərlərin dəvəti azadlıq, təvəkkül, seçim və möhlət prinsiplərinə əsaslanır. Mələyin elçi olaraq göndərilməsi, səmadan süfrə nazil edilməsi kimi istəklər möhləti başa çatdırır və həmin məqamda yeganə yol qəbul etmək olur. Əks-təqdirdə bədbəxtçilik qaçılmazdır.)

**9.** ﴿وَلَوْ جَعَلْنَاهُ مَلَكًا لَّجَعَلْنَاهُ رَجُلاً وَلَلَبَسْنَا عَلَيْهِم مَّا يَلْبِسُونَ﴾

**“Əgər (peyğəmbəri) mələk qərar verərdiksə, hökmən onu bir kişi surətində gətirərdik. (Yenə də deyərdilər ki, bu bizim özümüzdəndir və öz şübhələrini təkrarlayardılar.) Həmin işi onlar üçün şübhəli (seçimli) etdik, necə ki, onlar (öz iradları ilə ) işi başqaları üçün şübhəli etmişdilər.”**

## *Nöqtələr*

◘“Ləbs” sözü pərdələmək, dolaşıq salmaq mənalarını bildirir. “Lubs” sözü isə libas geymək mənasındadır.[2]

◘Əgər insanlar üçün peyğəmbər və nümunə mələk olsa, bu mələk nəfs istəkləri tufanında çabalayan insanlara necə rəhbərlik edə bilər?

◘Ayə belə mənalandırıla bilər: Əgər peyğəmbər mələk olsa, bir kişi surətində zahir olmalıdır. Bu halda o, gözə görünər. Belə bir vəziyyətdə xalq təyin edə bilməz ki, o, insandır, yoxsa mələk.

## *Bildirişlər*

1. İlahi sünnələr, qanunlar hikmətə əsaslanır. Kiminsə istəyi ilə onlar dəyişilmir. “(Ləv”) belə bir məna verir ki, biz öz işimizi görürük və yersiz istəklərlə işimiz yoxdur.)
2. Xalqın tərbiyə və dəvəti üçün insan seçilməlidir ki, o bütün işlərdə nümunə və öncül olsun.
3. Peyğəmbərlər xalqın arasından seçilir.

**10.** ﴿وَلَقَدِ اسْتُهْزِىءَ بِرُسُلٍ مِّن قَبْلِكَ فَحَاقَ بِالَّذِينَ سَخِرُواْ مِنْهُم مَّا كَانُواْ بِهِ يَسْتَهْزِؤُونَ﴾

**“Şübhəsiz, peyğəmbərlərə səndən qabaq da istehza etdilər, istehza etdikləri əzab məsxərə edənlərə nazil oldu.”**

---
[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-nümunə”.

## *Nöqtələr*

◘Bu ayə İslam peyğəmbərinə bir təskinlikdir. Əvvəla, əvvəlki peyğəmbərlərə də istehza edilmişdir. İkincisi, istehza edənləri təkcə axirət əzabı yox, həm də dünyəvi əzab gözləyir.

## *Bildirişlər*

1. Başqalarının çətinlikləri barədə düşünmək insanın səbrini artırır. Müxaliflərin istehzaları din təbliğatçısını sarsıtmamalıdır.
2. Rəhbərlərin ruhiyyəsini zəiflətməkdə düşmənin psixoloji müharibələrindən biri də istehzadır. Düşmənlərin istehzasına müqavimət göstərilməlidir.
3. Məsxərə edənlər sonra zəlil olar və istehzaları onları öz ağuşuna alar.
4. Dinə istehza kəbirə günahlardan biridir. Bu günah müqabilində əzab vəd olunmuşdur.
5. Allah peyğəmbərlərin himayəçisidir və istehza edənləri məhv edir.
6. İstehza kafirlərin daimi üslubudur.

**11.** ﴿قُلْ سِيرُواْ فِي الأَرْضِ ثُمَّ انظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ﴾

**“(Ey peyğəmbər! Onlara) de ki, yer üzündə dolanın, sonra baxın ki, təkzib edənlərin aqibəti necə oldu?”**

## *Nöqtələr*

◘“Siru fil-ərz”, yəni “yer üzündə dolanın, gəzin” cümləsi Quranda altı dəfə işlədilmişdir. Təəssüf ki, kafirlər bu göstərişə bizdən öncə əməl etdilər və İslam ölkələrini qarış-qarış dolanıb onun təbii sərvətləri, güclü və zəif nöqtələri, mədəniyyət abidələri və əsərləri, dəyərli kitablarından xəbər tutdular. Bütün bu sərvətlər onlar tərəfindən qarət edildi. Müsəlmanlar isə hələ də qəflət yuxusundadırlar.

## *Bildirişlər*

1. Elm və bilik qazanmaq məqsəd ilə olan və ibrətamiz səfərlər bəyənilmişdir.
2. Haqqa qarşı çıxanların məğlubiyyəti və süqutu qətidir. Əgər şəkk edirsinizsə, onların tarixini oxuyun, səfərlərə çıxmaqla deyilənləri gözünüzlə görün və ibrət götürün.
3. Cəmiyyətin yüksəliş və ya süqut amilləri qanunauyğundur. Həqiqətin inkarı kimi amillər hansısa bir dövrdə insanların həlak olmasına səbəb olmuşsa, başqa dövrlərdə də uyğun nəticə ilə qarşılaşasıyıq.
4. Mədəniyyətlərin süqut amillərindən biri peyğəmbərlərin təkzibidir.
5. Ötəri görüntülər mühüm deyil, mühüm olan şey işin sonudur.

**12.** ﴿قُل لِّمَن مَّا فِي السَّمَاوَاتِ وَالأَرْضِ قُل لِلّهِ كَتَبَ عَلَى نَفْسِهِ الرَّحْمَةَ لَيَجْمَعَنَّكُمْ إِلَى يَوْمِ الْقِيَامَةِ لاَ رَيْبَ فِيهِ الَّذِينَ خَسِرُواْ أَنفُسَهُمْ فَهُمْ لاَ يُؤْمِنُونَ﴾

**“De ki, göylərdə və yerdə olan kimin üçündür? De ki, Allah üçündür. O, rəhməti göstərməyi Özü üçün vacib etmişdir. O hökmən sizi heç bir şübhə olmayan qiyamət günündə toplayacaq. Özünü uduzanlar (istedadlarını inkişaf əvəzinə süquta sərf edənlər) həqiqətən iman gətirmirlər.”**

## *Nöqtələr*

◘Allahın rəhməti özünə vacib etməsi mövzusu Quranda iki dəfə xatırlanmışdır.[1]

◘“La rəybə fihi”, yəni “heç bir şübhə yoxdur” cümləsi həm Quran, həm də qiyamət günü haqqında işlədilmişdir.

◘Allah bizim üçün vəzifələr müəyyənləşdirdiyi kimi, Özü üçün də vəzifə müəyyənləşdirmişdir. Məsələn, hidayət etmək[2], ruzi vermək[3], lütf etmək[4], Allah dininin qələbəsi[5]. Amma Allahın rəhmətinə çatmaq şərti Onun bəndələrinə rəhm etməkdir. Hədislərdə nəql olunur ki, rəhm etməyənə rəhm olunmaz.[6]

◘Salman Farsi nəql edir ki, həzrət Peyğəmbər (s) buyurdu: “Allahın rəhməti yüz dərəcədir. Onun bir dərəcəsi dünyadakı bütün ilahi lütflərin qaynağıdır. Allah qiyamət günü Öz rəhmətinin bütün yüz dərəcəsi ilə xalqla rəftar edəcək.”[7]

◘Quran ilahi rəhməti hər şeyə şamil edir.[8] Bu rəhmətin bir çox nümunələri vardır: yağış[9]; külək[10]; gecə-gündüz[11]; peyğəmbər[12]; Quran[13]; Tövrat[14]; azadlıq[15]; həyat yoldaşına meyl[16]; bitkilər və meyvələr[17]; tövbənin qəbulu.[18]

## *Bildirişlər*

1. Peyğəmbərə əmr olunmuş təbliğ üsullarından biri sual-cavabın tərtibidir.
2. Varlıq rəhmətə əsaslanır. İlahi rəhmət hər yeri və hər şeyi əhatə edir.
3. Allahın yaratdıqları, məsələn külək, yağış, gecə-gündüz, nəbatat rəhmət olduğu kimi, məad da rəhmətdir.
4. Qiyamətin bərpa olma dəlili xalqın ilahi rəhmətdən bəhrələnməsidir.
5. İlahi rəhmət nə qədər əhatəli olsa da, bəziləri özünü bundan məhrum edir.

---

[1] “Ənam”, 12, 54.
[2] “Ləyl”, 12.
[3] “Hud”, 6.
[4] “Ənam”, 12.
[5] “Mücadələ”, 31.
[6] “Kənzül-ümmal”, c. 3, s. 162; “Təfsire-Fi Zilalil Quran”.
[7] “Təfsire-Fi Zilalil Quran”.
[8] “Əraf”, 156.
[9] “Şura”, 28.
[10] “Əraf”, 57.
[11] “Qəsəs”, 73.
[12] “Ənbiya”, 107.
[13] “Casiyə”, 20.
[14] “Hud”, 17.
[15] “Əraf”, 72.
[16] “Rum”, 21.
[17] “Rum”, 50.
[18] “Zumər”, 53.

6. Dəlil-sübut əvəzinə nəfs istəkləri ardınca qaçmaq, Allahın övliyaları yerinə tağuta üz tutmaq, axirətə etiqad əvəzinə küfr etmək, nura təslim olmaq yerinə oda təslim olmaq kafirlərin böyük zərərlərindəndir.[1]

**13.** ﴿وَلَهُ مَا سَكَنَ فِي اللَّيْلِ وَالنَّهَارِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**“Gecə və gündüzdə qərarlaşan hər şey yalnız Ona aiddir. O, eşidən və biləndir.”**

## *Nöqtələr*

◘Gecə-gündüz beşik tək insan və digər mövcudları öz ağuşuna almışdır. Bəzi mövcudlar gecə, bəziləri isə gündüz istirahət edir.

## *Bildirişlər*

1. Həm bütün varlıq aləmi, həm də ona nəzarət Allaha məxsusdur.

**14.** ﴿قُلْ أَغَيْرَ اللهِ أَتَّخِذُ وَلِيًّا فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ وَهُوَ يُطْعِمُ وَلاَ يُطْعَمُ قُلْ إِنِّيَ أُمِرْتُ أَنْ أَكُونَ أَوَّلَ مَنْ أَسْلَمَ وَلاَ تَكُونَنَّ مِنَ الْمُشْرِكَينَ﴾

**“De ki, yoxsa Allahdan qeyrisini özünüzə rəhbər seçirsiniz? Halbuki O, göylərin və yerin yaradıcısıdır. Kimsə Ona yox, O hamıya təam verir. De ki, həqiqətən, mənə Onun əmrinə təslim olan ilk kəs olmaq əmr edilib. (Mənə deyilib ki,) heç vaxt müşriklərdən olma.”**

## *Nöqtələr*

◘Ayənin nazil olma şəni haqqında deyilir ki, Məkkə əhlindən bir qrupu Peyğəmbərə (s) dedi: “Sən fəqirlik səbəbindən bütlərə arxa çevirmisən. Biz sənin ehtiyaclarını ödəyərik, amma bizimlə müxalifətçilik etmə.” Ayə nazil oldu və həmin qrupa cavab verildi.

## *Bildirişlər*

1. Xalqın düşüncəsini oyatmaq məqsədi ilə peyğəmbərin təbliğ və hidayət üsullarından biri sual formasında dəlillərin bəyanıdır.
2. İnsan üzləşdiyi ehtiyaclar və məhdudiyyətlər səbəbindən fitri olaraq himayədar və sığınacaq sorağındadır. Əsas məsələ odur ki, insan bu məqsədlə kimə üz tutur?
3. Allah göyü və yeri ilkin nümunə olmadan yaratmışdır. “Fatir” ilkin yaradan mənasını bildirir.
4. Ehtiyacları ödəmək Allahın vilayət şənindəndir.
5. Allahdan savay bütün varlıqlar ehtiyaclıdır.
6. Allah bəşəriyyətin həm xaliqi, həm də ruzi vereni olduğundan, insan Ona tabe olub vilayətini qəbul etməlidir.

---

[1] Bütün ayəyə əsasən.

7. Peyğəmbərə öz əqidəsini izhar etmək əmr olunur.

8. Rəhbər ayinlərin icrasında ilk addım atmalı və ən yüksək ixlasa, təslimçiliyə malik olmalıdır.

9. Allahdan qeyrisinin vilayətini, hakimiyyətini qəbul etmək şirkdir.

**15.** ﴿قُلْ إِنِّي أَخَافُ إِنْ عَصَيْتُ رَبِّي عَذَابَ يَوْمٍ عَظِيمٍ﴾

**"De ki, Rəbbimə qarşı itaətsizlik etsəm, həqiqətən böyük günün əzabından qorxuram."**

## *Nöqtələr*

◘Xof, qorxu iki növdür: cihaddan qorxu kimi bəyənilməmiş qorxu; ilahi əzabdan qorxu kimi bəyənilmiş qorxu.

## *Bildirişlər*

1. İlahi qanunlar hamı üçün eynidir. Allahın peyğəmbəri də günaha yol versə, Onun bəlasından qorxmalıdır.

2. Allahın övliyaları tağutdan və xalqdan yox, Allahın qəzəbindən qorxurlar.

3. Allahın rübubiyyətinə diqqət insanın günahdan çəkinməsini tələb edir.

4. Cəza qorxusu büdrəmə və xatadan qoruyan amillərdəndir.

5. Allah rəsulunun qiyamət qorxusunu izhar etməsi başqalarının tərbiyəsində müsbət rola malikdir.

6. Başqalarını həvəsləndirib onlara vəd edərkən qiyamət hesabı inancından istifadə edin. (Əvvəlki ayənin nazilolma şənində bildirildi ki, peyğəmbərə öz dəvətindən əl çəkmək təklif olundu. Ona deyilirdi ki, əgər öz təbliğindən əl götürsə, ehtiyacları ödənilər. Amma peyğəmbər belə buyurdu: "Mən qiyamətdən qorxuram.")

**16.** ﴿مَّن يُصْرَفْ عَنْهُ يَوْمَئِذٍ فَقَدْ رَحِمَهُ وَذَلِكَ الْفَوْزُ الْمُبِينُ﴾

**"Həmin gün hər kəsdən ilahi əzab uzaqlaşdırılsa, şübhəsiz, ilahi rəhmətə çatmışdır və budur aşkar qurtuluş."**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Həyatım əlində olan Allaha and olsun, qiyamətdə kimsə öz əməlinə görə behiştə getməz." Soruşdular: "Sizdəmi, ya rəsuləllah?" Həzrət buyurdu: "Allahın fəzl və rəhməti yetişməsə, hətta mən də!" Sonra mübarək əllərini başının üzərinə aparıb bu ayəni tilavət etdi."[1] Şübhəsiz ki, yalnız saleh əməllər və xeyirxah fərdlər ilahi rəhmətə nail olur.

## *Bildirişlər*

1. Hamı üçün təhlükə var. İlahi əzabdan yalnız xüsusi lütf sayəsində qurtulmaq olar.

---

[1] "Təfsire-Məcməül-bəyan"; "Təfsire-Nurus-səqəleyn".

2. Allaha təslimçilik ilahi rəhmətə çatmaq zəminəsidir.

3. Allahın qəhr-qəzəbini yalnız Onun rəhmi aradan qaldıra bilər. Əməllərimizin qəbulu və övliyaların şəfaəti ilahi rəhmət təzahürlərindəndir.

**17.** ﴿وَإِن يَمْسَسْكَ اللّهُ بِضُرٍّ فَلاَ كَاشِفَ لَهُ إِلاَّ هُوَ وَإِن يَمْسَسْكَ بِخَيْرٍ فَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Əgər Allah (sınaq, inkişaf və ya əməllərinin cəzası üçün) səni zərər-ziyanla üzləşdirsə, Özündən savay kimsə onu aradan qaldıra bilməz. Əgər sənə bir xeyir yetişsə, Onun hər şeyə gücü çatar.”**

## *Bildirişlər*

1. Bütün işlər bir mənbədən qidalanır. Xeyirin bir, şərin başqa bir mənbəsi yoxdur.

2. Bütün ümidlər Allaha bağlanmalı və bütün qorxular Ondan olmalıdır.

3. İlahi qanunlarda istisna yoxdur. Həzrət Peyğəmbər (s) də acı-şirin hadisələrdə diqqətini Allaha yönəltməlidir.

**18.** ﴿وَهُوَ الْقَاهِرُ فَوْقَ عِبَادِهِ وَهُوَ الْحَكِيمُ الْخَبِيرُ﴾

**“Odur Öz bəndələrinə qalib və hakim olan. Odur hikmət sahibi və agah.”**

## *Nöqtələr*

◘Elə bir qələbə növü “qəhr” adlanır ki, qəhrə gələn qahir qarşısında zəlil olsun.

◘On dördüncü ayədə Allahın vilayət və ruzi verməsi bəyan olundu. 15-ci ayədə isə Allahın qəhr və qiyamətindən danışıldı. 16-cı ayədə ilahi qurtuluş və rəhmətə işarə edildi, 17-ci ayədə müşküllərin həlli və xeyirə çatmaq barədə danışıldı. Bu ayədə isə Allahın mütləq qüdrəti bəyan olunur.

## *Bildirişlər*

1. Kimsədən qorxmayaq. Allahın qüdrəti bütün qüdrətlərin fövqündədir.

2. Allahın qüdrət və qəhri hikmət və elmlə müşayiət olunur.

3. Allahın xeyir və ya zərər yetirməsi onun hikmət və agahlığına əsaslanır.

**19.** ﴿قُلْ أَيُّ شَيْءٍ أَكْبَرُ شَهَادةً قُلِ اللّهِ شَهِيدٌ بِيْنِي وَبَيْنَكُمْ وَأُوحِيَ إِلَيَّ هَذَا الْقُرْآنُ لأُنذِرَكُم بِهِ وَمَن بَلَغَ أَئِنَّكُمْ لَتَشْهَدُونَ أَنَّ مَعَ اللّهِ آلِهَةً أُخْرَى قُل لاَّ أَشْهَدُ قُلْ إِنَّمَا هُوَ إِلَهٌ وَاحِدٌ وَإِنَّنِي بَرِيءٌ مِّمَّا تُشْرِكُونَ﴾

**“De ki, şahidliyə hansı mövcud daha üstün və daha böyükdür? De ki, Allah mənimlə sizin aranızda şahiddir. Bu Quran mənə vəhy olub ki, onunla sizə və bu**

**bildirişin çatdığı hər bir kəsə xəbərdarlıq edəm. Siz şahid durursunuzmu ki, Allahla yanaşı başqa məbudlar da var? De ki, mən şəhadət vermirəm. De ki, həqiqətən, O, bir olan Allahdır və şübhəsiz, mən sizin şərik qoşduqlarınızdan uzağam.”**

## *Nöqtələr*

◘Məkkə müşrikləri İslam peyğəmbərindən öz risaləti üçün şahid tələb edirdilər. Onlar həzrətin peyğəmbərliyini qəbul etmir və deyirdilər: “Hətta yəhudi və məsihilər səni peyğəmbər bilmir. Bu ayə İslamın qəriblik dövründə onun parlaq gələcəyi və bəşəri missiyasından xəbər verir.

◘Həzrət Əli (ə) “həqiqətən O, bir olan Allahdır” cümləsi haqqında buyurmuşdur: “Əgər başqa məbudlar olsaydı, onlar da öz peyğəmbərlərini göndərərdilər.”[1]

◘Həzrət Peyğəmbərin (s) yanına bir dəstə əsir gətirdilər. Həzrət onlardan soruşdu: “Bu vaxtadak İslama dəvət olunmusunuzmu?” Əsirlər dəvət olunmadıqlarını bildirdilər. Həzrət buyurdu: “Bu insanları əmin-aman bir məhəllə çatdırıb azad edin. Çünki İslamın nidasını eşitməmiş kəs əsir götürülməməlidir.” Sonra həzrət həmin ayəni oxudu.[2]

◘İmam Sadiq (ə) buyurmuşdur: «Daimi qorxutma olan yerdə daimi qorxudan da olmalıdır. İlahi imamət və rəhbərlik də əbədi olaraq Quranla birlikdə olmalıdır.»[3]

◘İnsanlarda zərərdən qaçmaq istəyi mənfəət qazanmaq istəyindən güclüdür. Ona görə də Quranda qorxutma məsələsi daha ciddi vurğulanmışdır.[4]

Çoxsaylı hədislərdə ayədəki “mən bələğə” təbirinin məsum imamlara aid olduğu bildirilir.[5] İmam Sadiq (ə) “mən bələğə” təbiri haqqında buyurmuşdur: “Ayədə imamət vəzifəsini qəbul etmiş kəs nəzərdə tutulur. Bu şəxs peyğəmbər kimi xalqı Quranla qorxudur.”[6]

## *Bildirişlər*

1. İslam peyğəmbərinin doğruçuluğunun sübutu üçün Allahın şahid olması yetər.
2. Həqiqətlərin sual-cavab şəklində bəyanı Quranın təbliğ üsullarındandır.
3. Qəflət, səhv, unutqanlıq, məhdudiyyət insanın məlumat əldə etmək və şahid olmaq qüdrətini əskildir. Allahda bu sifətlər olmadığından O ən böyük şahiddir.
4. İslam peyğəmbərinin risalətinin ən böyük şahidi Qurandır.
5. Qafil xalqa qorxutma ilə müşayiət olunan müraciət daha təsirlidir.
6. Həzrət Məhəmmədin (ə) risaləti ümumbəşəri, əbədi və bütün xalqlar və dövrlər üçün nəzərdə tutulmuş risalətdir.
7. Nə qədər ki, bir qanun xalqa bəyan olunmayıb, məzəmmət və tələb etmək olmaz. Üsul elmi terminologiyasında bu hal “bəyansız cəza qəbihdir” kimi ifadə olunur.

---

[1] “Nəhcül-bəlağə”, “Nəhcül-bəlağə”, 31.
[2] “Təfsire-Dürrül-Mənsur”.
[3] “Təfsire-Safi”.
[4] “Fatir”, 23; “Ənkəbut”, 50.
[5] “Təfsire-Əyyaşi”.
[6] “Kafi”, c. 1, s.416.

8. Əqidə məktəbinə iman, gələcəyə ümid, möhkəmlik, şirklə mübarizə səmavi rəhbərlik şərtlərindəndir.

**20.** ﴿الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْرِفُونَهُ كَمَا يَعْرِفُونَ أَبْنَاءهُمُ الَّذِينَ خَسِرُواْ أَنفُسَهُمْ فَهُمْ لاَ يُؤْمِنُونَ﴾

**"Kitab verdiyimiz kəslər Məhəmmədi (s) öz övladları tək tanıyırlar. (Əvvəlki peyğəmbər və kitabların Məhəmməd (s) haqqında dediklərini bilirlər.) Özünə zərər vuran kəslər iman gətirməzlər."**

## *Nöqtələr*

◘Bu ayə "Bəqərə" surəsinin 146-cı ayəsinə oxşayır.

◘Tövrat və İncildə həm İslam peyğəmbərinin əlamətləri, həm də onun və ətrafındakıların əxlaqına işarə olunmuşdur.[1]

◘Ən yaxşı tanıma insanın öz övladını tanımasıdır. Çünki insan öz övladını anadan olduğu gündən izləyir. Amma ata-ana, bacı-qardaş və həyat yoldaşını övlad qədər tanımaq olmur. Ona görə də ayədə "onlar peyğəmbəri öz övladları kimi tanıyırdılar"- deyə buyurulur.

## *Bildirişlər*

1. Allah kitab əhlinə höccəti tamam etdi, dəlillər gətirdi, bəhanələri kəsdi. Onlar İslam peyğəmbərini çox yaxşı tanıyırdılar.
2. Peyğəmbər çox yaxşı tanınmalıdır və onun doğruçuluğuna heç bir şübhə qalmamalıdır.
3. İnsanın qurtuluşu yalnız tanışlıq və elmdən asılı deyil. Bir çox allahşünaslar, peyğəmbərşünaslar və dinşünaslar öz inadkarlıqları səbəbindən ziyana düşdülər.
4. Haqqın gizlədilməsi insanı pis aqibətə düçar edir.

**21.** ﴿وَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللّهِ كَذِبًا أَوْ كَذَّبَ بِآيَاتِهِ إِنَّهُ لاَ يُفْلِحُ الظَّالِمُونَ﴾

**"Allaha iftira yaxan və ilahi ayələri təkzib edəndən də zalım olan kimdir? Həqiqətən, zalımlar nicat tapmazlar."**

## *Nöqtələr*

◘Quranda "kimdir daha zalım?" təbiri on beş dəfə işlədilmişdir. Belə bir müraciət Allaha iftira yaxanlara, xalqı məsciddən uzaqlaşdıranlara, şəhadət və haqqı gizlədənlərə ünvanlanmışdır. Aydın olur ki, əqidə zülmü, xalqı təkamüldən uzaqlaşdırmaq cəmiyyətə ən böyük zülmdür.

---

[1] "Fəth", 29.

## *Bildirişlər*

1. Daha əziz və daha müqəddəs bir şeyə qarşı zülm daha ağır zülmdür. Ona görə də Allaha zülm, Onun müqəddəs zatına iftira zülmlərin ən böyüyü sayılır.

2. İnsanların düşüncə və mədəniyyətinə zülm ən pis zülmlərdəndir. Bu sayaq zülmə nümunə olaraq Allaha şərik qoşulmasını, Allaha iftira yaxılmasını, yalandan peyğəmbərlik iddiasını, bidəti, rəy əsasında təfsiri göstərmək olar.

22. ﴿وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا ثُمَّ نَقُولُ لِلَّذِينَ أَشْرَكُواْ أَيْنَ شُرَكَآؤُكُمُ الَّذِينَ كُنتُمْ تَزْعُمُونَ﴾

**“Bir gün onları birlikdə hüzura gətirər (məhşur edər), sonra şərik qoşanlara deyərik: “Özünüz üçün (Allah) zənn etdiyiniz şərikləriniz haradadır?”**

## *Nöqtələr*

◘Müşriklərin qiyamət günü zəlilcəsinə dil çıxararaq yalvarması onların məhrumluq nişanəsidir. Bu məhrumiyyətə əvvəlki ayədə işarə olunmuşdur.

◘Ayədə şirk nəzərdə tutulsa da, Allahın övliyalarından qeyrilərini rəhbərliyə seçənlər və məsum övliyalarla müxalifətə qalxanlar da bir növ müşrik sayılırlar. Bu məsələyə “camieyi-kəbirə” ziyarətində də toxunulur.[1] Hədisdə deyilir: “Bizim sözümüzü və yolumuzu inkar edənlər Allahın sözünü inkar edənlər kimidir və belə bir şəxs müşrik yerindədir.”[2]

## *Bildirişlər*

1. Qiyamət mühakiməsi açıq-aşkardır.
2. Hər bir əqidə, eşq və pərəstişdən qabaq qiyamət gününün sorğusuna hazır olaq.
3. Qiyamət günü hətta müşriklər üçün də tövhidin haqq olaraq zühur günüdür.
4. Şirk puç xəyaldan başqa bir şey deyildir.

23. ﴿ثُمَّ لَمْ تَكُن فِتْنَتُهُمْ إِلاَّ أَن قَالُواْ وَاللّهِ رَبِّنَا مَا كُنَّا مُشْرِكِينَ﴾

**“(Bütlərə aldanışlardan sonra Allah hüzurunda) bir üzr tapmazlar. Yalnız bunu deyərlər: “And olsun Allaha! Ey Rəbbimiz, biz heç vaxt müşrik olmamışıq.”**

24. ﴿انظُرْ كَيْفَ كَذَبُواْ عَلَى أَنفُسِهِمْ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ﴾

**“Bax ki, öz əleyhlərinə necə yalan dedilər? (Düzəltdikləri bütlər və şəriklər məhv oldu.) Yalan və iftira olaraq Allaha aid etdikləri əllərindən çıxdı.”**

---

[1] “Məfatihul-cinan”.
[2] “Kafi”, c. 1, s. 67.

## *Nöqtələr*

◘İmam Sadiq (ə) buyurmuşdur: “Ləm təkun fitnətuhum” təbirindəki “fitnə” müşriklərin üzrxahlığına işarədir.”[1]

◘«Zəlləş-şəy» bir şeyin məhv olmasını bildirir.[2]

◘Yalançılar dünyada qazandıqları xasiyyətlərin tələbi ilə qiyamətdə də yalan deyirlər.[3]

◘Həzrət Əli (ə) bu ayə ilə bağlı buyurur: “Bu yalandan sonra onların dodaqlarına möhür vurular və digər əzaları haqqı təkrarlayar.”[4]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Allah qiyamət günü kimsənin ağlına gəlməyəcək şəkildə bağışlayar. Hətta müşriklər də deyər: “Biz müşrik olmamışıq.” (Bununla bağışlama diləyərlər.)[5]

## *Bildirişlər*

1. Qiyamət o qədər qətidir ki, sanki indi də vardır. Peyğəmbər (s) bu dünyada da bəsirət gözü ilə qiyamət səhnələrinə şahid ola bilər.
2. Qeyri-ilahi istinadgahlar məhv olacaqdır.
3. İlahi məhkəmədə insanın yalanları və andları səmərəsizdir.
4. Qeyri-ilahi istinadgahlara bir bu qədər israr boş xəyaldan başqa bir şey deyildir.

25. ﴿وَمِنْهُم مَّن يَسْتَمِعُ إِلَيْكَ وَجَعَلْنَا عَلَى قُلُوبِهِمْ أَكِنَّةً أَن يَفْقَهُوهُ وَفِي آذَانِهِمْ وَقْرًا وَإِن يَرَوْاْ كُلَّ
آيَةٍ لاَّ يُؤْمِنُواْ بِهَا حَتَّى إِذَا جَآؤُوكَ يُجَادِلُونَكَ يَقُولُ الَّذِينَ كَفَرُواْ إِنْ هَذَآ إِلاَّ أَسَاطِيرُ الأَوَّلِينَ﴾

**“Onlardan bəziləri sənin sözünə qulaq asılar. Həmin sözü anlamamaları üçün onların qəlblərinə pərdə çəkmişik. Onların qulaqlarında (haqqa münasibətdə) ağırlıq qərar verdik. Onlar o qədər inadkardırlar ki, istənilən bir ayə və möcüzə görsələr, yenə də iman gətirməzlər. Bir həddə ki, yanına gəldikdə səninlə mübahisə edərlər. Kafir olanlar deyərlər: “Bu, qədimkilərə aid əfsanələrdən başqa bir şey deyildir.”**

## *Nöqtələr*

◘Bu ayənin nazilolma şəni haqqında deyilir ki, Əbu-Sufyan, Vəlid ibn Muğeyrə, Utbə, Şeybə və Nəzr ibn Haris Kəbə kənarında peyğəmbərin Quran tilavətini dinləyirdilər. Onlar Nəzrə dedilər: “Nə oxuyur?” Nəzr dedi: “And olsun Kəbənin Allahına ki, oxuduğunu anlamıram, amma bu, qədimkilərin əfsanələrindən başqa bir şey deyil. Mən bu dastanların oxşarını sizə danışmışam.” Sonra bu ayə nazil oldu.

◘“Əkinnə” pərdə mənasını bildirir. “Vəqr” ağırlıq, “əsatir” dinlənilməsi cazibəli olan ardıcıl və xəyali mətləblərdir.

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Lisanul-ərəb”.
[3] “Mücadələ”, 18.
[4] “Təfsire-Kənzud-dəqaiq”.
[5] “Təfsire-Əyyaşi”.

◘Qəlbə pərdə çəkilməsi və qulaqların ağırlaşdırılması müşriklərdəki inadkarlıq ruhiyyəsinə əsaslanır.[1]

◘Əvvəlki ayədə söhbət müşriklərdən getsə də, bu ayədəki "əlləzinə kəfəru" təbirindən müşriklərin həmin kafirlər olduğu məlum olur.

## *Bildirişlər*

1. Peyğəmbərlər və ilahi rəhbərlər kafirlərin və müxaliflərin, eləcə də, onların tərəfdarlarının ruhiyyələrindən xəbərdar olmalıdırlar.
2. Bütün kafirlərdən əlinizi üzməyin, onların bəziləri inadkardır.
3. Quran dinləmək qəlbə təsir göstərdikdə dəyərli olur.
4. Kafirlər öz inkarları üzərində möhkəm dayanmışlar. Elə bu səbəbdən də Allah onların qəlbinə pərdə çəkir.
5. İnadkarlıq dərmansız dərddir. O, dalğalı güzgü tək ən gözəl surətləri çirkin göstərir.
6. Əgər bir insan mübahisə, bədgümanlıq, mənfi bir ruhiyyə ilə hətta peyğəmbərlə görüşsə belə, bəhrəsiz qalacaq.
7. Peyğəmbərlərə münasibətdə kafirlərin heç bir düzgün və məntiqi müddəaları olmamışdır. Onlar məntiqsizlik və haqsızlıq səbəbindən höcətləşmə və böhtana əl atmışlar.
8. Quran kafirlər və müşriklər üçün də cazibədardır. («Əsatir» gözəl söhbət mənasını bildirir.)

**26.** ﴿وَهُمْ يَنْهَوْنَ عَنْهُ وَيَنْأَوْنَ عَنْهُ وَإِن يُهْلِكُونَ إِلاَّ أَنفُسَهُمْ وَمَا يَشْعُرُونَ﴾

**"Onlar xalqı (peyğəmbər və Qurandan) ayırırlar. Özləri də ondan uzaq və məhrum qalırlar. (Amma bilsinlər ki,) yalnız özlərini həlak edirlər və anlamırlar."**

## *Nöqtələr*

◘"Yənəvnə" uzaqlaşdırmaq mənasını bildirir.

◘Bəzi sünni alimləri bu ayənin Əbu-Talib haqqında olduğunu bildirirlər. Deyirlər ki, Əbu-Talib xalqı peyğəmbərə əziyyət verməyə qoymurdu. Amma özü də iman gətirmir və müsəlmanlıqdan kənar gəzirdi. Bəzi digər ayələrin də bu mövzuda olduğu bildirilir.[2] Amma Əhli-beyt (ə) məktəbi ardıcıllarının nəzərincə Əbu-Talib ən üstün müsəlmanlardan olmuşdur. Həzrət Əlinin (ə) atası Əbu-Talibin müsəlman olmasının bir çox dəlilləri vardır. Onlardan bəzilərinə işarə edirik:

1. Həzrət Peyğəmbər (s) və Əhli-beytin (ə) uyğun mövzudakı buyruqları Əbu-Talibin iman gətirməsinin ən üstün dəlillərindəndir.
2. Əbu-Talib ən çətin şəraitlərdə həzrət Peyğəmbəri (s) himayə etmişdir.
3. Əbu-Talib öz şerlərində peyğəmbərə yaxınlığı və Allahla rabitəsini açıqlayır.
4. Əbu-Talib öz arvadına, övladına və qardaşı Həmzəyə tapşırır ki, İslamdan, namazdan və peyğəmbərdən muğayat olsunlar.

---

[1] "Səff", 5.

[2] Məsələn "Tövbə", 113; "Qəsəs", 56.

5. Həzrət Peyğəmbər s) Əbu-Talibin ölümü zamanı çox pərişan olur.

6. Əbu-Bəkr və Abbas şəhadət vermişlər ki, Əbu-Talib ölən zaman "La ilahə illəllah və Məhəmmədən rəsulullah" kəlmələrini söyləmişdir.

7. Həzrət Peyğəmbər (s) minbərdən Əbu-Talibə dua etmiş, onun cənazəsini dəfn etmiş, həzrət Əliyə Əbu-Talibi kəfənləmək göstərişi vermişdir. Həmin vaxt meyit namazı hökm olunmadığı üçün bu namaz qılınmamışdır. Qeyd etməliyik ki, Xədicə də vəfat edəndə meyit namazı qılınmadı.

8. Həzrət Əli (ə) Müaviyəyə yazdığı məktubda bildirir ki, mənim atam Əbu-Taliblə sənin atan Əbu-Süfyan arasında böyük fərq var.

9. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Mən qiyamət günü atam, anam və əmim Əbu-Talibin şəfaətçisiyəm.

10. Hədisdə oxuyuruq ki, Allah Öz rəsuluna belə vəhy etdi: "Sənin ata-anana və himayəçinə od haramdır."

11. Həzrət Əlinin (ə) anası Fatimə binti Əsədin müsəlman olmasında heç bir şəkk-şübhə yoxdur. Əgər Əbu-Talib müsəlman olmasaydı, həzrət Peyğəmbər (s) Fatimənin onda ərdə qalmasına icazə verməzdi.[1]

## *Bildirişlər*

1. Kafirlər və müşriklər daim pozuculuq fəaliyyəti ilə məşğul olmuş və xalqı Qurandan ayırmağa çalışmışlar.

2. Haqqı qəbul etməmək insanın özünü fəlakətə salma səbəbidir.

3. Gerçək düşüncə haqqı tapmaqdır. Haqq yol və haqq rəhbəri itirmək istənilən bir şəxs tərəfindən şüursuzluqdur.

27. ﴿وَلَوْ تَرَى إِذْ وُقِفُواْ عَلَى النَّارِ فَقَالُواْ يَا لَيْتَنَا نُرَدُّ وَلاَ نُكَذِّبَ بِآيَاتِ رَبِّنَا وَنَكُونَ مِنَ الْمُؤْمِنِينَ﴾

**"Əgər onları od ağzında saxlanılan vaxt görsəydin, (eşidərdin ki,) deyirlər: "Kaş ki, yenidən dünyaya qaytarılaydıq, Rəbbimizin ayələrini təkzib etməyəydik və möminlərdən olaydıq."**

## *Nöqtələr*

◘Quran ayələrinə əsasən, onlar həm ölüm astanasında, həm qəbirdə, həm də qiyamətdə dünyaya qayıtmağı arzulayarlar.[2]

◘23-cü ayədə müşriklər öz şirklərini inkar edirdilər. Amma bu ayədə onlar etiraf edir, dünyaya qayıdıb öz günahlarını yumaq istəyirlər.

## *Bildirişlər*

1. Kafirlər oda çəkilən zaman dəhşətə düşüb zillət içində nalə çəkirlər. Qiyamətin müxtəlif mərhələləri və dayanacaqları var. Bəzi mərhələlərdə günahkarlar nalə çəkir, bəzi dayanacaqlarda onların ağızlarına sükut möhürü vurulur.

---

[1] "Əl-Ğədir", c. 7,8; "Əssəhih Minəs-sirə", c. 1, s. 134-142.

[2] "Muminun", 100; "Muminun", 107.

2. İlahi ayələrin inkarı axirətdə peşmançılığa səbəb olur.

3. Nə qədər ki, dünyada fürsət var, iman gətirək. Çünki axirətdən geri qayıtmağa macal yoxdur. Qiyamətdə dünyaya qayıdıb iman gətirmək və itaət etmək arzusu kafirlərin arzularındandır.

**28.** ﴿بَلْ بَدَا لَهُم مَّا كَانُواْ يُخْفُونَ مِن قَبْلُ وَلَوْ رُدُّواْ لَعَادُواْ لِمَا نُهُواْ عَنْهُ وَإِنَّهُمْ لَكَاذِبُونَ﴾

**"(Belə deyil,) əksinə, əvvəllər gizlədikləri (həmin gün) onlar üçün aşkar olub. Əgər onlar (öz arzularına əsasən) dünyaya qaytarılsalar, şübhəsiz, yenə də qadağan olunanlara qayıdarlar. Onlar həqiqətən yalançıdırlar."**

## *Nöqtələr*

◘Qiyamət günü xalqın gizli sirlərinin aşkar olduğu gündür. Quran bu həqiqətə dəfələrlə işarə etmişdir.[1]

## *Bildirişlər*

1. Qiyamətdə insanların bütün sirləri və gizli işləri açılar.

2. Axirətdən dünyaya qayıtmaq mahaldır (mümkünsüzdür).

3. Bəzilərinin islah olacağına heç bir ümid yoxdur. Onlara fürsət verildikdə yenə də əvvəlki halda qalırlar.

(Bəli, insan dünyada hər dəfə çətinliklərlə qarşılaşdıqda peşman olur, amma rahatlığa çıxan kimi verdiyi sözləri unudur.)

4. Yalançılıq insanda xasiyyətə çevrildikdə, o, qiyamətdə də yalan danışır. 23-cü ayədə bu məsələyə işarə olundu.

**29.** ﴿وَقَالُواْ إِنْ هِيَ إِلاَّ حَيَاتُنَا الدُّنْيَا وَمَا نَحْنُ بِمَبْعُوثِينَ﴾

**"Onlar dedilər: "Bizim dünya həyatımızdan başqa heç bir həyat yoxdur və biz (öləndən sonra) dirildilməyəcəyik."**

**30.** ﴿وَلَوْ تَرَى إِذْ وُقِفُواْ عَلَى رَبِّهِمْ قَالَ أَلَيْسَ هَذَا بِالْحَقِّ قَالُواْ بَلَى وَرَبِّنَا قَالَ فَذُوقُواْ العَذَابَ بِمَا كُنتُمْ تَكْفُرُونَ﴾

**"Əgər görsən ki, onlar Rəblərinin hüzurunda saxlandıqları vaxt (Allah) buyurar: "Bu (qiyamət), haqq deyilmi?" Deyərlər: "Bəli, and olsun Rəbbimizə (ki, haqdır)." O buyurar: "Belədirsə, öz küfrlərinizin cəzası olaraq əzabı dadın."**

## *Nöqtələr*

◘"Əgər görsən" təbiri 27 və 30-cu ayələrdə iki dəfə təkrarlanmışdır. Burada məqsəd qiyamət səhnəsini təsvir etmək və xalqın hidayəti üçün addım atmaqdır.

[1] "Casiyə", 33; "Zumər", 48.

◘30-cu ayəyə əsasən, Allah günahkar bəndəsi ilə danışır. Amma bəzi ayələr bu danışığı inkar edir. Bu fərqi doğuran ya qiyamətin müxtəlif dayanacaqları və səhnələridir, ya da söhbətin ürəkaçan olmaması nəzərdə tutulur.

◘22-ci ayədə Allah kafirləri tövhid inancına qarşı çıxdıqları üçün məzəmmət edir. 27-ci ayədə isə nübüvvətin təkzibinə görə cəza vəd edilir. 30-cu ayədə qiyamətin inkarı önə çəkilir.

◘İslam insanlar üçün bir neçə növ həyat təsvir edir: dünya həyatı[1]; bərzəx həyatı[2]; mənəvi həyat, hidayət həyatı[3]; ictimai həyat[4]; (aram və qane qəlb sayəsində) pak həyat.[5]

## *Bildirişlər*

1. Müşriklər darbaxışlı və maddiyyatçı fərdlərdir. Onlar həyatın yalnız dünya həyatından ibarət olduğunu düşünürlər və qiyaməti inkar edirlər. Müşriklər bütləri şəfaətçi seçərkən dünya şəfaətini nəzərdə tuturlar.[6]
2. Allah bütün inadkarlıqların cavabsız qalmayacağını bildirməklə peyğəmbərə təsəlli verir.
3. Günahkarlar zəlil əsirlər tək tutular və saxlanılarlar.
4. Qiyamətdə ilkin dərəcədə hakim və sorğuçu Allahdır.
5. Kafirlərin və müşriklərin qiyamətdəki etirafları səmərəsizdir.
6. Kafirlər qiyamətdə təkrar-təkrar and içərlər.
7. Qiyamət cəzaları dünyadakı küfr və inkarlara xatirdir.

**31.** ﴿قَدْ خَسِرَ الَّذِينَ كَذَّبُواْ بِلِقَاء اللّهِ حَتَّى إِذَا جَاءتْهُمُ السَّاعَةُ بَغْتَةً قَالُواْ يَا حَسْرَتَنَا عَلَى مَا فَرَّطْنَا فِيهَا وَهُمْ يَحْمِلُونَ أَوْزَارَهُمْ عَلَى ظُهُورِهِمْ أَلاَ سَاء مَا يَزِرُونَ﴾

**“Sözsüz, (qiyamətdə) Allahla görüşü təkzib edənlər ziyankar oldular. Vəd olunmuş saat qəfildən soraqlarına gələn kimi, öz günahlarının ağır yükünü arxalarında çəkdikləri halda deyərlər: “Dünyada yol verdiyimiz nöqsanlara görə vay halımıza!” Agah olun ki, çiyinlərində çəkdikləri yük necə də pis yükdür.”**

## *Nöqtələr*

◘“Liqaullah” dedikdə qiyamətdəki mənəvi və batini görüş nəzərdə tutulur. Çünki qiyamətdə insanın bütün dünyəvi bağlılıqları qırılır. İnsan ilahi mükafat və cəza ilə üzbəüz dayanmaqla Allahın mütləq hakimiyyətini dərk edir.

◘Həsrətin səbəbi mənafelərin əldən çıxması, peşmançılığın səbəbi qarşıya çıxmış zərərlərdir.[7]

---

[1] “Taha”, 131.
[2] “Muminun”, 100.
[3] “Ənfal”, 24.
[4] “Bəqərə”, 179.
[5] “Nəhl”, 97.
[6] “Yunus”, 18; “Təfsire-Əl-mizan”.
[7] “Təfsire-Ətyəbul-bəyan”.

◘Qiyaməti “saat” da adlandırmışlar. Çünki bu səhnə şimşəksayaq bir saat və anda qurular. “Nəhl” surəsinin 77-ci ayəsində buyurulur: “Qiyamət bir göz qırpımında və ya ondan da yaxın müddətdə qurular.”

◘Həzrət Peyğəmbərdən (s) nəql olunmuş bir hədisdə deyilir: “Od əhli behiştdəki yerini görüb (Allah hər kəsə behiştdə ayırdığı yeri göstərər) anlayar ki, ağır ziyana düşmüşdür və həsrət çəkər.”[1]

## *Bildirişlər*

1. Qiyaməti qəbul etməyən şəxs varlığını fani dünya həyatına dəyişmiş və ən böyük ziyana düşmüşdür.
2. Qiyamət qəfildən bərpa olar və kimsə onun vaxtından xəbər tutmaz. Ona görə də hər an hazır olmaq lazımdır.
3. Qiyamət günü həsrət günüdür.
4. İnsanın etiraf və həsrət çəkməsi onun əməldə azad olduğunu göstərir. İnsan yaxşı əməl edə bilərdi, amma etmədi.
5. Qiyamət həsrət və əfsus günüdür. Amma həmin günün təəssüfləri səmərəsizdir.
6. Günahlar qiyamət günü üzə çıxıb insana yük olar.
7. Qiyamətin təkzibi və ya unudulması qiyamət günü insan üçün bəlaya dönən günahların səbəbidir.

**32.** ﴿وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلاَّ لَعِبٌ وَلَهْوٌ وَلَلدَّارُ الآخِرَةُ خَيْرٌ لِّلَّذِينَ يَتَّقُونَ أَفَلاَ تَعْقِلُونَ﴾

**“Dünya həyatı oyun-oyuncaqdan başqa bir şey deyil. Təqva yolunu tutanlar üçün isə, əlbəttə ki, axirət evi üstündür. Yoxsa düşünmürsünüz?”**

## *Nöqtələr*

◘Əgər dünya həyatı axirət üçün əkinəcək olmasa oyuncaq olar. Uşaqlar oyuncaqla başlarını qatdıqları kimi, xalq da dünya malına aludə olub ömrünü əldən verər. Məsələn, teatr səhnəsində biri şah, digəri vəzir, o biri isə nökər libası geyir. Bir saatdan sonra isə hamı libasını soyunur və əvvəlki halına qayıdır. Açıq-aşkar görünür ki, bu bir saat ərzindəki məqamlar xəyali bir məqam imiş.

◘Axirətin dünyadan üstünlük nişanələri sırasında ondakı ləzzətlərin əziyyətlə birgə olmaması və davamlılığıdır.

◘Quranın əvvəlki ayələrini nəzərə almaqla bu ayəni tərki-dünyalığa dəvət kimi qəbul etməməliyik.

◘“Ləb” dedikdə yanlış məqsədli iş başa düşülür. “Ləhv” isə insanı mühüm işlərdən ayıran işdir.[2]

◘Dünya bir neçə baxımdan oyun-oyuncağa oxşayır: dünyanın da ömrü oyunun ömrü kimi qısadır; dünya da oyun kimi yorucudur və acı-şirinliyi var; məqsədsiz qafillər oyunu özlərinə peşə seçirlər; dünyapərəstlik də oyun kimi insanı mühüm məqsədlərdən ayırır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Mufrədate-Rağib”.

## *Bildirişlər*

1. Dünyapərəstlik uşaqyana və puç fikirdir. (Oyun-oyuncaq, adətən, uşaq işi olur və dünyaya baş qatmaq insanı axirətdən ayırır.)
2. Axirət təhlükəsindən qurtuluş yolu düşüncədir.
3. Düşüncəli insan dünyaya aldanmır.
4. Düşüncəsizlik insanı dünyaya qul edir və axirətdən qəflətdə saxlayır.
5. Axirətdən xəbərsizlik məzəmmətə səbəb olur.
6. Düşüncə və təqva bir-biri üçün şərtdir.

**33.** ﴿قَدْ نَعْلَمُ إِنَّهُ لَيَحْزُنُكَ الَّذِي يَقُولُونَ فَإِنَّهُمْ لاَ يُكَذِّبُونَكَ وَلَكِنَّ الظَّالِمِينَ بِآيَاتِ اللهِ يَجْحَدُونَ﴾

**"Əlbəttə, Biz deyilənlərin səni qəmləndirdiyini bilirik. (Amma qüssə yemə və bil ki,) onlar (əslində) səni yox, Allahın ayələrini inkar edirlər."**

## *Nöqtələr*

◘Ayənin nazilolma şəni haqqında deyilir: Peyğəmbərin düşmənləri də onu əmanətdar və sədaqətli sayırdılar. Amma deyirdilər: "Əgər onun dediklərini təsdiq etsək, qəbiləmiz və mövqelərimiz alçaldılmış olar." Bəzən isə belə deyirdilər: "O, sədaqətlidir, amma düşünür ki, ona vəhy gəlib." Belə bir gümanla onlar ilahi ayələri təkzib edirdilər.

◘İmam Sadiq (ə) "səni təkzib etmirlər" təbiri haqqında buyurmuşdur: "Yəni onlar sənin dediklərini və müddəalarını batil edə bilməzlər."[1]

## *Bildirişlər*

1. Müxaliflərin təkzibi rəhbəri pərişan etməməlidir. Bu səbəbdən də Allah Öz peyğəmbərinə təsəlli verib, onu himayə edir.
2. Allah insanın daxili ruhiyyəsinə agahdır.
3. Peyğəmbərin təkzib olunması Allahın təkzib olunmasıdır. Eləcə də, peyğəmbərə beyət Allahla beyətdir.
4. Başqalarının daha böyük çətinliklərini, təkzib olunmaqlarını nəzərə alaraq öz çətinliyimizi asan sayaq.
5. Peyğəmbərlərin müxalifləri hansısa bir şəxslə yox, əqidə məktəbi ilə müxalifdirlər.
6. İlahi ayələrin təkzibi insanın həm özünə, həm peyğəmbərə, həm əqidə məktəbinə, həm də gələcək nəsillərə zülmdür.

---

[1] "Təfsire-Əyyaşi".

**34.** ﴿وَلَقَدْ كُذِّبَتْ رُسُلٌ مِّن قَبْلِكَ فَصَبَرُواْ عَلَى مَا كُذِّبُواْ وَأُوذُواْ حَتَّى أَتَاهُمْ نَصْرُنَا وَلاَ مُبَدِّلَ
لِكَلِمَاتِ اللّهِ وَلَقدْ جَاءكَ مِن نَّبَإِ الْمُرْسَلِينَ﴾

**“Həqiqətən, səndən qabaq da peyğəmbərlər təkzib olundular. Amma onlar bu təkzib və əzab-əziyyət qarşısında səbir etdilər. Nəhayət, Bizim yardımımız onlara çatdı. (Sən də belə ol, çünki) Allahın kəlmələrini (sünnələrini) dəyişən yoxdur. Şübhəsiz, peyğəmbərlərin xəbərlərindən sənin üçün gəlmişdir. (Onların tarixi ilə tanışsan.)”**

## *Nöqtələr*

¤«Kəlmələr» dedikdə ilahi sünnələr nəzərdə tutulur.[1]

¤Tarix hadisələri tanımaq üçün qəbul olunmuş qaynaq və mənbədir. Əvvəlki peyğəmbərlərin səbrindən, Hud, Saleh, Lut qövmünün həlak olmasından ibrət götürülməlidir. Allahın sünnə və qanunu budur ki, xalqa seçim azadlığı verilsin və peyğəmbərlər göndərilsin. Allah kafirləri cəzalarına çatdırır, peyğəmbərlərə öz dəvətlərində yardım göstərir.

¤Quranın müxtəlif ayələrində Allah-təala səbirli rəhbərlərə və möminlərə yardım göstərəcəyini Özünə vacib bilmişdir.[2]

## *Bildirişlər*

1. Haqq yol heç vaxt hamar olmamışdır. Peyğəmbər amallarının araşdırılması daim çətinliklərlə müşayiət olunmuşdur.
2. Çətinliklərə sinə gəlməkdə ən üstün vasitə ilahi yardımların bəyanıdır.
3. Rəhbərlər hamıdan itaət gözləməməlidirlər.
4. Qələbənin əsas şərti səbirdir. (Allah səbirlilərə qələbə ümidi verir.)
5. Düşmənlər haqqa qarşı döyüşdə heç nədən çəkinmirlər. Onlar həm təkzib edir, həm də əzab-əziyyət verirlər.
6. Ardıcıl səbir ilahi yardıma çatma zəminəsidir.
7. Haqq qalibdir.
8. İlahi sünnələr, qanunlar dəyişməzdir. Allah Öz vədinə vəfalıdır.
9. Hər kəs tarixdən öz oxşarını tapmalıdır.
10. Keçmiş nəslin zəhmətlərini xatırlamaq və dəyərləndirmək lazımdır.

**35.** ﴿وَإِن كَانَ كَبُرَ عَلَيْكَ إِعْرَاضُهُمْ فَإِنِ اسْتَطَعْتَ أَن تَبْتَغِيَ نَفَقًا فِي الأَرْضِ أَوْ سُلَّمًا فِي السَّمَاء
فَتَأْتِيَهُم بِآيَةٍ وَلَوْ شَاء اللّهُ لَجَمَعَهُمْ عَلَى الْهُدَى فَلاَ تَكُونَنَّ مِنَ الْجَاهِلِينَ﴾

**“Əgər onların (kafirlərin) üz döndərməsi və etinasızlığı sənə ağırdırsa, (onları istənilən bir vasitə ilə doğru yola gətirmək istəyirsənsə, bax gör) edə bilsən yerdə**

[1] “Saffat”, 171-173.
[2] “Mücadələ”, 21; “Rum”, 47; “Ğafir”, 51; “Həcc”, 40.

**bir dəlik və ya göydə bir nərdivan axtarasan ki, (digər bir) ayə gətirəsən (yenə iman gətirməzlər). Əgər Allah istəsəydi, onların hamısını doğru yola gətirərdi. (Amma məcburi hidayət ilahi sünnə deyil,) beləcə, heç vaxt cahillərdən olma.”**

## *Nöqtələr*

◘Ayənin nazilolma şəni haqqında deyilir: Kafirlər həzrət Peyğəmbərə (s) deyirdilər: “Nə qədər ki, yeri yarıb bizim üçün bir bulaq çıxarmamışsan, sənə iman gətirmərik.[1] Onlar bəzən də göyə çıxmaqdan danışırdılar.[2] Bəlkə də ayə kafirlərin yersiz istəklərini açıqlayır. Peyğəmbərə bildirilir ki, yeri aralasan da, göyə nərdivan qoysan da, özünü oda-suya vursan da faydası yoxdur. Buyurulur ki, sənin dəvətində nöqsan yoxdur, onlar inadkardırlar və onların hidayəti üçün özünü üzmə.

## *Bildirişlər*

1. Peyğəmbər xalqın hidayəti yolunda özünü üzür və onların üz döndərməsindən qəmlənirdi.
2. Peyğəmbər müraciət etdiyi insanların ruhiyyəsini bilməlidir. Bilməlidir ki, inadkar bir dəstəyə hər hansı möcüzəni gətirsə də, onlar üz döndərəcəklər.
3. Həzrət Peyğəmbər (s) istənilən bir yolla xalqı hidayət etməyə çalışırdı. Amma Allah xəbərdarlıq edir ki, maneə kafirlərin inadkar ruhiyyəsindədir.
4. Allah bütün insanları hidayət edə bilər. Amma ilahi hikmətə əsasən, insan özü seçim etməlidir.
5. Bəhanəçi və inadkar insanların istəyini yerinə yetirmək, eləcə də, təbliğatçının səbirsizliyi cəhalətdir. (Yersiz istəklərin kökü çox vaxt cəhalət olur.)

**36.** ﴿إِنَّمَا يَسْتَجِيبُ الَّذِينَ يَسْمَعُونَ وَالْمَوْتَى يَبْعَثُهُمُ اللَّهُ ثُمَّ إِلَيْهِ يُرْجَعُونَ﴾

**“(Sənin dəvətini) yalnız eşidən qulağı olanlar qəbul edər. (Yaxınlaşmayan kafirlər) Qiyamət günü Allahın ayağa qaldıracağı və hamısı Ona doğru qaytarılacaq ölülərdir.”**

## *Nöqtələr*

◘Quran iman gətirməyənləri dəfələrlə ölü və kar kimi yad edir. “Nəml” surəsinin 80-cı və “Rum” surəsinin 52-ci ayələrində bu təbirlərlə rastlaşırıq.

## *Bildirişlər*

1. İnsan yol seçimində azaddır.
2. Həqiqəti dinləmək və onu qəbul etmək mənəvi həyat və qəlbin diriliyi nişanəsidir.

(Bəli, mənəvi həyatı olmayan, haqqı qəbul etməyən insan ölüdür. Çünki yemək və yatmaq mənasında heyvanlar da yaşayır.)

---

[1] “İsra”, 90.
[2] “İsra”, 93.

3. Allah buyurur ki, haqqı axtaran qəlblər sənin, kafirlər isə Mənim öhdəmə, qiyamətdən sonra onlarla hesab çəkərəm.

**37.** ﴿وَقَالُواْ لَوْلاَ نُزِّلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ قُلْ إِنَّ اللّهَ قَادِرٌ عَلَى أَن يُنَزِّلَ آيَةً وَلَكِنَّ أَكْثَرَهُمْ لاَ يَعْلَمُونَ﴾

**“Dedilər: “Nə üçün Allah tərəfindən ona (Məhəmmədə (s) bizim istədiyimiz) bir möcüzə nazil olmadı?” De ki, şübhəsiz, Allah nişanə və möcüzə gətirməyə qadirdir, Amma onların çoxu bilməz.”**

## *Nöqtələr*

◘Ayənin nazilolma şəni haqqında deyilir: Bəzi Qüreyş başçıları mənfi təbliğata əl ataraq İslam peyğəmbərinə deyirdilər ki, Quranın möcüzə olması bəs etmir, İsa, Musa, Saleh kimi möcüzələr gətir.[1]

Əlbəttə ki, həzrət Peyğəmbər (s) digər peyğəmbərlər kimi möcüzə gətirə bilərdi. Əgər o bu işi bacarmasaydı, o biri peyğəmbərlərin möcüzələri haqqında danışmazdı. Şiə və sünni rəvayətlərinə əsasən, İslam peyğəmbərinin Qurandan əlavə də möcüzələri olmuşdur.

◘Möcüzə gətirilməsində məqsəd Allahla peyğəmbər arasındakı xüsusi əlaqəni göstərməkdir. Bu işdə inadkar xalqın yersiz istəkləri səbəb ola bilməz. Əlbəttə ki, bəzən höccətin tamamlanması, bəhanələrə son qoyulması məqsədi ilə xalqın möcüzə istəyi yerinə yetirilir.

◘Tarix şahiddir ki, inadkar insanlara ardıcıl möcüzələr də təsir göstərmir. Belə möcüzələrdən sonra onlar Allahın qəzəbinə düçar olurlar. Quran buyurur ki, əgər biz mələkləri xalqa nazil etsəydik və ya ölülər onlarla danışsaydı, yenə də bəzi inadkarlar iman gətirməzdi.[2]

## *Bildirişlər*

1. Müxaliflərin bəhanələrinə cavab verin.

2. Allah qadirdir, amma həm də hikmət sahibidir. O, qüdrətini o zaman göstərir ki, iş hikmətə əsaslansın.

**38:** ﴿وَمَا مِن دَآبَّةٍ فِي الأَرْضِ وَلاَ طَائِرٍ يَطِيرُ بِجَنَاحَيْهِ إِلاَّ أُمَمٌ أَمْثَالُكُم مَّا فَرَّطْنَا فِي الكِتَابِ مِن شَيْءٍ ثُمَّ إِلَى رَبِّهِمْ يُحْشَرُونَ﴾

**“Yerdə heç bir canlı, iki qanadı ilə uçan heç bir quş yoxdur ki, onlar da sizin kimi ümmətlər olmasın. Biz bu kitabda (Quran və ya Lövhi-məhfuzda) heç nəyi ötürmədik. Sonra hamı öz Rəbbinin yanında toplanar.”**

---

[1] “Təfsire-Məcməül-bəyan”.

[2] “Ənam” 111.

## *Nöqtələr*

◘Quranda heyvanların həyatına xüsusi diqqət yetirilir. Onların yaranışı, şüuru və sifətlərinin xatırlanmasından xalqın hidayəti üçün istifadə olunur.[1] Rəvayətlərdə, eləcə də təcrübədə heyvanların şüur və dərkini təsdiqləyən nümunələr çoxdur. Heyvanların həyatı ilə tanışlıq üçün diqqət göstərmək lazım gəlir.[2]

◘Ayədə kitab deyilərkən Quran və ya Lövhi-məhfuz nəzərdə tutulur. Onlar əslində yaranış kitabıdır.

◘Ayələrdə Quranın kamillik nişanəsi olan təbirlər az deyildir.[3]

İmam Baqir (ə) buyurmuşdur: "Həzrət Peyğəmbər (s) və məsum imamların bütün sözlərinin Qurandan qaynaqlanması onun kamal göstəricisidir. Bir hədis deyəndə, bizdən onun Quran sənədini istəyin."

Bir hədisdə həzrət Peyğəmbər (s) söz-söhbəti, iqtisadi çəkişmənin və ardıcıl sualları qadağan edir. İmam Baqirdən (ə) bu hədisin sənədi haqqında soruşulduqda buyurur: "Nisa" surəsinin 5, 114-cü, "Maidə" surəsinin 101-ci ayələri deyilənlərin Quran sənədidir."[4]

## *Heyvanların şüuru*

◘Ayə və rəvayətlərdən, eləcə də, təcrübədən məlum olur ki, şüur təkcə insana məxsus deyildir. Nümunələrə nəzər salaq:

1. Həzrət Süleyman öz qoşunu ilə bir məntəqədən keçərkən bir qarışqa o birilərinə dedi: "Dərhal evlərinizə dönün ki, Süleymanın qoşununun ayaqları altında qalmayasınız.[5] Düşməni tanımaq qarışqaların xüsusiyyətidir. Amma Süleymanın və onun qoşununun haqqında deyilənlər adi xüsusiyyət deyil.

2. Hud-hud quşu səmada ikən xalqın şirkindən xəbər tutub Süleymana bu barədə xəbər verir. Bildirir ki, Səba məntəqəsinin sakinləri allahpərəst deyil. Bu vaxt ona xüsusi bir əmr verilir. Tövhidi, şirki, şirkin pisliyini, bu barədə Süleymana xəbər çatdırılmasının zəruriliyini bilməsi və xüsusi tapşırıq alması hud-hud üçün adi bir xasiyyət sayılmamalıdır.[6]

3. Hud-hud bir müddət görünməməsinin səbəbini Süleymana açıqlayarkən dəlil gətirir. Bu dəlil onun şüurlu olmasını göstərir.[7]

4. Bütün mövcudların Allaha təsbih deməsi barədə Quranın bildirişi təkvini təsbihi nəzərdə tutmur. Ayə bu təsbihin insanlar tərəfindən dərk olunmamasını qeyd edir. Təkvini təsbihi isə bizlər anlayırıq. Deməli, Quran başqa bir təsbihdən danışır.

5. Quran ayələrində bütün mövcudların Allaha səcdə qıldığı bildirilir.[8]

6. Həzrət Süleymanın hərbi təlimlərində quşlar da iştirak edirdi.[9]

---

[1] "Casiyə", 4.
[2] "Təfsire-Mərağı".
[3] "Nəhl", 89; "Hud", 6.
[4] "Təfsire-Nurus-səqələyn".
[5] "Nəml", 18.
[6] "Nəml", 22.
[7] "Nəml", 22, 26.
[8] "Nəhl", 49.
[9] "Nəml", 17.

7. Quşlar bir-birləri ilə danışırdılar və Süleyman Allahın ona quş dili öyrətməsi ilə fəxr edirdi.[1]

8. Quranda qiyamət günü heyvanların məhşur olacağı bəyan olunur.[2]

9. Ayələrdə heyvanların şüur və agahanə ibadət nişanələri var.[3]

10. Bəzi heyvanlarda, o cümlədən itdə ev sahibi və onun övladlarına qarşı sədaqət var.

11. Ov itlərinin və polis itlərinin təlimi bu heyvanlarda xüsusi bir agahlığın olduğunu göstərir.

12. İslam bir heyvanı o biri heyvanın gözü qarşısında kəsməyə icazə vermir. Bu göstəriş heyvanlarda şüurun olduğuna işarədir.

## *Bildirişlər*

1. Yaranışdakı ilahi qüdrət, varlıq aləminin məqsədli olması bütün mövcudlara münasibətdə eynidir.

2. Nəzm və ictimai həyat yalnız insanlara aid deyildir. Heyvanların həyatında da xüsusi bir nizam-intizam müşahidə olunur.

3. Həm insanlar, həm də heyvanlar İlahi tədbirə ehtiyaclıdırlar. Allah Öz məsləhəti əsasında onlara şüur verir və onların hər birində nizam-intizam vardır.

4. Qurani-kərim ən əhatəli və ən kamil səmavi kitabdır.

5. İnsanın hidayət, tərbiyə və inkişaf səbəbləri Quranda bəyan olunmuşdur. Quranda İslam peyğəmbərinin haqq olması və xalqın hidayəti məsələlərində heç bir əskiklik yoxdur.

6. Heyvanlara münasibətdə də zülm və biganəliyə yol verməyək. Onların da bizim kimi yaşamaq haqları var.[4]

7. Məad və həşr (qiyamət hüzuru) yalnız insanlara aid deyildir.

8. Mövcudların Allaha doğru hərəkəti təkamül hərəkətidir və ilahi rübubiyyətdən bir cilvədir.

**39.** ﴿وَالَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا صُمٌّ وَبُكْمٌ فِي الظُّلُمَاتِ مَن يَشَإِ اللّهُ يُضْلِلْهُ وَمَن يَشَأْ يَجْعَلْهُ عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**«Bizim ayələrimizi təkzib edənlər qaranlıqlardakı kar və lal kəslərdir. Allah istədiyini (layiq olduqda) azdırar, istədiyi kəsi (layiq bilsə) doğru yolda qərar verər.»**

## *Nöqtələr*

◘Hidayət və zəlalət Allahın əlində olsa da, Allah insana ixtiyar vermiş və Öz işini hikmət əsasında qurmuşdur. Məsələn, insanın Allah yolunda cihadı onun İlahi

---

[1] "Nəml", 16.
[2] "Təkbir", 5.
[3] "Nun", 41.
[4] "Təfsire-Qurtubi".

hidayəti üçün zəminədir.[1] Eləcə də, insanın ətrafdakılara zülm etməsi onun azğınlığına səbəb olur.[2] İlahi ayələrin təkzibi isə Allah tərəfindən azdırılma ilə nəticələnir.

## *Bildirişlər*

1. Küfr və inad insanı tanıma vasitələrindən məhrum edən zülmətdir.
2. Haqqın təkzibi və onun gizlədilməsi lallıq, haqqı eşitməmək isə karlıqdır.
3. İlahi ayələrin təkzibinin nəticəsi zəlalət və ilahi qəhrdir.
4. Doğru yolda hərəkət üçün eşidən qulağa, haqq danışan dilə və daxili nura ehtiyac vardır.

**40.** ﴿قُلْ أَرَأَيْتُكُم إِنْ أَتَاكُمْ عَذَابُ اللّهِ أَوْ أَتَتْكُمُ السَّاعَةُ أَغَيْرَ اللّهِ تَدْعُونَ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“De ki, əgər doğru deyirsinizsə, Allahın əzabı dünya və axirətdə sizə gəlib çatdıqda nə edəcəksiniz? Yoxsa Allahdan qeyrisinimi çağırarsınız?”**

## *Nöqtələr*

◘İnsan, adətən, rifah və rahatlıq içində yaşadıqda qafil, diqqətsiz olur. Amma qarşıya çıxan çətinliklər qəflət pərdəsini qaldırır və insandakı allahpərəstlik fitrəti oyanır.

## *Bildirişlər*

1. Təbliğ və tərbiyə üsullarından biri qarşı tərəfə ünvanlanan sualdır.
2. Təcrübə göstərir ki, bütün insanlarda (zahirdə küfr etsələr də) allahpərəstlik fitrəti var. Hadisələr və bəlalar zamanı bu fitrət üzə çıxır. İslam peyğəmbərinin vəzifəsi insanların diqqətini onların yatmış fitrətinə yönəltməkdir.
3. Hadisələr və çətinliklər zamanı bütün qəflət pərdələri qaldırılır və insan yalnız Allaha üz tutur. Həmin vaxt başqa məbudlara diqqətsizlik onların puç olması dəlilidir.

**41.** ﴿بَلْ إِيَّاهُ تَدْعُونَ فَيَكْشِفُ مَا تَدْعُونَ إِلَيْهِ إِنْ شَاء وَتَنسَوْنَ مَا تُشْرِكُونَ﴾

**“Əksinə, (təhlükə zamanı) yalnız Onu çağırarsınız. Əgər istəsə, Allah Onu çağırmağınıza səbəb olan çətinliyi aradan qaldırar. Allaha şərik güman etdiklərinizi (qiyamət günü) unudarsınız.”**

---

[1] “Ənkəbut”, 69.
[2] “İbrahim”, 27.

## *Nöqtələr*

◘Əzabın götürülməsinin səbəbi ya höccətin, dəlillərin tamamlanması məqsədidir, ya da qövmün halının dəyişilməsi. Necə ki, "Yunus" surəsinin 98-ci ayəsində buyurulur: "İman gətirdiklərinə görə onları zillət əzabından azad etdik."

## *Bildirişlər*

1. İnsan çətin hadisələrlə qarşılaşdığı zaman bütün uydurma məbudlar yaddan çıxır. Bu məbudlar nəinki unudulur, hətta inkar edilir. Digər bir ayədə oxuyuruq: "Müşriklər qiyamət günü and içməklə öz şirklərini inkar edərlər."[1]
2. Xalisanə dua qəbul olunur.
3. Allahdan qeyrilərinə ümidsizlik duanın qəbul olmasını sürətləndirir.
4. Duanın qəbulu Allahın hikmətinə, iradəsinə əsaslanır.

**42.** ﴿وَلَقَدْ أَرْسَلنَآ إِلَى أُمَمٍ مِّن قَبْلِكَ فَأَخَذْنَاهُمْ بِالْبَأْسَاء وَالضَّرَّاء لَعَلَّهُمْ يَتَضَرَّعُونَ﴾

**"Həqiqətən, səndən əvvəlki ümmətlərə (də peyğəmbərlər) göndərdik. (Boyun qaçırdıqlarına görə) onları yoxsulluq və xəstəliyə düçar etdik. Bəlkə (Bizə) yalvaralar."**

## *Nöqtələr*

◘"Bəsa" döyüş, yoxsulluq, qəhətlik, sel, zəlzələ, keçici xəstəlik, "zərra" isə qəm-qüssə, alçalmaq, cəhalət, iflas deməkdir.

◘Həzrət Əli (ə) buyurmuşdur: "Əgər çətinliklər zamanı xalq Allah dərgahına sədaqətlə nalə çəksə, Allahın lütfünə nail olar."[2] Mövləvi bu həqiqəti belə nəzmə çəkir:

> Haqqın hüzurunda çəkilən fəğan,
> Üstündür bir ömür səcdədən, inan.
> Zoru kənara qoy, tut nalə yolun,
> Göylər ağlayana uzadır əlin.

## *Bildirişlər*

1. Xalq arasında peyğəmbərin besəti tarix boyu gerçəkləşmiş ilahi sünnələrdəndir.
2. Keçmişdəkilərin başlarına gələnlər gələcəkdəkilər üçün ibrətdir.
3. Tərbiyə və hidayətdə bəzən təzyiq və sərtlik də lazım gəlir.
4. Çətinliklər fitrəti oyadan və diqqəti Allaha yönəldən yollardandır.
5. Hər rifah lütf, hər əziyyət qəzəb sayılmamalıdır.
6. Bəzi inadkarlar hətta sıxıntı və çətinlik vasitəsi ilə də ram olmurlar.

**43.** ﴿فَلَوْلا إِذْ جَاءهُمْ بَأْسُنَا تَضَرَّعُواْ وَلَكِن قَسَتْ قُلُوبُهُمْ وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ مَا كَانُواْ يَعْمَلُونَ﴾

---

[1] "Ənam", 23.
[2] "Təfsire-Safi"; "Təfsire-Nurus-səqəleyn".

**“Bəs nə üçün Bizim çətinliklərimiz onlara yetişdikdə tövbə edib nalə çəkmədilər? Bəli, (həqiqət odur ki,) onların qəlbi daşlaşıb bərkimiş və Şeytan gördükləri işləri onlara gözəl cilvələndirmişdir.”**

## *Bildirişlər*

1. Allah dərgahına doğru nalə insanın təkamülü, Allaha yaxınlaşması, daşqəlblik və yalandan uzaqlaşma səbəbidir.
2. İnsan fitrətən gözəlliyi sevir. Şeytan bu meyldən istifadə edib onu qəflətə sürükləyir.
3. İnadkarlara nə təbliğ, nə də tənbeh təsir edir.
4. Yalvarışın tərki və qürurun kökü insanın şeytani cilvələrə məftun olmasıdır.

**44.** ﴿فَلَمَّا نَسُواْ مَا ذُكِّرُواْ بِهِ فَتَحْنَا عَلَيْهِمْ أَبْوَابَ كُلِّ شَيْءٍ حَتَّى إِذَا فَرِحُواْ بِمَا أُوتُواْ أَخَذْنَاهُم بَغْتَةً فَإِذَا هُم مُّبْلِسُونَ﴾

**“Onlara verilmiş nəsihətləri unutduqlarından hər növ nemət qapılarını üzlərinə açdıq. (Maddi nemətlər içində qərq oldular.) Onlara veriləndən məmnun olduqları vaxt qəfildən onları saxladıq və birdəfəyə qəmgin və ümidsiz oldular.”**

## *Nöqtələr*

◘“İblas” sözündən olan “mublisun” sözü ümidsizliklə müşayiət olunan qəm-qüssə mənasını daşıyır. Bu hal mühakimə zamanı cavab tapmayan günahkarlarda yaranır.[1]

◘Əvvəlki iki ayədə buyuruldu: “Biz insanları çətinliyə salırıq ki, nalə çəksinlər. Bu ayədə isə belə buyurulur: “Bəziləri hətta çətinlik zamanı da Allahı unudurlar.

◘Quranda buyurulur ki, sevdiyiniz şeylərin bir çoxu sizin zərərinizədir.[2] Həzrət Əli (ə) buyurmuşdur: “Günah etdiyin halda Allahın sənə olan nemətlərini kəsmədiyini gördükdə diqqətli ol ki, bu lütflərin sonu xoş olmaya da bilər.”[3]

◘Dünya və onun bəhrələri insan üçün həm nemət, həm də bədbəxtlik ola bilər. Hazırkı ayədə dünya bədbəxtlik sayılmışdır. Amma iman və təqva öz əhlinə göy və yerin bərəkətini nazil edir. Bu məsələ “Əraf” surəsinin 96-cı ayəsində də təsdiqlənir. Beləcə, qəflət, haqdan xəbərsizlik xeyir qapılarını insanın üzünə bağlayır.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Dünyanı günahkarların kamında görəndə, (ey günahkar,) xoşhal olma. Çünki bu, tədricən məhvə aparır.”[4] Sonra həzrət hazırkı ayəni tilavət etmişdir.

İmam Baqir (ə) bu ayənin təfsirində buyurmuşdur: “Xalq ona əmr olunmuş Əli ibn Əbu-Talibin (ə) vilayətini tərk etdiyindən onların var-dövlətini bəndə saldıq. Həzrət Qaim (ə) qiyam edənədək belə olar.”[5]

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Bəqərə”, 216.
[3] “Nəhcül-bəlağə”, h. 25.
[4] “Təfsire-Məcməül-bəyan”.
[5] “Təfsire-Əyyaşi”.

## *Bildirişlər*

1. Yaşayışda rifah heç də həmişə rəhmət əlaməti olmur. Bəzən rifah cəza zəminəsidir.
2. Günahkarlara möhlət vermək və onların başını qatmaq ilahi sünnələrdəndir.
3. Yalnız höccət, dəlillər tamamlandıqdan sonra Allahın qəhri gəlir.
4. Sıxıntı və açılışlar Allahın əlindədir.
5. Ölüm və ilahi əzab qəfildən gəlir. Ona görə də daim hazır olmalıyıq.
6. Əyyaşların şadlığı qəfildən qəm-qüssəyə dönəcək.

**45.** ﴿فَقُطِعَ دَابِرُ الْقَوْمِ الَّذِينَ ظَلَمُواْ وَالْحَمْدُ لِلّهِ رَبِّ الْعَالَمِينَ﴾

**“Sitəmkar qövmün kökü kəsildi. Həmd-səna aləmlərin Rəbbi olan Allaha məxsusdur.”**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) buyurmuşdur: “Zalımın yaşamasını istəyən kəs əslində Allaha itaətsizliyi istəmişdir. Həqiqətən, Allah zalımları həlak etdiyi üçün Özünü öymüşdür.[1]

## *Bildirişlər*

1. Zülm ötəridir.
2. Zülm nəslə də təsir göstərir.
3. Zalımların məhvi qaçılmazdır. (Zülm niyyətləri məhv edir.)[2]
4. Peyğəmbərlərin xəbərdarlıqlarına diqqətsizlik zülmdür.
5. Bəzən bolluq və rifah zülmə şərait yaradır.
6. Tarixə adı düşmüş bəzi qövmlərin bu gün izi-tozu belə yoxdur.
7. Zalımın məhv edilməsi bəyənilmiş işdir.
8. Zalımlar məhv olan zaman Allaha şükür etməliyik.
9. Zalımların məhvi başqaları üçün tərbiyə amilidir.

**46.** ﴿قُلْ أَرَأَيْتُمْ إِنْ أَخَذَ اللّهُ سَمْعَكُمْ وَأَبْصَارَكُمْ وَخَتَمَ عَلَى قُلُوبِكُم مَّنْ إِلَهٌ غَيْرُ اللّهِ يَأْتِيكُم بِهِ أُنظُرْ كَيْفَ نُصَرِّفُ الآيَاتِ ثُمَّ هُمْ يَصْدِفُونَ﴾

**“De ki, nə düşünürsünüz, əgər Allah sizin eşitmə və görmənizi alsa və qəlblərinizə möhür vursa, Ondan başqa hansı məbud bunları sizin üçün aça bilər? Gör ki, Biz ayələri müxtəlif şəkillərdə necə bəyan edirik. Amma onlar (iman gətirib təslim olmaq əvəzinə) üz döndərirlər.”**

## *Nöqtələr*

◘Surənin əvvəlindən hazırkı hissəsinədək Allah müxalifləri on dəfəyədək suallar vasitəsi ilə düşünməyə dəvət etmişdir. Çünki nemətləri düşünmək, onların

[1] “Məaniyul-əxbar”, s. 252.
[2] “Haqqə”, 8.

dəyişməsini təsəvvür etmək allahşünaslıq zəminəsidir. İnsan düşünməlidir ki, əgər ağaclar cücərməsə[1], sular şor və acı olsa[2], əgər sular yerə hopsa[3], əgər gecə və ya gündüz daimi olsa[4], əgər insanın gözü, qulağı və düşüncəsi işdən düşsə[5] nə olar?!

◘İmam Baqir (ə) buyurmuşdur: «Əgər Allah sizin hidayət yolunuzu bağlasa, kim ikinci dəfə sizi hidayət edə bilər?!» Sonra imam (ə) hazırkı ayəni tilavət etmişdir.[6]

## *Bildirişlər*

1. Quranın təbliğ və tərbiyə üsullarından biri vicdanın sorğuya çəkilməsidir.

2.Allah üçün verdiyi nemətləri geri almaq asandır. Gəlin diqqətli olaq.

3. Həm yaranış Allahdandır, həm də onun hər anı ilahi nemətdir.

4. Qulaq, göz və əql insanın hiss üzvləridir və ən mühüm ilahi nemətlərdəndir.

5. Uydurma məbudların nə yaratma, nə də nemət yetirmə gücləri var. (Bəli, yalnız həm neməti verməyi, həm də onu geri almağı bacaran varlıq pərəstişə layiqdir.)

6. Bir bu qədər dəlil olan yerdə müşriklərin Allahdan qeyrilərinə üz tutması təəccüb doğurur.

7. İnadkar insanlara heç bir bildiriş təsir göstərmir.

**47. ﴿قُلْ أَرَأَيْتَكُمْ إِنْ أَتَاكُمْ عَذَابُ اللّهِ بَغْتَةً أَوْ جَهْرَةً هَلْ يُهْلَكُ إِلاَّ الْقَوْمُ الظَّالِمُونَ﴾**

**“De ki, əgər Allahın əzabı gizli və ya aşkar şəkildə sorağınıza gəlsə (nə edəcəksiniz?) Məgər zalım qövmlərdən qeyrisimi həlak olar?”**

## *Nöqtələr*

◘Bəlkə də “bəğtət” gecə yuxusu, “cəhrət” gündüz iş zamanını bildirir. “Bəğtət” sözü “Yunus” surəsinin 24-cü ayəsində olduğu kimi müqəddiməsiz əzaba da işarə ola bilər. Həmin ayəyə əsasən, “cəhrət” sözü əsərləri ilk gündən görünən əzabdır. Buna misal olaraq Ad qövmünün başı üzərindəki təhlükəli buludları göstərmək olar. Digər ayələrdə də bu nöqtələrə toxunulmuşdur.[7]

◘**Sual:** Ayədə yalnız zalımların ilahi əzabla həlak olacaqları bildirilir. Amma başqa ayələrdə (məsələn, “Ənfal”, 25) əzab şöləsinin hamını bürüyəcəyi bəyan olunur. Bu, ziddiyyət deyilmi?

**Cavab:** “Təfsire-Kəbire-Fəxr Razidə” və “Məcməül-bəyan” təfsirində bildirilir ki, hər fitnə həlak olmaq deyil. Acı hadisələrdə zalımların sorağına gələn hər şey fəlakət və qəzəbdir. Möminlərin sorağına gələn isə imtahan və inkişaf amili sayılmalıdır.

---

[1] “Vaqiə”, 65.
[2] “Vaqiə”, 70.
[3] “Mulk”, 30.
[4] “Qəsəs”, 71, 72.
[5] “Ənam”, 46.
[6] “Təfsire-Nurus-səqəleyn”.
[7] “Əhqaf”, 24.

## *Bildirişlər*

1. Peyğəmbərə əmr olunmuşdu ki, vicdanları oyatmaq üçün sorğu-sualdan istifadə etsin.
2. Özbaşınalığınız və Allahın verdiyi möhlətlə qürrələnməyin. Allahın əzabı qəfildən gələ bilər.
3. Allahın əzabı gələn vaxt bədbəxtlik qaçılmazdır. İnsan nə özü, nə də başqaları bu bədbəxtliyin qarşısını ala bilər.
4. İlahi cəzaların səbəbi xalqa olunan zülmdür və bu cəzalar ədalətlidir.
5. Peyğəmbərlərin dəvətindən boyun qaçırmaq zülmdür.

**48.** ﴿وَمَا نُرْسِلُ الْمُرْسَلِينَ إِلاَّ مُبَشِّرِينَ وَمُنذِرِينَ فَمَنْ آمَنَ وَأَصْلَحَ فَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**“Biz peyğəmbərləri yalnız müjdə verən və qorxudan ünvanı ilə göndəririk. Belə ki, iman gətirib islah olanlar üçün heç bir qorxu yoxdur və onlar qəmlənməzlər.”**

**49.** ﴿وَالَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا يَمَسُّهُمُ الْعَذَابُ بِمَا كَانُواْ يَفْسُقُونَ﴾

**“Ayələrimizi təkzib edənləri günahlarına xatir ilahi əzab yaxalayar.”**

## *Nöqtələr*

◘**Sual:** Çoxsaylı ayələrdə ilahi övliyalar üçün heç bir qorxu olmadığı bildirilsə də, Allah qorxusu övliyalıq xüsusiyyətlərindən sayılır. Bunu necə izah etmək olar?

**Cavab:** Bəzən xəstə cərrahi əməliyyatdan qorxsa da, həkim onu arxayınlaşdırır. Həkim xəstəni inandırır ki, qorxu üçün heç bir səbəb yoxdur. Bununla belə, xəstə nigarançılıqdan xilas ola bilmir. İkincisi, ayələrdəki təbirlərdən məlum olur ki, ilahi övliyalara qorxu hakim olmur. Yəni söhbət qorxunun tamamilə olmamasından yox, qorxunun hakim olmamasından gedir. Əgər Quranda övliyalara münasibətdə “onlar qəmlənməzlər” deyirlərsə, söhbət daimi qəmdən gedir. Bu təbirlərdən belə bir nəticə alınmır ki, övliyalar qətiyyən qəmlənməzlər.

## *Bildirişlər*

1. Peyğəmbərlərin iş çərçivəsini yalnız Allah müəyyənləşdirir.
2. Peyğəmbərlərin işi məcburiyyət yox, müjdə və qorxutmadır.
3. Peyğəmbərlərin ümumi üsulu eyni olmuşdur.
4. Hidayət və tərbiyə qorxu və ümid, cəza və mükafat kimi iki əsas üzərində müəyyənləşmişdir.
5. İman və saleh əməl bir-birindən ayrı deyil. İman olmayan yerdə əməl də faydasızdır.
6. Mömin şəxs işlərini islah üzərində qurmalıdır.
7. Saleh olmaq kafi deyil, həm də islahedici olmaq lazımdır.

8. İman və saleh əməl insanı qorxu və qəm-qüssə kimi ruhi xəstəliklərdən hifz edir. (Psixoloji sağlamlıq iman və saleh əməl sayəsində əldə olunur.)

9. Peyğəmbər cəmiyyətinin nailiyyəti orta, aram və əmin-aman bir quruluşdur.

10. İnsan fitrətən aramlıq və əmin-amanlıq sorağındadır.

11. Günahı davam etdirmək ilahi əzaba zəmin yaradır.

**50.** ﴿قُل لاَّ أَقُولُ لَكُمْ عِندِي خَزَآئِنُ اللهِ وَلا أَعْلَمُ الْغَيْبَ وَلا أَقُولُ لَكُمْ إِنِّي مَلَكٌ إِنْ أَتَّبِعُ إِلاَّ مَا يُوحَى إِلَيَّ قُلْ هَلْ يَسْتَوِي الأَعْمَى وَالْبَصِيرُ أَفَلاَ تَتَفَكَّرُونَ﴾

**"(Ey peyğəmbər! Xalqa) de ki, mən Allahın xəzinələrinin məndə olduğunu iddia etmirəm, qeybi də bilmirəm. İddia etmirəm ki, mən mələyəm. Mən vəhy olunandan başqa bir şeyə tabe olmuram. De ki, korla görən bərabərdirmi? Yoxsa düşünmürsünüz?"**

## *Nöqtələr*

◘İmansız xalq elə güman edirdi ki, yalnız ilahi xəzinələr onun ixtiyarında olan kəs peyğəmbər ola bilər. Ya da ki, onlar bütün çətinliklərini qeyb elmi yolu ilə həll etmək istəyirdilər. Bu ayədə peyğəmbərə əmr olunur ki, xalqın yersiz istəklərinin və yanlış düşüncələrinin qarşısını alsın. Peyğəmbər bu ayədəki göstərişə əsasən öz vəzifələrinin çərçivəsini bəyan etməli olur. Peyğəmbər deməlidir ki, mənim möcüzələrim sizin istəklərinizlə yox, ilahi çərçivədədir. Harada mənə vəhy olunsa möcüzə də olacaq. İstədiyiniz yerdə istədiyiniz şeyi gözləməyin.

◘Bu ayədə peyğəmbərin qeybi bilməsi müstəqil şəkildə inkar edilir. Bildirilir ki, bəzən qeybdən peyğəmbərə müəyyən məlumatlar əta olunur. Allah dəfələrlə həzrət Yusif, Məryəm, Nuhun tarixi haqqında İslam peyğəmbərinə buyurur: "Bu hekayələr sənə verdiyim qeybi məlumatlardır." "Cin" surəsinin sonunda isə belə buyurulur: "Allahın qeyb elmi var və onu yalnız Öz övliyalarına əta edər." Demək, qeyb elmi Allaha məxsusdur. Allah istədiyi vaxt bu elmdən bir hissəsini Öz övliyalarının ixtiyarına verir.

◘Bütün peyğəmbərlər xalqla eyni cür rəftar etmişlər. İslam peyğəmbərinin dediyi sözləri həzrət Nuh da xalqa demişdir.[1]

## *Bildirişlər*

1. Peyğəmbərlər o qədər sədaqətlidirlər ki, bir iş qüdrətlərindən xaric olduqda bunu xalqa elan edirlər.

2. Xurafat və yalançı şəxslərin ortaya atılması ilə mübarizə peyğəmbərin fəaliyyətlərindəndir.

3. Peyğəmbərlərə yersiz istəklərlə müraciət etməyin.

4. Rəhbərin həyatı, məqsədləri və iş üsulu dərhal və aydın şəkildə xalqa bəyan olunmalıdır.

5. İmkan verməyin ki, xalq sizi olduğunuzdan üstün tanısın. Şəxsiyyətlər yalançı adları inkar etsələr, bir çox azğınlıqların qarşısı alınar.

---

[1] "Hud", 31.

6. Peyğəmbərlər pul və hədə ilə iş görmürdülər ki, başqaları qorxu və tamah üzündən onların ətrafında toplanıb, öz çətinliklərini qeyb elmi və ilahi xəzinələr vasitəsi ilə həll etmək fikrinə düşələr.

7. Peyğəmbərlər şəxsi həyatın və ya hökumətin idarəsi üçün başqaları kimi adi yollarla hərəkət edirlər. Peyğəmbərliyin sübutu üçün qeyb elmindən istifadə olunsa da, bu elmdən və ilahi xəzinələrdən şəxsi məqsədlə istifadə olunmur.

8. Peyğəmbər ilahi xəzinə və qeyb elminə malik olmasa da, ona vəhy gəldiyi üçün itaət edilməlidir.

9. Peyğəmbər nə şəxsi düşüncə və səliqə, nə də xalqın meyli əsasında iş görür. Onun işi yalnız vəhyə əsaslanır.

10. Peyğəmbərin rəftarı və sözü vəhyə əsaslandığından bizim üçün höccət, dəlildir.

11. Peyğəmbərə tabeçilik bəsirət, onlara arxa çevirmək korluqdur.

12. Düzgün düşüncə insanı peyğəmbərə tabeçiliyə vadar edir. Bu halda insan yersiz bəhanələr və istəkləri bir kənara qoyur.

**51.** ﴿وَأَنذِرْ بِهِ الَّذِينَ يَخَافُونَ أَن يُحْشَرُواْ إِلَى رَبِّهِمْ لَيْسَ لَهُم مِّن دُونِهِ وَلِيٌّ وَلاَ شَفِيعٌ لَّعَلَّهُمْ يَتَّقُونَ﴾

**"Onun (Quranın) vasitəsi ilə Allahın hüzurunda məhşur olacağından (dayanacağından) qorxan kəslərə xəbərdarlıq et. (Çünki) onlar üçün Allahdan qeyri yardımçı və şəfaətçi yoxdur. Bəlkə çəkinələr."**

## *Nöqtələr*

◘Quranda Allah-təala dəfələrlə peyğəmbərə buyurur ki, sənin xəbərdarlıqların yalnız Allahdan qorxanlara təsir edər.[1]

## *Bildirişlər*

1. Peyğəmbərlərin hidayətinin təsir qoymasında fərdlərin hazırlığı şərtdir.
2. Məada etiqad təqvanın açarıdır.

**52.** ﴿وَلاَ تَطْرُدِ الَّذِينَ يَدْعُونَ رَبَّهُم بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ مَا عَلَيْكَ مِنْ حِسَابِهِم مِّن شَيْءٍ
وَمَا مِنْ حِسَابِكَ عَلَيْهِم مِّن شَيْءٍ فَتَطْرُدَهُمْ فَتَكُونَ مِنَ الظَّالِمِينَ﴾

**"Sübh və axşam Allahın razılığını istəyən halda Rəblərini çağıran kəsləri özündən kənarlaşdırma. Onların hesabından sənin öhdəndə, sənin hesabından onların öhdəsində bir şey yoxdur ki, onları rədd edib nəticədə zalımlardan olasan."**

## *Nöqtələr*

◘Ayənin nazilolma şəni haqqında deyilir ki, pullu kafirlərdən bir dəstəsi peyğəmbərin ətrafında Əmmar və Bilal kimi fəqirləri gördükdə həzrətin onları özündən uzaqlaşdırmasını təklif edirdilər. Bu vaxt haqqında danışılan ayə nazil oldu. Mövzunun oxşarı "Kəhf" surəsinin 28-ci ayəsində də bəyan olunmuşdur.

---

[1] "Yasin", 11; "Fatir", 18.

◘“Təfsire-Qurtubi”də nəql olunur: “Bu ayə nazil olduqdan sonra həzrət Peyğəmbər (s) son fəqir ayağa qalxanadək fəqirlərin məclisindən qalxmazdı.”

◘«Sübh və axşam Allahı çağırmaq» dedikdə gündəlik namazlar nəzərdə tutula bilər.[1]

## *Bildirişlər*

1. Səmimi, fəqir, mücahid qüvvələrin hifzi kafir varlıları cəzb etməkdən daha mühümdür.
2. Məqsəd vasitəni əhəmiyyətsiz etmir. Küfr başçılarını cəzb etmək üçün mövcud müsəlmanlara diqqətsizlik göstərmək olmaz.
3. İslam ayrıseçkilik, millətpərəstlik, imtiyaz tələblik və bac istənilməsi ilə mübarizə aparan məktəbdir. (Ayənin nazil olma şəninə əsasən.)
4. Peyğəmbərlərin əksər tərəfdarları yoxsullar olmuşlar. (Ayənin nazil olma şəninə əsasən.)
5. Bəhanəçi adamlar rəhbər və əqidə məktəbində eyb tapa bilmədikdə, həmin məktəbin ardıcıllarının yoxsulluğunu eyb göstərirlər.(Ayənin nazil olma şəninə əsasən.)
6. Heç bir imtiyaz imanla müqayisə oluna bilməz.
7. Ölçü insanların hazırkı halıdır. Əgər mömin yoxsulların əvvəllər xataları olubsa, onlarla Allah hesab çəkəsidir.
8. Hamı ilə Allah hesab çəkəsidir. Hətta başqalarının hansı yolu seçməsi üçün peyğəmbərlər məsuliyyət daşımır. Peyğəmbərin özünün də hesab-kitabı var.
9. İxlaslı yoxsulların rədd olunması zülmdür.

53. ﴿وَكَذَلِكَ فَتَنَّا بَعْضَهُم بِبَعْضٍ لِّيَقُولواْ أَهَؤُلاء مَنَّ اللّهُ عَلَيْهِم مِّن بَيْنِنَا أَلَيْسَ اللّهُ بِأَعْلَمَ بِالشَّاكِرِينَ﴾

**“Bu sayaq xalqın bəzilərini digərləri vasitəsi ilə sınadıq ki, (istehza ilə) desinlər: «Bizim aramızdan Allahın minnət qoyduğu kəslər bunlarmıdır?» Məgər Allah şükür edənlərin halını daha yaxşı bilmirmi?”**

## *Nöqtələr*

◘Quran dəfələrlə sərmayədarların, varlıların yuxarıdan getməsini, tələbkarlığını bəyan və məhkum etmişdir. Onlar umurdular ki, vəhy və Quran onlara nazil olsun. Onlar deyirdilər: “Bizim aramızda onamı vəhy nazil oldu?!”[2] Başqa bir ayədə bu etiraz belə bəyan olunur: “Nə üçün vəhy həmin iki yerdən olan böyük bir şəxsə nazil olmadı?!”[3]

◘Həqiqi möminlər iman nemətinə görə şükür edirlər. Bir şəxs imam Kazimə (ə) öz yoxsulluğundan şikayət etdikdə həzrət buyurdu: “ Sənin nəzərincə ən varlı adam kimdir?” Həmin şəxs dedi: “Xəlifə Harun ər-Rəşid.” İmam (ə) soruşdu: “İmanını

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Qəmər”, 25.
[3] “Zuxruf”, 31

verib onun sərvətini almağa hazırsanmı?” Yoxsul dedi: “Xeyr.” İmam (ə) buyurdu: “Deməkk, sən ondan varlısan. Çünki səndə onun sərvəti ilə dəyişmək istəmədiyin bir şey var.”[1]

## *Bildirişlər*

1. İctimai fərdlər bəzən sınaq və inkişaf vasitəsi olur. Varlılar cəmiyyətdəki kasıblarla sınağa çəkilir.
2. Varlılar yoxsulları təhqir edir və özlərini daha dəyərli sayırlar.
3. İmanlı yoxsullar Allahın seçilmişləridir.
4. Kafirlərin təhqirlərinin cavabı möminlərlə ilahi nəvaziş və məhəbbətlə verilir.
5. Allahın fəqirlərə minnəti onların şükrünün nəticəsidir.
6. Allah xalqın istəyi əsasında yox, Öz hikməti əsasında iş görür.
7. Peyğəmbərlər şükür edənlərin bariz nümunələridirlər. Peyğəmbərlərin hidayətini qəbul edən fəqirlər də hidayət nemətinə şükr edənlərdir.

54. ﴿وَإِذَا جَاءكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلاَمٌ عَلَيْكُمْ كَتَبَ رَبُّكُمْ عَلَى نَفْسِهِ الرَّحْمَةَ أَنَّهُ مَن عَمِلَ مِنكُمْ سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِن بَعْدِهِ وَأَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**“Nə vaxt ayələrimizə iman gətirənlər yanına gəlsələr, de ki, salam olsun sizə! Rəbbiniz Özü üçün rəhməti müəyyənləşdirmişdir ki, sizlərdən hər hansınız nadanlıq üzündən pis iş gördükdə, tövbə qılıb özünü islah etsin. Şəksiz, Allah bağışlayan və mehribandır.”**

55. ﴿وَكَذَلِكَ نفَصِّلُ الآيَاتِ وَلِتَسْتَبِينَ سَبِيلُ الْمُجْرِمِينَ﴾

**“Biz beləcə ayələri (xalq üçün) açıq-aydın bəyan edirik (ki, haqq aşkar,) günahkarların yolu və qaydası aydın olsun.”**

## *Nöqtələr*

◘Ayənin nazilolma şəni haqqında deyilir ki, bir dəstə günahkar şəxs peyğəmbərin xidmətinə gəlib dedilər: “Biz xeyli günaha yol vermişik.” Həzrət susdu və bu ayə nazil oldu.

◘Bu surədə iki dəfə “Özü üçün rəhməti yazdı, müəyyənləşdirdi” cümləsi işlədilmişdir. Cümlələrdən biri möminlərin qəlbini isitmək üçün dünya ilə bağlı bəyan olunur, digəri məada aiddir. (ayə 12)

◘Cəhalət bəzən elm, bəzən ağılla bağlı olur. 54-cü ayədə ağılla bağlı cəhalətdən danışılır. Yəni insanlar bildikləri halda, düşüncəsizlik cəhaləti səbəbindən günaha uğrayırlar.

## *Bildirişlər*

1. Peyğəmbər ziyarətçisinin imanı ilahi lütfə çatma şərtlərindəndir.
2. Peyğəmbərin ziyarəti Allahın lütfünün əldə olunması yoludur.

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.

3. Rəhbərlə xalq arasındakı rabitə məhəbbət üzərində qurulmalıdır.
4. Ən yaxşı salam “səlamun ələykum” deməkdir.
5. Möminlərin alçaldılmasına qarşı çıxın. 53-cü ayədə bildirildiyi kimi, möminlərə təhqiramiz şəkildə müraciət edirdilər. 54-cü ayədə isə Allah bu təhqirə cavab verir və peyğəmbərə göstəriş verir ki, möminlərə salam versin.
6. Salam İslamın şüarıdır. Böyük də kiçiyə salam verir.
7. Tərbiyəçi və təbliğatçı xalqa hörmətlə yanaşmalı və onlarla xoş rəftar etməlidir.
8. İnadkarlıq və təkəbbür üzündən olmayan günah bağışlana bilər. (Günahkarların bağışlanması üçün onların cəhaləti bir üzrdür.)
9. Allah rəhməti Özünə vacib etmişdir. Amma bu rəhmətə çatmaq üçün üzrxahlıq və tövbə lazımdır.
10. Tövbə təkcə dildə tövbə demək deyil. Qərara gəlib islah olmaq lazımdır.
11. Möminin tövbəsi hökmən qəbul olunur. Tövbə günahdan sonra gerçəkləşir.
12. İlahi əfv rəhmətlə müşayiət olunur. (Günahkar ümidini üzməməlidir.)
13. Günahkarların simasını, yolunu aydınlaşdırmaq məktəbin məqsədlərindəndir.

56. ﴿قُلْ إِنِّي نُهِيتُ أَنْ أَعْبُدَ الَّذِينَ تَدْعُونَ مِن دُونِ اللّهِ قُل لاَّ أَتَّبِعُ أَهْوَاءكُمْ قَدْ ضَلَلْتُ إِذًا وَمَا أَنَاْ مِنَ الْمُهْتَدِينَ﴾

**“De ki, mənə sizin Allah əvəzinə çağırdıqlarınıza pərəstiş qadağan olunmuşdur. De ki, mən sizin nəfs istəklərinizə tabe olmuram, çünki bu halda yolumu azıb, hidayət tapanlardan olmayacağam.”**

## *Bildirişlər*

1. Müşriklərin bütlərə pərəstişə əsaslanan yersiz istəklərinin cavabı qəti şəkildə verilməlidir. (Bəli, şirk heç bir halda qəbul ediləsi deyil.)
2. Peyğəmbərlərin rəftarı və mövqeyi vəhydən qaynaqlanır.
3. Şirkə etiraz İslamın tərkib hissəsidir.
4. Şirkin kökü nəfs istəklərinə tabeçilikdir.
5. Təbliğatçı xalqın nəfs istəklərini izləməməlidir.
6. Nəfs istəkləri insandakı hidayət zəminəsini aradan qaldırır.

57. ﴿قُلْ إِنِّي عَلَى بَيِّنَةٍ مِّن رَّبِّي وَكَذَّبْتُم بِهِ مَا عِندِي مَا تَسْتَعْجِلُونَ بِهِ إِنِ الْحُكْمُ إِلاَّ لِلّهِ يَقُصُّ الْحَقَّ وَهُوَ خَيْرُ الْفَاصِلِينَ﴾

**“De ki, həqiqətən, mən Rəbbim tərəfindən aşkar bir dəlilə əsaslanıram. Amma siz onu yalan sayırsınız. Sizin (ilahi əzabdan) tələsərək istədiyiniz (cəza) mənim əlimdə deyil. Əmr yalnız Allahın əlindədir, O haqqı bəyan edir və haqqı batildən ən üstün şəkildə ayırd edəndir.”**

## *Nöqtələr*

◘“Bəyyinə” elə bir dəlilə deyilir ki, kamil və aşkar şəkildə haqqı batildən ayırd etsin. Peyğəmbərlərin dəlilləri və möcüzələri açıq-aşkar idi və inadkarlıq

göstərməyən hər bir kəs onları anlayır və qəlbən qəbul edirdi. Ona görə də peyğəmbərlər özlərini “bəyyinə” sahibi kimi tanıtdırmışlar.

◘Kafirlər dedilər: “Əgər doğru deyirsənsə, nə üçün Allahın qəzəbi bizə nazil olmur? Başqa bir ayədə də oxşar bəyanatla rastlaşırıq: “Əgər bu məsələ doğrudursa, Pərvərdigara, bizə daş yağdır.”[1] Digər qövmlərdə də əzab istəyi müşahidə edilmişdir. Həzrət Hud, Həzrət Saleh və Həzrət Nuhun qövmləri də “əgər doğru deyirsənsə, vəd olunmuş əzabı yubanmadan bizə gətir.”[2]

## *Bildirişlər*

1. Peyğəmbərlərin dəvəti onların xəyal və kor-koranə təqlidinə yox, “bəyyinəyə” əsaslanır.
2. Peyğəmbərlərə bəyyinə əta olunması Allahın rübubiyyət şölələrindəndir.
3. Peyğəmbərlərin ilahi “bəyyinəsi” olmalıdır. Onlar xalqın meylləri əsasında iş görmürlər. (Quran “bəyyinə”, aşkar dəlil və peyğəmbərin haqlı olması sübutudur.)
4. İslam Peyğəmbəri (s) onun “bəyyinəsi” olan Qurandan kamil şəkildə xəbərdardır. (Ayədəki “əla bəyyinətin” təbiri kimi əhatəni göstərir.)
5. Kafirlər peyğəmbərin bəyyinəsini təkzib etdikləri halda öz nəfs istəklərinin peyğəmbər tərəfindən qəbul olunacağını gözləyirdilər.
6. Bəhanəçi insanlarla qəti şəkildə danışın.
7. Peyğəmbər məntiq və bəyyinə ilə gəlmiş yeganə elçidir. Varlıq nizamı Allahın əlindədir. (Peyğəmbərdən tələsik ilahi əzab istəməklə öz məhvinizi diləməyin.)
8. Ayə həm kafirləri hədələyir, həm də peyğəmbərə təsəlli verir.

**58.** ﴿قُل لَّوْ أَنَّ عِندِي مَا تَسْتَعْجِلُونَ بِهِ لَقُضِيَ الأَمْرُ بَيْنِي وَبَيْنَكُمْ وَاللّهُ أَعْلَمُ بِالظَّالِمِينَ﴾

**“De ki, əgər tələsərək istədiyiniz (şey) məndə olsaydı (sizin istəyinizlə əzab nazil edərdim), şübhəsiz, mənimlə sizin aranızda iş bitərdi. Amma Allah sitəmkarların halına daha agahdır (vaxtında cəzalandırır).”**

## *Bildirişlər*

1. Xalqın tələsməsi ilahi hikməti dəyişməz.
2. Cəzalar Allahın əlindədir. Amma O, kafirlərin istəyi əsasında əzab verməyə tələssə, kimsə diri qalmaz.[3]
3. Allah Öz hikmət və sünnəsinə əsasən zalımlara möhlət verir.
4. Allahın əzabının yubanması kafirlərdə belə bir fikir yaratmasın ki, onların küfrü yaddan çıxmışdır.
5. İmandan dönmək və əzaba tələsmək zülmdür.

---

[1] “Ənfal”, 32.
[2] “Əraf”, 70, 77; “Hud”, 32.
[3] “Yunus”, 11.

**59.** ﴿وَعِندَهُ مَفَاتِحُ الْغَيْبِ لاَ يَعْلَمُهَا إِلاَّ هُوَ وَيَعْلَمُ مَا فِي الْبَرِّ وَالْبَحْرِ وَمَا تَسْقُطُ مِن وَرَقَةٍ إِلاَّ يَعْلَمُهَا وَلاَ حَبَّةٍ فِي ظُلُمَاتِ الأَرْضِ وَلاَ رَطْبٍ وَلاَ يَابِسٍ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ﴾

**“Qeyb xəzinələri yalnız Allaha məxsusdur və Ondan savay kimsə xəbərdar deyil. Quruda və suda olanı bilir və O bilmədən ağacdan bircə yarpaq belə düşmür. Torpağın qaranlığında heç bir dən, heç bir yaş və quru yoxdur ki, açıq-aydın kitabda qeyd olunmasın.”**

## *Nöqtələr*

◘“Məfateh” “iftəh” sözünün cəm forması olub “xəzinə”, ya da “miftah” sözünün cəm forması olub “açar” mənasını daşıyır. Amma birinci məna daha münasib görünür.[1]

◘“Yaş və quru” təbiri hər şeyin nəzərdə tutulduğunu bildirir. Ölüm və həyat, sağlamlıq və xəstəlik, fəqirlik və var-dövlət, yaxşı və pis, mücərrəd və maddi təbirləri də yuxarıdakı təbirin oxşarıdır. Bu məsələ digər ayələrdə də bəyan olmuşdur.[2]

◘Yarpaqların düşməsi dedikdə eniş, dənlərin torpaqda inkişafı dedikdə yüksəliş hərəkəti nəzərdə tutula bilər.[3]

## *Bildirişlər*

1. Kafirlərin istədiyi əzabın dərhal gəlməməsi səbəbi Allahın varlıq sirlərindən xəbərdarlığıdır.
2. İlahi hökmlər Allahın qeyb və gerçəkdən agahlığına əsaslanır.
3. Qeyb elmi adi elmlərdən qat-qat genişdir. (Çünki Quran qeyb elminə münasibətdə xüsusi təbirlər işlədir.)
4. Bəzilərinin iddiasının əksinə olaraq, Allah elmlərdən yalnız külli şəkildə yox, varlığın bütün xırdalıqlarından da xəbərdardır. O səbəbdən də əməllərimizə diqqətli olaq.
5. Allahdan savay kimsə öz-özündən qeyb elminə xəbərdar deyil.
6. Dünyada məlumat üçün bir mərkəz mövcuddur.
7. Varlıq aləmi əvvəlcədən müəyyənləşmiş proqram əsasında qurulmuşdur.

**60.** ﴿وَهُوَ الَّذِي يَتَوَفَّاكُم بِاللَّيْلِ وَيَعْلَمُ مَا جَرَحْتُم بِالنَّهَارِ ثُمَّ يَبْعَثُكُمْ فِيهِ لِيُقْضَى أَجَلٌ مُّسَمًّى ثُمَّ إِلَيْهِ مَرْجِعُكُمْ ثُمَّ يُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“O bir kəsdir ki, sizi (ruhunuzu) gecə yatdığınız vaxt alır, gündüz gördüyünüz işlərdən xəbər tutur, sonra ömrünüzdən müəyyən müddətin keçməsi üçün sizi yuxudan qaldırır. Sonra dönəcəyiniz Ona doğrudur. O sizə gördüyünüz işlərdən xəbər verər.”**

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Yunus”, 12.
[3] “Təfsire-Fi Zilalil Quran”.

## *Nöqtələr*

◘"Cərəhtum" iş və kəsbə yarıyan üzvə, həm də işin özünə deyilir.

◘Allah yuxu zamanı insanın ruhunu götürsə də, "sizi götürürük" buyurur. Məlum olur ki, insanın bütün mahiyyəti elə onun ruhudur.

## *Bildirişlər*

1. Yuxu gerçək bir ölüm, oyanış isə bir növ qiyamətdir.
2. Təbiət qanununa əsasən gecə yuxu, gündüz iş üçündür.
3. Ömrün hər günü bir fürsət, yeni bir besətdir.
4. Həyatımızın müəyyən bir tarixi, proqramı və müddəti vardır.
5. Özümüzü qiyamət sorğusuna hazırlayaq.
6. Allah bizim pis işlərimizdən xəbərdar olsa da, yenə bizə möhlət verir, çıxarılmış ruhu cismə qaytarır.
7. Qiyamət əməllərin mahiyyətinin açıqlandığı gündür.

**61.** ﴿وَهُوَ الْقَاهِرُ فَوْقَ عِبَادِهِ وَيُرْسِلُ عَلَيْكُم حَفَظَةً حَتَّىَ إِذَا جَاء أَحَدَكُمُ الْمَوْتُ تَوَفَّتْهُ رُسُلُنَا وَهُمْ لاَ يُفَرِّطُونَ﴾

**"Qəhr və iqtidarı bəndələrindən üstün olan yalnız Odur. O sizə nəzarətçilər (hifz edən mələklər) göndərər. Sizlərdən birinin ölümü çatdıqda Bizim göndərdiklərimiz onun canını geri alar və öz işlərində heç bir səhlənkarlıq etməzlər."**

## *Nöqtələr*

◘Gecələr ruhun alınması və gündüzlər qaytarılması Allahın qəhr nümunələrindəndir.

◘Ruhun alınması Quranda həm Allaha, həm ölüm mələyinə, həm də digər mələklərə aid edilmişdir. Bəlkə də adi insanların canını mələklər, seçilmiş insanların canını ölüm mələyi, övliyaların canını isə Allah-təala özü alır. Beləcə, əvvəlcə mələklər insanların canını alır, sonra ölüm mələyinə təhvil verir, daha sonra isə ölüm mələyi ruhları Allaha təslim edir. Bu baxımdan ruhun alınması həm mələklərə, həm ölüm mələyinə, həm də Allaha aiddir.

◘«Hifz» edən mələklər» dedikdə insanı hadisələrdən qoruyan mələklər nəzərdə tutula bilər.[1] Əlbəttə ki, insanların əməllərini qeyd edən mələklər də hifz edən mələklər sayıla bilər.[2]

◘Mələklərin hifz etməsinə iman Allaha şükür amilidir. Necə ki, yazan mələklərə iman həya və təqva səbəbi olur.

---

[1] "Rəd", 11.
[2] "Zuxruf", 86.

## *Bildirişlər*

1. Allahın kamil qüdrət və hakimiyyəti vardır. Bizim azad buraxılmağımızın səbəbi isə Onun lütfünə əsaslanan möhlətdir.

2. Allah bəndələri üzərində elə bir hakimiyyətə malikdir ki, kimsədə müqavimət gücü yoxdur.

3. Yaranış nizamında müxtəlif mühafizələr mövcuddur.

4. Hifz edən mələklərin göndərilməsi daimidir.

5. Mələklərin hər bir dəstəsinin öz işi var.

6. Bir insanın ruhunun çıxarılmasında bir neçə mələk iştirak edir.

7. Mələklər öz işlərində səhlənkarlığa və xataya yol vermirlər.[1]

**62.** ﴿ثُمَّ رُدُّواْ إِلَى اللهِ مَوْلاَهُمُ الْحَقِّ أَلاَ لَهُ الْحُكْمُ وَهُوَ أَسْرَعُ الْحَاسِبِينَ﴾

**“Sonra xalq Allaha, həqiqi mövlasına doğru qaytarılar. Agah olun ki, yardım və mühakimə yalnız Allaha məxsusdur. O, hesab çəkənlərin ən sürətlisidir.”**

## *Nöqtələr*

◘Rəvayətlərdə bildirilir ki, Allah Öz bəndələrinin hesabını bir qoyunu sağmaq müddətində - olduqca tez bir zamanda - aparar.[2]

◘Həzrət Əlidən (ə) soruşdular: “Allah bu qədər məxluqun hesabına necə yetişir?” Həzrət buyurdu: “Onlara ruzi çatdırdığı kimi.” Sual olundu: “Görünmədiyi halda necə hesab aparır?” Həzrət buyurdu: “Necə ki, görünmədiyi halda bəndələrin ruzisini verir.”[3]

◘**Sual:** “Allahın hesab aparması ayə və rəvayətlərdə göstərildiyi kimi sürətlə gerçəkləşirsə, nə üçün qiyamət günü bir bu qədər uzundur?

**Cavab:** Qiyamətin uzunluğu bir növ cəzadır. Onun uzunluğunu hesabın çətinliyi ilə ölçmək olmaz.[4] (Hesabın tezliyinə gəldikdə, insan Allahın məxluqu olduğu halda, bugünkü dünyada kompüter vasitəsi ilə bir dəqiqədən də az müddətdə olduqca böyük hesabatlar aparır.)

## *Bildirişlər*

1. Hamı Allaha doğru qayıdasıdır və qiyamətin yeganə qazisi Odur.

2. Həqiqi mövla odur ki, yaratmaq, nəzarət etmək, yuxu və oyaqlıq, ölüm və dirçəliş, mühakimə və hesab Onun əlində olsun.

3. Allahdan savay bütün mövlalar batil və ya məcazidir. İlahi peyğəmbər və övliyaların hakimiyyəti isə Onun hakimiyyətinin bir şöləsidir.

4. Allahın hesab sürəti bütün hesab növlərindən itidir.

5. Hesabın tezliyi və işlərə nəzarət ilahi bir dəyər və üsuldur.

---

[1] “Təhrim”, 6.
[2] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Nurus-səqəleyn”.
[3] “Nəhcül-bəlağə”, k. 300.
[4] “Təfsire-Ətyəbul-bəyan”.

63. ﴿قُلْ مَن يُنَجِّيكُم مِّن ظُلُمَاتِ الْبَرِّ وَالْبَحْرِ تَدْعُونَهُ تَضَرُّعاً وَخُفْيَةً لَّئِنْ أَنجَانَا مِنْ هَذِهِ لَنَكُونَنَّ
مِنَ الشَّاكِرِينَ﴾

**“De ki, sizi quraqlıq və dəryanın zülmətindən (çətinliyə düşdüyünüz vaxt) xilas edən kimdir? O vaxt ki, Onu aşkar və gizlində çağırır, (deyirsiniz,) əgər Allah bizi bu zülmətlərdən qurtarsa, şükür edənlərdən olacağıq.”**

64. ﴿قُلِ اللّهُ يُنَجِّيكُم مِّنْهَا وَمِن كُلِّ كَرْبٍ ثُمَّ أَنتُمْ تُشْرِكُونَ﴾

**“De ki, Allah sizə bu zülmətlərdən və hər cür xoşagəlməzliklərdən nicat verər. (Amma) yenə siz şirk edərsiniz.”**

## *Nöqtələr*

◘“Təzərrö” aşkar dua, “xufyə” gizli dua mənasını bildirir.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Ən üstün dua ahəstə və gizli şəkildə edilən duadır.” Həzrət uca səslə dua edənləri qınamış və buyurmuşdur: “Allah eşidən və yaxındır.”[1]

◘“Yunus” surəsinin 12-ci ayəsində buyurulur: “İnsan təhlükəyə düşdükdə Allahı yada salır və onu çağırır. Amma elə ki, müşkülləri həll oldu, başını aşağı salıb gedir, sanki qətiyyən Bizi çağırmamışdır.”

◘Çətinliklər insanda dörd hal yaradır: Ehtiyac hissi, aşkar dua, ixlas və şükür etmək zərurəti. Bəli, çətinliklər və maddi vasitələrin gücdən düşməsi insandakı allahpərəstlik ruhunu dirçəldir və çətinliyə düşmüş insan Allahın qüdrətini görür.

## *Bildirişlər*

1. Təbliğ və moizə üsullarından biri xalqın vicdanına müraciət edilməsidir.
2. İnsanın çətinlik zamanı duada diqqətinin xalisliyə yönəldilməsi allahşünaslığın ən üstün yollarındandır.
3. İnsan çətinliklər zamanı küfr və şirkdən əl çəkib təkallahçı olur.
4. Hər kəs üçün onun müşkülü daha böyükdür.
5. İnsan Allah qarşısında götürdüyü öhdəliklərə vəfasızdır.
6. Ən böyük naşükürlük şirkdir.
7. Rahatlıq, ehtiyacsızlıq Allahdan xəbərsizlik və şirk zəminəsidir.

65. ﴿قُلْ هُوَ الْقَادِرُ عَلَى أَن يَبْعَثَ عَلَيْكُمْ عَذَاباً مِّن فَوْقِكُمْ أَوْ مِن تَحْتِ أَرْجُلِكُمْ أَوْ يَلْبِسَكُمْ
شِيَعاً وَيُذِيقَ بَعْضَكُم بَأْسَ بَعْضٍ انظُرْ كَيْفَ نُصَرِّفُ الآيَاتِ لَعَلَّهُمْ يَفْقَهُونَ﴾

**“De ki, O, başınız üstən və ayaqlarınız altdan sizə əzab göndərməyə, müxtəlif qruplar şəklində bir-birinizlə vuruşdurmağa, bir-biriniz vasitəsi ilə savaş və qan axıtmanın acılığını daddırmağa qadirdir. Bax ki, ayələri necə rəngarəng təkrarlayırıq. Bəlkə anlayalar.”**

---

[1] “Təfsire-Nurus-səqələyn”.

**66.** ﴿وَكَذَّبَ بِهِ قَوْمُكَ وَهُوَ الْحَقُّ قُل لَّسْتُ عَلَيْكُم بِوَكِيلٍ﴾

**“Sənin qövmün haqq söz olmasına baxmayaraq Quranı təkzib etdi. De ki, mən sizin iman gətirməyinizə vəkil deyiləm.”**

## *Nöqtələr*

◘“Ləbs” “qarışdırmaq”, “şiə” “dəstə” mənasını bildirir.

◘Əvvəlki ayədə Allahın xilas etmə qüdrəti, bu ayədə isə qəhr və əzab qüdrəti bəyan olundu.

◘İmam Baqir (ə) buyurmuşdur: «Səma əzabı» dedikdə tüstü, fəryad, «yer əzabı» dedikdə ona gömülmək, “yəlbisəkum şiyəən” dedikdə dində təfriqə nəzərdə tutulmuşdur.[1] Bəlkə də məqsəd bütün yox, bəzi nümunələrin açıqlanması olmuşdur. Məsələn, yuxarıda nəzərdə tutulan əzab həm xalqa hakim olan zalımlara, həm haqq rəhbərə itaətsizlik göstərənlərə şamildir.

◘Qurandakı növbənöv təbirlərdən məlum olur ki, İslam peyğəmbəri dini məcburi şəkildə qəbul etdirməyə yox, bəyan etməyə məsuldur.[2]

## *Bildirişlər*

1. Peyğəmbərin vəzifələrindən biri Allahın misilsiz qüdrətini xatırlatmaqdır.
2. Şirk insanın müxtəlif əzablara düçar olmasına zəmin yaradır.
3. Allah həm nicat verən, həm də əzaba salandır. Bilərəkdən Allahdan qeyrisinin sorağınca gedən insan əzab gözləməlidir.
4. Təfriqə və parçalanma göy və yer əzabı ilə yanaşı ilahi əzablardandır.
5. Bəzən xalq xalq vasitəsi ilə, bir-birlərinin əli ilə tənbeh olunur.
6. Din təbliğatçıları xalqın yola gətirilməsində müxtəlif üsullardan istifadə etməlidirlər.
7. Əgər bir mövzunu müxtəlif şəkillərdə açıqlasaq təsir daha güclü ola bilər.
8. Tutduğunuz yol haqdırsa, xalqın təkzibindən qorxmayın.
9. Sən nəticəyə yox, vəzifəni yerinə yetirməyə məsulsan.

**67.** ﴿لِّكُلِّ نَبَإٍ مُّسْتَقَرٌّ وَسَوْفَ تَعْلَمُونَ﴾

**“(Allah və ya Onun peyğəmbərinin sizə verdiyi) hər bir xəbər üçün vaxt müəyyənləşmişdir və tezliklə biləcəksiniz.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə deyildi: “Allahın hər tərəfdən sizə əzab nazil etmək qüdrəti var.” Bu ayədə buyurulur: “Əgər inadkar kafirlərə bir əzab gəlmədisə, tələsməyin. Çünki hər bir xəbərin gerçəkləşməsi üçün müəyyən zaman var.”

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] “Ənam”, 107; “Ğaşiyə”, 22; “Qaf”, 454 “Maidə”, 99; “Yunus”, 99; “Bəqərə”, 256; “Ğafir”, 23.

## *Bildirişlər*

1. Hər bir ilahi xəbərin və proqramın gerçəkləşməsi qətidir, hikmətə əsaslanır və müəyyən zaman üçün nəzərdə tutulmuşdur. (Heç bir hadisə proqramsız, məqsədsiz və təsadüfi deyil.)

2. İman gətirməyə məcbur edilməsəniz də, öz işinizin sonunu, aqibətini düşünün.

3. Tələsik mühakimə yürütməyin, Allahın sizə möhlət verməsini Onun sizdən xəbərsiz olması kimi qəbul etməyin.

**68.** ﴿وَإِذَا رَأَيْتَ الَّذِينَ يَخُوضُونَ فِي آيَاتِنَا فَأَعْرِضْ عَنْهُمْ حَتَّى يَخُوضُواْ فِي حَدِيثٍ غَيْرِهِ وَإِمَّا يُنسِيَنَّكَ الشَّيْطَانُ فَلاَ تَقْعُدْ بَعْدَ الذِّكْرَى مَعَ الْقَوْمِ الظَّالِمِينَ﴾

**"Kimlərinsə Bizim ayələrimizi (eyb tutmaq məqsədi ilə) araşdırdığını gördükdə onlardan üz döndər ki, (söhbətin mövzusunu dəyişib) digər bir mövzuya məşğul olsunlar. Əgər şeytan sənə unutdursa, hiss etdikdən sonra (bir daha) bu zalım qövmlə oturma."**

## *Nöqtələr*

◘"Xovz" dedikdə məsxərə və təhqir məqsədli araşdırma və danışıq nəzərdə tutulur. Bu danışıqda haqqı dərk etmək məqsədi olmur.[1]

◘"Bədəz-zikra" təbiri bir başqasına xatırlatmaq və ya insanın özünün xatırlaması mənasını bildirir.

◘**Sual:** İlahi peyğəmbərlər məsum sayıldığı halda nə üçün şeytanın peyğəmbərə nüfuzundan danışılır?

**Cavab:** Şeytanın unutqanlıqla bağlı təsiri fərz olunan məsələdir. Bunun oxşarı ilə Quranın başqa ayələrində də rastlaşırıq. Məsələn, əgər müşrik olsan və ya rəva olmayanı bizə aid etsən."[2]

Ayədə əsas məqsəd peyğəmbərin özü yox, ardıcılları da ola bilər. "Qızım sənə deyirəm, gəlin sən eşit" məsəlində olduğu kimi.

◘Oxşar mövzu ilə "Nisa" surəsinin 140-cı ayəsində də rastlaşırıq: "İlahi ayələrin inkar olunduğu və ya məsxərəyə qoyulduğunu eşitsəniz, onlarla əyləşməyin ki, söhbət dəyişsin."

◘Çoxsaylı rəvayətlərdə peyğəmbər və məsum imamlar günahın qarşısını almaq gücü olmadıqda günah məclisində oturmağı qadağan etmişlər. İnsanın yaxınlarına münasibətdə də bu qadağa qüvvədədir. Həzrət Əli (ə) öz övladlarına vəsiyyət edir: "Allah qulağa vacib etmişdir ki, günah və qeybəti eşitməklə razılaşmasın."[3]

◘Həzrət Peyğəmbər (s) bu ayəyə istinadən buyurmuşdur: "Allah və qiyamət gününə iman gətirən kəs imamın təhqir olunduğu və ya bir müsəlmanın eybi araşdırılan məclisdə oturmasın!"[4]

---

[1] "Təfsire-məcməul-bəyan".
[2] "Zumər", 65; "Haqqə",44.
[3] "Təfsire-Nurus-Səqəleyn".
[4] "Vəsail", c. 1, s. 266.

◘Həzrət Əli (ə) buyurmuşdur: "Pislərlə oturub-durmaq yaxşılar haqqında sui-zən yaradar."[1]

## *Bildirişlər*

1. Müqəddisliklərə münasibətdə öz qeyrət və dini təəssübünüzü düşmənlərə nümayiş etdirin.
2. Pislik və pislik əhlindən üz döndərmək nəhy əz münkər üsullarından biridir.
3. Çirkin sözlərə qulaq asmaq (azdırıcı kitablar oxuyub, proqramlara baxmaq) məzəmmət olunmuşdur. Azdırıcı kitablar və proqramları qadağan edərkən bu ayəyə əsaslanmaq olar. Əlbəttə ki, bu qadağada, zəruri məlumat toplayıb cavab verən mütəxəssislər istisnadır.
4. Azğın cəmiyyət, dəstə və ya məclisdə ərimək əvəzinə mövcud vəziyyəti dəyişin.
5. Üz döndərmək və dillə məhkum etmək kifayət deyil. Hansısa şəkildə vəziyyətə müdaxilə etmək lazımdır.
6. Zalımlarla bir məclisdə oturmaq rəva deyil və bundan çəkinək.
7. Diqqət və xəbərdarlıq vəzifə şərtidir. (Bir şeyin yaddan çıxması qəbul olunan üzrdür.)
8. Quran ayələri haqqında haqsız danışmaq (istehza, şəxsi rəy əsasında təfsir, bidət və təhrif) zülmdür.

**69.** ﴿وَمَا عَلَى الَّذِينَ يَتَّقُونَ مِنْ حِسَابِهِم مِّن شَيْءٍ وَلَكِن ذِكْرَى لَعَلَّهُمْ يَتَّقُونَ﴾

**"Təqva yolunu seçənlər onların (sitəmkarların) günahına görə sorğuya çəkilməyəcəklər. Amma onlara nəsihət verməlidirlər ki, bəlkə təqvalılardan olalar."**

## *Nöqtələr*

◘Pis danışanlar və məsxərəyə qoyanlarla yoldaşlığı qadağan edən ayə nazil olduqda bir dəstə dedi: "Deməк, Məscidül-hərama da getməməli, təvaf etməməliyik. Çünki istehza edənlərin əli oraya uzanmışdır." Ayə nazil oldu ki, gücləri qədərində xatırladan təqvalı müsəlmanların hesabı ayrıdır. Onlar Məscidül-həramı tərk etməsinlər."[2]

◘Nəhy əz münkər və doğru yola çağırış məqsədi ilə günah əhlinin məclisində iştirak etməyin eybi yoxdur. Əlbəttə ki, bu istisna təqvalı və təsirə düşməyən insanlara aiddir. Çoxları isə boğulanı qurtarmaq istədikdə özləri qərq olurlar.

Su çəkmək istərkən çaydan bir qulam,
Çay alıb qulamı apardı lapdan.

---

[1] "Vəsail", c. 16, s. 365.
[2] "Təfsire-Nurus-Səqəleyn".

## *Bildirişlər*

1. Məsələlərdə "əhəmm" və "mühüm" (əhəmiyyətli və daha əhəmiyyətli) prinsipinə riayət edilməsi əqli və islami üsullardandır. Azğınları qurtarmaq və ya pis sözə cavab vermək məqsədi ilə müvəqqəti olaraq haqsızlığı dinləmək caizdir.

2. Təqva insanı günahdan qoruyan vasitədir. (Yanğın söndürənləri oddan qoruyan xüsusi libas kimi.)

3. Haqsız danışanlarla yoldaşlıqdan çəkinək və onların sözünü dinləməyək. Amma özümüzdən asılı olmayaraq bir söz eşitsək, bunun eybi yoxdur.

4. Özümüz təqvalı olmaqla yanaşı başqalarının da təqvalı olmalarına çalışaq.

**70.** ﴿وَذَرِ الَّذِينَ اتَّخَذُواْ دِينَهُمْ لَعِبًا وَلَهْوًا وَغَرَّتْهُمُ الْحَيَاةُ الدُّنْيَا وَذَكِّرْ بِهِ أَن تُبْسَلَ نَفْسٌ بِمَا كَسَبَتْ
لَيْسَ لَهَا مِن دُونِ اللّهِ وَلِيٌّ وَلاَ شَفِيعٌ وَإِن تَعْدِلْ كُلَّ عَدْلٍ لاَّ يُؤْخَذْ مِنْهَا أُوْلَئِكَ الَّذِينَ أُبْسِلُواْ بِمَا
كَسَبُواْ لَهُمْ شَرَابٌ مِّنْ حَمِيمٍ وَعَذَابٌ أَلِيمٌ بِمَا كَانُواْ يَكْفُرُونَ﴾

**"Dinlərini oyun-oyuncağa çevirənlərdən, dünya həyatının məğlub etdiyi kəslərdən əl götür. Quran vasitəsi ilə onlara öyüd ver. Məbada, kəsb etdiklərinin cəzası ilə məhv olsunlar. Halbuki Allahdan savay heç bir yardımçıları və şəfaətçiləri yoxdur!Əgər (həmin gün insan cəzasına görə) istənilən cür əvəz ödəsə, ondan qəbul olunmaz. Onlar o kəslərdir ki, kəsb etdiklərinin cəzası olaraq fəlakətə düşdülər. Onlar üçün küfrlərinin cəzası olaraq yanar sudan şərab və dərdli əzab olacaq."**

## *Nöqtələr*

◘Ayədə azğınlardan əl götürülməsi dedikdə, onlara nifrətin izharı və rabitələrin kəsilməsi nəzərdə tutulur. Bəzən bu, müxaliflərlə döyüşlə sona çatır. Şübhəsiz ki, təkcə müxaliflərlə cihadın tərk olunması nəzərdə tutulmur.

◘"Tubsəl" dedikdə yaxşılıqlardan məhrum olub fəlakətə çatmaq nəzərdə tutulur.

◘Dinin oyuncağa çevrilməsi hər dönəmdə müəyyən bir formada təzahür etmişdir. Bəzən xurafi əqidələr izhar edilmiş, bəzən hökmlərin icrası mümkünsüz sayılmış, bəzən günahlara don geyindirilmiş, bəzən bidətə əl atılmış, bəzən rəy əsasında təfsir verilmiş və mütəşabeh ayələr əsas götürülmüşdür.

## *Bildirişlər*

1. Dini qeyrət cəmiyyətdə dinsizlərin və əqidə müxaliflərinin rədd edilməsinə səbəb olur. Digər ayələrdə də bu məsələyə toxunulmuşdur.[1]

2. Dünyaya bağlılıq və aldanış dinin oyuncağa çevrilməsi üçün zəmindir.

3. Xatırlatma və moizə ilahi qəhr-qəzəbdən qurtuluş səbəbidir.

4. Xatırlatma zamanı Qurandan bəhrələnməliyik.

5. Dünya ilə qürrələnməyək. Qiyamətdə Allahdan savay köməyimiz yoxdur.

6. İnsanın bədbəxtlik amili onun özü və əməlləridir.

---

[1] "Səcdə", 30; "Hicr", 3; "Nəhl", 127.

**71.** ﴿قُلْ أَنَدْعُو مِن دُونِ اللّهِ مَا لاَ يَنفَعُنَا وَلاَ يَضُرُّنَا وَنُرَدُّ عَلَى أَعْقَابِنَا بَعْدَ إِذْ هَدَانَا اللّهُ كَالَّذِي
اسْتَهْوَتْهُ الشَّيَاطِينُ فِي الأَرْضِ حَيْرَانَ لَهُ أَصْحَابٌ يَدْعُونَهُ إِلَى الْهُدَى ائْتِنَا قُلْ إِنَّ هُدَى اللّهِ هُوَ الْهُدَىَ
وَأُمِرْنَا لِنُسْلِمَ لِرَبِّ الْعَالَمِينَ﴾

**“De ki, Allah bizi hidayət etdikdən sonra bizə heç bir faydası və zərəri olmayan Allahdan qeyrisinimi çağıraq?! Geriyəmi (küfrəmi) qayıdaq?! Şeytanların yerdə yoldan çıxarıb azdırdığı kəs kimimi?! Hansı ki, onun yardımçıları var, onu hidayətə dəvət edib (deyirlər,) yanımıza gəl (haqqı qəbul et... Amma o dinləməz.) De ki, Allah tərəfindən gələn hidayət həqiqidir və bizə aləmlərin Rəbbi qarşısında təslim olmaq əmr edilib.”**

**72.** ﴿وَأَنْ أَقِيمُواْ الصَّلاةَ وَاتَّقُوهُ وَهُوَ الَّذِيَ إِلَيْهِ تُحْشَرُونَ﴾

**“(Bizə əmr olunub ki,) namazı bərpa edək, Ondan (Allahdan) qorxaq. Hüzurunda hamının məhşur olacağı Odur.”**

## *Nöqtələr*

◘Yetmiş ikinci ayədə dini vəzifələr arasından namaza və əqidələr arasından məada işarə olunmuşdur. Bu, namaz və məadın əhəmiyyətini göstərir.

◘Bir olan Allaha pərəstişdə aramlıq və təmərküz var. Şirk və çoxallahlıq isə insanda mövqesizlik, giclik yaradır.[1] Hər hansı bir vicdanlı şəxs etiraf edər ki, bir olan Allah növbənöv tanrılardan üstündür. Allah həm təkdir, həm də razılığında yubanmır. Yalançı məbudlar isə çoxdur, onların hər birinin öz tələbi var və asanlıqla razılaşmırlar.

## *Bildirişlər*

1. Suallar ünvanlamaqla vicdanları hərəkətə gətirək.
2. İnsanın pərəstişdə məqsədi fayda qazanmaq, zərəri dəf etməkdir. Bütlərdə isə belə bir qüdrət yoxdur. Bu baxımdan şirk qeyri-məntiqidir.
3. Xalqın mənfəət meylindən onların təbliğ və tərbiyəsində istifadə edək.
4. Şirk bir növ geriyə addım və etiqadi irticadır.
5. Şirk avaralıq və mövqesizlik səbəbidir.
6. Çaşqınlıqlar qarşısında qəti və aşkar mövqe tutulmalıdır.
7. Allaha təslimçilik öz inkişafımız üçün faydalıdır.
8. Namaz təqva ilə müşayiət olunduqda səmərə verir.
9. Məad və qiyamətə iman insanda təqvanın yaranması amilidir.

**73.** ﴿وَهُوَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ بِالْحَقِّ وَيَوْمَ يَقُولُ كُن فَيَكُونُ قَوْلُهُ الْحَقُّ وَلَهُ الْمُلْكُ
يَوْمَ يُنفَخُ فِي الصُّوَرِ عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ وَهُوَ الْحَكِيمُ الْخَبِيرُ﴾

---

[1] “Yusuf”, 39.

**“O, göyləri və yeri haqq olaraq yaradan kəsdir. O gün ki “ol” deyər, yubanmadan olar. Onun sözü haqdır. (Qiyamət zamanı) sur üfürülən gün hakimiyyət yalnız Onundur. O, qeybi və aşkarı biləndir. Odur hikmət sahibi və agah.”**

## *Nöqtələr*

◘Quranda surun iki növ üfürülməsi qeyd olunur: Bunlardan biri viranedici, digəri qiyamət üçün dirçəldicidir. Bu ayədə həmin məsələyə bir dəfə toxunulur. Amma “Zumər” surəsinin 68-ci ayəsində iki sur üfürülməsinə işarə olunmuşdur.

◘Əgər əvvəlki ayələrdə söhbət Allah qarşısında təslimçilik və namazın bərpasından gedirdisə, bu ayədə həmin mövzuların səbəbləri zikr olunur. Bildirilir ki, yaranış Allahın əlindədir, O, agah və hikmət sahibidir, hər şeydən xəbərdardır.

◘İmam Sadiq (ə) “qeyb və aşkardan xəbərdardır” cümləsi haqqında buyurmuşdur: “Qeyb odur ki, hələ ki, gəlməmişdir. Aşkar isə olmuş və hazırda olandır.”[1]

## *Bildirişlər*

1. Yaranış hikmətli və məqsədlidir. Bu məsələyə bir çox ayələrdə işarə olunmuşdur.[2]
2. Allahın istək və iradəsi qarşısında heç bir maneə yoxdur.
3. Allah üçün qeyb və aşkar, məxfi və aydın eynidir.
4. Allahın hakimiyyəti hikmət və elmə əsaslanır.
5. Qiyamətdə ilahi qüdrət hamı üçün aşkarlanar. Çünki orada bütün vasitələr aradan götürülər.

**74.** ﴿وَإِذْ قَالَ إِبْرَاهِيمُ لأَبِيهِ آزَرَ أَتَتَّخِذُ أَصْنَامًا آلِهَةً إِنِّي أَرَاكَ وَقَوْمَكَ فِي ضَلاَلٍ مُّبِينٍ﴾

**“(Xatırla) o zaman ki, İbrahim atası Azərə dedi: “Bütləri tanrımı tutursan? Şübhəsiz, səni və qövmünü aşkar azğınlıqda görürəm.”**

## *Nöqtələr*

◘Təbii ki, “əb” sözü ata mənasını bildirir. Amma ana babaya, əmi və tərbiyəçiyə də “əb” deyilir. Yaqubun övladları da ataları və atalarının əmisinə “əb” deyirdilər.[3] Həzrət peyğəmbər buyurur: “Mən və Əli (ə) bu ümmətin atalarıyıq.”[4] Belə ki, Azər İbrahimin atası yox, əmisi idi. İbrahimin ata-babası isə təkallahçı olmuşdular.

Təbəri, Alusi, Süyuti kimi sünni alimləri də deyirlər: “Azər İbrahimin atası olmamışdır. Bundan əlavə, İbrahim öz ata-anası haqqında dua edir.[5] Hansı ki, müsəlman hətta ən yaxın adamı müşrik olduqda, onun bağışlanması üçün dua edə bilməz.

---

[1] “Məaniyul-Əxbar”, s. 146.
[2] “Sad”, 27.
[3] “Bəqərə”, 133.
[4] “Bihar”, c. 16, s. 364.
[5] “İbrahim”, 41.

Bütün deyilənlərdən belə məlum olur ki, ayədə “əb” ata mənasını bildirmir. Onu da qeyd edək ki, tarix kitablarında İbrahimin atasının adı “Tarux” (terax) kimi zikr olunmuşdur.[1]

◘İbrahim əmisi Azərə hələ ondakı küfr ruhu aşkarlanmadığı bir vaxt dua etmişdi. Amma Azərin haqqı qəbul etmədiyi aşkar olduqda İbrahim ondan ayrıldı.[2]

## *Bildirişlər*

1. Qohumluq nəhy əz münkərə mane ola bilməz.
2. Münasibətlərdə meyar insanın yaşı yox, haqdır.

(Həzrət İbrahim yaşlı əmisinə haqqı aşkar bəyan edib xəbərdarlıq etmişdi.)

3. Haqqa dəvət edərkən yaxınlardan başlamaq lazımdır. Söhbətdə diqqət əsas məsələyə yönəldilməlidir.
4. Şirk və bütpərəstlik həzrət İbrahimin risalətindən qabaq vardı.
5. Çoxluq, yaş batili haqq etmir və hər bir şəraitdə dəyər sayılmır.
6. Bütpərəstlik sağlam vicdan və ağılın məzəmmət etdiyi azğınlıqdır.
7. İbrahim həlim təbiətli olsa da,[3] və peyğəmbər hətta fironla da yumşaq danışmalıdırsa, həzrət İbrahim bu ayədə əmisinin küfrdə israrına xatir sərtdir.

**75.** ﴿وَكَذَلِكَ نُرِي إِبْرَاهِيمَ مَلَكُوتَ السَّمَاوَاتِ وَالأَرْضِ وَلِيَكُونَ مِنَ الْمُوقِنِينَ﴾

**“Göy və yer mülkünü bu sayaq İbrahimə göstərdik ki, (xatircəmlik tapıb) yəqin əhlindən olsun.”**

## *Nöqtələr*

◘Ayədəki “mələkut” sözü haqqında müxtəlif rəylər vardır və onların bəzilərini nəzərdən keçiririk:

“Mələkut” sözü “mülk” sözündəndir. Bu sözün sonuna artırılmış “vav” və “ta” hərfləri təkid, mübaliğə bildirir. “Səmaların mülkü” dedikdə Allahın onlar üzərindəki mütləq və həqiqi malikliyi nəzərdə tutulur. “Mülkün müşahidəsi” dedikdə isə əşyanın Allaha aidlik baxımından müşahidəsi başa düşülür. “Mələkuti baxış” varlıq aləmindəki tövhidin və şirkin batil olmasının dərkidir.[4]

Varlıq aləmi dörd hissəyə bölünür: Lahut (Allahdan başqalarının xəbərsiz olduğu ilahi aləm), Cəbərut (mücərrədliklər aləmi), Mələkut (cisimlər aləmi), Nasut (varlıq, fəsad, dəyişiklik, hadisələr aləmi.)[5]

Mələkut aləmi sirr, nəzm, qəribəliklər aləmi və qeyb dünyasıdır.[6] Mələkut göylər və ondakı qəribəliklərdir.[7]

---

[1] “Təfsire-əl-Mizan”.
[2] “Tövbə”, 114.
[3] “Tövbə”, 114.
[4] “Təfsire-Əl-Mizan”.
[5] “Təfsire-Ətyəbul-bəyan”.
[6] Qamus, “Mucəmul vəsit”.
[7] “Təfsire-Ruhul-Məani”.

İbrahim səma və yer səltənətini gördükdə Allahın sünnə, xilqət, hikmət və rübubiyyəti ilə daha artıq tanış oldu. İmam Baqirin (ə) buyruğuna görə Allah İbrahimin gözünə bir qüdrət və nur vermişdi ki, səmaların, ərşin və yerin dərinliyini müşahidə edirdi.”[1]

◘Möhkəm dəlillər və başqalarına elmi yanaşma qəlb imanına ehtiyaclıdır. Həzrət İbrahim də yəqinliyə çatdıqdan sonra dəlillərə varırdı ki, bu da növbəti ayələrdə bəyan olunmuşdur.[2]

◘“Vəliyəkunə minəl-muqinin” cümləsindəki “vav” hərfi ilahi baxışın bir neçə məqsəd daşıdığını bildirir. Onlardan biri Həzrət İbrahimin yəqinə çatmasıdır.

## *Bildirişlər*

1. Haqqı tanıyıb ona dəvət edən və heç nədən çəkinməyən kəsə Allah ilahi (mələkuti) baxış əta etmişdir. Ötən ayəyə əsasən, həzrət İbrahim də bu məqama çatmışdı. Bəli, bir gənc də mənəvi təkamüllə ilahi baxış əldə edə bilər. Çoxsaylı təfsirlərə əsasən, İbrahim həmin vaxt bir yeniyetmə idi.
2. Peyğəmbərlər Allahın xüsusi hidayətindən bəhrələnmişlər.
3. İmanın ən ali dərəcəsi yəqindir.
4. Yəqinə çatmaq üçün ilahi yardıma ehtiyac var.

**76.** ﴿فَلَمَّا جَنَّ عَلَيْهِ اللَّيْلُ رَأَى كَوْكَبًا قَالَ هَذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لا أُحِبُّ الآفِلِينَ﴾

**“Elə ki, gecə ona pərdə çəkdi, bir ulduz görüb dedi: “Bu, mənim Rəbbimdir.” Elə ki, (ulduz) qürub etdi, o dedi: “Mən zavala uğrayanları sevmirəm.”**

## *Nöqtələr*

◘Həzrət İbrahimin dövründə ulduzpərəstlik yayılmışdı. İnsanlar ulduzun tədbir qüdrətinə malik olduğunu düşünürdülər.

◘**Sual:** Həzrət İbrahim kimi böyük bir peyğəmbər bir an da olsa ulduz, ay və ya günəşə pərəstiş edə bilərdimi?

**Cavab:** Həzrət İbrahimin müşriklərlə söhbəti qəlb əqidəsini bəyan etmək yox, qarşı tərəfin əqidəsini rədd etmək məqsədi daşıyırdı. Növbəti iki ayədə “ey qövm” müraciəti “bu mənim Rəbbimdir” deyimindəki yanaşma, yola getmə məqsədini göstərir. Həzrət İbrahim ay və günəşin batdığını gördükdə «sizin şirkinizdən üz döndərdim»-deyə buyurur. (ayə 78)

Bundan əlavə, əvvəlki ayədə oxuduq ki, Allah göy və yer səltənətini İbrahimə göstərdi və o, yəqinə çatdı. Ayənin “fa” hərfi ilə başlaması, haqqında danışılan ilahi səltənət və yəqinin uyğun növ dəlillərlə nəticələnməsini göstərir. (Ərəb qrammatikasına əsasən.)

---

[1] “Təfsire-Nurus-Səqəleyn”.
[2] “Təfsire-Əl-Mizan”.

◘Doğan və batan bir mövcud, qanunlara hakim yox, məhkumdur. Həzrət İbrahim sonradan uyğun baxışı rədd etmək üçün əvvəlcə müvəqqəti olaraq onu qəbul etdiyini bildirir.

## *Bildirişlər*

1. Haqqı sübuta yetirmə üsullarından biri əvvəlcə batil əqidədə olanlarla həmfikirliyi izhar edib sonra onu rədd etməkdir.
2. Fitrətləri oyatmaq, düşüncələri hərəkətə gətirmək, diqqəti hisslərə yönəltmək ən üstün təbliğ üsullarındandır.
3. Həqiqi məhbub üçün məkan, zaman məhdudiyyəti yoxdur.
4. Məbud məhbub və ibadət aşiqanə olmalıdır. Dinin ruhu eşqdir.

**77.** ﴿فَلَمَّا رَأَى الْقَمَرَ بَازِغًا قَالَ هَذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لَئِن لَّمْ يَهْدِنِي رَبِّي لأكُونَنَّ مِنَ الْقَوْمِ الضَّالِّينَ﴾

**"Növbəti dəfə ayı tülu və parlayan halda gördükdə dedi: "Bu mənim Rəbbimdir." Elə ki, (ay) qürub etdi dedi: "Əgər Rəbbim məni hidayət etməsəydi, şübhəsiz, azğın dəstələrdən olardım."**

## *Nöqtələr*

◘"Baziğ" sözü parçalamaq və qan axıtmaq mənasını bildirir. Burada isə günəş və ay zülmət pərdəsini yırtır və onların ətrafında bir qızartı müşahidə olunur.[1]

◘İbrahim həm ulduzpərəstlər, həm də ay-günəşpərəstlərlə üz-üzə gəlmişdi.[2] Bir çox təfsirçilərin bildirdiyinə görə, həzrət İbrahim Babil məntəqəsinin müşrikləri ilə qarşılaşmışdı.

◘İnsan hər hansı ehtimalla çıxılmaz vəziyyətə düşdükdə inadkarlıq göstərməməli, yolu dəyişməlidir. "Kişi dediyindən dönməməlidir" deyiminin əksinə olaraq, ayə bizə buyurur: "Kişi odur ki, mövqeyini dəyişməklə də olsa, sözü haqq olsun."

## *Bildirişlər*

Ötən ayənin bir, iki və üçüncü bildirişləri bu ayəyə də aiddir.

4. Tənqiddə "addım-addım" üsullardan istifadə etməliyik. Ötən ayədə buyuruldu: "Mən zavala uğrayanları (batanları) sevmirəm." Bu ayədə isə belə buyurulur: "Aya pərəstiş azğınlıq və zəlalətdir."
5. Haqqı tanıma yolunda ilahi feyz və hidayətə arxalanmaq lazımdır. İlahi yardımsız şirin maarif çeşməsinə yetişmək olmaz.[3]
6. İnsanın daxili bir itkisi var. Bəzən bu itkinin axtarışında olan insan onun oxşarları ilə rastlaşır və azır. Bu mövzu ilə ardıcıl olaraq iki ayədə rastlaşırıq.
7. Peyğəmbərlər də ilahi hidayətə ehtiyaclıdırlar.
8. Hidayət rübubiyyət şənindədir.

---

[1] "Təfsire-Nümunə".
[2] "Təfsire-Nurus-Səqəleyn".
[3] "Təfsire-əl-Mizan".

78. ﴿فَلَمَّا رَأَى الشَّمْسَ بَازِغَةً قَالَ هَذَا رَبِّي هَذَآ أَكْبَرُ فَلَمَّا أَفَلَتْ قَالَ يَا قَوْمِ إِنِّي بَرِيءٌ مِّمَّا تُشْرِكُونَ﴾

**“Elə ki günəşi doğmuş gördü, dedi: “Budur mənim Rəbbim! Bu, (ayla ulduzdan) daha böyükdür.” Amma elə ki, (günəş) qürub etdi, dedi: “Ey mənim qövmüm! Həqiqətən, mən Allaha şərik qoşduğunuza düşmənəm.”**

## *Nöqtələr*

◘Bu ayədə də həzrət İbrahim öz əqidəsini yox, qarşı tərəfin əqidəsini ortaya qoyur. “Sizin şərik qoşduğunuz” ifadəsi həzrət İbrahimin şəxsən özünün aya, günəşə və ulduza sitayiş etmədiyini göstərir.[1]

## *Bildirişlər*

76-cı ayənin bir, iki və üçüncü bildirişləri bu ayə üçün də qüvvədədir.

4. Cisimlərin kiçik-böyüklüyü mühüm deyil. Bütün cisimlər dəyişən və müvəqqətidir. Ona görə də cismi Allah saymaq olmaz.

5. Haqqın təlim və batilin tənqid üsulu addım-addım olmalıdır. Əvvəlcə ulduz və ay, nəhayət, günəş inkar olunur.

6. Şirkdən cana yığılma, şirklə düşmənçilik İbrahimə xas bir fəryaddır.

7. Düşmənçilik fərdlərlə yox, şirkə yönəlmişdir.

8. Əvvəlcə dəlillər bəyan olunmalı, sonra arxa çevrilməlidir. (Əvvəlcə tülu və qürub bəyan olundu, sonra şirkə arxa çevrildi.)

79. ﴿إِنِّي وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالأَرْضَ حَنِيفًا وَمَا أَنَاْ مِنَ الْمُشْرِكِينَ﴾

**“Mən xalisliklə üzümü bir kəsə döndərmişəm ki, səmaları və yeri yaratdı. Mən müşriklərdən deyiləm.”**

## *Nöqtələr*

◘Qürub, müvəqqətilik bəyanatından sonra sabitliyə çatmaq Allahın İbrahimə əta etdiyi ilahi baxışdan danışır.

◘“Hənif” xalis və büdrəməsiz, doğru yola meyl mənasını bildirir.

◘Lüğət baxımından “yaratmaq” mənasını verən, “fətərə” sözü ayədə parçalama mənasını bildirir. Bəlkə də burada günün elminə işarə olunmuşdur. Aləm ilk öncə vahid bir nüvə olmuş, sonra parçalanaraq ayrı-ayrı planetlərə çevrilmişdir.[2]

## *Bildirişlər*

1. Haqq yol bizə aşkar olan kimi qəti şəkildə onu elan edək və tənhalıqdan qorxmayaq.

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.

[2] “Təfsire-Nümunə”.

2. Cüzi, maddi, məhdud və fani bütlərə pərəstişdən üz döndərən kəs külli, mənəvi, sonsuz və əbədi məbuda yetişir.

3. Görüntülər bizi aldatmasın, onlar tez, ya gec gözdən itir. Görüntüləri yaradan Allaha diqqət yetirin.

4. İnsan elə bir məqama çata bilər ki, nəsillərin və əsrlərin batil əqidələrini aradan qaldırsın.

5. Həqiqi tövhid şirkə arxa çevirməklə müşayiət olunur.

80. ﴿وَحَآجَّهُ قَوْمُهُ قَالَ أَتُحَاجُّونِّي فِي اللّهِ وَقَدْ هَدَانِ وَلاَ أَخَافُ مَا تُشْرِكُونَ بِهِ إِلاَّ أَن يَشَاء رَبِّي شَيْئًا وَسِعَ رَبِّي كُلَّ شَيْءٍ عِلْمًا أَفَلاَ تَتَذَكَّرُونَ﴾

**“Qövmü onunla danışıq və höcətləşməyə başladı. O dedi: “Yoxsa Allah haqqında mənimlə höcətləşirsiniz? Bir halda ki, O, məni hidayət etmişdir və mən sizin Ona şərik güman etdiklərinizdən qorxmuram. Allahımın istəyi istisnadır. (Hətta mənə bir zərər toxunsa, bütlərin yox, Allahın istəyidir.) Allahımın elmi hər şeyi əhatə etmişdir. Öyüd götürmürsünüzmü?”**

## *Bildirişlər*

1. Batil əhli təəssübkeşdir. (Borclunu rahat buraxdıqda tələbkarlıq etdiyi kimi, azğın qövm də öz şirkindən xəcalət çəkmək əvəzinə alimlik iddiası edir.)

2. Batil əhlinin təəssübü və inadkarlığı təəccüb doğurur.

3. Bir Allaha inanan (müvəhhid) tənha qalsa da, cəmiyyətlə baş-başa gəlməkdən narahat olmur.

4. Haqqı axtarmaq insanın, hidayət Allahın işidir. (Peyğəmbərlər də ilahi hidayətə ehtiyaclıdırlar.)

5. İlahi hidayətə nail olan üçün qorxu yoxdur.

6. Allahdan qeyrisindən qorxmamaq tövhid nişanəsidir. (Müşriklər həzrət İbrahimi bütlərin intiqamını alacaqları ilə hədələyirdilər.)

7. Bütlərdən və zalım hakimlərdən qorxu şirk əqidəsindən qaynaqlanır. (Bütlərdən qorxu bütpərəstlik təəssübü doğururdu.)

8. Hər bir hadisənin təsiri və rolu Allahın iradəsinə bağlıdır.

9. Rübubiyyət, elmi əhatəsi olana layiqdir.

10. Həqiqət fitri və vicdani bir şeydir və onu tanımaq üçün xatırlama kifayətdir.

81. ﴿وَكَيْفَ أَخَافُ مَا أَشْرَكْتُمْ وَلاَ تَخَافُونَ أَنَّكُمْ أَشْرَكْتُم بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ عَلَيْكُمْ سُلْطَانًا فَأَيُّ الْفَرِيقَيْنِ أَحَقُّ بِالأَمْنِ إِن كُنتُمْ تَعْلَمُونَ﴾

**“Sizin Allaha şərik qoşduğunuz şeydən necə qorxum? Hansı ki, siz, haqqında Allah tərəfindən heç bir dəlil nazil olmayanı Ona şərik qoşur və qorxmursunuz?**

**Əgər bilirsinizsə (deyin ki,) bu iki dəstədən hansı (qiyamətdə) qurtuluşa daha layiqdir?”**

## *Nöqtələr*

◘Ayədəki “sultan” sözü dəlil, höccət mənasını bildirir.

◘Qorxunu Allaha etiqad səbəbləri bilənlərin əksinə olaraq, ayə qorxunu şirk səbəbi bilir. Ehtimali hədələrdən qorxmayın.

## *Bildirişlər*

1. Xəyali hədələrdən qorxmayın.
2. Ruhi aramlıq yalnız tövhid sayəsində əldə edilir.
3. Dini əqidələr dəlilə əsaslanmalıdır.
4. Mübahisə zamanı xalqın təəssüb hissini qızışdırmaq olmaz. Ayədə buyurulur ki, biz amandayıq, siz təhlükədə.
5. Həqiqi elm Allaha doğru yolu göstərir. Əgər ondan düzgün istifadə etsək, nəticələr də düzgün olar.

**82.** ﴿الَّذِينَ آمَنُواْ وَلَمْ يَلْبِسُواْ إِيمَانَهُم بِظُلْمٍ أُوْلَئِكَ لَهُمُ الأَمْنُ وَهُم مُّهْتَدُونَ﴾

**“İman gətirib imanlarını zülm və şirkə bulaşdırmayanlar o kəslərdir ki, onlar üçün əzabdan qurtuluş var. Onlar hidayətə nail olanlardır.”**

**83.** ﴿وَتِلْكَ حُجَّتُنَا آتَيْنَاهَا إِبْرَاهِيمَ عَلَى قَوْمِهِ نَرْفَعُ دَرَجَاتٍ مَّن نَّشَاء إِنَّ رَبَّكَ حَكِيمٌ عَلِيمٌ﴾

**“Bu (növ dəlil) qövmü qarşısında Bizim İbrahimə verdiyimiz höccətdir. İstədiyimiz kəsi (layiq bilsək) yüksək dərəcəyə çatdırarıq. Həqiqətən, sənin Rəbbin hikmət sahibi və biləndir. (Elm və hikmət əsasında insanların məqamını ucaldır.)**

## *Nöqtələr*

◘Əvvəlki ayələr tövhid və şirk haqqında idi. Bu ayələr ötən ayələrin xülasəsi yerindədir. Necə ki, hədisdə buyurulur: “Zülm dedikdə bu ayədə şirk nəzərdə tutulur.”[1]

◘Bəzi rəvayətlərdə zülm şəkk-şübhə kimi mənalandırılmışdır.[2] Əlbəttə ki, bəzən şirk ixtiyarsız, araşdırmanın müqəddiməsi kimi ortaya çıxır. Bəzən isə şəkkin səbəbi bəhanə olur. Bu növ şəkk zülmdür.[3]

◘İmam Baqir (ə) buyurmuşdur: «Bu ayə, həyatı boyu bir an belə şirkə yol verməmiş həzrət Əli (ə) haqqında nazil olmuşdur.»[4]

---

[1] “Təfsire-Nurus-Səqəleyn”.
[2] “Təfsire-Nurus-Səqəleyn”; “Kafi”, c.2, s. 399.
[3] “Təfsire-Rahnoma”.
[4] “Bihar”, c. 23, s. 367.

◘“Ləbs” sözü örtmək mənasını bildirir. İman fitri olub heç vaxt məhv olmadığından, güman ki, söhbət onun üstünün tozla örtülməsindən gedir.

## *Bildirişlər*

1. İmanın bəlası zülm, şirk və qeyri-ilahi rəhbərlərin ardınca getməkdir.
2. İmanın hifzi imanın özündən mühümdür.
3. Gerçək əmin-amanlıq və hidayət iman və ədalət sayəsində mümkün olur. (Nə zalım möminlər, nə də imansız ədalətlilər hidayət oldu.)
4. İman xalisləşənədək təşviş var.
5. Tədbir və müdiriyyət üçün elm və hikmət iki zəruri şərtdir. (Nəzərə alaq ki, “Rəbb” sözünün lüğət mənası müdir, tərbiyəçidir.)
6. Cəmiyyətin azğınlıqları qarşısında dəlillə dayanan müvəhhid şəxsin dərəcələri var.
7. İlahi dərəcələr insanlara hikmət əsasında verilir.

**84.** ﴿وَوَهَبْنَا لَهُ إِسْحَقَ وَيَعْقُوبَ كُلاًّ هَدَيْنَا وَنُوحًا هَدَيْنَا مِن قَبْلُ وَمِن ذُرِّيَّتِهِ دَاوُودَ وَسُلَيْمَانَ
وَأَيُّوبَ وَيُوسُفَ وَمُوسَى وَهَارُونَ وَكَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ﴾

**“Biz ona (İbrahimə) İshaq və Yaqubu bəxş etdik. Onları birbəbir hidayət etdik. Nuhu isə onlardan qabaq hidayət etmişdik. Onun (İbrahimin) nəslindən Davud, Süleyman, Əyyub, Yusif, Musa, Harunu (da hidayət etdik). Biz yaxşı əməl sahiblərinə bu sayaq mükafat veririk.”**

## *Nöqtələr*

◘Bu və növbəti iki ayədə peyğəmbərlərdən on yeddisinin adı çəkilmişdir. Bu on yeddi nəfərin ardıcıl şəkildə yada salınmasının səbəbi onların eyni dövrdə yaşaması və ya eyni rütbəyə malik olması deyil. Bəlkə də bu qruplaşdırmanın səbəbi onların hakimiyyət sahibi olmalarıdır. Əgər 84-cü ayədə hakimiyyəti olan peyğəmbərlər yada salınmışsa, 85-ci ayədə fəqir və dünya həyatından bəhrələnməmiş peyğəmbərlər zikr olunur. 86-cı ayədə isə xüsusi çətinliklərlə üzləşmiş peyğəmbərlər yada salınır.[1]

◘“Zürriyyə” sözü iki cür mənalandırıla bilər: “Onun nəslindən” mənasını verən bu söz həm həzrət İbrahimə, həm də Nuha aid ola bilər. Əvvəlki ayələr İbrahim haqqında olduğundan rəvayətlərdə birinci mənalandırma əsas yer tutur. Amma Nuhun adı öncə çəkildiyindən bəziləri bu sözün Nuha aid olduğunu bildirmişlər. Onun nəslindən Lut kimi peyğəmbərlər seçilmişdir.

---

[1] “Təfsire-Əl-Mizan”.

## *Bildirişlər*

1. Saleh övlad ilahi bir hədiyyədir.
2. Peyğəmbərlər övladı olmaq iftixar deyil. İbrahimin nəsli kamilliklərə malik idi və ilahi hidayətə nail olmuşdu.
3. Hidayət və peyğəmbərlik sünnəsi daim cərəyanda olmuşdur.
4. İlahi lütflər hesabsız və ya səbəbsiz verilmir.

**85.** ﴿وَزَكَرِيَّا وَيَحْيَى وَعِيسَى وَإِلْيَاسَ كُلٌّ مِّنَ الصَّالِحِينَ﴾

**"Zəkəriyya, Yəhya, İsa və İlyası (da hidayət etdik və) onların hər biri ləyaqət tapanlardandır."**

**86.** ﴿وَإِسْمَاعِيلَ وَالْيَسَعَ وَيُونُسَ وَلُوطًا وَكُلاًّ فضَّلْنَا عَلَى الْعَالَمِينَ﴾

**"İsmail, Yəsə, Yunus, Lutu (da hidayət etdik) və onların hər birinə aləmdəkilərdən üstünlük verdik."**

**87.** ﴿وَمِنْ آبَائِهِمْ وَذُرِّيَّاتِهِمْ وَإِخْوَانِهِمْ وَاجْتَبَيْنَاهُمْ وَهَدَيْنَاهُمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**"Onların atalarından, züryətlərindən, qardaşlarından (ləyaqətlərinə görə) seçdik və doğru yola hidayət etdik."**

## *Nöqtələr*

◘Bəzilərinin fikrincə, nəsil (züryət) dedikdə yalnız insanın oğuldan olan nəvələri nəzərdə tutulur. Amma həzrət İsanın atası yox idi və o yalnız ana tərəfdən İbrahimə bağlı idi. Beləcə, həzrət İsa həzrət İbrahimin nəslindən sayılırdı. İmam Sadiq (ə) və imam Kazim (ə) həmin ayəyə istinadən yalnız ana tərəfdən peyğəmbərə bağlı olan əhli-beyti peyğəmbər nəsli (züryəti) saymışlar.[1] Fəxr Razi də öz təfsirində bu nöqtəni qəbul etmişdir. "Təfsire-Əl-Mənarda" da Buxaridən nəql olunmuş hədisdə həzrət Peyğəmbər (s) "züryət" (nəsil) sözünü imam Həsən (ə) haqqında işlətmişdir.

◘"Yəsə" sözünün müstəqil ad, ya "vəsə" sözünün indiki zamanı, ya "yuşə" sözünün ibri dilindən ərəb dilinə çevrilmə variantı olması barədə müxtəlif fikirlər var.

◘Bəziləri "atalarından" sözünün çıxışlıq halda olmasına istinad edərək peyğəmbərlərin ata-babaları arasında da azğın adamların olduğunu güman etmişlər. Halbuki ayədə sözün bu formada işlədilməsinin səbəbi atalar arasından peyğəmbərlərin seçilməsidir. Söhbət iman yox, peyğəmbər seçimindən gedir.[2]

**88.** ﴿ذَلِكَ هُدَى اللّهِ يَهْدِي بِهِ مَن يَشَاء مِنْ عِبَادِهِ وَلَوْ أَشْرَكُواْ لَحَبِطَ عَنْهُم مَّا كَانُواْ يَعْمَلُونَ﴾

**"O, Allahın hidayətidir ki, bəndələrindən istədiyi kəsi hidayət edir. Əgər şirkə yol versələr, şübhəsiz, gördükləri iş əllərindən çıxacaq."**

---

[1] "Təfsire-Nurus-Səqələyn".
[2] "Təfsire-Nümunə".

## *Bildirişlər*

1. Əsil hidayət Allahın hidayətidir. Başqalarının hidayəti, yol göstərməsi ilğım, boş xəyaldır.

2. Hidayət Allahın işidir. Hətta peyğəmbərin də müstəqil hidayət yolu yoxdur.

3. Şirk insanın gördüyü işlərin məhv və batil olması amilidir.

4. İlahi sünnədə ayrı-seçkilik yoxdur. Hətta peyğəmbərlər də şirkə yol versələr, tənbeh olunarlar. Çünki əsas şəxs yox, haqdır. (Əvvəlki ayələrin peyğəmbərlərə aid olmasını nəzərə almaqla.)

5. Peyğəmbərlər məsumdurlar və heç vaxt şirk tozuna bulaşmamışlar. Ayədəki bu fərziyyə mümkünsüz sayılır və aldatmaq məqsədi daşıyır.

6. İlahi dünyagörüşünə əsasən, işlərin dəyəri onlardakı ixlas, səmimiyyətdən asılıdır. Əgər ixlas olmasa, görülən işlər hədərə gedəsidir.

**89.** ﴿أُوْلَئِكَ الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ فَإِن يَكْفُرْ بِهَا هَؤُلاء فَقَدْ وَكَّلْنَا بِهَا قَوْمًا لَّيْسُواْ بِهَا بِكَافِرِينَ﴾

**"Onlar səmavi kitab, hökumət, mühakimə, peyğəmbərlik məqamı verdiyimiz kəslər idi. Əgər bu müşriklər onlara qarşı küfr edib, qəbul etməsələr (narahat olma, çünki) Biz onlara kafir olmayan digər bir qövmü göndərərik."**

## *Nöqtələr*

◘"Hukm" sözü hökumət, rəhbərlik mənasını bildirir. Bu sözdə həm mühakimə, həm də dərk və əql mənaları var. "Müfrədate-Rağib" kitabında bu söz maneçilik, yayındırmaq kimi mənalandırılmışdır. Əql, mühakimə, haqq hakimiyyət səhv və xilafa mane olduğundan hökm təbiri onlara aid edilmişdir.

◘"Təfsire-əl-Mənar", "Ruhul-məani" mənbələrində təfsirçilər nəql edirlər ki, küfr etməyib, haqqı qəbul və himayə edən qövm dedikdə, iranlılar nəzərdə tutulur.[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Bu əmr sahibinin səhabələri qorunur. Əgər bütün xalq onlardan üz döndərsə, Allah onları səhabəsiz qoymaz.[2]

## *Bildirişlər*

1. Peyğəmbərlərin hökumət və qəzavət haqları var.

2. Xeyir əməl, islahın önə çəkilməsi, doğru yolun tapılması peyğəmbər sifətlərindəndir.

3. Hər bir məktəbin tərəfdarları və müxalifləri var. Bəzən tərəfdar müxalifətə keçir, bəzən də müxalif tərəfdar olur. Mürtəd və kafir dönüb müsəlman ola bilər.

4. Bir dəstənin küfrə varması haqq məktəbini tərəfdarsız qoymur. Əgər yol haqq və ilahi yoldursa, insanların yaxınlaşıb uzaqlaşması insana təsir etməməlidir.

---

[1] "Təfsire-Nümunə".

[2] "Qeybəte-Nömani", s. 316.

﴿أُوْلَئِكَ الَّذِينَ هَدَى اللّهُ فَبِهُدَاهُمُ اقْتَدِهْ قُل لاَّ أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِنْ هُوَ إِلاَّ ذِكْرَى **90.**
لِلْعَالَمِينَ﴾

**“Onlar Allahın hidayət etdiyi kəslərdir. Onun hidayətinə tabe ol. (Ey peyğəmbər! Xalqa) de ki, mən buna (risalət və dəvətə) görə sizdən muzd istəmirəm. Bu Quran yalnız aləmdəkilər üçün bir xəbərdarlıqdır. (Mənim istədiyim yalnız aləmdəkilərin öyüd götürməsidir.)”**

## *Nöqtələr*

◘“İqtədih” sözündəki “ha” hərfi əvəzlik deyil və vəqfi bildirən bir hissədir.

## *Bildirişlər*

1. Peyğəmbərlərin hidayətinə ardıcıllıq ilahi hidayətə iqtidadır.
2. İlahi övliyaların adı və yolu yaddan çıxarılmamalıdır. Hər hansı yenilik keçmişin dəyərini unutdurmamalıdır.
3. İnsanın dəyəri onun baxışı və əməli ilə təyin olunur.
4. Keçmiş dinlərin nəsx (ləğv) olunması o deməkdeyil ki, həmin dinlərin üsulları gücdən düşmüşdür. Peyğəmbərlərin ümumi üsul xətti davam etməlidir.
5. Müvəffəqiyyət arzusunda olan insan keçmiş nəsillərin kamilliklərindən, müsbət əxlaqından və üsulundan faydalanmalıdır.
6. Bütün peyğəmbərlərin məqsədi bir olmuşdur. (Çünki müxtəlif hədəflərə malik peyğəmbərlərə iqtida etmək mümkün deyil.)
7. Ardıcıllıq üçün dəlil lazımdır və onun nəticəsi hidayətə müvəffəqlik olmalıdır.
8. Təbliğatçı dünyaya vurğun olmamalı və dünyapərəstliyinə görə ittiham edilməməlidir.
9. Peyğəmbərlərin digər iddiaçılardan bir fərqi onların maddi hədəflər ardınca getməmələridir.
10. Peyğəmbərlər unutqan və qafil insanların haqqı xatırlamalarına səbəb olurlar.
11. İslam ümumbəşəri bir dindir.

﴿وَمَا قَدَرُواْ اللّهَ حَقَّ قَدْرِهِ إِذْ قَالُواْ مَا أَنزَلَ اللّهُ عَلَى بَشَرٍ مِّن شَيْءٍ قُلْ مَنْ أَنزَلَ الْكِتَابَ **91.**
الَّذِي جَاء بِهِ مُوسَى نُورًا وَهُدًى لِّلنَّاسِ تَجْعَلُونَهُ قَرَاطِيسَ تُبْدُونَهَا وَتُخْفُونَ كَثِيرًا وَعُلِّمْتُم مَّا لَمْ تَعْلَمُواْ
أَنتُمْ وَلاَ آبَاؤُكُمْ قُلِ اللّهُ ثُمَّ ذَرْهُمْ فِي خَوْضِهِمْ يَلْعَبُونَ﴾

**“Allahı layiq olduğu kimi tanımadılar, çünki dedilər: “Allah heç bir bəşərə bir şey nazil etməmişdir. «De ki, Musanın xalq üçün nur və hidayət olaraq gətirdiyi kitabı kim nazil etdi?» Bir kitab ki, onu vərəq-vərəq edib (qəlb istəklərinə uyğun) bir hissəsini aşkar, çoxunu isə pünhan etdilər. Sizin və atalarınızın bilmədikləri (həmin səmavi kitab, Tövrat vasitəsi ilə) Sizə endirildi. «(Ey peyğəmbər,) de ki, Allah (onları nazil etdi). Sonra əl götür ki, öz haqsız danışıqlarında batıb qalsınlar.”**

## *Nöqtələr*

◘Bir dəstə yəhudi həzrət Musaya vəhy nazil olmasını qəbul etsə də, inadkarlıq göstərərək deyirdilər: “Allah heç bir peyğəmbərə kitab göndərməmişdir.”

Bu ayə buyurur: “Dediyiniz sözlər əqidənizlə uyuşmur. Əgər Allah heç kəsə vəhy göndərmirsə, bəs iman gətirdiyiniz Tövratı kim nazil etmişdir?”

## *Bildirişlər*

1. Peyğəmbərlər və səmavi kitabların göndərilməsi Allahın Öz bəndələrinə olan lütflərindəndir. Onu inkar edənlər əslində Allahın lütfünü, rəhmətini, hikmətini inkar edirlər.
2. Təlqin olunan şübhələrə cavab verilməməlidir.
3. Əsl Tövrat nur və hidayət olmuşdur.
4. Tövratda yəhudi alimlərinin gizlətdikləri həqiqətlər olmuşdur.
5. Din təbliğatçıları yersiz məsləhətlərdən çəkinərək məktəb maarifi və həqiqətlərini xalqa bəyan etməlidirlər.
6. Vəhy olmasa insan bir çox maariflərdən məhrum qalar.
7. Peyğəmbərlərin vəzifəsi məcburiyyət yox, xəbərdarlıqdır.
8. Dəlillər həddi aşmamalı, zəruri ölçüdə olmalıdır. Bu ayə özü də bir növ dəlildir və onda buyurulur: “İndiki ki, qəbul etmirlər, onları boşla.”

**92.** ﴿وَهَذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ مُّصَدِّقُ الَّذِي بَيْنَ يَدَيْهِ وَلِتُنذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَالَّذِينَ
يُؤْمِنُونَ بِالآخِرَةِ يُؤْمِنُونَ بِهِ وَهُمْ عَلَى صَلاَتِهِمْ يُحَافِظُونَ﴾

**“Nazil etdiyimiz bu mübarək kitab özündən əvvəlkiləri (səmavi kitabları) təsdiq edəndir. (Xalqa ilahi mükafatlardan müjdə verir.) Məkkə əhli və onun ətrafında olan kəslərə xəbərdarlıq et. (Əlbəttə,) axirətə iman gətirənlər ona (Qurana) da iman gətirəcək. Onlar öz namazlarını hifz edirlər.”**

## *Nöqtələr*

◘Ayənin ərəbi mətnində “Litunzirə” sözü “vav” hərfi ilə yanaşı işlənmişdir. Bu onu göstərir ki, Quranda qorxutma (“Litunzirə”) məqsədindən əlavə də məqsədlər var.

◘Peyğəmbərlər hidayət və qurtuluş müjdəçisi olsalar da, insanda zərəri dəf etmək hissi mənfəət qazanmaq hissindən güclü olduğundan, onun ruhu qorxutmadan daha tez təsirlənir. Quranda qorxutma sözünün müxtəlif formaları müjdə sözünün müxtəlif formalarından daha çox işlənmişdir.

## *Bildirişlər*

1. Quran bütün bərəkətlərin daşıyıcısıdır. (Məsələn, hidayət, ibrət, şəfa, inkişaf, izzət).
2. Quran digər səmavi kitablarla həmahəng olub onları təsdiqləməklə bir daha məqsəd birliyi və işin ilahiliyini göstərir.
3. Təbliğə "Ümmül-qura" (Məkkə) və mühüm mərkəzlərdən başlanılmalıdır. Yalnız sonra əyalətlərə üz tutmaq olar.
4. Quran və qiyamətə əqidə yanaşıdır.
5. İmanın ən aydın təzahürü namazdır.
6. Axirətə iman namazın hifz amillərindəndir.

**93.** ﴿وَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللّهِ كَذِبًا أَوْ قَالَ أُوْحِيَ إِلَيَّ وَلَمْ يُوحَ إِلَيْهِ شَيْءٌ وَمَن قَالَ سَأُنزِلُ مِثْلَ مَا أَنَزلَ اللّهُ وَلَوْ تَرَى إِذِ الظَّالِمُونَ فِي غَمَرَاتِ الْمَوْتِ وَالْمَلآئِكَةُ بَاسِطُواْ أَيْدِيهِمْ أَخْرِجُواْ أَنفُسَكُمُ الْيَوْمَ تُجْزَوْنَ عَذَابَ الْهُونِ بِمَا كُنتُمْ تَقُولُونَ عَلَى اللّهِ غَيْرَ الْحَقِّ وَكُنتُمْ عَنْ آيَاتِهِ تَسْتَكْبِرُونَ﴾

**"Kimdir ondan da zalım ki, Allaha iftira yaxır və deyir: "Mənə vəhy olub." Hansı ki, ona heç nə vəhy olunmayıb. Bir də o kəs ki, dedi: "Tezliklə mən də Allahın nazil etdiyi kimi bir şey nazil edərəm." (Ey peyğəmbər,) bir zaman ki, zalımları ölüm yatağında çırpınan gördün, (ruhunu çıxarmaq üçün) mələklərin əllərini açdığına baxdın, o vaxt ki canın çıxma fərmanı verilir, (deyirlər,) bu gün sizə Allaha iftiralar yaxdığınız və Onun ayələrini ört-basdır etdiyiniz üçün zəliledici əzab veriləcək."**

## *Nöqtələr*

◘Ayənin nazilolma şəni haqqında deyilmişdir: Vəhy yazmaqla məşğul olan Əbd ibn Səd adlı bir şəxs mürtədlik etdiyi üçün həzrət Peyğəmbər (s) tərəfindən qovulmuşdu. O, camaatı ətrafına toplayıb deyirdi: "Mən də Quran kimi ayələr gətirə bilərəm." (Bəzi təfsirçilərin fikrincə, ayə həmin bu şəxsin peyğəmbərlik iddiası münasibəti ilə nazil olmuşdur. O da qeyd olunur ki, ayə peyğəmbərin həyatının sonlarında Mədinədə nazil olmuşdur.

◘"Ğəmərat" ölüm astanasındakı çətinliklər mənasını bildirir. Bu hallarda insanı əcəl öz kamına alır.

◘Peyğəmbərlik iddiasına düşənlərdən bəziləri ilə tanış olaq: Yəməndə Müsəylimə, Əsvəd Ənsi, Bəni-Əsəddən Təlihə Əsədi.[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: "Hun" dedikdə susuzluq halındakı ölüm nəzərdə tutulur:[2]

◘Yersiz imamlıq iddiasına düşənləri imam Baqir (ə) bu ayənin müxatəbi sayır.[3]

---

[1] "Təfsire-Məraği".
[2] "Təfsire-Nurus-Səqəleyn".
[3] "Təfsire-Əyyaşi".

## *Bildirişlər*

1. Allaha qarşı iftira əqidə zülmüdür. Azğınların rəhbərlik iddiasına düşməsi isə ən böyük zülmdür.

2. Haqqın düşməni ya haqqı alçaldır, ya da özünü yuxarı qaldırır. Əvvəlcə deyir: “Quran əfsanədir.” Müvəffəq olmadıqda sözünü dəyişir: “Mən Qurandakı kimi cazibəli sözlər söyləyə bilərəm.”. Bu məsələyə “Ənfal” surəsinin 31-ci ayəsində də toxunulur.

3. Haqsız və yalançı iddiaçılar can verəsidirlər.

4. Axirət cəzaları ölüm anından başlayır. Kafirlərə deyilir: “Can ver, öl.” Bu sözlər alçaldılma ilə müşayiət olunur.

5. İnsanın ruhu onun cismindən ayrı və müstəqildir.

6. Vəhy və dinin təhqir cəzası qorxunc və zəliledici əzabdır.

**94.** ﴿وَلَقَدْ جِئْتُمُونَا فُرَادَى كَمَا خَلَقْنَاكُمْ أَوَّلَ مَرَّةٍ وَتَرَكْتُم مَّا خَوَّلْنَاكُمْ وَرَاءَ ظُهُورِكُمْ وَمَا نَرَى مَعَكُمْ شُفَعَاءَكُمُ الَّذِينَ زَعَمْتُمْ أَنَّهُمْ فِيكُمْ شُرَكَاءُ لَقَد تَّقَطَّعَ بَيْنَكُمْ وَضَلَّ عَنكُم مَّا كُنتُمْ تَزْعُمُونَ﴾

**“Həqiqətən, sizi ilk dəfə yaratdığımız kimi indi də tək-tənha (ölüm zamanı və ya qiyamət anında) yanımıza gəldiniz. Sizə verdiyimiz bütün mal-mülkü arxada qoydunuz. (Taleyinizin təyinində) şəfaətçi olaraq Allaha şərik qoşduqlarınızı sizinlə birlikdə görmürük. Doğrusu aranızda (bağlar) qırılmışdır. (Şərik və şəfaətçi) güman etdikləriniz sizi qoyub getdi.”**

## *Nöqtələr*

◘Bu formada ölüm və ya qiyamət zamanı müşriklərə xitab olunur.

◘“Xəvələ” sözündən olan “xəvvəlna” sözü qəyyuma ehtiyaclı olan şeyi bildirir. Adətən, mal-mülk belə adlandırılır.

## *Bildirişlər*

1. Qiyamətdə insan tənhadır.

2. Məad cismanidir.

3. Müşriklər dörd şeyə istinad edirdilər: Qövm-qəbilə, mal-mülk, böyüklər və ağalar, büt və məbudlar.

Ayədə hər dörd istinadgahın qiyamətdə səmərəsiz olduğu bildirilir. Bununla bağlı “qövm və qəbiləsiz”, “var-dövlətsiz”, “dost-yoldaşsız”, «bütün xəyali qüdrətlərin məhvi» təbirləri işlədilir.

4. Əsassız gümanlar bir çox azğınlıqların səbəbidir.

5. Qiyamətdə həqiqətlər üzə çıxır, xəyallar məhv olur.

**95.** ﴿إِنَّ اللّهَ فَالِقُ الْحَبِّ وَالنَّوَى يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَمُخْرِجُ الْمَيِّتِ مِنَ الْحَيِّ ذَلِكُمُ اللّهُ فَأَنَّى تُؤْفَكُونَ﴾

**“Həqiqətən, Allah dən və toxumu çatladan, ölüdən diri çıxaran, diridən ölü çıxarandır. Odur sizin Allahınız. Bəs necə olur ki, (haqdan) azırsınız?”**

## *Nöqtələr*

◘“Faliq” sözü “fələq” sözündən olub parçalanmaq, çırtlamaq mənalarını bildirir. Buğda və arpa dəni kimi yeməli dənlər “həbb”, “həbbə” adlandırılmışdır. “Nəva” çəyirdək, tum mənasını bildirir.

◘Cansız otdan canlı heyvan, canlı heyvandan cansız süd yaranır. Cansız toxumdan canlı ağac, inkişaf etmiş ağacdan cansız toxumlar ərsəyə gəlir.

◘Rəvayətlərə əsasən, ayədə nəzərdə tutulur ki, bəzən imansız insanlardan mömin övladlar, bəzən imanlı insanlardan kafir övladlar vücuda gəlir.[1]

## *Bildirişlər*

1. Toxumu əkmək insanın işidir. Amma onu torpağın altında çırtladıb göyərtmək Allaha aiddir.
2. Təbiət əsərlərinə diqqət ən üstün allahşünaslıq yollarındandır.
3. İnsanın ruzisi Allahın göyərtdiyi həmin toxumlardan yaranır. Bu halda nə üçün başqasına üz tutmalıyıq?!

**96.** ﴿فَالِقُ الإِصْبَاحِ وَجَعَلَ اللَّيْلَ سَكَنًا وَالشَّمْسَ وَالْقَمَرَ حُسْبَانًا ذَلِكَ تَقْدِيرُ الْعَزِيزِ الْعَلِيمِ﴾

**“(Allah) dan yerini sökəndir, gecəni aramlıq üçün, günəşlə ayı (günlərin) say vasitəsi qərar vermişdir. Qüdrətli və bilən Allahın ölçü aparması belədir.”**

## *Nöqtələr*

◘“İsbah” sözü həm sübh, həm də gecənin ötüb sübhün açılması mənasını verir. Burada isə həmin söz sübh ağartısının görünməsinə işarədir.

◘Ötən ayədə Allahın yerdəki üç qüdrəti bəyan olunmuşdu. Bu ayədə Allahın səmadakı qüdrətinə nəzər salınır. Gecə və gündüz günəş və ayın nizamlı hərəkəti ilə ortaya çıxan ilahi qüdrət nişanəsidir.

◘Gecə istirahət üçündür. Gecə iş görmək, çalışmaq, səfərə çıxmaq məzəmmət edilmişdir.[2] Ayədə gecə aramlıq vaxtı sayıldığından, məlum olur ki, sübh iş və səy üçündür.

◘İmam Riza (ə) buyurmuşdur: “Evlənməni gecəyə müəyyənləşdirin. Çünki gecə və həyat yoldaşı hər ikisi sakitlik və rahatlıq vasitəsidir.”[3]

## *Bildirişlər*

1. Gecə və gündüzün ortaya çıxması bu işi dəqiq təqdir edən və ölçü ilə həyata keçirən qüdrət və biliyə ehtiyaclıdır.
2. Günəş və ay nizam, hesab və proqramlaşdırma vasitəsidir. (Bəlkə də bu ayədə günəş və ayın hesab vasitəsi kimi tanıtdırılması həm günəş (şəmsi), həm də ay (qəmər) təqviminin mötəbərliyini göstərir. Ya da hər iki ölçünün birlikdə dəqiq hesab

---

[1] “Təfsire-Nurus-Səqəleyn”, “Kafi”, c.2, s. 5.
[2] “Təfsire-Nurus-Səqəleyn”.
[3] “Təfsire-Nurus-Səqəleyn”.

rəmzi olduğu nəzərə çatdırılır. Necə ki, "Zeyd ədalətdir" cümləsi Zeydin tamamilə ədalətli olduğunu göstərir.

3. Dəqiq proqramlaşdırma və kamil icranın elm və qüdrətə ehtiyacı var.

4. Səma cisimlərinin dəqiq nizamı haqqında düşüncə allahşünaslıq yoludur.

**97.** ﴿وَهُوَ الَّذِي جَعَلَ لَكُمُ النُّجُومَ لِتَهْتَدُواْ بِهَا فِي ظُلُمَاتِ الْبَرِّ وَالْبَحْرِ قَدْ فَصَّلْنَا الآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ﴾

**"Odur ulduzları sizin üçün qərarlaşdıran. (Bununla) quru və dəniz qaranlıqlarında onlar vasitəsi ilə yolu tapasınız (deyə). Şübhəsiz, Biz nişanələri agah və bilən bir qövm üçün ətraflı aydınlaşdırdıq."**

## *Nöqtələr*

◘"Heyət" (ulduzşünaslıq) elmi ən qədim bəşər elmlərindəndir. İnsan səhra və dəniz səfərlərində ulduzlardan istifadə edir. Bu vasitə etibarlı, həmişəlik, toxunulmaz, təbii və hədsiz bir vasitədir.

◘İslamın təbiət səhnələrinə xüsusi diqqəti var. Bəzi Quran surələri təbiətdəki əşyaların adı ilə adlandırılmışdır. İslami ibadətlər də təbiətlə bağlıdır. Vaxtı tanıma (vəqtşünaslıq), qibləni tanıma, günəş və ayın batması, ayət namazı, ayın əvvəlinin və sonunun təyini bu qəbildəndir. Bu zərurətlər insanların heyət elmi ilə tanışlığına səbəb olmuşdur. Nəticədə, Bağdad, Dəməşq, Qahirə, Marağa, Əndəlus rəsədxanaları tikilmiş, bu mövzuda müsəlmanlar tərəfindən dəyərli kitablar yazılmışdır.

◘Allah insanı nadir hallarda olsa da, ehtiyaclı olduğu dəniz və quru səfərlərində hidayət etmiş, yol göstərmişdir. Əgər müvəqqəti ömürdə baş verən səfərlərdə insan hidayət olunmuşsa, onun haqqa doğru əbədi səfərdə bələdçisiz qalması mümkündürmü? Quru və dəniz səfərlərində insana yol göstərilməsi bəşəriyyətin Allaha doğru hidayətində risalət və imamətin zərurətindən danışır.

◘Hədislərdə «hidayət edən, yol göstərən ulduzlar» dedikdə məsum rəhbərlər, ilahi övliyalar nəzərdə tutulur.[1]

## *Bildirişlər*

1. Ulduzlar Allahın məxluqu və yol göstərən vasitələridir. (Bəzilərinin düşündüyü kimi, ulduzlar xaliq və ya tədbirçi deyildir.)

2. Səmadakı ulduzların nizamı o qədər dəqiqdir ki, onların vasitəsi ilə yerdə yol tapmaq olar.

3. Əlbəttə ki, təklikdə ulduzların ölçüsünü, çəkisini, aralarındakı məsafəni, hərəkət sürətini, bir sözlə ulduzşünaslıq və nücum elmini bilməklə Allaha çatmaq olmaz. İnsan bu yolda Allahı tanımaq məqsədində olmalıdır.

(Bəli, insanın öz simasını səliqəyə salması üçün təkcə güzgüyə baxmaq bəs etmir. Güzgüyə baxdıqdan sonra insan özünü səliqəyə salmalıdır. Bəlkə də bir çox güzgü satanlar gündə təkrar-təkrar ona baxsalar da, hətta yaxalarını belə səliqəyə salmırlar.)

---

[1] "Təfsire-Kənzud-dəqayiq".

**98.** ﴿وَهُوَ الَّذِيَ أَنشَأَكُم مِّن نَّفْسٍ وَاحِدَةٍ فَمُسْتَقَرٌّ وَمُسْتَوْدَعٌ قَدْ فَصَّلْنَا الآيَاتِ لِقَوْمٍ يَفْقَهُونَ﴾

**"Odur sizi bir nəfsdən yaradan. Bəziləri qərarlaşdı (dünyaya gəldi) və bəziləri (pərdələr arxasında, ana bətnində) əmanət saxlanıldı. Biz Öz ayələrimizi anlayan qövm üçün ətraflı bəyan etdik."**

## *Nöqtələr*

¤"Ənşəə" sözündə iki zəruri nöqtə var: İxtira və ardıcıl tərbiyə. İnsanın yaranışında da ixtira və yeniliklər vardır. Eləcə də, bu zaman ardıcıl tərbiyə yaddan çıxarılmamalıdır. Bəli, bir şeyi təkrar yaratmaq və ya yaradıb başına buraxmaq elə də dəyərli deyildir.

¤"Qərarlaşdı" və "əmanət qoyuldu" təbirlərinin başqa bir mənası da var. Məsələn, insanın ruhu daimi, cismi müvəqqətidir. İnsanda iman ya daimidir, ya da davamsız. İnsan ana bətnindəki daimi nütfədən və atanın davamsız nütfəsindən yaranır. O, yer üzündə qərarlaşıb qiyamət gününədək qəbirdə əmanət qalır. Nemətlər bəzən davamlı, bəzən davamsız olur. İmam Sadiqdən (ə) nəql olunmuş bir duada deyilir ki, Qədir bayramı namazından sonra Allahdan Onun nemətlərinin davamlı olmasını istəyin. Çünki Allah Özü iki hal bəyan etmişdir.[1]

## *Bildirişlər*

1. Sizin hamınızın əsli və kökü birdir. Bəs bu qədər ixtilaf və üstünlük istəyi nə üçündür?!
2. İnsanın yaranışında bir bu qədər çeşidlilik və yeniliyin mövcudluğu (özü də tənha bir nəfsdən) Allahın əzəmətini göstərir.
3. Bütün verilənlər daimi olmur. Nə qədər ki, nemət və imkan var, ondan ən üstün şəkildə faydalanaq.
4. İnsan nə qədər ki, düşüncə əhli deyil, maarifdən faydalanmaz.

**99.** ﴿وَهُوَ الَّذِيَ أَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجْنَا بِهِ نَبَاتَ كُلِّ شَيْءٍ فَأَخْرَجْنَا مِنْهُ خَضِرًا نُّخْرِجُ مِنْهُ حَبًّا مُّتَرَاكِبًا وَمِنَ النَّخْلِ مِن طَلْعِهَا قِنْوَانٌ دَانِيَةٌ وَجَنَّاتٍ مِّنْ أَعْنَابٍ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُشْتَبِهًا وَغَيْرَ مُتَشَابِهٍ انظُرُواْ إِلِى ثَمَرِهِ إِذَا أَثْمَرَ وَيَنْعِهِ إِنَّ فِي ذَلِكُمْ لآيَاتٍ لِّقَوْمٍ يُؤْمِنُونَ﴾

**"Səmadan su nazil edən Odur. Onun vasitəsi ilə hər cür otlar çıxardıq və ondan bitkilər cücərtdik. Ondan (bitkilərdən) bir-birinə oturmuş və biçilən dənlər çıxardıq. Xurma qönçələrindən bir-birinə yaxın salxımlar (ərsəyə gətirdik) və üzüm, zeytun, nar bağları (yetirdik), bəziləri bir-birinə oxşar, bəziləri isə yox. Bar verdiyi və meyvəsi yetişən zaman ona bax. Həqiqətən, onda imanlı qövmü üçün nişanələr var."**

---

[1] "Təfsire-Nurus-Səqələyn".

## *Nöqtələr*

◘Əvvəlki ayədə buyuruldu: “Bütün insanlar vahid bir nəfsdəndirlər. Bu ayədə buyurulur: “Bütün otlar, ağaclar və meyvələr eyni bir çeşmədəndir və o yağış suyudur.”

◘“Mutərakib” sözü “rükub” sözündən olub bir-birinə sıxılmış, üst-üstə minmiş meyvələr mənasını bildirir. “Təl” xurmanın birbaş salxımı, “qinvan” isə sonradan xurma salxımını təşkil edən nazik iplərdir. “Daniyə” bir-birinə yaxın və ya yerə yaxın, eləcə də, ağırlıqdan yerə yaxınlaşmış salxıma deyilir. “Mütəşabeh” dedikdə ya zahirən bir-birinə bənzər ağaclar, ya da bir-birinə bənzər meyvələr nəzərdə tutulur.

◘Bu və bundan əvvəlki iki ayədə ardıcıl olaraq üç təbir işlənildi: “bilən”, “anlayan”, “iman gətirən” qövm. Dördüncü bildirişdə bunun səbəbi bəyan olundu.

## *Bildirişlər*

1. Bütün otların və nəbatatın cücərmə səbəbi yağış suyudur.
2. Həm yağış yağması, həm də ot və meyvələrin cücərməsi Allahın işidir.
3. İnsanın meyvələrlə əlaqəsi təkcə maddi əlaqə deyil. Bu həm də fikrən tövhidi bir əlaqədir.
4. Ulduzlardan istifadə üçün elm və ixtisas lazımdır. Bəşər karvanının bir nəfsdən olmasını və bu karvanın davamlı və davamsız şəkildə cərəyanını anlamaq üçün dərin düşüncə lazımdır. Ot, yağış və meyvələrdən mənəvi bəhrələnmənin dərk olunması və bütün varlıq aləminin Allaha bağlılığından xəbərsiz qalmamaq üçün iman tələb olunur.

**100.** ﴿وَجَعَلُواْ لِلّهِ شُرَكَاء الْجِنَّ وَخَلَقَهُمْ وَخَرَقُواْ لَهُ بَنِينَ وَبَنَاتٍ بِغَيْرِ عِلْمٍ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يَصِفُونَ﴾

**“Onlar Allaha cinlərdən şəriklər qərar verdilər. Halbuki onları da Allah yaratmışdı. Nadanlıq səbəbindən Allah üçün oğlanlar və qızlar uydurdular. Allah onların vəsflərindən üstün və pakdır.”**

## *Nöqtələr*

◘Bir şeyin hesabla vücuda gətirilməsi “xələqə” adlanır. “Xərəqə” isə bir şeyin hesabsız paralanmasıdır. “Xərəqu”, yəni diqqət və götür-qoysuz bir mətləbi açıqlamaq, ya da hesabsız düzəltmək və dəlilsiz iddia etməkdir.[1]

◘Quranın bildirdiyinə əsasən, məsihilər həzrət İsanı, yəhudilər isə həzrət Üzeyri Allahın oğlu sayırdılar.[2] Bəziləri də mələkləri Allahın övladları kimi qəbul edirdi. Zərdüştilər cinlərdən olan Əhriməni Allaha rəqib qərar vermişdilər. Onlar bütün pislikləri Əhrimənə aid edirdilər. Bəzi ərəblər də Allahla cin arasında hansısa

[1] “Təfsire-Nümunə”.
[2] “Tövbə”, 30.

qohumluğun olduğuna inanırdılar.[1] Bu ayə həmin gümanları batil sayaraq buyurur: “Allah bütün bu sifətlərdən pak və üstündür.”

## *Bildirişlər*

1. Cəhalət xurafata meylin köküdür. (İnsanın Allaha əqidəsi elmə əsaslanmalıdır.)
2. Yaranmış yaradana necə şərik ola bilər?!
3. İzdivac və övlad sahibi olma hansısa naqisliyi tamlaşdırmaq üçündür. Allah bu sayaq eyblərdən pakdır.

**101.** ﴿بَدِيعُ السَّمَاوَاتِ وَالأَرْضِ أَنَّى يَكُونُ لَهُ وَلَدٌ وَلَمْ تَكُن لَّهُ صَاحِبَةٌ وَخَلَقَ كُلَّ شَيْءٍ وهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“O, göyləri və yeri yaradandır. Onun üçün yoldaş olmadığı halda övladı necə ola bilər?! O hər şeyi yaratmış və hər şeyi biləndir.”**

**102.** ﴿ذَلِكُمُ اللّهُ رَبُّكُمْ لا إِلَهَ إِلاَّ هُوَ خَالِقُ كُلِّ شَيْءٍ فَاعْبُدُوهُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ وَكِيلٌ﴾

**“Odur Allah, sizin Rəbbiniz. Ondan başqa məbud yoxdur. O hər şeyin yaradıcısıdır. Beləcə, Ona pərəstiş edin. O hər şeyin vəkilidir.”**

## *Nöqtələr*

◘“Bədi” dedikdə heç bir təqlidsiz və təkrarsız, ixtira etməklə yaratmaq nəzərdə tutulur.

◘Göyləri və yeri heç bir təqlid və öncədən plan çəkmədən yaradanın övlad və ailəyə nə ehtiyacı var? O, qərara gəlməklə istədiyini yaradır.

◘Allahın hər şeyi yaratması xilqətdəki tövhid, hər şeyə vəkil olması, işdəki tövhiddir.[2]

## *Bildirişlər*

1. Aləmin yaradıcısı qüvvətlidir. Onun ailə və övlada ehtiyacı yoxdur.
2. Quranın tanıtdırdığı Allahla başqalarının əqidə bağladığı Allahı müqayisə edin.
3. İslam əqidəsində Yaradan (Xaliq) və Pərvərdigar (Rəbb) birdir. (Müşriklər isə yaradanı Allah adlandırır, amma bir neçə Rəbb olmasına inanırlar.)
4. Allahın mütləq yaradan olması tövhid dəlilidir.
5. Həm yaradılış, həm də davam Allahın iradəsindən asılıdır.
6. Allahın rübubiyyət və xaliqliyi pərəstişin fəlsəfəsidir.

**103.** ﴿لاَّ تُدْرِكُهُ الأَبْصَارُ وَهُوَ يُدْرِكُ الأَبْصَارَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ﴾

**“Gözlər Onu dərk etməz, amma O, gözləri dərk edər. O, görünməyən, (dəqiq, ayırd edən) və agahdır.”**

---

[1] “Saffat”, 158.
[2] “Əraf”, 54.

## *Nöqtələr*

◘“Bəsər” sözü həm göz, həm də bəsirət mənalarını bildirir.[1] Bu əsasla ayəni belə mənalandırmaq olar: Nə zahiri göz Allahı görə bilir, nə də qəlb onun mərifəti dərinliyinə varır.

◘“Lətif” sözünün bir neçə mənası var: “Verdiyini az, xalqın itaətini çox sayır; Dəqiq, işlərin gizli tərəfindən xəbərdarlıq və hər incəliyi ayırd etmə; zərif və nadir şeylərin xaliqi; müdara və yoldaşlıq əhli; vəfa əhlinə mükafat verən, cəfa əhlini bağışlayan.

◘İmam Riza (ə) buyurmuşdur: “Düşüncə və xəyallar Allahı əhatə etmir. Onun zatı dərk olunası deyil.”[2]

◘Allah heç vəchlə görünməz. Baxın ki, həzrət Musa xalqın istəyi ilə Allahı görmək istədikdə hansı cavab aldı.[3] Sünnə əhlindən bəziləri deyir: “Allah qiyamət günü görünər. Onlar “Qiyamət” surəsinin 23-cü ayəsinə əsaslanırlar.[4] Onlar unudurlar ki, Allah cisim və maddə deyil. «Allahı görmək» dedikdə isə qəlb gözündən söhbət gedir. Çünki gözlə yalnız cismi görmək olar. Məkan, məhdudiyyət, rəng və başqa maddi səciyyələr ehtiyac nişanəsidir və Allah belə ehtiyaclardan uzaqdır.

◘Həzrət Əli (ə) buyurur: “Nəinki təkcə göz Onu görmür, hətta düşüncə də Onu qavraya bilməz.”[5] Sədi bu barədə deyir:

Ey xəyaldan üstün, gümandan üstün,
Hər eşidiləndən, bəyandan üstün.
Məclis tamam oldu, ötüşdü ömür.
Deyiləndən artıq yoxdur səs-səmir.

◘“Gözləri dərk etmək” dedikdə Onun insan baxışlarından xəbərdarlığı nəzərdə tutulur. Necə ki, «səmi» və «bəsir» dedikdə Allahın eşidilən və görülənlərdən xəbərdar olması anlaşılır.

## *Bildirişlər*

1. Allah maddi cisim deyildir.
2. Kimsə Allahın zatından xəbərdar deyil.
3. Heç bir pərdə və maneə ilahi elmin qarşısını ala bilməz.
4. Bütün çirkinliklərimizi bilsə də, yenə də bizə lütf göstərir.
5. Allah varlıq aləmindəki bütün incəliklərdən və sirlərdən xəbərdardır.

**104.** ﴿قَدْ جَاءَكُم بَصَآئِرُ مِن رَّبِّكُمْ فَمَنْ أَبْصَرَ فَلِنَفْسِهِ وَمَنْ عَمِيَ فَعَلَيْهَا وَمَا أَنَاْ عَلَيْكُم بِحَفِيظٍ﴾

---

[1] “Müfrədate-Rağib”.
[2] “Təfsire-Bürhan”.
[3] “Əraf”, 143.
[4] “Təfsire-Əl-Mənar”.
[5] “Təfsire-Safi”.

**“Həqiqətən, Allah tərəfindən sizin üçün bəsirət mayası (səmavi kitab və aydın dəlil) gəlmişdir. Kim bəsirət tapdısa, öz xeyrinədir. Hər kəs korluğu seçdisə, öz zərərinə əməl etdi. Mən nəzarətçi və zamin deyiləm.”**

## *Nöqtələr*

◘95-ci ayədən hazırkı ayəyədək Allahın tanıtdırılması və şirkin tənqid mövzusuna yer ayrıldı. Bu ayə ötən ayələrin nəticə və xülasəsi kimidir.

◘Quranda bu ayənin oxşarı çoxdur. Bildirilir ki, insanın iman və ya küfrünün, yaxşılıq və ya pisliyinin, bəsirət və ya korluğunun nəticəsi onun özünə aiddir.[1]

## *Bildirişlər*

1. Quranın nazil olması ilə kimsə üçün üzr və bəhanə yeri qalmadı.
2. İnsanlar yol seçimində azaddır.
3. Xalqın xəbərdar edilməsi Allahın rübubiyyət şənindəndir.
4. İmanın faydası və küfrün zərəri insanın özünə qayıdır və Allaha təsirsizdir.
5. Xalqın bir dəstəsinin cəzalanması ilahi təlimlərin batil olması göstəricisi deyil. Bu cəza insanın özünün qəlbən kor olması nişanəsidir.
6. Peyğəmbərin vəzifəsi məcbur etmək yox, bəyan etməkdir.

**105.** ﴿وَكَذَلِكَ نُصَرِّفُ الآيَاتِ وَلِيَقُولُواْ دَرَسْتَ وَلِنُبَيِّنَهُ لِقَوْمٍ يَعْلَمُونَ﴾

**“Beləcə, ayələri müxtəlif şəkildə bəyan edirik (ki, hidayət vasitəsi olsun. Amma iman gətirməyib) deyirlər: “Sən (kiminsə yanında) dərs oxumusan! (Qoy desinlər. Amma Biz) Düşüncə və elm əhli olanlar üçün bəyan edirik.”**

## *Nöqtələr*

◘Kafirlər təkzib məqsədi ilə peyğəmbərə deyirdilər: “Bu sözlər sənin deyil. Başqalarından öyrənmisən.” Digər bir məqamda belə deyirdilər: “Kimsə onu öyrədib.” Bəzən də “bir dəstə ona kömək edib” deyirdilər.[2]

## *Bildirişlər*

1. Bəyan, dəlil, təlim üsullarının müxtəlifliyi qəbul yolunu daha da genişləndirir.
2. Müxaliflər Quranın əhəmiyyətini etiraf edib deyirdilər: “Bu maarifi kimdənsə öyrənib.” Onlar Quran buyruqlarını dəyərsiz saymırdılar.
3. Bəziləri Quranın ayələri qarşısında böhtan və inkarla dayanırlar. Bəziləri isə deyilənlərdən nəticə çıxarıb doğru yola gəlirlər.

Əslən yağışda yoxsa da nöqsan,
Bağda lalə bitir, səhrada tikan.

**106.** ﴿اتَّبِعْ مَا أُوحِيَ إِلَيْكَ مِن رَّبِّكَ لا إِلَهَ إِلاَّ هُوَ وَأَعْرِضْ عَنِ الْمُشْرِكِينَ﴾

---

[1] “Bəqərə”, 282; “Fussilət”, 46; “İsra”, 7.
[2] “Nəhl”, 103; “Furqan”, 4.

**“Yalnız Rəbbin tərəfindən sənə vəhy edilənə tabe ol. Ondan başqa məbud yoxdur və müşriklərdən üz döndər.”**

## *Nöqtələr*

◘Ötən ayədə peyğəmbərə qarşı müşriklərin belə bir böhtanı açıqlandı: “Sənin kəlamın vəhy deyil, əksinə, başqalarından öyrəndiklərindir.” Burada peyğəmbərə təsəlli verilir ki, sən öz işini gör və müxaliflərin sözlərinə etina etmə.

◘Müxaliflərlə rəftar üsulları müxtəlifdir. O cümlədən: bəzən salam vermək;[1] bəzən sükut və ünsiyyətdən çəkinmək;[2] bəzən üz döndərmək və etinasızlıq;[3] bəzən sərt rəftar,[4] bəzən qarşı tərəf kimi cavab vermək.[5]

## *Bildirişlər*

1. İlahi rəhbərlər düşmənlərin böhtanları, təhqirləri və yersiz təhlilləri səbəbindən süstləşməməlidirlər.
2. Bəzən insanlar o qədər süqut edirlər ki, hətta peyğəmbər də ilahi göstərişlərlə onlardan üz döndərir.

**107.** ﴿وَلَوْ شَاء اللّهُ مَا أَشْرَكُواْ وَمَا جَعَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا وَمَا أَنتَ عَلَيْهِم بِوَكِيلٍ﴾

**“Əgər Allah istəyərdisə (hamı məcburi iman gətirərdi və) şirkə uğramazdı. (Amma ilahi sünnə, qanun belə deyildir.) Biz səni onlara nəzarətçi qərar vermədik və sən onlara (onların iman gətirməsinə) vəkil deyilsən.”**

## *Nöqtələr*

◘Allahın istək və iradəsi iki növdür: təşrii və təkvini. Allah təşrii (şəri) baxımdan bütün insanların hidayətini istəmişdir. Ona görə də peyğəmbər və səmavi kitablar göndərmişdir. Amma təkvini (təbii) baxımdan xalq öz iradəsi əsasında seçim aparmalı, dinin qəbuluna məcbur edilməməlidir.

## *Bildirişlər*

1. Allahın istək və iradəsində dönüklük yoxdur.
2. Allahın iradəsi insanları azad buraxmaqdır. Müşriklərin varlığı bu iradə azadlığının göstəricisidir.
3. İlahi peyğəmbərlər xalqa ilahi göstərişləri zorla qəbul etdirən məmurlar yox, mürəbbi və müəllimlərdirlər.
4. Peyğəmbər müşriklərin bəlaya düşməsi və ya fayda əldə etməsi üçün məsuliyyət daşımır.
5. Peyğəmbərlər nəticə yox, vəzifələrini yerinə yetirməyə zamindirlər. Bütün səylərə baxmayaraq bir çoxları müşrik qaldı.

---

[1] “Furqan”, 63.
[2] “Hicr”, 3, “Ali-İmran”, 143.
[3] “Maidə”, 42.
[4] “Tövbə”, 73.
[5] “Bəqərə”, 194.

6. Peyğəmbərlər xalqın hidayəti üçün can yandırırdılar.

**108.** ﴿وَلاَ تَسُبُّواْ الَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ فَيَسُبُّواْ اللّهَ عَدْوًا بِغَيْرِ عِلْمٍ كَذَلِكَ زَيَّنَّا لِكُلِّ أُمَّةٍ عَمَلَهُمْ ثُمَّ إِلَى رَبِّهِم مَّرْجِعُهُمْ فَيُنَبِّئُهُم بِمَا كَانُواْ يَعْمَلُونَ﴾

**"Allahdan qeyrisini çağıranları (onların məbudlarını) söyməyin. Onlar da cəhalət və düşmənçilik üzündən Allahı söyərlər. Biz bu sayaq hər bir ümmətə əməlini açıqladıq. Sonra onların dönüş yeri Rəblərinə doğrudur. Allah onlara etdiklərini xəbər verər."**

## *Nöqtələr*

◘Allah insanı elə yaratmışdır ki, istər yaxşı, istərsə də pis işlər yavaş-yavaş onun ruhunda özünə yer edib adətə çevrilir. Ona görə də bəzən işlərin zinətləndirilməsi Allaha aid edilmişdi. Bəzən də şeytan öz vəsvəsələri yolu ilə çirkin işləri gözəl göstərir.[1]

◘Həzrət Əli (ə) Siffeyn döyüşündə öz döyüşçülərinə tövsiyə verirdi ki, Müaviyənin ardıcıllarını söyməsinlər, onların simasını açıqlasınlar və bu, söyüşdən də pisdir.[2]

◘Əmirəl-möminin Əli (ə) buyurmuşdur: Allahın imamlarının təhqiri Allahı təhqir nümunələrindəndir.[3]

◘Lənət, nifrin və bəraət (üz döndərmə) söyüş və təhqir sayılmır. Lənət və bəraət Quranın bəzi ayələrində Allah tərəfindən elan olunmuşdur. Lənət və bəraət əslində zalımlar və müşriklər qarşısında müsəlmanların mövqeyini bildirir.[4]

## *Bildirişlər*

1. Müxaliflərə münasibətdə öz hisslərimizi cilovlayaq, nalayiq və yaramaz sözlərdən çəkinək.
2. Öz rəftarlarımızın əks-sədasına diqqətli olaq.
3. Söyüş və təhqirlə xalqı yanlış yoldan çəkindirmək olmaz.
4. Təhqir və söyüş düşmənçilik, kin-küdurət və təhqir doğurur.
5. Təhqir və söyüşün səbəbi ya məntiqsizlik, ya ədəbsizlik, ya da səbirsizlikdir. (Müsəlman təhqirdən çəkinməklə sübut etməlidir ki, o, səbir, məntiq və ədəb sahibidir.)
6. Müqəddəsliklərin təhqirinə səbəb olan hər bir iş haramdır.
7. Nəhy əz münkər, təbliğat və mübahisədə təhqir və söyüşdən istifadə etmək qadağandır.
8. Başqalarını günaha sövq edən iş haramdır.[5]

---

[1] "Ənam",43.
[2] "Nəhcül-bəlağə", k. 206.
[3] "Təfsire-Əl-Mizan".
[4] "Hud", 18; "Tövbə", 1.
[5] "Təfsire-Məcməul-bəyan".

9. Bəzən insan bilmədən başqalarının günahına şərik olur. Başqalarının günah və haram iş görməsinə şərait yaratmaq belə hallardandır.

10. Ümmətin əməllərini gözəl cilvələndirmək ilahi sünnələrdəndir. (Hər bir ümmət haqsız da olsa, öz əməllərini gözəl bilir.)

11. Nümayiş və bir şeyi gözəl saymaq həqiqət nişanəsi deyil.

12. İnsanları qiyamətdə əməlləri ilə bağlı görəcəklərindən xəbərdar etmək ilahi rübubiyyət şənindəndir.

**109.** ﴿وَأَقْسَمُواْ بِاللّهِ جَهْدَ أَيْمَانِهِمْ لَئِن جَاءتْهُمْ آيَةٌ لَّيُؤْمِنُنَّ بِهَا قُلْ إِنَّمَا الآيَاتُ عِندَ اللّهِ وَمَا يُشْعِرُكُمْ أَنَّهَا إِذَا جَاءتْ لاَ يُؤْمِنُونَ﴾

**“Ən ağır andları ilə Allaha and içdilər ki, əgər onlara möcüzə və nişanə gəlsə, hökmən ona iman gətirəcəklər. De ki, möcüzələr yalnız Allaha məxsusdur. (Onun əlindədir.) Nə bilirsiniz (Biz bilirik), əgər möcüzə də gəlsə, onlar iman gətirməyəcək.”**

## *Nöqtələr*

◘Qüreyşdən olan bir dəstə kafir həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: “Sən də Musa, İsa kimi möcüzələr gətir ki, sənə iman gətirək.” Həzrət soruşdu: “Nə edim?” Dedilər: “Səfa dağını qızıla çevir, ölülərimizi dirilt, Allah və mələkləri bizə göstər.” Sonra and içdilər ki, bu halda iman gətirəcəklər. Ayə nazil oldu ki, möcüzə Allahın əlindədir və xalqın istəyi ilə yox, ilahi hikmətlə gerçəkləşir.[1] Möcüzə xalqın istəklərini yerinə yetirəcək həddə yox, höccəti (dəlilləri) tamamlayacaq həddə zəruridir. Allahı görmək kimi istəklərin ağıla zidd olmasını bir kənara qoysaq da, varlıq nizamı oyuncaq deyildir ki, müşriklərin istəyi ilə dəyişdirilsin.

## *Bildirişlər*

1. Məkkə müşrikləri Allahı qəbul edirdilər və Ona and içirdilər.
2. Müxaliflərin yalan andlarına aldanmayın.
3. Dəlil gətirək, amma axmaq istəklərə cavab verməyək.
4. Peyğəmbərlərin möcüzələri Allahın əlindədir.
5. İnadkarlıq sağalmaz dərddir və inadkarlar hansı möcüzəni görsələr də, iman gətirməzlər.

**110.** ﴿وَنُقَلِّبُ أَفْئِدَتَهُمْ وَأَبْصَارَهُمْ كَمَا لَمْ يُؤْمِنُواْ بِهِ أَوَّلَ مَرَّةٍ وَنَذَرُهُمْ فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ﴾

**“Necə ki, əvvəldə iman gətirməmişdilər, bu dəfə də qəlblərini və gözlərini dolaşdırar, onları tüğyanlarının içində başlı-başına buraxarıq ki, avara qalsınlar.”**

## *Bildirişlər*

1. İnadkar insanların qəlb dolaşıqlığı ilahi sünnədir.

---

[1] “Təfsire-Məcməul-bəyan”, “Təfsire-Nümunə”.

2. Allaha və peyğəmbərliyə iman üçün qəlb sağlam olmalıdır.
3. Günah və inadkarlıq insanın baxışını dolaşdırır.
4. Övliyaların möcüzələrini görüb iman gətirməyənlər başqa möcüzələr istəməməlidir.
5. Allah "müqəllibəl-qülub" (qəlbləri çevirən) olsa da, iman və ya küfr yolunu seçməklə qəlb halını müəyyənləşdirən insandır.
6. Tüğyan küfrün köküdür.
7. Allah tərəfindən başlı-başına buraxılan şəxs avara qalar.

**111.** ﴿وَلَوْ أَنَّنَا نَزَّلْنَا إِلَيْهِمُ الْمَلآئِكَةَ وَكَلَّمَهُمُ الْمَوْتَى وَحَشَرْنَا عَلَيْهِمْ كُلَّ شَيْءٍ قُبُلاً مَّا كَانُواْ لِيُؤْمِنُواْ إِلاَّ أَن يَشَاءَ اللّهُ وَلَكِنَّ أَكْثَرَهُمْ يَجْهَلُونَ﴾

**"Əgər Biz onlara doğru mələkləri göndərsəydik, ölülər onlarla danışsaydı və hər şeyi (haqqa şahid olaraq) dəstə-dəstə onların qarşısında toplasaydıq, yenə iman gətirməzdilər. Yalnız Allah istəsəydi (məcburi iman gətirərdilər). Amma onların çoxu nadanlıq edir."**

## *Nöqtələr*

◘Nəql olunduğuna görə, mələklərin nazil olması və ölülərlə danışılması müşriklərin istəklərindən idi. Halbuki müşriklər o qədər inadkar idilər ki, hətta mələklərin görünməsi kimi qeybi bir iş də baş versəydi, iman gətirməzdilər. Sədi deyir:

Əlindəki gövhər olsa da əgər,
Sığal verildikcə o gözəlləşər.
Amma ki, dəmirə çəkilən sığal,
İnan faydasızdır, dəyişməz bu hal.
İti yuyundursan yeddi dəryada,
Su dəysə murdardır, belədir qayda.
İsanın ulağı Məkkəyə getsə,
Çətin qayıdanda dəyişə nəsə.

◘"Qubul" sözü ya müqabil, ya da dəstə mənasını bildirir.
◘Ötən iki ayədə müşriklərin yalanları bəyan oldu. Onlar deyirdilər: "Əgər möcüzə gəlsə, iman gətirərik." Bu ayədə həmin möcüzələrin nümunəsi göstərilir.
◘Ayənin oxşarı "Hicr" surəsinin 14-15-ci ayələrində bəyan olunmuşdur: "Əgər səmadan bir qapı açılsa və kafirlər oradan yuxarı qalxsalar, yenə deyərlər: "Gözlərimiz cadu edilib."

## *Bildirişlər*

1. İnadkar qəlb üçün heç bir ayə və nişanə iman zəminəsi ola bilməz.
2. Allah istəsə, hamını məcbur surətdə mömin edər. Amma bu, Onun hikmətinə uyğun deyildir.
3. Cəhalət ilahi ayələrə etiqadsızlıq amilidir.

**112.** ﴿وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نِبِيٍّ عَدُوًّا شَيَاطِينَ الإِنسِ وَالْجِنِّ يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ زُخْرُفَ الْقَوْلِ غُرُورًا وَلَوْ شَاء رَبُّكَ مَا فَعَلُوهُ فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ﴾

**“(Ey peyğəmbər! Onlar təkcə sənin qarşında inadkarlıq etmirlər.) Biz bu sayaq hər bir peyğəmbər üçün insan və cindən olan şeytanlarla düşmənçilik yaratdıq. Onlardan bəzisi qəlbəyatan və aldadıcı sözlərini bəzilərinə təlqin edirlər. Əlbəttə, sənin Rəbbin istəsəydi, belə etməzdilər. (Amma ilahi sünnə, qanun insanların azadlığı üzərində qurulub) Onları və yalandan quraşdırdıqlarını özlərinə tapşır.”**

## *Nöqtələr*

◘Əvvəlki iki ayədə deyilmişdir: “Biz onları özbaşına buraxdıq. Burada buyurulur: “Sən də onları özbaşına burax.”

◘İnsanın süqutu şeytani vəsvəsələrə təslimçilikdən başlayır.[1] Həmin vaxt kimə vəsvəsələr təsir edirsə, şeytanın yoldaşlarından olur.[2] Həmin şəxs nəhayət özü şeytan olur.

◘Təzad və qarşıdurma ixtiyarı təkamülün zəminəsidir. Ona görə də Allah dünyanı ixtiyari çətinliklər və təzad aləmi qərar vermişdir.

## *Bildirişlər*

1. İnsanın istiqamət və möhkəmlik amillərindən biri də tarixdən və başqalarının çətinliklərindən xəbərdarlıqdır.
2. Haqq və batilin mübarizəsi tarix boyu davam etmişdir.
3. Cəmiyyətin rəhbəri qarşıdurmalara hazır olmalıdır.
4. Müxaliflərin və bədxahların kökünün kəsilməsi intizarında olmayaq.
5. Peyğəmbərlərin növbənöv müxaliflərlə çəkişməsi ilahi sünnələrdəndir.
6. İnadkar kafirlər şeytandır.
7. İnsan və cin şeytanlar bir-birlərinə təlqin etməklə əlaqə saxlayırlar.
8. Şeytanlar şeytani üsulları bir-birlərinə öyrədirlər.
9. Peyğəmbər müxaliflərinin xalq arasında təbliğatları var.
10. Gözəl və aldadıcı sözlər insanı azdıra bilər.
11. Allah insanı azad yaratmış və dünyanı çəkişmə meydanı qərar vermişdir.
12. Bəşəriyyətin ixtiyar və azadlığı onun inkişaf və tərbiyəsi üçündür.
13. Varlıq nizamında xeyir və şər adlı iki yox, vahid iradə hakimdir. Azdırıcı səylər ilahi qüdrət xaricində deyil.

**113.** ﴿وَلِتَصْغَى إِلَيْهِ أَفْئِدَةُ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ وَلِيَرْضَوْهُ وَلِيَقْتَرِفُواْ مَا هُم مُّقْتَرِفُونَ﴾

---

[1] “Nas”, 5.
[2] “İsra”, 27.

**“(Şeytanlar öz aldadıcı sözlərini xalqa oxuyurlar ki,) Qiyamətə imanı olmayanların qəlb qulağı həmin sözlərə meyl etsin, onu bəyənsin və ələ keçirmək istədiklərini qazansınlar.”**

## *Nöqtələr*

◘“Təsğa” “səğv” sözündən olub təmayül mənasını bildirir. Bu meyl eşitmək vasitəsi ilə hasil olur.

◘“İqtiraf” bir şeyin təhsili, kəsbi mənasını bildirir.

## *Bildirişlər*

1. İnsanın doğru yoldan azması üçün vəsvəsələr və təbliğatlar kifayət etmir. Dinləmək, vurulmaq, təslim olmaq təsirlidir.
2. İnsanın axirətə inanmaması şeytanın ona nüfuz səbəbidir.

**114.** ﴿أَفَغَيْرَ اللّهِ أَبْتَغِي حَكَمًا وَهُوَ الَّذِي أَنَزَلَ إِلَيْكُمُ الْكِتَابَ مُفَصَّلاً وَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْلَمُونَ أَنَّهُ مُنَزَّلٌ مِّن رَّبِّكَ بِالْحَقِّ فَلاَ تَكُونَنَّ مِنَ الْمُمْتَرِينَ﴾

**“(De ki, bir bu qədər aşkar dəlillə) Allahdan qeyrisinimi hakim seçim? Halbuki sizə doğru səmavi kitabı müfəssəl şəkildə nazil edən Odur. Kitab verdiyimiz kəslər (yəhudi və məsihilər) bilirlər ki, bu kitab sənin Rəbbin tərəfindən haqq olaraq nazil olmuşdur. Heç vaxt tərəddüd edənlərdən olma.”**

## *Nöqtələr*

◘Bəzilər “həkəm” sözünü “hakim” sözü ilə eyni bilmişlər. Bəziləri isə bildirirlər ki, “həkəm” hər iki tərəfin seçdiyi hakimdir. Hakim isə istənilən halda mühakimə aparan şəxsə deyilir.[1] “Məcməul-bəyanda” deyilmişdir: “İstənilən bir qaziyə hakim deyilirsə də, həkəm yalnız haqqı əsas götürərək mühakimə aparandır.

◘111-ci ayədə deyilirdi ki, əgər ölülər onlarla danışsa və ya mələklər nazil olsa, onlar yenə iman gətirməyəcəklər. Bu ayədə buyurulur: “Kitab əhli Quranın vəhy olduğunu bilir. Onların möcüzə istəyi yalnız bəhanədir.”

◘Peyğəmbər öz yolunda tərəddüd etmir. Ayədə peyğəmbərə yox, öz yolunda tərəddüddə olan müsəlmanlara müraciət olunur.

## *Bildirişlər*

1. Quran kimi bir kitab olduğu halda başqa hakimlərin sorağınca getmək yanlış və məzəmmət olunasıdır.(Allahdan savay kimsənin qanun vermək və mühakimə aparmaq haqqı yoxdur.)
2. Allah Quranı müfəssəl şəkildə nazil etmişdir.
3. İslam qanunları və hökmlərində şübhəyə yer yoxdur.

---

[1] “Təfsire-Nümunə”, “Təfsire-Əl-Mənar”.

4. İslamın haqq olması dəlillərindən biri ötən peyğəmbərlərin Tövratda və İncildə müjdə verməsidir. Çünki başqa bir ayədə buyurulur: “Kitab əhli İslam peyğəmbərini öz övladları kimi tanıyırdılar.”[1]

5. Rəhbər tərəddüddən uzaq qətiliklə dəvət etməlidir.

6. Kitab əhli iman gətirməyib deyə tərəddüdə düşməməliyik. Çünki onlar Quranın haqq olmasını yaxşı bilirlər. İnkarçılıqlarının səbəbi isə inadkarlıqlarıdır.

**115. ﴿وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ صِدْقًا وَعَدْلاً لاَّ مُبَدِّلَ لِكَلِمَاتِهِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ﴾**

**“Rəbbinin kəlamı sədaqət və ədalətlə kamal və tamlıq həddinə çatdı. Onun kəlmələrini dəyişəcək kimsə yoxdur və O eşidən, biləndir.”**

## *Nöqtələr*

◘Əvvəlki ayəyə əsasən bu ayədəki “kəlimə” sözü Quran ayələrinə işarədir. Amma Quran və rəvayət terminologiyasında “kəlimə” bəzən qəti vəd mənasını bildirir.[2] Qeyd olunan ayədə uyğun söz Bəni-İsrailə səbirlərinə xatir ilahi vədin gerçəkləşməsini bildirir. Bəzən bu söz din mənasında işlədilmişdir. “Kəlimətullah”, yəni Allahın dini. Bəzən isə «kəlimə» dedikdə peyğəmbər və ilahi övliyalar nəzərdə tutulur.[3] Rəvayətlərdə məsum imamların dilindən nəql olunur ki, biz ilahi kəlmələrik.[4]

## *Bildirişlər*

1. Quran son səmavi kitab, İslam son ilahi dindir.

2. İslam peyğəmbərinin risalətinin sübutu üçün Quran kamil möcüzədir.

3. Quran cəmiyyətin hidayəti ilə bağlı bütün ehtiyaclara cavab verir.

4. İslam ötən dinlərin mükəmməlidir.

5. İslam peyğəmbərinin besəti ilə dinin tamamlanması Allahın rübubiyyət cilvəsidir.

6. İlahi qanun və sünnələrin varlıq nizamında əsası sədaqət və ədalətdir.

7. Quran xəbərləri doğrudur, onun hökmləri ədalət üzərində qurulmuşdur. Digər bir ayədə də bu məsələyə toxunulur.[5]

8. Quranda təhrifə yol yoxdur.

9. Allah ehtiyacları çox yaxşı bilir və bu ehtiyacları nəzərə alaraq Quran nazil etmişdir.

---

[1] “Bəqərə”, 146; “Ənam”, 20.
[2] “Əraf”, 137.
[3] “Nisa”, 171.
[4] “Bihar”, c. 24, s. 174.
[5] “Nisa”, 87.

**116.** ﴿وَإِن تُطِعْ أَكْثَرَ مَن فِي الأَرْضِ يُضِلُّوكَ عَن سَبِيلِ اللّهِ إِن يَتَّبِعُونَ إِلاَّ الظَّنَّ وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ﴾

**"Əgər yer üzündəki bir çox insanlara itaət etsən, səni Allahın yolundan azdırarlar. Çünki onlar yalnız gümana itaət edirlər. Onlar zənn-gümandan başqa bir şeyə varmırlar."**

## *Nöqtələr*

◘"Xərs" təxmin, güman mənasını bildirir. Bəzi təxminlər heç nəyə əsaslanmadığından bu söz yalan mənasında da işlədilir.[1]

## *Bildirişlər*

1. Xalqın və çoxluğun yolu yox, hidayət və Quran yolu meyardır.
2. Çoxluq haqlılıq deyil. Meyar say yox, həqiqətdir. Ona görə də haqq yolla addımlayarkən azlıqdan qorxmayın.
3. Çoxluğun diqqətini qazanmaq bəzən insanın məhvi və ya yolunu azması bahasına başa gəlir. (Çoxluğun rəyinə uyğun olmasa da, Allahın yolu ilə hərəkət edək.)
4. Çoxluq o qədər aldadıcıdır ki, hətta Allah da Öz peyğəmbərlərini çoxluğa itaətdən çəkindirir.(Peyğəmbərlər çoxluğa yox, vəhyə tabedir.)
5. Azğınlıqların kökü zənn və gümana istinad edilməsidir.
6. Haqqı qoyub zənn-güman və həvəs ardınca gedən çoxluğa itaət etmək olmaz.
7. Yol seçimində zənn-güman yox, ciddi dəlillər əsas götürülməlidir.

**117.** ﴿إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ مَن يَضِلُّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ﴾

**"Həqiqətən, sənin Rəbbin Özü Onun yolundan azanlardan və hidayətə yetişənlərdən daha yaxşı xəbərdardır."**

## *Nöqtələr*

◘Əvvəlcədən ilahi hidayət yolunu tutmuş kəs "Məhdiyy" adlanır. Buna məsum imamlar misal ola bilər. "Mühtədi" isə zəlalətdən sonra hidayət olunandır.[2]

## *Bildirişlər*

1. Bəşərin elmi olsa da, yalnız Allah mütləq və gerçək elm sahibidir.("O" əvəzliyi mübtəda və xəbər arasında inhisar əlamətidir.)
2. Tərbiyənin dərin agahlığa ehtiyacı var.
3. Təzahür və nifaqla özünüzü və başqalarını aldatmayın. Allah hamını yaxşı tanıyır.
4. Əksəriyyətə yox, "ələmə", yəni ən elmliyə itaət edək.

---

[1] "Təfsire-Nümunə".
[2] "Təfsire-Ətyəbul-bəyan".

**118.** ﴿فَكُلُواْ مِمَّا ذُكِرَ اسْمُ اللّهِ عَلَيْهِ إِن كُنتُمْ بِآيَاتِهِ مُؤْمِنِينَ﴾

**“Əgər ilahi ayələrə imanınız varsa yalnız (zibh zamanı) Allahın adı çəkiləndən yeyin.”**

## *Nöqtələr*

◘Heyvanın zibhi, kəsimi zamanı Allahın adını çəkmək bir növ maddiyyata paklıq vermək və imanı cilvələndirməkdir. Bütün işlərdə Allahın adını çəkmək yaxşıdır. Amma heyvanı kəsərkən onun canı alındığından həmin məqamda Allah adını çəkmək zəruridir.

◘İslam məktəbinin komplekslik nişanəsi odur ki, zibh kimi cüzi bir məsələdə onun bütün yönümləri açıqlanılır. Bu məsələdə həm məktəb (Allahın adı), həm vasitə (dəmir), həm damarların kəsilmə üsulu, həm ümmət (zibh edənin müsəlman olması), həm cəhət (qiblə), həm məsrəf yeri bəyan olunmuşdur.

## *Bildirişlər*

1. Möminin qidalanmasında da ilahi yönüm olmalıdır.
2. Halal heyvanların ətindən istifadə zamanı Allahın adının çəkilməsi bir növ məsrəf üçün icazə möhürüdür.
3. Tövhid sütunlarını möhkəmlətmək üçün bütün fürsətlərdən, eləcə də, heyvanın zibhindən istifadə olunmalıdır. Bəli, tövhid təkcə zehnə aid məsələ deyil.
4. Halal qida və hökmlərə əməl iman şərtidir.

**119.** ﴿وَمَا لَكُمْ أَلاَّ تَأْكُلُواْ مِمَّا ذُكِرَ اسْمُ اللّهِ عَلَيْهِ وَقَدْ فَصَّلَ لَكُم مَّا حَرَّمَ عَلَيْكُمْ إِلاَّ مَا اضْطُرِرْتُمْ إِلَيْهِ وَإِنَّ كَثِيرًا لَّيُضِلُّونَ بِأَهْوَائِهِم بِغَيْرِ عِلْمٍ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِالْمُعْتَدِينَ﴾

**“Sizə nə olub ki, üzərində Allah adı çəkilmiş şeydən yemirsiniz? (Səbəbsiz yerə Bizim halalımızı özünüzə haram edirsiniz.) Hansı ki, Allah sizə haram etdiyini Özü müfəssəl şəkildə bəyan etmişdir. Yalnız yeməyə məcbur olduğunuz şeylər istisnadır. Həqiqətən, xalqın çoxu başqalarını öz cahil istəklərinə xatir azdırırlar. Şübhəsiz, sənin Rəbbin təcavüzkarlardan daha agahdır.”**

## *Nöqtələr*

◘Bir dəstə insan ortaya şübhə atmaq və zibh olmuş heyvanı ölmüş heyvanla müqayisə etməklə xalqı azdırır və deyirdilər: “Nə üçün bizim öldürdüyümüz heyvan halal, Allahın öldürdüyü heyvan isə haramdır?” Ayə həmin adamlara cavab verərək məsələni xalqa aydınlaşdırır.

## *Bildirişlər*

1. Heç bir səbəb olmadan Allahın halal etdiyini özünə haram edənlər qınanmalıdır. (Bəlkə də bəzi müsəlmanlar cahil ənənələrin təsiri altında halal nemətləri özlərinə haram etmişlər.)
2. Heyvan əti ilahi rəng şərti ilə halal, əks təqdirdə haram olur.

3. Səmavi İslam məktəbində bütün haramlar bəyan olunmuşdur. Bu müfəssəl bəyan “Nəhl” surəsinin 115-ci ayəsinə işarədir;[1]

4. Qidalara münasibətdə əsas və ümumi qanun onların halal olmasıdır. Haramları isə Allah bəyan etmişdir.

5. İslam hökmlərində çıxılmaz vəziyyət yoxdur.

6. Çıxılmaz vəziyyət vəzifəni aradan götürür.

7. İlahi vəzifələr zaman, məkan və insanın gücünə münasib olur.

8. Yalnız çıxılmaz vəziyyətlərdə (yaşamaq üçün zəruri həddə) haramlardan yemək olar.

9. Halal və haramın təyini ilahi göstərişlərə əsaslanır.

10. Cəhalət və həvəsbazlıq azğınlıq amillərindəndir.

11. Xalqı azdırmaq cəmiyyətin haqlarına təcavüzdür.

**120.** ﴿وَذَرُواْ ظَاهِرَ الإِثْمِ وَبَاطِنَهُ إِنَّ الَّذِينَ يَكْسِبُونَ الإِثْمَ سَيُجْزَوْنَ بِمَا كَانُواْ يَقْتَرِفُونَ﴾

**“Aşkar və gizli günahı tərk edin. Həqiqətən, günaha batanlar tezliklə gördükləri işlərin cəzasını alacaqlar.”**

## *Nöqtələr*

◘İstər keçmişdə, istərsə də indi insanlar yalnız aşkar günahlarından qorxurlar.

◘Bəziləri deyirlər ki, «gizli günah» dedikdə təsirləri gizli qalan günahlar nəzərdə tutulur. Məsələn, insanın qəlbini daşlaşdıran haram qidalar kimi.

## *Bildirişlər*

1. Günahda cazibədarlıq var. Qəti iradə ilə onun cazibəsindən çıxmaq lazımdır.

2. İslam həm zahiri, həm də batini paklığa diqqət yetirir. Həm əmələ aid günahlardan, həm də sui-zənn kimi qəlb günahlarından çəkinmək lazımdır.

3. İlahi cəza bilərəkdən baş vermiş günahlara aiddir.

4. Şeytan vəsvəsə, təlqin etsə də, insan öz iradəsi ilə addım atır.

5. Qiyamət və axirət cəzası uzaqda deyil.

6. İlahi cəzalar öz əməllərimizin nəticəsidir.

**121.** ﴿وَلاَ تَأْكُلُواْ مِمَّا لَمْ يُذْكَرِ اسْمُ اللهِ عَلَيْهِ وَإِنَّهُ لَفِسْقٌ وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ
لِيُجَادِلُوكُمْ وَإِنْ أَطَعْتُمُوهُمْ إِنَّكُمْ لَمُشْرِكُونَ﴾

**“Allah adı çəkilməyən şeylərdən yeməyin. Çünki onu yemək (bəndəlik dairəsindən çıxmaq,) həddi aşmaqdır. Həqiqətən, şeytanlar öz dostlarına təlqin edirlər ki, sizinlə höcətləşməyə qalxsınlar. (Məsələn, deyirlər ki, ölü heyvanla kəsilmiş heyvan arasında nə fərq var ki?!) Əgər onlara itaət etsəniz, şübhəsiz, siz də müşrik olarsınız.”**

---

[1] “Təfsire-Əl-Mizan”.

## *Nöqtələr*

◘Haram yemək qəlbdə qəsavət yaratdığından, onu bərkitdiyindən başqa günahlar üçün də zəmindir. İslam haram yeməyi ciddi şəkildə qadağan etmişdir.

◘"Maidə" surəsinin 5-ci ayəsində oxuduq ki, kitab əhlinin yeməkləri sizin üçün halaldır. Bu ayə isə deyir: "Allahın adı çəkilmədən kəsilmiş hər bir heyvanın əti haramdır." Kitab əhli bu şərtə riayət etmədiyindən onların süfrəsindəki ətlər bizim üçün haram olur. Qeyd olunmuş ayədə isə ətsiz xörəklər nəzərdə tutulmuşdur.[1]

◘Şeytanlar bu sayaq vəsvəsələr edirlər: "Ölü heyvanı Allah öldürüb və Allahın öldürdüyü heyvan insanın öldürdüyündən üstündür. Nə üçün ölü heyvan haram, zibh olunmuş heyvan isə halal olmalıdır?" Bilməliyik ki, əsas məsələ Allahın əmrlərini yerinə yetirməkdir. Ölü heyvanın qanı onun bədənində qaldığından, adətən, bu qanda xəstəliklər olur. Bundan əlavə, heyvanın ölməsi özü də onun xəstəlik dəlilidir.

## *Bildirişlər*

1. Müsəlman hətta qidalanma məsələsində də dini öhdəçiliklərə əməl etməlidir.
2. Zibh zamanı Allahın adının çəkilməsi sadəcə dəbdəbə deyil. Bu hökmü icra etmək zəruridir. Onu tərk etmək isə günah sayılır.
3. Harada inamsızlıq çoxdursa, təkidə ehtiyac var. Zibhin halallığını cahil insanlara qəbul etdirmək çətin olduğundan Allah bu məsələni bir neçə təkidlə bəyan edir.(İsmi cümlə, "innə" və "lam" hərfi təkid nişanəsidir.)
4. Haramla qidalanan insanda şeytani təlqinləri qəbul etmək üçün zəmin yaranır.
5. Şeytanların vəsvəsə və təlqin gücü var.
6. Şeytanın vəsvəsələri Allahın övliyalarına yox, yalnız onların öz övliyalarına təsir edir.
7. İnsanın höcətlərinin əsasını vəsvəsələr və həvəslər təşkil edir.
8. İlahi hökmlər mövzusunda höcətləşmə şeytani təlqinlərdəndir.
9. Dini hökmlərdə höcətləşmə insanı şirkə çəkir.
10. Əməldə Allahdan qeyrilərinə tabe olan allahpərəstlər müşrikdirlər.

**122.** ﴿أَوَ مَن كَانَ مَيْتًا فَأَحْيَيْنَاهُ وَجَعَلْنَا لَهُ نُورًا يَمْشِي بِهِ فِي النَّاسِ كَمَن مَّثَلُهُ فِي الظُّلُمَاتِ لَيْسَ بِخَارِجٍ مِّنْهَا كَذَلِكَ زُيِّنَ لِلْكَافِرِينَ مَا كَانُواْ يَعْمَلُونَ﴾

**"(Cəhl və şirk vasitəsi ilə) öldüyü halda öz hidayətimizlə həyat bəxş etdiyimiz, xalq arasında yolunu tapa bilməsi üçün bir nur qərar verdiyimiz kəs, (cəhl və şirk) zülmətlərində qərar tutub qurtula bilməyən kəs kimi ola bilərmi? Beləcə, kafirlər üçün etdikləri işlər zinətləndirilmişdir."**

## *Nöqtələr*

◘Bu ayə Peyğəmbərin (s) əmisi Həmzənin iman gətirməsi ilə bağlı nazil olmuşdur. Həmzə Əbu-Cəhlin həzrət Peyğəmbərə (s) və onun əqidəsinə vurduğu zərbələrdən xəbər tutub peyğəmbəri himayə etdi. O, Əbu-Cəhli tapıb onun başına bir zərbə

[1] "Təfsire-Əl-Mizan".

endirdi. Həmzə dedi: “Mən bu gündən Məhəmmədə (s) iman gətirirəm.” Həmin vaxtdan şəhadət gününədək Həmzə İslam üçün rəşadətli və imanlı bir sərkərdə oldu.

◘Quranda həm nütfə mərhələsindən əvvəlki mərhələ, həm də azğınlıq “ölüm” adlandırılmışdır.[1] Eləcə də, otsuz-ələfsiz torpaq, həm müvəqqəti, həm də həqiqi ölüm “ölüm” kimi zikr edilmişdir.[2]

◘İmam Baqir (ə) buyurmuşdur: “Xalq arasında yolu quyudan ayırd edib göstərən nur imam və səmavi rəhbərdir.”[3]

## *Bildirişlər*

1. İnsanın həqiqi həyatı iman, həqiqi ölümü isə küfrdür.
2. Hidayət Allahın işidir. Amma hidayət üçün zəminəni insanın özü yaradır.
3. Misal, sual-cavab və müqayisədən istifadə təbliğ və tərbiyədə təsirli üsuldur.
4. Mömin üçün çıxılmaz vəziyyət yoxdur. Onun cəmiyyətdə həm baxışı, həm də hərəkəti var.
5. Nur olmayan yerdə zülmətlər insanı bürüyür.
6. Haqq bir, batil isə çoxdur. (“Nur” sözü tək, “zülmət” sözü cəm halda işlədilmişdir.)
7. İman və ilahi hidayət nurundan savay bəşər üçün başqa bir qurtuluş yoxdur.
8. İnsanın öz əməllərini gözəl bilməsi onun təkamülünə və zülmətdən çıxmasına mane olur.
9. İmansız insanın əməlləri onun baxışına və təfəkkürünə təsir göstərir.
10. Kafirlərin cazibəli ixtiraları (əsrin texnoloji tərəqqisi) insanları o qədər aludə etmişdir ki, öz süqutlarını dərk edə bilmirlər.

**123.** ﴿وَكَذَلِكَ جَعَلْنَا فِي كُلِّ قَرْيَةٍ أَكَابِرَ مُجَرِمِيهَا لِيَمْكُرُواْ فِيهَا وَمَا يَمْكُرُونَ إِلاَّ بِأَنفُسِهِمْ وَمَا يَشْعُرُونَ﴾

**“Biz, beləcə, hər bir diyarda böyük günahkarları təyin etdik ki, həmin kənd və məntəqələrdə (fitnə-fəsad,) hiylə edələr. Və özlərindən başqasını aldatmazlar. Amma anlamırlar (ki, hiylənin nəticəsi özlərinə qayıdar).”**

## *Nöqtələr*

◘Ötən ayənin nazil olma şənində Əbu-Cəhlin İslam peyğəmbəri ilə qarşıdurmasına işarə olundu. Bu ayədə buyurulur: «Əbu-cəhllərin varlığı təzə bir şey deyil. Həmişə və hər yerdə haqqa dəvət qarşısında belə günahkarlar dayanmışlar.»

## *Bildirişlər*

1. Düşmənlərin məkr və hiylələrinə cavab vermək ilahi sünnədir.

---

[1] “Bəqərə”, 28.
[2] “Fatir”, 9; “Bəqərə”, 243; “Zumər”, 30.
[3] “Təfsire-Əl-Mizan”.

2. Yaxşı və pislərin səyləri hamısı ilahi qüdrət dairəsindədir. (Həm günahkarlar haqqında olan bu ayədə, həm də möminlərdən danışan ötən ayədə “cəəlna” kəlməsi işlədilmişdir.)

3. Fitnə-fəsadçı rəhbərlər cəmiyyətdəki fitnə-fəsadın kökündür.

4. Məkr və hiylə günahkar rəhbərlərin üsuludur.

5. Səfa və sədaqətin əldən verilməsi, ilahi əzaba düçar olma hiyləgərlərin özlərinə vurduqları ən böyük zərbələrdir.

6. Xəstəlikdən də pisi xəstəlikdən xəbərsizlikdir. Hiylədən də pisi hiylənin nəticəsinin özünə qayıtmasını bilməməkdir.

124. ﴿وَإِذَا جَاءتْهُمْ آيَةٌ قَالُواْ لَن نُّؤْمِنَ حَتَّى نُؤْتَى مِثْلَ مَا أُوتِيَ رُسُلُ اللّهِ اللّهُ أَعْلَمُ حَيْثُ يَجْعَلُ رِسَالَتَهُ سَيُصِيبُ الَّذِينَ أَجْرَمُواْ صَغَارٌ عِندَ اللّهِ وَعَذَابٌ شَدِيدٌ بِمَا كَانُواْ يَمْكُرُونَ﴾

**“Allah tərəfindən onların hidayəti üçün ayə və nişanə nazil olduqda dedilər: «Nə qədər ki, Allahın elçilərinə verilən bizə verilməyib, heç vaxt iman gətirmərik. (De ki,) Allah yaxşı bilir ki, Öz risalətini harada (kimdə) qərar versin.» Tezliklə günah edənlərə etdikləri məkr və hiylənin cəzası olaraq Allah tərəfindən zəlillik və əzab yetişəcək.”**

## *Nöqtələr*

◘Ayənin nazil olma şəni haqqında deyilir ki, kafirlərin düşünən beyni olan Vəlid ibn Müğeyrə deyir: “Mənim yaşım və sərvətim Məhəmməddən çox olduğu üçün vəhy mənə gəlməlidir.” Belə bir iddia Əbu-Cəhlin dilindən də nəql olunur.

◘İlahi vəd bir qrup küfr başçıları haqqında gerçəkləşdi. Onlar Bədr döyüşündə öldürüldülər.

## *Bildirişlər*

1. Qüdrətli başçılar özlərini üstün saydıqlarından təkəbbür göstərir və İslamın dəvətini qəbul etmirdilər.

2. İlahi seçim meyarı ləyaqətlərdən xəbərdarlıqdır.

3. Haqq qarşısında təkəbbürün nəticəsi zillət və xarlıqdır.

125. ﴿فَمَن يُرِدِ اللّهُ أَن يَهْدِيَهُ يَشْرَحْ صَدْرَهُ لِلإِسْلاَمِ وَمَن يُرِدْ أَن يُضِلَّهُ يَجْعَلْ صَدْرَهُ ضَيِّقًا حَرَجًا كَأَنَّمَا يَصَّعَّدُ فِي السَّمَاء كَذَلِكَ يَجْعَلُ اللّهُ الرِّجْسَ عَلَى الَّذِينَ لاَ يُؤْمِنُونَ﴾

**“Allah hidayət etmək istədiyi kəsin sinəsini İslam (İslam qəbulu) üçün genişləndirər. Hər kəsi (alçaq xislətinə görə) azdırmaq istəsə, sinəsini (iman üçün) bərkidir. O, sanki əzab-əziyyətlə göyə qalxar. Allah bu sayaq çirkinliyi iman gətirməyənlər üçün qərar verir.”**

## *Nöqtələr*

◘Allahın rəsulu buyurmuşdur: “Şərhe-sədr”, yəni geniş qəlb nişanəsi bir neçə şeydir: diqqət və axirətə doğru təvazökar meyl, hiyləgər dünyadan uzaqlıq, fürsət

əldən çıxmamış ölümə hazırlıq.[1] İmam Səccad (ə) öz növbəsində Ramazan ayının iyirmi yeddinci gecəsində bu istəklərin əks olunduğu duanı oxumuşdur.[2]

◘İlahi hidayət və zəlalət dedikdə hidayət səbəblərinin ləyaqətlilər üçün hazırlanması, ləyaqətsizlər üçün aradan götürülməsi nəzərdə tutulur.

◘"Sədr" dedikdə ruh və qəlb nəzərdə tutulur. "Şərhe-Sədr" haqq və hidayətin qəbulu üçün ruhun ağıl və düşüncə üfüqünün genişləndirilməsidir. Bundan ötrü həvəslərdən və nəfs istəklərindən keçmək lazım gəlir. Şərhe-sədri, yəni genişlənmiş köksü olmayan kəs sanki yuvasından bayıra çıxa bilmir. Şərhe-sədrin nəticəsi dost və haqqı qəbul edən qəlblə müşayiət olunan bəsirət və nuraniyyətdir.

◘Ayədə incə bir elmi məqamla rastlaşırıq. Ayədən aydın olur ki, haqqı qəbul etməyə hazır olmayan kəsin köksü göyə qalxdıqca oksigenin azlığından sıxıntıya düşən kəsin köksü kimidir. Haqqı qəbul etməyənin köksü eynən atmosfer qatlarını yarıb yuxarı qalxan insanın köksü kimi sıxıntıya düçar olur.

◘İmam Riza (ə) buyurmuşdur: "Geniş köksün nişanəsi Allaha təslimçilik, ona əminlik, ilahi vədlərdən sevinc duymaqdır. Dar köksün nişanəsi isə tərəddüd və iztirabdır."[3]

◘Pak qəlb sahibləri üçün geniş qəlb müəyyənləşdirmək, imandan qaçan inadkarları tövfiqdən məhrum etmək ilahi sünnələrdəndir.

◘Həzrət Musaya təbliğ əmr olunanda onun ilkin duası belə oldu: «Ey Rəbbim, köksümü genişləndir.»[4] Amma İslam rəhbəri dua üçün əl açmamış Allah ona geniş köks əta etdi.[5]

## *Bildirişlər*

1. Haqqın qəbulu insandan tutum və daxili hazırlıq tələb edir.
2. Şərhe-sədr ilahi nemətdir.
3. Fitrət və əql yolundan çıxmaq ruh üçün sıxıntı amilidir.
4. Azğınlar zahirdə özlərini xoşbəxt göstərsələr də, əslində böyük sıxıntı içindədirlər.
5. Hövsələsizlik və tutumsuzluq bir növ ruhun çirkinliyidir.
6. Haqqa iman gətirməyən kəs tədricən çirkaba batar.

**126.** ﴿وَهَـٰذَا صِرَاطُ رَبِّكَ مُسْتَقِيمًا قَدْ فَصَّلْنَا الآيَاتِ لِقَوْمٍ يَذَّكَّرُونَ﴾

**"Bu yol sənin Rəbbinin doğru və düz yoludur. Şəksiz, Biz Öz ayələrimizi öyüd götürən qövm üçün müfəssəl bəyan etmişik."**

## *Nöqtələr*

◘Ayədəki "haza", yəni "bu" əvəzliyi ötən ayədə zikr olunmuş "İslam" sözünə işarə ola bilər.

---

[1] "Təfsire-Əl-Mizan".
[2] "Məfatihul-cinan".
[3] "Təfsire-Kənzul-Dəqaiq".
[4] "Taha", 25.
[5] "Şərh", 1.

## *Bildirişlər*

1. Allahın yolundan savay bütün yollar uçuruma aparır.
2. Xatırlatma və diqqəti cəlb etmək üçün təhsil, çeşidlilik və təkrar lazımdır.
3. Allah hamı üçün höccəti, dəlilləri tamamlamışdır. İnsanlar diqqət yetirsələr, haqqın ayə və nişanələri müxtəlif bəyanlarla aydınlaşdırılmışdır.
4. İlahi xatırlatmalara daimi diqqət doğru yola çıxmaq vasitəsidir.

**127.** ﴿لَهُمْ دَارُ السَّلاَمِ عِندَ رَبِّهِمْ وَهُوَ وَلِيُّهُمْ بِمَا كَانُواْ يَعْمَلُونَ﴾

**“Rəbbinin yanında salamatlıq sarayı yalnız onlar üçündür. Allah yerinə yetirdikləri əməllərin mükafatı olaraq onlara qəyyum, arxa və dostdur.”**

## *Bildirişlər*

1. Behiştdə düşmənçilik, rəqabət, həsrət, böhtan, həsəd, kin-küdurət, yalan, qəm-qüssə, hər növ ölüm, xəstəlik və yoxsulluqdan əsər belə yoxdur.
2. Əmniyyət və salamatçılıqdan da üstün nemət Allahın məxsus lütfünün kölgəsində olmaqdır.
3. Doğru yolda olanların işlərini Allah Öz öhdəsinə götürmüşdür.
4. Yalnız əməl sayəsində ilahi vilayətə çatmaq olar.

**128.** ﴿وَيَوْمَ يَحْشُرُهُمْ جَمِيعًا يَا مَعْشَرَ الْجِنِّ قَدِ اسْتَكْثَرْتُم مِّنَ الإِنسِ وَقَالَ أَوْلِيَآؤُهُم مِّنَ الإِنسِ رَبَّنَا اسْتَمْتَعَ بَعْضُنَا بِبَعْضٍ وَبَلَغْنَا أَجَلَنَا الَّذِي أَجَّلْتَ لَنَا قَالَ النَّارُ مَثْوَاكُمْ خَالِدِينَ فِيهَا إِلاَّ مَا شَاء اللّهُ إِنَّ رَبَّكَ حَكِيمٌ عَلِيمٌ﴾

**“(Xatırlayın,) o gün ki, Allah onların hamısını toplayar, (sonra cinlərə xitab edərək buyurar:) Ey cin qövmü! İnsanlardan xeyli (ardıcıl) tapdınız.” Onların bəşər nəslindən olan dostları deyər: “Pərvərdigara! Biz insanlar və şeytanlar bir-birimizdən bəhrələndik. İndi də bizim üçün müəyyənləşdirdiyin aqibətə çatmışıq.” Allah buyurar: “Yeriniz atəşdir və həmişə onda qalacaqsınız. Yalnız Allah istəsə, (sizdən bir dəstəni bağışlasın,) elə olmaz. Həqiqətən, sənin Rəbbin hikmət sahibi və biləndir.”**

## *Nöqtələr*

◘Ötən ayələrdə şeytanların işlərinə və onların vəsvəsələrinə işarə olundu. Bu ayədə isə şeytanların vəsvəsəsini qəbul edənlərin aqibəti və cəhənnəm haqqında danışılır. Quran buyruğuna görə, şeytan cin nəslindəndir. Xalqı azdıran cin elə şeytanın özüdür.

## *Bildirişlər*

1. Öz işimizin sonunu düşünək. (Hansı ayənin əvvəlində “yovm”, yəni gün sözü işlənirsə, məqsəd belə bir günü xatırlamaqdır.)

2. Cin də insan kimi vəzifəli və azaddır. Ona da xitab olunur, o da məzəmmət edilir, ona da mükafat və ya cəza verilir.

3. Şeytan bir dəstəni azdırmaqla kifayətlənmir. O, çoxlarını yoldan çıxarmışdır.[1]

4. Qiyamət mühakiməsi aşkardır.

5. Azdıran cinin qiyamət məzəmməti qarşısında deməyə sözü yoxdur. Yalnız onun insanlardan olan ardıcılları danışır.

6. İnsanların və cinin bəhrələnməsi qarşılıqlıdır.

7. Qiyamətdə insanlar və cin bir yerdə toplanıb məhşur olar.

8. Şeytanın vəsvəsələrinə ardıcıllıq insanı tədricən onun hakimiyyəti altına salar.

9. Azğınların cəzaları fərqlidir. Odda qalmaq Allahın iradəsindən asılıdır.

10. İlahi məhkəmənin hökmləri elm və hikmətə əsaslanır.

**129.** ﴿وَكَذَلِكَ نُوَلِّي بَعْضَ الظَّالِمِينَ بَعْضًا بِمَا كَانُواْ يَكْسِبُونَ﴾

**“Beləcə bəzi zalımları etdikləri işə görə bəzilərinə hakim edirik. (Cəza olsun deyə.)”**

## *Nöqtələr*

◘127-ci ayədə oxuduq ki, doğru yol seçənlərin qəyyumu yalnız Allahdır. Bu ayədə isə bəzi insanlara onların əməllərinə görə zalımların rəhbər təyin olunduğu xəbər verilir.

◘Rəvayətlərə əsasən, əmr be məruf və nəhy əz münkəri tərk edənlərin, xüms və zəkat ödəməyənlərin, zalımlara kömək göstərənlərin cəzaları zalımların onlara hakim qərar verilməsidir.[2] Hədisdə oxuyuruq: “Əgər Allah bir qövmün işindən razı olsa, onların işini yaxşılara tapşırar. Əgər narazı olsa, onların işinə pislər rəhbərlik edər.”[3]

## *Bildirişlər*

1. Şeytanlar insanlara hakim olduğu kimi, bəzi zalımlar da insanlara eyni cür hakim olur.

2. Haramdan istifadə zalım hakimlərin batil hökuməti üçün zəmindir.

3. Təkcə hakimlər zalım deyil. Həm də qorxaq, səsini çıxarmayan, əyyaş məhkumlar da zalımdırlar.

4. Zalımların hakimiyyətə çatmasının səbəbi xalqın rəftarıdır.

**130.** ﴿يَا مَعْشَرَ الْجِنِّ وَالإِنسِ أَلَمْ يَأْتِكُمْ رُسُلٌ مِّنكُمْ يَقُصُّونَ عَلَيْكُمْ آيَاتِي وَيُنذِرُونَكُمْ لِقَاء يَوْمِكُمْ هَذَا قَالُواْ شَهِدْنَا عَلَى أَنفُسِنَا وَغَرَّتْهُمُ الْحَيَاةُ الدُّنْيَا وَشَهِدُواْ عَلَى أَنفُسِهِمْ أَنَّهُمْ كَانُواْ كَافِرِينَ﴾

**“(Qiyamətdə onlara deyilər:) «Ey cin və ins (insan) qövmü! Ayələrimizi sizə oxumaq və sizi bu günkü görüşlə qorxutmaq üçün özünüzdən olan peyğəmbərlər**

---

[1] “Yasin”, 62.

[2] “Təfsire-Ətyəbul-bəyan”.

[3] “Təfsire-Kəşful-əsrar.

**göndərmədikmi?» Deyərlər: "Biz özümüzə qarşı şəhadət veririk." Dünya həyatı onları aldatdı və özlərinə şahid durdular ki, kafir olmuşlar."**

## *Nöqtələr*

◘Quran ayələrindən məlum olur ki, həzrət Məhəmməd (s) həm də cinlər üçün göndərilmişdi. Onlar da Quranı anlayır və bəziləri iman gətirirdilər.[1] Bəzi təfsirçilərin nəzərincə (Alusi, Qurtubi, Təbərsi, Seyyid Qütb), cinlərin peyğəmbərləri vəhyi insanların peyğəmbərləri vasitəsi ilə əldə edirdilər. Çünki «rəsul» sözü insandan qeyrisinə də deyilə bilər.[2]

◘Bu ayədə kafirlərin iki etirafı bəyan olunur. Bunlardan biri peyğəmbərlərin gəlişinin etirafı, ikincisi onların öz küfrlərinin etirafıdır.

◘Qiyamətdə müxtəlif dayanacaqlar var. Bəzi məqamlarda kafirlər öz küfrlərini inkar edir,[3] bəzi məqamlarda isə qiyamətin qaçılmaz olduğunu anlayıb günahlarını etiraf edirlər.

## *Bildirişlər*

1. Cin və ins (insan) hər ikisi peyğəmbərlərin dəvətini qəbul etməyə vəzifəlidirlər. Peyğəmbərlər hər iki nəsil üçün gəlmişlər.
2. Qorxutma ən güclü tərbiyə vasitəsi və peyğəmbərlərin mühüm vəzifəsidir.
3. Fərd və cəmiyyətin islahı üçün ilahi hökmlərin icrasında ən güclü amil məada imandır.
4. Qiyamət ört-basdır etmə və ya inkar yeri deyil. Ona görə də insanlar orada öz əleyhlərinə şəhadət verirlər.
5. Dünyapərəstlik peyğəmbərlərin dəvətinə diqqətsizlik, etinasızlıq amilidir. (Dünyaya aldanmaq axirətin yaddan çıxmasına səbəb olur.)
6. Dünyaya ifrat surətdə bağlılıq insanı küfrə çəkir.

**131.** ﴿ذَلِكَ أَن لَّمْ يَكُن رَّبُّكَ مُهْلِكَ الْقُرَى بِظُلْمٍ وَأَهْلُهَا غَافِلُونَ﴾

**"Bu, (höccətin tamamlanması və xəbərdarlıq) onun üçündür ki, sənin Rəbbin heç vaxt zülm olaraq əhalisi qəflətdə olan abadlıqları məhv etmir. (Allah əvvəlcə xalqı qəflət və cəhalət girdabından çıxarır, peyğəmbərlərin vasitəsi ilə onlara xəbərdarlıq edir, sonra qəbul etməyənləri cəzalandırır)."**

## *Nöqtələr*

◘İlahi sünnəyə əsasən, doğru yol peyğəmbərlər vasitəsi ilə xalqa göstərilir. Həqiqətlər bəyan olunur, höccət və dəlillər tamamlanır. Bu halda etinasızlıq baş versə, cəza nazil olur. Bu qanun və sünnə Quranın müxtəlif ayələrində bəyan olunmuşdur.[4]

---

[1] "Cin", 1; "Əhqaf", 28.
[2] "Həcc", 75.
[3] "Ənam", 23.
[4] "Şüəra", 208; "İsra", 15»

## *Bildirişlər*

1. Günahkarı cəzalandırmaq Allahın rübubiyyət şənidir.
2. Xəbərdarlıq etmədən cəzalandırmaq zülm və qəbahətdir.

**132.** ﴿وَلِكُلٍّ دَرَجَاتٌ مِّمَّا عَمِلُواْ وَمَا رَبُّكَ بِغَافِلٍ عَمَّا يَعْمَلُونَ﴾

**“Hər kəs üçün gördüyü işə görə dərəcələr var. Sənin Rəbbin görülən işlərdən qəflətdə deyil.”**

## *Nöqtələr*

◘Bu ayədə “dərəcələr” dedikdə inkişaf yox, süqut dərəcələri nəzərdə tutulur.

## *Bildirişlər*

1. Allah ədalətlidir və hər kəsin mərtəbəsini onun əməlinə uyğun qərar verir.
2. İnsanın xoşbəxtlik və ya bədbəxtçiliyi onun əməllərindən asılıdır.
3. İnsan daim Allahın nəzarəti altında olduğundan diqqətli olmalıdır.

**133.** ﴿وَرَبُّكَ الْغَنِيُّ ذُو الرَّحْمَةِ إِن يَشَأْ يُذْهِبْكُمْ وَيَسْتَخْلِفْ مِن بَعْدِكُم مَّا يَشَاء كَمَآ أَنشَأَكُم مِّن ذُرِّيَّةِ قَوْمٍ آخَرِينَ﴾

**“Sənin Rəbbin ehtiyacsızdır və rəhmət sahibidir. Əgər istəsə, sizi aparar və sizdən sonra istədiyini gətirər. Necə ki, sizi digər bir qövmün nəslindən yaratdı.”**

**134.** ﴿إِنَّ مَا تُوعَدُونَ لآتٍ وَمَا أَنتُم بِمُعْجِزِينَ﴾

**“Həqiqətən, nə vəd edilibsə, o da olasıdır. Siz (Allahı) zəiflədə bilməzsiniz. (Onun cəza və ədalətindən qaça bilməzsiniz).”**

## *Bildirişlər*

1. Yalnız Allah mütləq surətdə ehtiyacsızdır. Deməli, heç vaxt özümüzü ehtiyacsız saymamalıyıq. Digər bir ayədə buyurulur: “Ey xalq! Hamınız Allaha ehtiyaclısınız, yalnız Odur ehtiyacsız və həmd olunan.”[1]
2. Günahkarlar elə bu dünyada da qorxmalıdırlar. Çünki Allahın qüdrəti ilə onların məhvi çox asandır.
3. Zülmün kökü ötən iki ayəyə əsasən ya ehtiyacdır, ya da qəlbidaşlıq. Allahda bu sifətlərin heç biri yoxdur.
4. Ehtiyacsızlıq və rəhmət mürəbbiliyin şərtidir.
5. Bəşər cəmiyyətinin davamı Allahın iradəsindən asılıdır.
6. İnsan nəslinin olub-olmamasının Allaha xeyir-zərəri yoxdur.
7. Allah bizim ibadətlərimizdən ehtiyacsızdır. İbadi göstərişlər insanın öz inkişafı üçündür.

---

[1] “Fatir”, 15.

8. Allahın rəhməti əhatəlidir. Amma bəzən bəşər işi bir yerə çatdırır ki, Allah hamını məhv edir.

9. İlahi vədlər zarafat yox, qəti gerçəkləşəsi həqiqətdir.

10. Qiyamətdə günahkar kəs ilahi qüdrətə qarşı çıxa bilməz.

**135.** ﴿قُلْ يَا قَوْمِ اعْمَلُواْ عَلَى مَكَانَتِكُمْ إِنِّي عَامِلٌ فَسَوْفَ تَعْلَمُونَ مَن تَكُونُ لَهُ عَاقِبَةُ الدِّارِ إِنَّهُ لاَ يُفْلِحُ الظَّالِمُونَ﴾

**“De ki, ey mənim qövmüm! Öz yerinizə və yolunuza əməl edin ki, mən də (öz yolum əsasında) əməl edim. Tezliklə biləcəksiniz ki, nəhayət o saray kimindir. Həqiqətən, zalımlar nicat tapmaz.”**

## *Bildirişlər*

1. İslam peyğəmbəri tutduğu yolun doğruluğuna əmin olduğundan ona əmr olunmuşdur ki, rəftarlarında öz qətiyyətini başqalarına elan etsin.
2. Xalqın boyun qaçırması peyğəmbərlərin vəzifəsini dəyişmir.
3. Xalqın taleyi onların öz əməllərindən asılıdır.
4. Müvəffəqiyyət meyarı ötəri görüntülər və səylər yox, gözəl sonluqdur.
5. Zalım nicat tapmaz.
6. Allah və peyğəmbər yolundan üz döndərmək zülmdür.

**136.** ﴿وَجَعَلُواْ لِلّهِ مِمِّا ذَرَأَ مِنَ الْحَرْثِ وَالأَنْعَامِ نَصِيبًا فَقَالُواْ هَذَا لِلّهِ بِزَعْمِهِمْ وَهَذَا لِشُرَكَآئِنَا فَمَا كَانَ لِشُرَكَآئِهِمْ فَلاَ يَصِلُ إِلَى اللّهِ وَمَا كَانَ لِلّهِ فَهُوَ يَصِلُ إِلَى شُرَكَآئِهِمْ سَاء مَا يَحْكُمُونَ﴾

**“(Bütpərəstlər) Allahın yaratdığı əkin və mal-qaradan Allah üçün pay ayırırdılar və öz gümanlarına əsasən deyirdilər: “Bu, Allahın payıdır, bu isə bizim şəriklərimizin (bütlərin). Şəriklərə və bütlərə ayrılmış paydan Allaha çatmır. Amma Allahın nə payı varsa şəriklərə ondan çatır.” Necə də pisdir onların mühakimələri!”**

## *Nöqtələr*

◘Peyğəmbərlərin tərbiyə yolundan çıxıb, xəyal aləminə qapılanların sözləri və qərarları da xəyali və məntiqsizdir. Onlar özlərini hər şeyin sahibi bilir, pay bölüşdürürlər. Bir dəfə oğlanları öz payları, qızları Allahın payı sayırlar.[1] Bəzən də məhsul və mal-qaranı Allahla bütlər arasında bölürlər. Müşriklər elə düşünürlər ki, bütlərin payı toxunulmazdır. Bu payı bütxana və onun xidmətinə xərcləyirdilər. Allahın payını isə «Allah ehtiyacsızdır» deyə bütxanaya xərcləməkdən çəkinmirdilər. Onlar bu payı körpələrə, yoxsullara və qonaqlara xərcləmək barədə düşünmürdülər.

## *Bildirişlər*

1. Əkinçilik və heyvandarlıqda insanın rolu olsa da, amma bu işə bərəkət verən əsil xaliq Allahdır.[2]

---

[1] “Nəcm”, 21.
[2] “Vaqiə”, 64.

2. Zəkat qanunu, qazancın bölünməsi xurafat şəklində olsa da, qədim dinlərdə də nəzərdə tutulmuşdur.

3. Müşriklər bütləri Allahın şəriki bilsələr də, Allahın xüsusi bir mövqeyə, izzətə, var-dövlətə malik olduğunu bildirirdilər. Onlar itkilərini Allahın payından çıxır və deyirdilər: “O, ehtiyacsızdır.”

4. Peyğəmbərlərin risaləti xurafatla mübarizədən ibarətdir.

137. ﴿وَكَذَٰلِكَ زَيَّنَ لِكَثِيرٍ مِّنَ الْمُشْرِكِينَ قَتْلَ أَوْلَادِهِمْ شُرَكَآؤُهُمْ لِيُرْدُوهُمْ وَلِيَلْبِسُواْ عَلَيْهِمْ دِينَهُمْ
وَلَوْ شَاءَ اللّهُ مَا فَعَلُوهُ فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ﴾

**“Beləcə, (bütlər və onların xadimləri,) onların şərikləri övladın öldürülməsini bir çox müşriklər üçün (bütlərə qurbanlıq adı ilə) gözəl göstərdilər ki, onları məhvə sürükləyib, ayinlərini çətinləşdirsinlər. Əgər Allah istəsəydi, belə etməzdilər. (Onların qarşısını məcburi şəkildə alardı.) Onları toxuduqları yalanlarla birgə boşla.”**

## *Nöqtələr*

◘Ətin və mal-qaranın Allahla Onun büt şərikləri arasında bölünməsi müşriklərə gözəl göründüyü kimi, bütlərin yolunda övladları şeytanın vəsvəsəsi ilə öldürmələri də gözəl cilvələnmişdi.

◘“Yurduhum” sözü həlak etmək mənasını bildirir.

◘Müşriklər ya qızı əskik sayıb diri-diri torpağa basdırır,[1] ya da ona xərc çəkmək imkanları olmadığını bəhanə gətirib qətlə yetirirdilər.[2] Bəzən də bunu bir növ bütlərə yaxınlıq sayırdılar. Bütün bunlar bir növ təlqin idi.

## *Bildirişlər*

1. Xurafat insanı elə bir hala salır ki, öz övladını ağac və daş bütə qurban kəsir və bununla iftixar edir.

2. Günahkarlar öz vicdanlarını sakitləşdirmək üçün hətta övladlarının qətlə yetirilməsinə də bir don geyindirirlər.

3. Tənqiddə insafı gözləyək. Hamını eyni bilməyək.

4. Günaha don geyindirmək və çirkin işləri bəzəmək fəlakət və süqut amilidir.

5. Xurafata meyl dinin saxtalaşdırılması səbəbidir.

6. Peyğəmbər məcbur etməyə yox, bəyan etməyə məsuldur. Əgər bir dəstə onu eşitmirsə, o başqa bir dəstənin sorağına gedir.

7. Günahkarların düşüncə və rəftarı haqpərəstləri süstləşdirməməlidir.

8. Allaha şərik qoşmaq Ona qarşı iftiradır.

---

[1] “Nəhl”, 59.

[2] “İsra”, 31.

**138.** ﴿وَقَالُواْ هَذِهِ أَنْعَامٌ وَحَرْثٌ حِجْرٌ لاَّ يَطْعَمُهَا إِلاَّ مَن نَّشَاء بِزَعْمِهِمْ وَأَنْعَامٌ حُرِّمَتْ ظُهُورُهَا
وَأَنْعَامٌ لاَّ يَذْكُرُونَ اسْمَ اللّهِ عَلَيْهَا افْتِرَاء عَلَيْهِ سَيَجْزِيهِم بِمَا كَانُواْ يَفْتَرُونَ﴾

**“Müşriklər (öz düşüncələri ilə) dedilər: “Bu mal-qara və əkinlər qadağandır. Və bizim istədiklərimizdən (bütxana xadimlərindən) başqaları ondan yeməsin. Bunlar minik üçün haram olmuş heyvanlardır. Bir heyvanlardır ki, onlar üçün (zibh zamanı) Allahın adı çəkilməz.” (Bu hökmləri) yalandan Allaha aid etdilər. Allah tezliklə onları iftiralarının əvəzi olaraq cəzalandıracaq.”**

## *Nöqtələr*

◘“Hicr” qadağa mənasını bildirir. “Hicarə” və “təhcir” isə elə bir məntəqədir ki, başqalarının ora daxil olması üçün daşlarla maneə yaradılmışdır. “Hicre-İsmail” elə bir yerdir ki, daş divarla ətrafdan ayrılmışdır. Ağıl da “hicr” adlanır. Çünki ağıl insanı çirkinliklərdən uzaq saxlayır.[1]

◘Ötən iki ayədə əkin və heyvanlardan Allaha və bütlərə ayrılmış payla bağlı müşriklərin xurafi əqidələri bəyan olundu. Bu ayədə isə bütlərin payının necə sərf olunmasından danışılır. Həmin paydan bütxana xidmətçilərindən savay kimsə istifadə edə bilməz.

◘Bu ayəyə əsasən müşriklər dörd baxımdan yollarını azmışdılar: Bəzi dördayaqlıların haram sayılması; bəzi əkin məhsullarının haram sayılması; bəzi dördayaqlılara süvar olmanın qadağan edilməsi; heyvanları kəsərkən Allahın adının çəkilməməsi.

◘Quran bildirir ki, Allah dördayaqlıları onlara süvar olmaq və ətindən istifadə etmək üçün yaratmışdır.[2] Quran əti halal olan heyvanların haram sayılmasını cahil bir bidət kimi tanıtdırır. Bu məsələ “Maidə” surəsinin 103-cü ayəsində də bəyan olunmuşdur.

◘İslam hətta heyvanlara münasibətdə azğınlıqları qəbul etməyən hərtərəfli bir dindir. Əgər İslam dini heyvanlardan istifadənin qadağasını qəbul etmirsə, təbii ki, insanların, təbii sərvətlərin sərmayə və istedadların istifadəsiz saxlanmasını daha ciddi məzəmmət edəsidir.

## *Bildirişlər*

1. Dinin hökmləri zənn-güman, xəyal, qiyas, bəyənməyə yox, Allahın nəzərlərinə əsaslanır.
2. Peyğəmbərlərin əsas vəzifələrindən biri xurafatla mübarizədir.
3. Halalların qadağası, haramların halal sayılması Allaha iftiradır.
4. Bidətçilər öz uydurma qanunlarının cəzası intizarında olsunlar.

---

[1] “Fəcr”, 5.
[2] “Ğafir”, 79.

139. ﴿وَقَالُواْ مَا فِي بُطُونِ هَـذِهِ الأَنْعَامِ خَالِصَةٌ لِّذُكُورِنَا وَمُحَرَّمٌ عَلَى أَزْوَاجِنَا وَإِن يَكُن مَّيْتَةً فَهُمْ
فِيهِ شُرَكَاء سَيَجْزِيهِمْ وَصْفَهُمْ إِنَّهُ حِكِيمٌ عَلِيمٌ﴾

**“(Müşriklərin xurafi əqidələrindən bir başqası bu idi ki,) dedilər: “(Bütlərə nəzir olunmuş) dördayaqlıların qarnındakı balalar (əgər dünyaya sağ gəlsələr) bizim qadınlara haramdır, kişilərə məxsusdur. Əgər dünyaya ölü gəlsə, hamı ona şərikdir. Allah onları bu cür batil iddialarına görə tezliklə cəzalandıracaq. Həqiqətən, O, hikmət sahibi və biləndir.”**

## *Nöqtələr*

◘Cahiliyyət dövrünün xurafatı ilə tanışlıq insanların hidayəti yolunda həzrət Peyğəmbərin (s) çəkdiyi zəhmətlərdən danışır və insanlarda qədirbilmə ruhunu dirçəldib çiçəkləndirir.

## *Bildirişlər*

1. Qadın və kişi arasındakı əsassız ayrıseçkilik cahilanə və qəbulolunmaz bir əməldir.
2. Cahiliyyət dövründə qadın o qədər alçaldılırdı ki, bəzən ona ölü heyvanın ətindən pay ayırılırdı.
3. Allahın cəzası Onun elm və hikmətinə əsaslanır.

140. ﴿قَدْ خَسِرَ الَّذِينَ قَتَلُواْ أَوْلاَدَهُمْ سَفَهًا بِغَيْرِ عِلْمٍ وَحَرَّمُواْ مَا رَزَقَهُمُ اللّهُ افْتِرَاء عَلَى اللّهِ قَدْ
ضَلُّواْ وَمَا كَانُواْ مُهْتَدِينَ﴾

**“Şübhəsiz, övladlarını səfehcəsinə, cəhalət üzündən öldürənlər ziyan etdilər. Allahın onlara ruzi verdiyini iftira ilə haram etdilər. Onlar yollarını azdılar, doğru yolu tapa bilmədilər.”**

## *Nöqtələr*

◘İbn-Abbas ilkin İslam dövrü böyüklərinin dilindən nəql edir: “Cəhalət dövründə qövmlərin cəhalət dərəcəsini bilmək istəyənlər müşriklərin xurafat və əsassız etiqadlarını bəyan edən “Ənam” surəsinin bu ayələrini oxusunlar.”[1]

◘Ərəb cahilləri bütlərə yaxınlaşmaq gümanı və ya abırlarını qorumaq üçün öz qızlarını gah bütlərə qurban verir, gah da diri-diri basdırırdılar.

## *Bildirişlər*

1. Cəhalət və səfehlik zərər gətirir. (Övladı əldən vermək, insanlıq hisslərini alçaltmaq, halal nemətləri harama çıxarmaq, cəhənnəm və ilahi cəza qazanmaq belə zərərlərdəndir.)
2. Əsil zərər insanın batil yolda fəda olmasıdır. (İstər bütlərə qurbanlıq, istərsə də yersiz qeyrət həmin fədakarlıqlardandır.)

[1] “Təfsire-Nümunə”.

3. Halal nemətləri əsassız olaraq harama çıxarmaq Allaha iftiradır.

4. İstənilən bir işin yerinə yetirilməsi və ya bir şeyin qadağan edilməsi ya şəri, ya da əqli dəlil tələb edir.

5. Xurafatla sərt şəkildə rəftar edək.

**141.** ﴿وَهُوَ الَّذِي أَنشَأَ جَنَّاتٍ مَّعْرُوشَاتٍ وَغَيْرَ مَعْرُوشَاتٍ وَالنَّخْلَ وَالزَّرْعَ مُخْتَلِفًا أُكُلُهُ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُتَشَابِهًا وَغَيْرَ مُتَشَابِهٍ كُلُواْ مِن ثَمَرِهِ إِذَا أَثْمَرَ وَآتُواْ حَقَّهُ يَوْمَ حَصَادِهِ وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ﴾

**“Dayaqlı və dayaqsız bağları, xurma ağaclarını, müxtəlif qidaları olan əkinləri, bəziləri oxşar, bəziləri oxşar olmayan zeytun və narı vücuda gətirən kəs Odur. Bağlar səmərə verən kimi meyvəsindən yeyin, yığım günü (məhrumlara) onun haqqını verin və israf etməyin. Çünki Allah israf edənləri sevməz.”**

## *Nöqtələr*

◘“Cənnat” çoxağaclı bağlar və əkinlə örtülü torpaqlardır. “Məruş” dayağa ehtiyacı olan ağacdır. “Ukul” yeməli mənasını bildirir.

◘Uyğun surənin 99-cu ayəsində oxuyuruq: “Ağaclar bar verəndə ona diqqətlə baxın.” Bu ayədə oxuyuruq: “...Elə ki bar verdi, ondan yeyin.” Belə bir nəticəyə gəlmək olar ki, insan kor-koranə yeməməli, yeyərkən düşünməlidir.

◘İmam Baqir (ə) bu ayəni oxuduqdan sonra buyurdu: “Bir şəxs bağının bütün məhsulunu sədəqə verirdi və ailəsi ehtiyac içində yaşayırdı. Allah onun bu əməlini israf adlandırdı.”[1]

◘Bu ayə allahşünaslıq dərsini nemətlərdən məsrəf icazəsi, məhrum təbəqəyə əl tutmaq, onlara infaq, orta həddi gözləmək və ifrata varmamaqla yanaşı bəyan edir.[2]

◘İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: “Əgər müsəlman tapılmasa, məhsulun haqqını fəqir müşrikə ödəyin.”[3] Digər rəvayətdə buyurulur: “Məhsulun haqqı zəkatdan fərqli bir haqdır.”[4]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Meyvəni gecə yığmayın. Məhsulu gündüz yığın ki, fəqirlər də gəlib bir şey götürə bilsinlər.”[5]

“Nun vəl-qələm” surəsində oxuyuruq ki, Allah başqalarının görməməsi üçün məhsulu gecə yığanların bağını yandırar.”

## *Bildirişlər*

1. Eyni torpaq və sudan çeşidli meyvələrin və əkin məhsullarının götürülməsi Allahın qüdrət nişanəsidir.

2. Allah məhsullarda Özü üçün haqq müəyyənləşdirmişdir.

---

[1] “Təfsire-Nurus-Səqəleyn”.
[2] “Furqan”, 67.
[3] “Bihar”, c. 93, s. 96.
[4] “Bürhan”, c. 1, s. 557.
[5] “Kafi”, c. 3, s. 565.

(Bəli nur, hava, su, torpaq, güc, düşüncə, istedad hər biri Allahdandır və Onun hər şeydə haqqı var.)

3. İnfaq edərkən orta həddi gözləyin.

4. İslam orta dindir. Həm yersiz qadağanı qəbul etmir (ötən ayədə), həm də yersiz məsrəfi.

5. Məhrumların haqqını ödəmək maldan istifadə üçün şərtdir.

6. Məsrəf miqdarı israfın olmaması ilə məhdudlaşır.

7. Məhsul yığarkən məhrumlar haqqında düşünək.

8. Məhsulu elə bir vaxt yığaq ki, başqaları da gəlib ondan bəhrələnə bilsin.

9. Məhsul yığan zaman insanın infaq etməyə hazırlığı daha çox olur. Gəlin bu fürsəti əldən çıxarmayaq.

10. Kal meyvə yeməyin, hər meyvədən istifadə edin.

11. İsrafçı insan Allahın qəzəbinə gəlmişdir.

**142.** ﴿وَمِنَ الأَنْعَامِ حَمُولَةً وَفَرْشًا كُلُواْ مِمَّا رَزَقَكُمُ اللّهُ وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ﴾

**“Dördayaqlılardan bəzisi yük daşıyan, bəzisi yük daşımayan və döşənəcək kimidir. (Yerə yaxındır. Onların yunundan və tükündən xalça üçün istifadə olunur.) Allahın sizə ruzi qərar verdiklərindən yeyin və şeytanın addımlarına tabe olmayın. Çünki o, sizin aşkar düşməninizdir.”**

## *Nöqtələr*

◘Ötən ayədə Allahın nemətlərindən olan əkinçilik məhsullarına işarə olundu. Burada heyvandarlıqdan və onun bəhrələrindən söhbət açılır.

◘«Fərş», «xalça», «döşənəcək» dedikdə qoyun kimi bədəni yerə yaxın olan, döşənəcəyə oxşayan dördayaqlılar nəzərdə tutulur. Onların yunundan və tükündən xalça hazırlanması da nəzərdə tutula bilər.

◘Bir çox təfsirçilər “Həmulə” sözünü yük daşıyan heyvan mənasında qeyd etmişlər. “Fərş” sözü isə yük daşımayan heyvanlar kimi təbir olunmuşdur.

## *Bildirişlər*

1. Varlıq aləmi və onda olanlar insana ramdır.

2. Heyvanlara münasibətdə ümumi qanun, haramlıqlarına dəlil olmadıqda, onların istifadəyə halal olmasıdır.

3. Halal nemətlərin haram olunması şeytani addımlardandır.

4. Bu gün dünyada çox qövmlər arasında rəvac tapmış ət yeməmək və ətdən istifadənin qadağası haramdır və deyilənlərin bir nümunəsidir.

5. İstifadə etdiyimiz qidalara diqqətli olaq. Çünki şeytan Adəmə qarşı ilkin olaraq qidadan istifadə etdi.

6. Allahın süfrəsi arxasında Onun düşməninə itaət etməyək.

7. Şeytanın siyasəti birdəfəyə yox, tədrici azdırmadır.

**143.** ﴿ثَمَانِيَةَ أَزْوَاجٍ مِّنَ الضَّأْنِ اثْنَيْنِ وَمِنَ الْمَعْزِ اثْنَيْنِ قُلْ آلذَّكَرَيْنِ حَرَّمَ أَمِ الأُنثَيَيْنِ أَمَّا اشْتَمَلَتْ
عَلَيْهِ أَرْحَامُ الأُنثَيَيْنِ نَبِّؤُونِي بِعِلْمٍ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“Allah (o heyvanlardan) səkkiz cift yaratdı: (erkək və dişi olmaq üzrə bir cüt qoyun və bir cüt keçi). De ki: «Allah iki erkəyi, yoxsa iki dişini, yaxud da iki (müxtəlif cinsli) dişinin qarınlarındakı balaları haram etdi? Əgər (Allahın nəyi halal, nəyi haram buyurduğu barədəki) iddialarınız doğrudursa, bir biliyə əsaslanaraq (bu haqda) mənə xəbər verin!»”**

**144.** ﴿وَمِنَ الإِبْلِ اثْنَيْنِ وَمِنَ الْبَقَرِ اثْنَيْنِ قُلْ آلذَّكَرَيْنِ حَرَّمَ أَمِ الأُنثَيَيْنِ أَمَّا اشْتَمَلَتْ عَلَيْهِ أَرْحَامُ
الأُنثَيَيْنِ أَمْ كُنتُمْ شُهَدَاء إِذْ وَصَّاكُمُ اللّهُ بِهَذَا فَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللّهِ كَذِبًا لِيُضِلَّ النَّاسَ بِغَيْرِ
عِلْمٍ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

**“Dəvədən iki zövc (erkək və dişi), inəkdən iki zövc (erkək və dişi) sizin üçün halal etmişdir.) De ki, Allah bu iki şeyin erkəklərini, yoxsa dişilərini haram etmişdir? Bəlkə qarınlarında olanı? Yoxsa Allahın sizə bu ətləri haram etdiyinə şahid olmusunuz?! Allaha iftira qoşub Onun adından yalan danışandan zalımı kimdir ki, nadanlıq üzündən xalqı azdırsın? Şübhəsiz, Allah zalım qövmü hidayət etməz.”**

## *Nöqtələr*

◘Dişi və erkək həm birlikdə, həm də ayrı-ayrılıqda “zövc” adlandırılır. Bu ayədə onların hər biri ayrılıqda «zövc» adlandırılmışdır. «Səkkiz zövc» dedikdə dörd erkək, dörd dişi nəzərdə tutulur. Onlardan dördünün adı 143-cü, dördünün də adı 144-cü ayədə çəkilir. “Nəcm” surəsinin 46-cı ayəsində də “zövc” kəlməsi işlədilmişdir. Orada da uyğun söz tək hala aiddir.

◘“Zumər” surəsinin 6-cı ayəsində səkkiz erkək və dişi heyvanın yaranışı insanın yaranışı ilə yanaşı bəyan olunmuşdur.

Olsun ki, adı çəkilən heyvanlar məsrəf üçün daha üstün olduğundan məhz onların adı qeyd olunmuşdur (qoyun, keçi, dəvə, inək).

◘Bəzi rəvayətlərdə 16 zövc təbiri qeyd olunmuşdur. Orada uyğun dörd heyvanın həm əhliləşmiş, həm də vəhşi növü nəzərdə tutulur. İmam Hadi (ə) buyurmuşdur: “Gomuş vəhşi inək növüdür.”[1]

## *Bildirişlər*

1. Dini xurafatlardan qorumaq və təmizləmək üçün həqiqi əqidələri imkan daxilində açıq-aşkar bəyan etmək lazımdır.

2. Bir şeyin halal və ya haram olunması barədə fətva və etiqad üçün elm lazımdır.

3. Bir şeyin halal olması üçün dəlil lazım deyil. Qidalar əslən halal olduğundan bir şeyin haram olması üçün dəlilə ehtiyac var.

[1] “Təfsire-Bürhan”, c.1, s. 558.

4. Allaha qarşı iftira ən böyük zülmdür.
5. Allahın adından danışılan yalan xalqın aldanış səbəbidir.
6. İftira insanı hidayətin qəbulundan uzaqlaşdırır.
7. İnamlar və əqidələr ya elm, ya da şəriətə əsaslanmalıdır.

**145.** ﴿قُل لاَّ أَجِدُ فِي مَا أُوْحِيَ إِلَيَّ مُحَرَّمًا عَلَى طَاعِمٍ يَطْعَمُهُ إِلاَّ أَن يَكُونَ مَيْتَةً أَوْ دَمًا مَّسْفُوحًا أَوْ لَحْمَ خِنزِيرٍ فَإِنَّهُ رِجْسٌ أَوْ فِسْقًا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ فَمَنِ اضْطُرَّ غَيْرَ بَاغٍ وَلاَ عَادٍ فَإِنَّ رَبَّكَ غَفُورٌ رَّحِيمٌ﴾

**“De ki, mənə vəhy olanda ölü heyvan, tökülmüş qan, donuz əti və ya günah üzündən, Allahdan qeyrisinin adına kəsilmiş heyvandan savay ki, həqiqətən çirkinlikdir, bir şey yeyən üçün haram görmürəm. Hər kəs (onları yeməyə) çarəsiz və məcbur olsa, həddi aşmamaqla zəruri qədər (yeməyin eybi yoxdur). Həqiqətən, sənin Rəbbin bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘“Məytətən” təkcə öz-özünə ölmüş heyvan deyil. İslam göstərişi əsasında zibh olmamış istənilən bir heyvan ölü və haram hökmündədir.

◘Ölü heyvan və qanın haramlığı Quranda dörd dəfə bəyan olunmuşdur. Bu bəyanatlardan ikisinə Məkkə, ikisinə isə Mədinə surələrində rast gəlirik.[1]

◘“Uhill” “ihlal” sözündən olub ayın əvvəlində səmada ayı görən zaman səsi ucaltmaq mənasını bildirir. Bundan əlavə, hər bir uca səs də “uhill” adlanır. Müşriklər heyvanları kəsərkən bütlərin adını bərkdən çəkərdilər. Ona görə də həmin məqamla bağlı “uhillə” sözü işlədilmişdir.

◘Ayənin birinci hissəsi müşriklərin cahilanə qadağalarına cavabdır. Əslində bu ayədə adı çəkilməmiş bir çox quşlar və heyvanlar da haramdır.

◘İslam baxımından “müztərr”, yəni çıxılmaz vəziyyətə düşmüş kəs o kəsdir ki, özü özünü günah yolla çətin vəziyyətə salmışlar. “Ğəyrə bağin” təbiri yalnız “müztərr” vəziyyətindən çıxmaq üçün zəruri olan miqdara işarədir.

## *Bildirişlər*

1. Hökmlərin bəyanında peyğəmbərin yeganə elm mənbəyi vəhydir.
2. Əsl və ilkin (dəlilsiz qəbul olunan) qanun heyvanların halal olmasıdır.
3. Yalnız ayə və rəvayətlərdə haramlığı bildirilənlər məsuliyyət yaradır. Əgər araşdırmalardan sonra bir şeyin haram olmasına dəlil tapmasaq, deməli halaldır.
4. Yeyib-yeməmək məsələsində peyğəmbər vəhydən göstəriş alırsa, başqaları hansı əsasla nəyisə haram edə bilərlər?
5. Donuz ətinin haram olmasının dəlili onun çirkinliyidir.
6. Qidalanma hökmləri kişi və qadın üçün eynidir. 139-cu ayədə isə bildirilirdi ki, xurafat əqidəsinə əsasən, kişilər üçün halal sayılan bəzi ətlər qadınlar üçün haram sayılırdı.

---

[1] “Ənam”, 145; “Nəhl”, 115; “Bəqərə”, 173; “Maidə”, 3.

7. Qanunda “əhəm” və “mühüm” (əhəmiyyətli və ən əhəmiyyətli) prinsipinə riayət olunmalıdır. İnsanın öz həyatını, canını qoruması haram yeməməkdən daha mühümdür.

8. İslamda çıxılmaz vəziyyət yoxdur. Fövqəladə, sıxıntılı vəziyyət yarandıqda haramdan müəyyən miqdarda istifadə etməyə icazə verilir.

9. İstisna hallarda qanundan sui-istifadə etmək qadağandır. Yalnız məcburi vəziyyətlər əsas götürülür.

10. Heyvan kəsildikdən sonra ətdə qalan qan haram deyil. Amma kəsim zamanı axan qan haramdır.

11.Əgər insan özü özünü çıxılmaz vəziyyətə salmayıbsa, həmin vəziyyətdə haram ətdən istifadə edə bilər. Amma qəsdən özünü çıxılmaz vəziyyətə salan üçün belə deyil.

12. Qanunlarda güzəşt və yüngülləşdirmə ilahi bağışlama və rəhmət göstəricisidir.

**146.** ﴾وَعَلَى الَّذِينَ هَادُواْ حَرَّمْنَا كُلَّ ذِي ظُفُرٍ وَمِنَ الْبَقَرِ وَالْغَنَمِ حَرَّمْنَا عَلَيْهِمْ شُحُومَهُمَا إِلاَّ مَا حَمَلَتْ ظُهُورُهُمَا أَوِ الْحَوَايَا أَوْ مَا اخْتَلَطَ بِعَظْمٍ ذَلِكَ جَزَيْنَاهُم بِبَغْيِهِمْ وِإِنَّا لَصَادِقُونَ﴿

**“Yəhudilərə bütün dırnaqlıları haram etdik. İnək və qoyunun piyini - bellərinə, bağırsaqlarına və sümüklərinə yapışan miqdar istisna olmaqla - yəhudilərə haram buyurduq. Bu onların yol verdiyi zülmə görə Bizim cəzamızdır və Biz həqiqətən doğruçularıq.”**

## *Nöqtələr*

◘Ötən ayədə İslamdakı haramlar, bu ayədə yəhudilər üçün müəyyənləşdirilmiş haramlar haqqında danışıldı. Aydın oldu ki, müşriklərin xurafi əqidələri heç bir səmavi dinlə uyğun deyil.[1]

◘“Zufur” dırnaq deməkdir. Amma bəzi heyvanların (məsələn, atın, dəvənin) çatsız dırnaqları da “zufur” adlanır. Beləcə, dırnağı çatsız dördayaqlılar və quşlar yəhudilərə haram edildi.[2]

◘“Həvaya” qarının daxilindəkilərə deyilir.[3]

◘“Nisa” surəsinin 160-cı ayəsində oxuyuruq: “Bəzi pak şeyləriN yəhudilərə haram olmasının səbəbi onların yol verdiyi zülmlər idi. Yəhudilər də müşriklər kimi bəzi şeyləri özlərinə haram etmişdilər.” Başqa ayələrdə də bu sayaq buyruqlarla rastlaşırıq.[4]

◘Yəhudilərə bəzi şeylər müvəqqəti olaraq haram edilmişdi. Bu haramlar həzrət İsa vasitəsi ilə aradan qaldırıldı.[5]

◘İlahi hökmlər üç növdür: “Əksər hökmlərdə olduğu kimi, məsləhət və ya fəsad əsas götürülən hökmlər; İsmailin qurban kəsilməsi əmri kimi sınaq xarakterli hökmlər; uyğun ayədə nümunəsi ilə rastlaşdığımız ilahi əzab məqsədli hökmlər.

---

[1] “Təfsire-Nümunə”.
[2] “Tövrat”, “Sifre-Laviyan”, f. 11.
[3] “Təfsire-Nümunə”.
[4] “Ali-İmran”, 93.
[5] “Ali-İmran”, 50.

## *Bildirişlər*

1. Bəzən müxaliflərin və düşmənlərin qidalarının məhdudlaşdırılması üçün maneə olmur.

2. İlahi cəza təkcə axirətə yox, həm də dünyaya aiddir.

**147.** ﴿فَإِن كَذَّبُوكَ فَقُل رَّبُّكُمْ ذُو رَحْمَةٍ وَاسِعَةٍ وَلاَ يُرَدُّ بَأْسُهُ عَنِ الْقَوْمِ الْمُجْرِمِينَ﴾

**“(Ey peyğəmbər!) Əgər səni təkzib etdilərsə, de ki, Allahınız geniş rəhmət sahibidir. (Amma) Onun əzabı günahkar qövmdən dəf olmaz.”**

## *Bildirişlər*

1. Rəhbər bəzi insanlardan təkzib və böhtan eşitməyə hazır olmalıdır.

2. Təkzib edənlərlə öncə xeyirxahlıqla rəftar edilməli, əgər təsir olmasa hədələmədən istifadə olunmalıdır.

3. Tərbiyəçi rəhmət dəryası olmalıdır.

4. Qorxu və ümid yanaşı olduqda səmərə verir.

5. İlahi rəhmət qapıları hətta müxaliflərin də üzünə bağlı deyil.

6. Allahın rəhməti Onun qəzəbindən çoxdur.

7. İlahi rəhmətin genişliyi Allahın cəza verməsinə mane olmur. Əlbəttə ki, Allahın cəzası da insanın tərbiyəsi üçündür və ilahi rəhmət və rübubiyyətdən qaynaqlanır.

**148.** ﴿سَيَقُولُ الَّذِينَ أَشْرَكُواْ لَوْ شَاء اللّهُ مَا أَشْرَكْنَا وَلاَ آبَاؤُنَا وَلاَ حَرَّمْنَا مِن شَيْءٍ كَذَلِكَ كَذَّبَ الَّذِينَ مِن قَبْلِهِم حَتَّى ذَاقُواْ بَأْسَنَا قُلْ هَلْ عِندَكُم مِّنْ عِلْمٍ فَتُخْرِجُوهُ لَنَا إِن تَتَّبِعُونَ إِلاَّ الظَّنَّ وَإِنْ أَنتُمْ إَلاَّ تَخْرُصُونَ﴾

**“Şirkə uğrayanlar tezliklə deyəcəklər: “Əgər Allah istəsəydi, nə biz, nə də atalarımız müşrik olmazdıq və heç nəyi özbaşına) haram etməzdik. Onlardan qabaqkılar da (ötən peyğəmbərləri) bu sayaq təkzib etdilər ki, Bizim qəhr və əzabımızı dadsınlar. De ki, bir şey bilirsinizmi? Onu bizə aşkar edin! Siz yalnız zənn-gümana, xəyala tabe olursunuz. Siz yalnız ehtimal edən və yalançılarsınız.”**

## *Nöqtələr*

◘Bu ayədə gələcəklə bağlı qeybi bir xəbər verilir. Bu, müşriklərin gələcəkdəki rəftarları ilə bağlıdır. Bu xəbər gerçəkləşdi və öncədən xəbər verilən həqiqət oldu.[1]

◘“Əgər Allah istəsəydi, biz və atalarımız müşrik olmazdıq” bəhanəsi müşriklər tərəfindən dəfələrlə təkrarlanmışdır.[2]

◘**Sual:** Ayədə müşriklərin dilindən nəql olunur ki, əgər Allah bizim şirkimizə razı deyilsə, nə üçün onun qarşısını almır? Yoxsa bizim şirkimiz Allahın razılığı ilə baş verir?

---

[1] “Nəhl”, 35.

[2] “Nəhl”, 35; “Zuxruf”, 20.

**Cavab:** İstənilən bir insanın gördüyü istənilən bir iş ilahi qüdrət dairəsindən kənarda deyil. Amma Allah hər kəsin öz yolunu azad şəkildə seçməsini istəmişdir. Əgər dövlət bizim mənzilimizə su, işıq və qaz çəkmişsə, bu o demək deyil ki, dövlət onları israf etməyimizə razıdır. Allah insana əql və vəhy əta etmiş, haqq və batil yolu göstərmiş, ona seçim azadlığı vermişdir. Amma iradə və ixtiyar, Allahın xilaf işlərimizə razı olması nişanəsi deyil.

◘Allah insanların məcburi yox, azad şəkildə iman gətirməsini istəyir. Quranda dəfələrlə buyurulur ki, Allah istəsəydi, hamını hidayət edərdi. Hətta peyğəmbərin də xalqı məcburi şəkildə imana gətirməsinə icazə verilmir.

## *Bildirişlər*

1. Din rəhbərləri və alimləri özlərini mümkün irad və bəhanələrə cavab verməyə hazırlamalıdırlar.
2. Peyğəmbərlərin və səmavi kitabların göndərilməsində məqsəd xalqın azad şəkildə müvəhhid, təkallahçı olmasıdır. Deməli, Allahın istəyi ilə bağlı müşriklərin məntiqləri yanlışdır.
3. Günahdan da pis olan şey günaha don geyindirməkdir. Müşriklər öz şirklərinə don geyindirir, onu Allahın iradəsi kimi təqdim edirdilər. (Cəbrilik, yəni insanın gördüyü işlərdə məcbur olmasına iman məsuliyyətdən qaçmaq üçün bir bəhanədir.)
4. Müşriklər öz azğınlıqlarını babalarının tarixi ilə pərdələyirdilər.
5. Cəbrə (məcburiyyətə) əqidə azğınların əsassız bəhanələrindəndir. Azğınların rəhbəri olan şeytan da öz azğınlığını Allahın adına yazırdı.[1]
6. Müxaliflər daim cəbr məsələsi vasitəsi ilə peyğəmbərləri təkzib edirdilər.
7. Quran müxaliflərdən də dəlil istəyir.
8. Tale yazısı bəhanəsi ilə məsuliyyətdən qaçanlar ilahi qəzəb intizarında olsunlar.
9. Cəbr tərəfdarları məntiqə əsaslanmırlar, zənn-gümana uyurlar.
10. Əgər elm və yəqin əvəzinə zənn-gümana qapılsaq yolumuzu azacağıq.

**149.** ﴿قُلْ فَلِلّهِ الْحُجَّةُ الْبَالِغَةُ فَلَوْ شَاء لَهَدَاكُمْ أَجْمَعِينَ﴾

**"De ki, aydın və yetərli dəlil yalnız Allahdandır. Əgər istəsəydi, hamınızı (məcburən) hidayət edərdi."**

## *Nöqtələr*

◘Allah insanda qərar verdiyi tövhid fitrəti ilə, eləcə də, peyğəmbərlərin və əqlin hidayəti vasitəsi ilə höccəti, dəlili xalqa tamamlayıb xeyir və şər yolları, onların xeyir və bəd sonluqlarını bəyan etmişdir. Xataya yol verənlər üçün də tövbə və qayıdış yolu açıq saxlanmışdır. Peyğəmbərlərin aşkar möcüzələri, gözəl şəkildə dəvətləri və möhkəm dəlilləri, eləcə də, dinin fitrət və əqllə uyğun olması xalq üçün höccəti tamamlamışdır, bəhanə yeri qalmamışdır. Bəli, müşriklərin əsassız gümandan savay

[1] "Hicr", 39.

öz şirklərinə bir dəlilləri yoxdur. Onlar Allahdan qeyrisinin yolunu seçməklə xatalara, zəifliklərə, elmi və əqli məhdudiyyətlərə, həvəslərə üz tutmuşlar.

◘Rəvayətdə bildirilir ki, Allah qiyamətdə insana buyurar: “Haqq yolu bilirdin, yoxsa yox?” «Bilirdim» deyənlərdən soruşular ki, nə üçün əməl etmədin? «Bilmirdim» deyənlərdən “nə üçün bilməyə çalışmırdın?” deyə soruşular. Budur Allahın yetərli höccəti.[1]

## *Bildirişlər*

1. Yetərli dəlili, höccəti olan yalnız Allahdır. Ona cavab verməkdə hər birimiz aciz və əliboşuq.
2. Allah yolunda müxaliflər üçün heç bir bəhanə yoxdur. Onlar nə dəlillərdə, nə peyğəmbərlərin sifətində, nə onların dəvət üsulunda nöqsan tapa bilməzlər.
3. Allahın istəyi azad, insanın iradəsinə əsaslanan hidayət, eləcə də, insanın azadlığıdır.
4. Allahın iradəsi dəyişməzdir.

150. ﴿قُلْ هَلُمَّ شُهَدَاءكُمُ الَّذِينَ يَشْهَدُونَ أَنَّ اللّهَ حَرَّمَ هَـذَا فَإِن شَهِدُواْ فَلاَ تَشْهَدْ مَعَهُمْ وَلاَ تَتَّبِعْ أَهْوَاء الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَالَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ وَهُم بِرَبِّهِمْ يَعْدِلُونَ﴾

**“(Ey peyğəmbər! Mal-qara və əkinlərdən bəhrələnməyi boş yerə haram edən kəslərə) de ki, “Allah bunu haram edib” deyən şahidlərinizi gətirin. Əgər şahidlik etsələr, sən onlarla birlikdə şahid durma. Ayələrimizi təkzib edənlərin istəklərinə, axirətə iman gətirməyənlərə, Rəblərinə şərik qoşanlara tabe olma.”**

## *Nöqtələr*

◘İslam məntiq və azadlıq dinidir. Ötən iki ayədə Allah müşriklərdən soruşdu: “Elə bir şey bilirsinizmi ki, Biz onu bilməyək? Burada isə buyurulur: “Əgər sübutunuz varsa, gətirin.”

◘Bu ayədə əvvəlcə buyurulur: “Əgər dəlilləri varsa, gətirsinlər.” Sonra isə belə buyurulur: “Şəhadət versələr də, sən qəbul etmə.” (Çünki sadiqanə deyil.)

◘“İdl” sözündən olan “yədilunə”, yəni tay, oxşar mənasını bildirir. “Bi Rəbbihim yədilunə”, yəni “Allaha şərik, tay, oxşar qərar verirlər.”

## *Bildirişlər*

1. İslam məntiq və dəlil dinidir. Bu din öz müxaliflərindən dəlil istəyir və onları məntiqli müqayisəyə çağırır.
2. Din təbliğatçılarının vəzifələrindən biri bidətlərə qarşı çıxmaqdır.
3. Hər dəlil və şəhadət etibarlı olmur.
4. Diqqətli olaq ki, ictimai şərait bizi çaşdırmasın.(Haqsız dəlillərin təsdiqi haramdır).
5. Bəşər qanunları kafirlərin həvəsindən doğursa, qəbuledilməzdir.

[1] “Təfsire-Nurus-Səqəleyn”.

6. İmanlı insanlar müşriklərin sünnələrinə təqlid etməməlidirlər.

7. Müşriklər Allahı xaliq sayır, amma varlıq aləminin idarəçiliyində Ona şərik qoşurlar.

**151.** ﴿قُلْ تَعَالَوْاْ أَتْلُ مَا حَرَّمَ رَبُّكُمْ عَلَيْكُمْ أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَلاَ تَقْتُلُواْ
أَوْلاَدَكُم مِّنْ إمْلاَقٍ نَّحْنُ نَرْزُقُكُمْ وَإِيَّاهُمْ وَلاَ تَقْرَبُواْ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَلاَ تَقْتُلُواْ
النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ بِالْحَقِّ ذَلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ﴾

**“De ki, gəlin Rəbbinizin sizə haram buyurduqlarını deyim: Bir şeyi Ona şərik qoşmayın, ata-anaya yaxşılıq edin, övladlarınızı yoxsulluq qorxusundan öldürməyin. Sizə və onlara ruzi verən Bizik. İstər aşkar, istər gizli, çirkin işlərə yaxınlaşmayın. Allahın (öldürməyi) haram etdiyi insanı nahaqdan öldürməyin. Allahın sizə tövsiyə etdiyi bunlardır. Olsun ki, düşünəsiniz.”**

## *Nöqtələr*

◘Bu və bundan sonrakı iki ayədə bir neçə əsas məsələyə işarə olunmuşdur. Bu məsələlər səmavi dinlər arasında müştərəkliklə bağlıdır. Tövratda da[1] oxşar göstərişlərlə rastlaşmaq olar.

◘Mədinə başçılarından iki şəxs həzrət Peyğəmbərin (s) hüzuruna gəldi. Həzrət Peyğəmbər (s) bu ayələri oxuduqdan sonra onlar İslamı qəbul edib, təbliğatçı istədilər. Peyğəmbər Müsəb ibn Üməyri onlarla göndərdi və bu gediş Mədinə əhlinin İslamı qəbul etməsində mühüm rol oynadı.

◘Quran dörd ayədə ata-ana haqqında tövsiyələr verir.[2] Bu dörd tövsiyənin hər birində tövhid və şirkdən çəkinmə məsələsinə toxunulur. Belə ki, yaranışda ilkin Allahdır, sonra ata-ana. Bu ayələrdə də əvvəlcə tövhid, sonra valideynə yaxşılıq məsələsi bəyan olunur. Bu ayə haramları sadalayır və valideynə ehsanın tərk olunmasını haram bildirir.

◘Bu ayədəki beş göstəriş bir-birinə o qədər bağlıdır ki, sanki vahid bir göstərişdir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Valideynə ehsan odur ki, onları bizə ağız açmağa vadar edəcək bir iş görməyək.[3]

## *Bildirişlər*

1. İlahi hökmləri xalqa bəyan etmək peyğəmbərlik vəzifələrindəndir.

2. Əksər şey halal olduğundan, halallar sadalanmamış, yalnız haramlar haqqında danışılmışdır.

---

[1] “Sifre xüruc”, b. 20.
[2] “Bəqərə”, 83; “Nisa”, 36; “Ənam”, 151; “İsra”, 23.
[3] “Kafi”, c. 2, s. 157; “Bihar”, c. 71, s. 39.

3. Dindəki haramları müəyyənləşdirən Allahdır. Peyğəmbər heç bir şeyi özbaşına haram etmir.

4. Pis işlərin qadağa səbəbi insanların təkamül və tərbiyəsidir.

5. Şirk fəsadların kökü olduğundan haramlar arasında öndə gəlir.

6. Tövhiddən sonra valideynə ehsan gəlir.

7. Bu ayədəki göstərişlər qadağalardan ibarətdir. Yalnız ata-anaya yaxşılıq əmr kimi bəyan olunur. Yəni nəinki "incitməyin", əksinə "ehsan edin".

8. Yoxsulluq qorxusundan övladı öldürmək və ya abort (siqt) cahilanə əməldir. Əgər Allah ruziyə zamindirsə, nə üçün yoxsulluqdan qorxaq?

9. Həm cəmiyyəti fəsadlardan qorumaq, həm də ruhu çirkinliklərdən təmizləmək lazımdır.

10. Bəzi günahlar o qədər təhlükəlidir ki, onlara yaxın da getmək olmaz.

11. İlahi göstərişlər əql və onun çiçəklənməsinə uyğundur.

**152.** ﴿وَلاَ تَقْرَبُواْ مَالَ الْيَتِيمِ إِلاَّ بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّى يَبْلُغَ أَشُدَّهُ وَأَوْفُواْ الْكَيْلَ وَالْمِيزَانَ بِالْقِسْطِ لاَ نُكَلِّفُ نَفْسًا إِلاَّ وُسْعَهَا وَإِذَا قُلْتُمْ فَاعْدِلُواْ وَلَوْ كَانَ ذَا قُرْبَى وَبِعَهْدِ اللّهِ أَوْفُواْ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ﴾

**"Buluğ həddinə çatanadək yetimin malına yaxınlaşmayın (ondan istifadə etməyin). Yalnız yaxşı məqsəd istisnadır. (Alış-verişdə) peymanə (ölçü qabı) və tərəzidə ədaləti gözləyin. Biz kimsəni gücündən yuxarı vəzifələndirmirik. Danışarkən (istər mühakimə, istər şəhadətdə) ədalətə riayət edin. Hətta qohumunuz (onun ziyanına) olsa belə, Allahla əhd-peymana vəfa qılın. Onlar Allahın sizə tapşırdığı işlərdir. Bəlkə yada salıb, öyüd götürəsiniz."**

## *Nöqtələr*

◘Allah öz işlərini "əhsən" (gözəl) şəkildə yerinə yetirir.[1] Allah bizdən də işlərimizi gözəl şəkildə görməyimizi istəmişdir.[2] İstər məsrəflərdə, istər iqtisadi fəaliyyətlərdə bu prinsipə əməl olunmalıdır.[3] Hətta müxaliflərlə danışarkən də bu göstəriş unudulmamalıdır.[4] Hətta başqalarının sözünü qəbul edərkən də "Əhsən" prinsipi yaddan çıxmamalıdır.[5] Xalqın pisliklərinə ən yaxşı şəkildə cavab verilməlidir.[6] Bəli, bütün bu hallarda "əhsən" kəlməsi işlədilmişdir.

◘Həzrət Şüeybin qövmü alış-verişdə ədaləti gözləməyib əskik satdığı üçün əzaba düçar oldu. Quranda da əskik satmaq üç dəfə qadağan olunmuşdur.

◘"Kəyl" sözü həm peymanə, yəni ölçü qabı, həm də ölçmək mənasını bildirir. "Qist" sözü həm ödənişdə, həm də ölçüdə ədaləti bildirə bilər. Yəni ölçü qabı və tərəzidə nöqsan olmamalıdır. Əlbəttə, hər iki halda nəticə eynidir.

---

[1] "Möminun", 14; "Tin", 4; "Zumər", 23.
[2] "Hud", 7.
[3] "Ənam", 152.
[4] "Nəhl", 125.
[5] "Zumər", 18.
[6] "Möminun", 96.

## *Bildirişlər*

1. Yetimin müdafiəsi olmadığı üçün və malı xətərdə olduğundan ehtiyatlı olaq.

2. Yetimin haqqını qorumaq üçün onların mal-mülkündən ən yaxşı şəkildə istifadə yolunu seçməliyik. İqtisadi biliyi və yetərincə təqvası olanlardan savay kimsə yetimin malına yaxınlaşmamalıdır.

3. Yetimlər yetkinliyə çatıb kifayət qədər təcrübə qazandıqdan sonra onları azad buraxın.

4. İslam cəmiyyətinin iqtisadi nizamı ədalətə əsaslanmalıdır.

5. Əgər ədaləti üstün dərəcədə gözləmək mümkünsüzdürsə, imkan çatan qədər ona riayət edin.

6. Bütün ilahi göstərişlər və əmrlər insanın gücü daxilindədir.

7. Qüdrət olmayan yerdə vəzifə də yoxdur.

8. İslamda vəzifə güc qədərindədir. Gücü çox olanın vəzifəsi də ağırdır.

9. İstər rəftar, istər danışıqda ədaləti gözləmək əsas məsələdir. (Şəhadətdə, vəsiyyətlərdə, mühakimələrdə, tənqidlərdə, sitayişlərdə ədaləti gözləyək.)

10. Allahın peymanlarına vəfalı olaq. “Əhdillah” həm Allahın insanla, həm də insanın Allahla bağladığı peymana şamildir).

11. Qohumluq rabitələrini haqq-ədalətdən üstün tutmayaq.

**153.** ﴿وَأَنَّ هَـٰذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلاَ تَتَّبِعُواْ السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَن سَبِيلِهِ ذَٰلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

**“Bu (göstərişlər) Mənim doğru yolumdur. Ona tabe olun və başqalarının yolunu getməyin ki, sizi Allahın yolundan kənar salsınlar. Bu, Allahın sizə sifarişidir. Bəlkə təqva yolunu tutasınız.”**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbər (s) bu ayənin izahı üçün nümayiş üsulundan istifadə etmişdir. O, mübarək əli ilə yerə bir düz xətt çəkmiş və buyurmuşdur: “Bu, doğru yoldur və o, birdir.” Sonra həzrət həmin xəttin sağından və solundan xətlər çəkmiş və buyurmuşdur: “Onlar isə şeytanın dəvət etdiyi yollardır.”[1] (İki nöqtədən yalnız və yalnız bir düz xətt keçir.)

◘Son üç ayənin axırında üç müxtəlif təbir işlədilmişdir: Şirk, qətl və günahı qadağan edən 151-ci ayənin sonunda “Bəlkə düşünəsiniz” təbiri işlədilmişdir. Yəni bu işlərin çirkinliyini azca düşünməklə qavramaq olar.

Yetimin malının hifzindən, ədaləti gözləməkdən, Allahla əhdə vəfadan danışan 152-ci ayədə “bəlkə xatırlayasınız” təbiri işlədilmişdir. Yəni ədaləti hər insanın fitrəti qəbul edir. Sadəcə xatırlamaq lazımdır.

Bu ayədə də Allahın göstərişlərinə tabeçilikdən danışılır. Ayədə “bəlkə təqva yolunu seçəsiniz” təbiri işlədilmişdir. Yəni təqva itaət yolunda atılan addımdır.

◘Nur bir, zülmət çox olduğu kimi, doğru yol bir, azğın yollar isə çoxdur.

---

[1] “Təfsire-Məraği”.

◘Rəvayətlərdə oxuyuruq ki, doğru yolun görünən nümunəsi həzrət Peyğəmbər (s), məsum imamlardır.[1]

## *Bildirişlər*

1. Bütün ilahi dinlərin əsasını Allah yoluna tabeçilik, Allahdan qeyrilərinin yolundan çəkinmək təşkil edir.

2. İlahi hökmlərə əməl vəhdət səbəbidir. Allahdan qeyrilərinin hökmləri ardınca getmək təfriqə yaradır.

3. Bəlkə də son üç ayənin axırına diqqət yetirdikdə belə bir nəticə əldə edilsin: İnsanın təkamül və kamal mərhələləri düşüncə, xatırlama və təqvadan ibarətdir.

**154.** ﴿ثُمَّ آتَيْنَا مُوسَى الْكِتَابَ تَمَامًا عَلَى الَّذِي أَحْسَنَ وَتَفْصِيلاً لِّكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً لَّعَلَّهُم بِلِقَاء رَبِّهِمْ يُؤْمِنُونَ﴾

**“Sonra Musaya kitab (Tövrat) verdik ki, yaxşı əməl sahibi olan üçün (neməti) tamamlayaq və (bu kitab) bütün məsələləri, hidayət və rəhmət vasitələrini açıqlayan olsun.) Bəlkə xalq öz Rəbbi ilə görüşə iman gətirsin.”**

## *Nöqtələr*

◘Quranla Tövrat arasında bir çox oxşarlıqlar vardır. İncildə moizə, Zəburda duaya istinad edilmişdir. Amma Tövratın Qurana oxşarlığı əsasən qanunlar baxımındandır. Bu baxımdan Tövrata “imam” da deyilmişdir.[2] Bu ayədə Tövrat da rəhmət, hidayət və hər şeyi açıqlayan kimi tanıtdırılmışdır.

## *Bildirişlər*

1. Hər bir səmavi kitab öz dövrünə görə kamildir.

2. Yalnız yaxşı əməl və düşüncə sahibləri səmavi kitabın göstərişlərini və ilahi qanunları üstün tuturlar.

3. Səmavi kitabda insanın təkamülə çatması üçün onun bütün ehtiyacları bəyan olunmuşdur.

4. Səmavi kitab insanın hidayəti və ilahi rəhməti məqsəd daşıyır.

5. Səmavi kitabların və ilahi peyğəmbərlərin bir məqsədi də insanın qiyamətə iman gətirməsidir.

**155.** ﴿وَهَذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ فَاتَّبِعُوهُ وَاتَّقُواْ لَعَلَّكُمْ تُرْحَمُونَ﴾

**“Bu (Quran) mübarək bir kitabdır ki, onu nazil etdik. Ona tabe olub təqva yolunu seçin. Bəlkə rəhmətə çatasınız.”**

**156.** ﴿أَن تَقُولُواْ إِنَّمَا أُنزِلَ الْكِتَابُ عَلَى طَآئِفَتَيْنِ مِن قَبْلِنَا وَإِن كُنَّا عَن دِرَاسَتِهِمْ لَغَافِلِينَ﴾

---

[1] “Təfsire-Nurus-Səqəleyn”.

[2] “Hud”, 17.

**“(Biz onu nazil etdik ki,) deməyəsiniz: səmavi kitab yalnız bizdən əvvəl olmuş iki tayfaya (yəhudi və məsihilərə) nazil olmuşdur və biz onların elmindən xəbərsiz qalmışıq.”**

## *Nöqtələr*

◘“Mübarək” sözü “bərəkət” kökündən olub iki məna daşıyır. Güclü və sabit kök; daimi inkişaf. Quran həm əsas, dəyişməz və möhkəm qanunlara malikdir, həm də zaman ötdükcə onun sirləri üzərindən pərdələr götürülür. Günlər keçdikcə Quran daha çox aydın olur.

◘Ayədəki “ən təqulu” təbiri belə mənalandırılır ki, “deməyəsiniz və bəhanə gətirməyəsiniz.”

◘Ayədəki “dirasət” sözü tilavət və elm mənasını bildirir.

## *Bildirişlər*

1. Quran yalnız nəzəri kitab deyil. Quran səadət kitabıdır və o, insana əməl proqramı təqdim edir.
2. Bəşəriyyətin xoşbəxtliyi iki şeydədir: Haqqa itaət və batildən çəkinmək.
3. Allah höccəti (dəlilləri) xalqa tamamlamışdır.
4. Müsəlmanların təbliğat mexanizmi hər bir ölkə, millət, dil üçün günün səviyyəsində dəqiq proqramlar hazırlamalıdır. Bu yolla höccət tamamlanar, bəhanələr kəsilər. Kimsə deyə bilməz ki, biz haqdan xəbərsiz olmuşuq.

**157.** ﴿أَوْ تَقُولُواْ لَوْ أَنَّا أُنزِلَ عَلَيْنَا الْكِتَابُ لَكُنَّا أَهْدَى مِنْهُمْ فَقَدْ جَاءكُم بَيِّنَةٌ مِّن رَّبِّكُمْ وَهُدًى وَرَحْمَةٌ فَمَنْ أَظْلَمُ مِمَّن كَذَّبَ بِآيَاتِ اللّهِ وَصَدَفَ عَنْهَا سَنَجْزِي الَّذِينَ يَصْدِفُونَ عَنْ آيَاتِنَا سُوءَ الْعَذَابِ بِمَا كَانُواْ يَصْدِفُونَ﴾

**“(Kitabı nazil etdik ki), “əgər səmavi kitab nazil olsaydı, hökmən onlardan (yəhudi və məsihilərdən) daha çox hidayət olardıq” deməyəsiniz. (Bu bəhanələrin qarşısını almaq üçün) şübhəsiz, Rəbbiniz tərəfindən aşkar dəlil, hidayət və rəhmət gəldi. İlahi ayələri təkzib edib ondan üz çevirənlərdən zalımı kimdir? Biz tezliklə ayələrimizdən üz çevirənləri həmin dönüklüklərinə görə ağır əzabla cəzalandıracağıq.”**

## *Nöqtələr*

◘“Yəsdifun” götür-qoy etmədən, düşünmədən bir şeydən sərt şəkildə üz döndərmək mənasını bildirir.

## *Bildirişlər*

1. Məkkə müşrikləri Tövrat və İncil ardıcıllarının doğru yolu tutduğunu etiraf edirdilər. Amma onlar elə hesab edirdilər ki, səmavi kitaba onlar başqalarından daha layiqdirlər.
2. Quranın nazil olması hamı üçün höccəti tamamlayır.

3. Quran Allahın rübubiyyət cilvələrindəndir.

4. Quran hidayət və rəhmət kitabıdır.

5. İmtahana çəkilənədək iddiaçı çox olur. Amma imtahan kimin sədaqətli olub-olmadığını aşkarlayır.

6. Bəşəriyyətə ən böyük zülm səmavi kitabdan üz döndərilməsidir.

7. Həqiqi dindən üz çevirməyin, ilahi ayələrə müxalifətçiliyin cəzası ağır əzabdır.

8. İnsanın bədbəxtçiliklərinin əsas amili onun öz əməlləridir.

158. ﴿هَلْ يَنظُرُونَ إِلاَّ أَن تَأْتِيهُمُ الْمَلآئِكَةُ أَوْ يَأْتِيَ رَبُّكَ أَوْ يَأْتِيَ بَعْضُ آيَاتِ رَبِّكَ يَوْمَ يَأْتِي بَعْضُ آيَاتِ رَبِّكَ لاَ يَنفَعُ نَفْسًا إِيمَانُهَا لَمْ تَكُنْ آمَنَتْ مِن قَبْلُ أَوْ كَسَبَتْ فِي إِيمَانِهَا خَيْرًا قُلِ انتَظِرُواْ إِنَّا مُنتَظِرُونَ﴾

**“Məgər bundan sonra da gözləyirlərmi ki, onların yanına mələklər, Rəblərinin özü, Rəblərinin bəzi ayələri gəlsin?! (Məgər bilmirlərmi,) o gün ki, Rəblərinin bəzi nişanələri gələcək, bundan qabaq iman gətirməyən və ya iman gətirdiyi müddətdə xeyir iş görməyən şəxs iman gətirsə də, faydasız olar?! De ki, (Allahın qəzəbi) intizarında olun ki, biz də intizardayıq.”**

## *Nöqtələr*

◘“İsra” surəsinin 92-ci ayəsində kafirlərin yersiz istəkləri bəyan olunmuşdur. Onlar deyirdilər: “Göyü endirməyincə, Allah və mələkləri yanımıza gətirməyincə, sənə iman gətirmərik.” Onların bu intizarı ayədə rədd olunmuşdur.

## *Bildirişlər*

1. İnadkar kafirlər ilahi möcüzələri görsələr də təslim olmurdular.

2. İmana biganəliyin nəticəsi nakamlıqdır.

3. İman və əməl azad və təbii şəraitdə səmərəlidir. Çıxılmaz vəziyyətə düşüb qorxudan iman gətirmək dəyərsizdir.

4. İman olmayan yerdə saleh əməl faydasızdır.

159. ﴿إِنَّ الَّذِينَ فَرَّقُواْ دِينَهُمْ وَكَانُواْ شِيَعًا لَّسْتَ مِنْهُمْ فِي شَيْءٍ إِنَّمَا أَمْرُهُمْ إِلَى اللّهِ ثُمَّ يُنَبِّئُهُم بِمَا كَانُواْ يَفْعَلُونَ﴾

**“(Ey peyğəmbər,) öz dinini pərakəndə salıb, dəstə-dəstə olanlarla sənin heç bir bağlılığın yoxdur. (Sən onlara məsul deyilsən.) Onların işlərinin sonu yalnız Allaha aiddir. Həmin vaxt Allah onları öz əməllərindən xəbərdar edəcək.”**

## *Nöqtələr*

◘Dində təfriqə salmaq, yəni bidətçilik və dinin insanın öz rəyincə təfsiri Quran və hədislərdə çox ciddi şəkildə qınanmışdır. Bəzi nümunələrə nəzər salaq:

- Quran buyurur: “Vay onların halına ki, öz əlləri ilə bir şeyi yazır, sonra deyirlər ki, bu Allahın tərəfindəndir.”[1]

- Həzrət Əli (ə) buyurmuşdur: “Bidət gələn vaxt sünnət gedər.[2] Peyğəmbər və imamların vəzifələrindən biri bidət və təhrifin qarşısını almaqdır.[3]

- Rəvayətlərdə deyilir: “Bidətçinin tövbəsi qəbul olunmaz.”[4]

- Bidətçiyə hörmət göstərib üzünə gülümsəyən kəs dinin məhvi yolunda addım atmışdır.

- Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Ümmətim arasında ixtilaf düşdüyü vaxt mənim sünnəm və dediklərim əsasında əməl edib, başqalarının ardınca getməyən kəs yüz şəhidin mükafatını alacaq.”[5]

- Quranda yəhudilər dinlərini təhrif etdikləri üçün dəfələrlə tənqid edilmişlər. Həzrət Musa haqqında oxuyuruq: “Həzrət Musa Tur dağından qayıdıb qövmünün azdığını və buzovpərəstliyini gördükdə narahatçılığından Tövrat lövhələrini yerə saldı və canişini olan qardaşının yaxasından tutub dedi: “Nə üçün ümmətim yolunu azdı?” Harun dedi: «Qorxdum ki, azğınlıqlarına qarşı çıxsam, xalq parçalana və sən soruşasan ki, nə üçün insanlar firqə-firqə bölünüb.» (Sənin gəlişin də bu parçalanmanı aradan qaldıra bilməyə).

Bu ayə və rəvayətlər əqidə məktəbinin qorunmasında, düşüncə azğınlıqlarının qarşısının alınmasında, ictimai birliyin qorunmasında dinşünasların ağır məsuliyyətlərini bəyan edir.

## *Bildirişlər*

1. Dini göstərişlər arasında fərq qoymaq olmaz. Onların hər birinə iman gətirib əməl etmək lazımdır.
2. Əqidə məktəbindəki dəyişiklik və təhriflər təfriqə və ayrılıq amillərindəndir.
3. İslam məktəbini kompleks şəkildə qəbul etməyənlərlə həmkarlıq etmək olmaz. Onlar Məhəmməd (s) ümmətindən sayılmayacaqlar. Onlar Allah tərəfindən hədələnmişlər.
4. Dində təfriqə yaratmaq şirkin bir növüdür. “Rum” surəsinin 32-33-cü ayələrində buyurulur: “Müşriklərdən, öz dinlərində təfriqə yaradanlardan olmayın.”

**160.** ﴿مَن جَاء بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا وَمَن جَاء بِالسَّيِّئَةِ فَلاَ يُجْزَى إِلاَّ مِثْلَهَا وَهُمْ لاَ يُظْلَمُونَ﴾

**“Hər kəs yaxşılıq gətirsə, onun üçün (gətirdiyinin) on qat əvəzi var. Hər kəs pislik gətirsə, həmin qədər cəza görəcək. Onlara heç vaxt zülm olunmayacaq.”**

## *Nöqtələr*

◘Ayədəki “caə” sözündən məlum olur ki, haqqında danışılan mükafat və cəza qiyamət mühakiməsinə aiddir. Axı bir çox pisliklər tövbə vasitəsi ilə məhv olur və ya

[1] “Bəqərə”, 79.
[2] “Bihar”, c. 2, s. 264.
[3] “Əl-həyat”, c. 2, s. 344»
[4] “Bihar”, c.72, s.216.
[5] “Bihar”, c. 2, s. 262.

yaxşılığa çevrilir.[1] Həmin pisliklər bağışlana da bilər.[2] Eləcə də, riyakarlıq, xudbinlik, təkəbbür və digər günahlar vasitəsi ilə puça çıxan yaxşılıqlar çoxdur. Deməк, yalnız qiyamət səhnəsinə gəlib çıxan əməl meyardır.

◘Ayə yaxşı və pis əməl haqqında olsa da, rəvayətlərə əsasən, xeyir niyyətin də savabı var. Amma pis niyyət əmələ çevrilməyincə, onun müqabilində cəza verilməz. Bu, ilahi bir fəzldir.

◘Rəvayətdə deyilir: "Hər kəs ayda üç gün oruc tutsa, bütün ayı oruc tutmuş kimidir. Çünki oruc tutulan hər gün on gün hesablanır.

◘On qat mükafat ən az nəzərdə tutulan mükafatdır. Bəzi əməllərin bəzi şəraitlərdə bəzi fərdlər üçün yeddi yüz qat mükafatı olur.

◘On qat ilahi əvəzdən yalnız biri muzddur. Doqquz hissə isə ilahi fəzldir.[3]

◘**Sual:** Əgər günahkarın cəzası onun günahı qədərdirsə, bəs nə üçün bir gün oruc tutmağa görə 60 gün kəffarə orucu tutulur?

**Cavab:** Ayədə "misl" sözü ədəd mənasında deyil. Məqsəd keyfiyyət və necəlikdir. Ramazan ayı orucunun bir günü başqa aylardakı orucun altmış gününə bərabərdir. Necə ki, Qədr gecəsi əhəmiyyət baxımından min aydan üstündür. Ayədəki bəyanda ədəd üstünlüyü yox, əhəmiyyət nəzərdə tutulur.

## *Bildirişlər*

1. İslamın tərbiyə üsulunda təşviq on qat tənbeh kimidir.
2. Təşviq bir neçə qat artıq olsa, zülm olmaz, amma həddi aşmış cəza zülmdür.
3. Allah mükafat verməkdə Öz fəzli ilə rəftar edir. Cəza isə ədalət əsasında verilir.
4. İnsanın əməlləri daim, hər yerdə onunladır.

**161.** ﴿قُلْ إِنَّنِي هَدَانِي رَبِّي إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ دِينًا قِيَمًا مِّلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ﴾

**"De ki, həqiqətən, Rəbbim məni doğru yola, müşriklərdən olmamış İbrahimin haqq ayinindən ibarət möhkəm dinə hidayət edib."**

## *Nöqtələr*

◘"Qiyəm" sözü düzlük, möhkəmlik mənalarını bildirir. Bəli, o din möhkəm və əbədi qalacaq ki, bu dünyanın maddi və mənəvi məsələlərinə və o biri dünyaya diqqət yetirmiş olsun.

◘İmam Hüseyn (ə) buyurmuşdur: "Biz və bizim şiələrdən savay kimsə İbrahim ayinlərinə ardıcıl deyil."[4]

---

[1] "Furqan", 70.
[2] "Maidə", 15.
[3] "Nas". 173.
[4] "Təfsire-Nurus-Səqəleyn".

## *Bildirişlər*

1. Peyğəmbərin (s) buyruqları və təlimləri onun şəxsi baxışı deyil. Bütün bunlar xalqa bəyan olunası ilahi vəhy mətnidir.

2. Doğru yol peyğəmbərin yoludur.

3. Hidayət yalnız Allahın işidir. Peyğəmbərlər də ilahi hidayətlə doğru yolu tapırlar.

4. Hidayət rübubiyyət şənindəndir.

5. İbrahimin yolu şirk qatqılı düşüncələr yox, təkallahçılıqdır. (Müşriklər öz azğın əqidələrini İbrahimə aid edirdilər.)

6. Bütlərin sındırılması və şirkdən üz döndərmə təkcə İslam peyğəmbərinə aid deyil. O, həzrət İbrahimin yolunu gedərək belə etmişdir.

7. Tövhid dinlərinin əsası tarix boyu bir olmuşdur. İslam həzrət İbrahimin ayinidir. Şirkə nifrət bütün peyğəmbərlərin yoludur.

**162.** ﴿قُلْ إِنَّ صَلاَتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلّهِ رَبِّ الْعَالَمِينَ﴾

«De: "Həqiqətən mənim namazım, ibadətlərim, həyatım, ölümüm aləmlərin Rəbbi olan Allah üçündür."»

**163.** ﴿لاَ شَرِيكَ لَهُ وَبِذَلِكَ أُمِرْتُ وَأَنَاْ أَوَّلُ الْمُسْلِمِينَ﴾

**"Onun şəriki yoxdur, Mənə (təslim ruhu, xalislik, bəndəlik) əmr olunmuşdur. Mən ilk müsəlmanam, Rəbbimə təsliməm."**

## *Nöqtələr*

◘Nəql olunur ki, həzrət Peyğəmbər (s) namaz astanasında bu ayələri oxuyardı.[1]

◘Ölüm həyatı, həyat ibadətləri, ibadətlər isə namazı əhatə edir. Ona görə də namaz ibadətlərin mərkəzində özəkdir.

◘İslam ilahi əmrlər qarşısında təslimçilik mənasındadır və bütün peyğəmbərlərin müsəlmançılığı bildirilmişdir. Həzrət Nuh özünü müsəlman saymışdır.[2] Həzrət İbrahim Allahdan istəyir ki, onu və ondan olan nəslini özünə təslim qərar versin.[3] Həzrət Yusif də öz növbəsində Allahdan diləyir ki, müsəlman olaraq ölsün.[4] İslam peyğəmbəri isə ilkin müsəlmandır. Bu, həzrətin həm öz dövründə ilkin müsəlmanlığına, həm də məqamca ilkin müsəlmanlığına işarə ola bilər.

## *Bildirişlər*

1. Azğın yollar müqabilində öz yolunuzu və məqsədinizi qəti şəkildə iftixar duyaraq elan edin.

---

[1] "Təfsire-Qurtubi".
[2] "Yunus", 72.
[3] "Bəqərə", 128.
[4] "Yusuf", 101.

2. Namaz ibadətlərdən biri olsa da, ayrıca zikr olunması onun xüsusi əhəmiyyətini göstərir.

3. Xalis insanlar öz təkvini (ölüm və həyat) və təşrii (namaz və ibadət) yollarını yalnız Allah üçün nəzərdə tuturlar.

4. Namazda Allaha yaxınlıq (qürbət) məqsədində olduğunuz kimi, hər nəfəs çəkdikdə, ölüm və həyatımızda da belə bir məqsəddə qala bilərik.

5. Ölüm və həyat yox, ölüm və həyatdakı məqsəd, onların ilahiliyi mühümdür.

6. Allahın razılığı üçün görülən bütün işlər təkamül səbəbidir.

7. Ölüm və həyat bizim əlimizdə deyil, amma onları istiqamətləndirmək öz əlimizdədir.

8. İşlərdə ixlaslı, səmimi olmaq Allahın göstərişidir.

9. Cəmiyyətin rəhbəri ilahi yolda getməkdə və ilahi göstərişləri həyata keçirməkdə öncül olmalıdır.

**164.** ﴿قُلْ أَغَيْرَ اللّهِ أَبْغِي رَبًّا وَهُوَ رَبُّ كُلِّ شَيْءٍ وَلاَ تَكْسِبُ كُلُّ نَفْسٍ إِلاَّ عَلَيْهَا وَلاَ تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى ثُمَّ إِلَى رَبِّكُم مَّرْجِعُكُمْ فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ فِيهِ تَخْتَلِفُونَ﴾

**“De ki, bir olan Allahdan savay tanrımı axtaraq? Halbuki O hər şeyin Rəbbidir. Hər kəs (pis işi) yalnız öz ziyanına görür. Kimsə başqasının (günah) yükünü çiyninə götürməz. Qayıdışınız sizi ixtilafda olduğunuz şeylərdən agah edən Rəbbinizə doğrudur.”**

## *Nöqtələr*

◘Cəzalandırmada ilahi ədalət və kimsənin başqasının günahına şərik olmaması mövzusu təkcə İslamda yox, İbrahim və Musaya nazil olanlarda da öz əksini tapmışdır.[1]

◘**Sual:** Əgər bir şəxs başqasının günahını çiyninə almırsa, nə üçün Quranda buyurulur ki, azğın rəhbərlər öz ardıcıllarının da günahına cavabdehdirlər?[2]

**Cavab:** Uyğun buyuruq əsassız deyil. Çünki azğın rəhbərlər başqalarını da doğru yoldan ayırır və azdırma günahını öhdələrinə götürürlər.

Zinaya yol vermiş hamilə bir qadını cəzalandırmaq üçün Ömərin yanına gətirirlər. Ömər qadının daş-qalaq edilməsi göstərişini verir. Həzrət Əli (ə) buyurur: “Ananın günahından onun bətnindəki körpəyə nə?” Sonra uyğun ayəni oxuyur.[3]

## *Bildirişlər*

1. Çirkin əməl sahibləri və müşriklərlə rəftarda öz haqq mövqeyimizi qəti şəkildə elan edək.

2. Oyaq vicdan içdən gələn sualları ən yaxşı şəkildə cavablandırandır.

3. Allah bütün varlıq aləminin yeganə Rəbbi olduğu kimi, mənim də Rəbbimdir.

---

[1] “Nəcm”, 37, 38.
[2] “Nəml”, 25.
[3] “Bihar”, c. 76, s. 49.

4. Xalqın küfr və şirki, fitnə-fəsadı Allaha heç bir zərər vurmur və onların özləri üçün təhlükəlidir.

5. Allah qarşısında hər kəs öz əməlinin məsuliyyətini daşıyır.

6. Qiyamətin bərpası və insanların sorğusu ilahi rübubiyyət cilvələrindəndir.

7. Dünyanın da bir sonu var. İnadkarlıq göstərərək inkar etdiklərimizdən bir gün agah olasıyıq.

165. ﴿وَهُوَ الَّذِي جَعَلَكُمْ خَلاَئِفَ الأَرْضِ وَرَفَعَ بَعْضَكُمْ فَوْقَ بَعْضٍ دَرَجَاتٍ لِّيَبْلُوَكُمْ فِي مَا آتَاكُمْ إِنَّ رَبَّكَ سَرِيعُ الْعِقَابِ وَإِنَّهُ لَغَفُورٌ رَّحِيمٌ﴾

**"Odur sizi yer üzünə canişin qərar verən, bəzilərinizin dərəcəsini bəzilərinizin dərəcəsindən üstün buyuran. Bununla sizə verdiklərinə münasibətdə sizi sınayır. Həqiqətən, Rəbbin tez cəzalandırandır. Şübhəsiz ki, O, bağışlayan və mehribandır."**

## *Nöqtələr*

◘"Ənam" surəsi ilahi həmdlə başladı və ilahi rəhmətlə başa çatdı.

◘Yer üzünün canişinləri dedikdə, ya Allahın yer üzündəki canişinləri, ya da bugünkü insanın keçən ümmətlərə canişin olması nəzərdə tutulur.

## *Bildirişlər*

1. İnsan Allahın xəlifəsi, yer üzünün əmiridir. Onu varlığın əsiri saymayın.

2. İnsanlar arasındakı fərqlər və ilahi sınaqlar hikmətə əsaslanır, xalqın inkişaf və tərbiyəsi yolundadır, Allahın rübubiyyətindən qaynaqlanır.

3. Verilən nemətlərin arasındakı fərq kiminsə üstünlüyünü göstərmir, sadəcə, sınaq vasitəsidir.

4. Nəyimiz varsa, onu Allahdan bilək.

5. İnsana verilənlər və onun imkanları, sadəcə, imtahan dərəcəsini göstərir.

6. Sınaq başa çatdıqdan sonra Allah rədd olunmuşlarla tez hesab çəkər, əməli qəbul olunanlarla mərhəmətli davranar.

7. Ümid və qorxu yanaşı olmalıdır.

## Mündəricat

ÖN SÖZ ........................................................................................................4
HƏMKARLAR...............................................................................................4
İMTİYAZLAR...............................................................................................5
AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ ...6
MÜƏLLİFDƏN ..............................................................................................8
“MAİDƏ” SURƏSİ .........................................................................................9
(5-Cİ SURƏ, 120 AYƏ) ..................................................................................9
ALTI, YEDDİNCİ CÜZLƏR ..........................................................................9
“MAİDƏ” SURƏSİNİN SİMASI....................................................................9
YAXŞILIQ VƏ PAKLIQDA YOLDAŞLIQ VƏ YARDIM ..............................11
QURANDA “QƏDİR-XUM”..........................................................................14
İSLAMDA QİDALANMAYA BİR BAXIŞ ......................................................15
YEDDİNCİ CÜZ ...........................................................................................82
“ƏNAM” SURƏSİ.........................................................................................112
(6-CI SURƏ, 165 AYƏ) ................................................................................112
YEDDİ, SƏKKİZİNCİ CÜZLƏR ..................................................................112
“ƏNAM” SURƏSİNİN SİMASI ....................................................................112